AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

R.M.HƏSƏNOV

# SİYASİ SOSİOLOGİYA

(*Ali məktəblər üçün dərs vəsaiti*)

Azərbaycan Respublikası Təhsil Nazirinin 06 dekabr 2010-cu il tarixli 1574 saylı əmri ilə ali məktəblər üçün dərs vəsaiti kimi təsdiq edilmişdir

**Bakı – 2010**

Elmi redaktorlar: fəlsəfə elmləri doktoru, professor
**İ.Ə.Rüstəmov**
fəlsəfə elmləri namizədi, dosent
**F.Q.Vahidov**

Rəyçilər: fəlsəfə elmləri doktoru, professor
**H.İmanov**
fəlsəfə elmləri doktoru, professor
**M.Əliyev**
fəlsəfə elmləri doktoru, professor
**E.Nəcəfov**
fəlsəfə elmləri namizədi, dosent
**Ü.Şəfiyev**

**Həsənov R.M. Siyasi sosiologiya.** Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2010, 208 s.

Dərs vəsaiti bütünlükdə sosiologiya və siyasətlə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Burada əsas diqqət müasir siyasi sosiologiya elminin aktual problemlərinə verilir.

## ÖN SÖZ

Oxuculara təqdim olunan bu dərs vəsaiti siyasi sosiologiyanın bütün problemlərini əhatə etməyi qarşısına məqsəd qoymasa da müəyyən mövzu və məsələlərə diqqəti yönəldir. Bu məqsədlə bu gün siyasi sosiologiyada xüsusi maraq doğuran bir sıra nəzəriyyələr və mövzular işıqlandırılır.

Dərs vəsaiti iki bölmədən ibarətdir. Birinci bölmədə siyasi sosiologiyanın bir sıra nəzəri əsasları işıqlandırılır ki, bura da hakimiyyət, elitalar, liderlik, nüfuz, sinif, status, legitimlik, bürokratiya və s. haqqındakı nəzəriyyələri aid etmək olar. Burada diqqəti çəkən daha bir məqam da siyasi və qeyri-siyasi sistemlərin təhlili, seçkilərin sosiologiyası və sosial dəyişikliyə dair mövzuların oxucuların diqqətinə çatdırılmasıdır. Dərs vəsaitinin ikinci bölməsində isə müasir siyasi sosiologiyanın nəhəngləri sayılan K.Marksın, M.Veberin və T.Parsonsun sosial-siyasi baxışlarının hərtərəfli təhlili verilir.

# BÖLMƏ 1. SIYASI SOSIOLOGIYANIN ƏSASLARI

## FƏSIL I. SIYASI SOSIOLOGIYANIN TƏBIƏTI VƏ ƏHATƏ DAIRƏSI

### 1. Siyasi sosiologiya nədir və nəyi öyrənir?

Siyasi sosiologiya siyasətin sosial konteksti haqqında elmdir. Siyasi sosiologiya sosiologiyanın bir sahəsi olaraq cəmiyyət daxilində və ya cəmiyyətlər arasında hakimiyyətin paylanmasının sosial səbəb və nəticələrini, hakimiyyətin paylanılmasında dəyişikliklərə gətirən sosial və siyasi konfliktləri öyrənir. Seymur Martin Lipset tamamilə haqlı olaraq qeyd edir: "Əgər sosiologiya üçün əsas məsələ cəmiyyətin sabitliyidirsə, siyasi sosiologiya üçün bu - siyasi rejimin ... sabitliyidir"[1]. Buradan da siyasi sosiologiya siyasi və sosial fenomenlər (yaxud dövlətlə vətəndaş cəmiyyəti) arasındakı qarşılıqlı əlaqəni tədqiq edən elm kimi xarakterizə oluna bilər.

Bu elm sahəsinin kökləri qədimlərə gedib çıxsa da (məs., Platon, Aristotel antik dövrdə, Makiavelli, Hobbs Yeni dövrdə və s.) o əsas nəzəri problematikasını XIX əsrin nəhəngləri sayılan Hegel, Marks və Tokvilin, XX əsrin əvvəllərində yaşamış Veber, Mixels və Dürkheymin əsərlərindən götürmüşdür. Bu əsasda siyasi sosiologiyanın bir elm kimi birinci Dünya müharibəsi ərəfəsində yaranmasını göstərmək olar.

[1] Politics: Who gets What, When, How. New York: Meridian Books, 1958, pp.91-92.



Siyasi sosiologiya bu elmin formalaşmasında böyük rol oynamış Reynard Bendiks və Martin Lipsetlə yanaşı Barrinqton Mur, Vilyam Kornhauzer, Robert Leyn və müəyyən dərəcədə bu sahəyə aidiyyatı olan Karl Doyç, Qabriel Almond, Sidney Verba, Harri Ekştayn və Devid Apterin əhəmiyyətli elmi işləri nəticəsində qəti olaraq xüsusi bir elm sahəsinə çevrilə bilmişdir. "Siyasi sosiologiya" termini 1930-cu illərin əvvəllərində bir sıra tədqiqatları ifadə etmək, eləcə də kommunist inqilabları, faşizmin yayılması və ikinci Dünya müharibəsi ilə əlaqədar baş verən sosial və siyasi dəyişiklikləri əks etdirmək üçün qəbul edildi.

### 2. Siyasi sosiologiya, yoxsa siyasətin sosiologiyası?

Siyasi sosiologiya, yoxsa siyasətin sosiologiyası?

"Siyasətin sosiologiyası" və "siyasi sosiologiya" anlayışları ilə bağlı bir sıra suallar meydana çıxır. Bunlar eyni, yoxsa fərqli terminlərdir? Əgər bu terminlər arasında fərq yoxdursa, onda niyə onların hər ikisi də işlədilir?

Siyasətin sosiologiyası siyasi sfera və onun institutlarının digər ictimai institutlarla əlaqəsini öyrənən bir elm sahəsidir. Siyasətin sosiologiyası siyasi sistemin, qeyri-siyasi sistemlərin, siyasi aktorların, siyasi davranışın, siyasi təsisatların, siyasi proseslərin, siyasi kommunikasiya və siyasi nəticələrin sosioloji fonunun sistematik tədqiqini nəzərdə tutur. Bütün bunlar siyasi sosiologiyada da geniş öyrənilir. Lakin siyasətin sosiologiyası o qədər də uğurlu anlayış olmayaraq hakimiyyət münasibətləri də daxil olmaqla ictimai həyatın bütün sahələrində məqsədyönlü fəaliyyətə dair çox geniş problemləri əhatə edir və burada siyasət tədqiqatçı üçün kənardan müşahidə edilən, onun daxil olmadığı, zahi-

rən ondan uzaq bir fenomen kimi çıxış edir.

Siyasi sosiologiya anlayışına gəldikdə isə burada insanın hər hansı bir sosial qrup və ya sosial təşkilatın üzvi kimi bütün problemlərə deyil, yalnız hakimiyyətlə qarşılıqlı münasibətlərinin, bu və ya digər siyasi aksiyalara münasibətdə mövqeyinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Siyasi sosiologiya diqqəti sözün dar mənasında yalnız siyasət problemlərində (insanların siyasi vəziyyəti, siyasi meylləri və siyasi inkişaf problemlərini qavraması, siyasi həyatda iştirakı və s.) cəmləşdirir. Nəhayət, müasir elmi ədəbiyyatda demək olar ki, "siyasi sosiologiya"ya "siyasətin sosiologiyası" anlayışından daha çox rast gəlinir.

### 3. Siyasi sosiologiyanın obyekti və predmeti

Siyasi sosiologiyanın obyekti sosiologiyanın obyektindən heç nə ilə fərqlənmir. Sosiologiyanın obyekti isə bildiyimizə görə, vətəndaş cəmiyyətidir.

Vətəndaş cəmiyyətinin partiyalar, ictimai təşkilatlar, könüllü birliklər, vətəndaş təşəbbüsləri və s. kimi qurumları dövlətə bir müxalif olaraq yaranmışlar. Onlar dövlət problemlərinin alternativ həlli yollarını irəli sürür, lazım gəldikdə onları şübhə altına da alırlar.

Beləliklə, Siyasi sosiologiyanın obyekti vətəndaş cəmiyyətinin siyasi həyatıdır.

Siyasi sosiologiyanın predmetini siyasi həyatın subyekti olan şəxsiyyətin siyasi şüuru və davranışı təşkil edir. Müasir cəmiyyətdə hər bir insan siyasi münasibətlərin subyektidir. İnsanların siyasi həyatda iştirakdan istənilən şəkildə uzaqlaşdırılması ciddi nəticələrə gətirib çıxara bilər. İstənilən səviyyəli rəhbərin və ya siyasi təşkilat strukturunun rolu nə



qədər əhəmiyyətli olsa da insanların siyasət sahəsində şüur və davranışları son nəticədə həmişə həlledici olaraq qalır.

### 4. Siyasi sosiologiyada elmi yanaşmalar

Burada üç elmi yanaşma nəzərdən keçiriləcək: biheviorist, sistem təhlil və input-autput (bu termin Azərbaycan dilinə "giriş-çıxış", "töhfə-məhsul"; "goyuluş-nəticə" və s. kimi tərcümə edilə bilər) təhlilləri.

#### 4.1. Biheviorist yanaşma

Bu metod mənşə etibarilə psixologiyaya məxsus olsa da digər elmlər, məsələn, tarix, iqtisadiyyat, antropologiya, siaysi elm, sosiologiya, siyasi sosiologiya və s. tərəfindən də istifadə olunur. Biheviorizm şüuru elmi tədqiqatın predmeti kimi inkar edir. Bu nəzəriyyəyə görə, insan psixikası müxtəlif davranış formalarının təzahürüdür. İnsan davranışı isə orqanizmin xarici mühitin stimullarına (S) göstərdiyi reaksiyaların (R) cəmidir (S→R). Metodoloji cəhətdən biheviorizmin ilkin şərtini pozitivist fəlsəfəsinin prinsipləri təşkil edir ki, buna da əsasən, elm yalnız bilavasitə müşahidə edilə biləni tədqiq etməlidir.

Biheviorizm XX əsrin əvvəllərində ABŞ-da yaranmışdır. Onun banisi Con Votson öz baxışlarını "Psixologiya biheviorist mövqeyindən" və "Biheviorizm" kimi əsərlərində ifadə etmişdir. Bu nəzəriyyənin digər nümayəndələrindən Eduard Torndaykın, Berres Skinnerin ("Elm və insan davranışı"), Talkott Parsonsun, Eduard Şilzin, eləcə də İvan Pavlovun, Vladimir Bexterevin, İvan Seçenevin və b. adlarını çəkmək olar.

Biheviorizmə görə, insanın davranışını öyrənmək

onun fikrini öyrənməkdən daha asandır: insan davranışı onun fikrinin ifadəsidir və buna görə də insan davranışını öyrənərkən biz dolayısı ilə insan düşüncəsini də öyrənmiş oluruq. Bu metodun əsas üstünlüyü ondadır ki, o, bizə insanın ictimai-siyasi davranışını müxtəlif kontekstlərdə idarə edən qanun və prinsipləri dərk etməyə kömək edir.

Sosioloqlar, siyasətşünaslar və siyasi sosioloqlar insanın ictimai-siyasi davranışını müxtəlif kontekstlərdə, məs., seçkilər, tətil və piketlər vaxtı öyrənmişlər. Lakin çox zaman ağılda baş verənlər hərəkətlə müvafiq qaydada ifadə olunmur və ya əksinə, davranış heç də dərrakənin nəticəsi kimi çıxış etmir.

### 4.2. Sistem təhlil

İqtisadiyyatın, sosiologiyanın, psixologiyanın, coğrafiyanın və d. elmlərin inkişafına təsir göstərmiş bu təhlil metodu siyasi sosiologiyada yenidir. Sistemli yanaşma dedikdə cəmiyyət və ya dövlətin bir sistem kimi götürülərək təhlil edilməsi nəzərdə tutulur.

Bu metodun inkişafında tanınmış amerikan siyasi sosioloqu Devid İstonun böyük rolu olmuşdur ("Siyasi sistem" (1953), "Siyasi analizin strukturu" (1965)).

Qeyd edildiyi kimi, sistem təhlil dövlət və ya cəmiyyəti bütöv kimi götürsə də onun müxtəlif bölmələrinə ehtiyat bir hissə kimi münasibət bəsləyir. Məs., mexaniki bir sistem və ya hər hansı bir maşın çoxlu miqdarda ehtiyat hissələrə malik olduğu kimi, siyasi sistem də belədir. Maşınlar kimi siyasi sistemlər də böyük və ya kiçik, güclü və ya zəif ola bilir. Maşında bütöv bir sistem daxilində müxtəlif sistemlər olduğu kimi, siyasi sistemdə də bir sistem daxilində müxtəlif



sistemlər və ya subsistemlər mövcuddur. Onlardan bəziləri enerji, bəziləri isə hərəkət və ya başqa tipli iş yarada bilər. Misal üçün avtomobili götürək. Avtomobilin mühərriyi onu enerji ilə təchiz edir, ötürücü mexanizm onun işinə, elektrik subsistemi isə batareyaların işləməsinə və s. yardım edir. Bura həm də avtomobilin sürətinə nəzarət edən subsistemi aid edə bilərik. Eyni sxemi biz siyasi sistemə də tətbiq edə bilərik. Məs., siyasi partiyalar və təzyiq qruplarını avtomobildəki ötürücü mexanizmlə müqayisə edə bilərik. Siyasi sistemdəki kommunikasiya subsustemi avtomobildəki elektrik subsistemi ilə müqayisə edilə bilər. Siyasi sistemdəki ordu və polisi əyləc subsistemi ilə müqayisə etmək olar və s. Sistem təhlil tərəfdarları mühəndislik, fizika, kimya, riyaziyyat, statistika və s. kimi sahələrdən çoxlu belə misallar gətirmişlər. Sistem təhlilin üstünlüklərindən onu göstərmək olar ki, o, müxtəlif idarəetmə, siyasi sistemlər və cəmiyyətlər haqqında məlumat və biliklərin təşkilinə və sistemləşdirilməsinə kömək edir. Sistem təhlil bu sistemlərin inkişafını və müxtəlif meylləri qabaqcadan söyləməyə və bunlar barəsində ölçü götürməyə imkan verir.

### 4.3. İnput-autput (Giriş-çıxış) təhlili

Bu nəzəriyyə siyasi sistem də daxil olmaqla müxtəlif istehsal sistemlərinə faydalı və effektiv baxışı əks etdirir. Bu nəzəriyyə siyasi elmə və ya siyasi sosiologiyaya iqtisadiyyat elmi vasitəsilə gəlmişdir. Onu ilk dəfə Harvard universitetinin iqtisadiyyat kafedrasının professoru Vasiliy Leontyev irəli sürmüşdür.

İnput-autput nəzəriyyəsi qısaca olaraq istehsal isteminə daxil olanla ondan alınan nəticə arasında mühüm

əlaqənin olduğunu bildirir. Məsələn, toxuculuq fabrikində pambıq, şəkər zavodunda isə şəkər qamışı giriş, onlarda istehsal olunan parça və şəkər isə çıxış, nəticə hesab oluna bilər. Daha sonra, eyni vaxtda birdən çox giriş ola bilər. Məsələn, pambığa və ya şəkər qamışına əlavə etmək üçün müəyyən kimyəvi maddələr lazım gələ bilər. Belə ki, müxtəlif sistemlər müxtəlif giriş tələb edə bilər ki, bunların da faizi və ya dərəcələri bir-birindən fərqli ola bilər. Çıxışa gəldikdə isə, burada da bir-birindən faiz və dərəcələrinə görə fərqlənən bir neçə çıxış ola bilər. Yenə də misala müraciət edək. Şəkər zavodu şəkərdən başqa əlavə məhsul kimi alkoqollu içkilər də (məs., viski, konyak) istehsal edə bilər. Beləliklə, verilən sistemdə istər giriş, istərsə də çıxış tək və ya sadə, yaxud çox və ya mürəkkəb ola bilər.

Giriş-çıxış təhlili müxtəlif istehsal sistemləri ilə yanaşı siyasi sistemə də tətbiq edilə bilər. Sistem təhlilin inkişafında böyük rol oynamış Devid İston giriş-çıxış nəzəriyyəsindən də bəhs edir. Daha sonra Qabriel Almond və Binqam Pauel "Müqayisəli siyasət: inkişaf yanaşması" adlı əsərdə bu məsələyə toxunaraq sisyasi sistemdə iki cür girişin mümkünlüyünü qeyd edirlər: siyasi sistemdəki tələbatlar və siyasi sistemə göstərilən dəstək. Siyasi sistemdə müxtəlif fərdlər müxtəlif tip tələbatlara malik olurlar. Onların siyasi sistem tərəfindən təmin olunmalı müxtəlif ümid və ehtiyacları vardır. Bura hər hansı bir əmtəə və ya xidmətə, mənzilə, təhsilə, siyasi sistemdə iştiraka və s. tələbat aid ola bilər. Tələbatlar eyni zamanda siyasi sistem tərəfindən məcbur edilə biləcək müəyyən bir qayda və ya nizamlama ilə də bağlı ola bilər. Məsələn, dövlət ailə planlaşdırılması proqramından çıxış edərək vətəndaşlar uşaq doğumuna qoyulan



məhdudiyyətin aradan qaldırılmasını tələb edə bilərlər; başqa bir tələb isə nazirlərin vəzifəyə təyin olunanadək öz əmlakı və öhdəçilikləri haqqında ictimaiyyəti məlumatlandırması ola bilər.

Beləliklə, müxtəlif sistemlərdə fərdlər siyasi sistem tərəfindən ödənilməli olan müxtəlif cür tələbatlara malik ola bilərlər.

İkinci tip girişə siyasi sistemə göstərilən müxtəlif tipli dəstək aid edilə bilər. Əgər hər hansı bir şəxs öz sağlamlığının qeydinə qalırsa bunu siyasi sistemə dəstək kimi də dəyərləndirmək olar. Bu vaxt dövlət səhiyyə sahəsi həmin şəxs xəstə olacağı təqdirdə sərf edəcəyi maliyyə vəsaitinə və ya dərmanlara qənaət etmiş olacaq; həmin şəxs fiziki və zehni cəhətdən sağlam olduğu təqdirdə o, məsələn, polis və ya orduda xidmət üçün yararlı olaraq dövlətə də xeyir gətirəcəkdir. Beləliklə, hətta adi bir vətəndaş təkcə bu yolla dövlətə dəstək nümayiş etdirmiş olur. Başqa bir misal gətirək. Prezidentin inauqurasiya (andiçmə) mərasimini televiziyadan seyr edən və ya Müstəqillik gününün qeyd olunmasında iştirak edən vətəndaş siyasi sistemə rəmzi və ya təntənəli dəstək nümayiş etdirmiş olur; əgər o, qayda-qanuna tabe olub ona riayət edirsə bununla yenə də sisyasi sistemə dəstək nümayiş etdirmiş olur; əgər fövqəladə hallar və müharibə zamanı o, insanlara kömək əlini uzadır, orduda könüllü xidmətə yollanırsa bununla da siyasi sistemə dəstək nümayiş etdirmiş olur; əgər o, kütləvi informasiya vasitələrindən istifadə edərək vətəninin daxili və ya xarici siyasətinə dair hər hansı bir materialla tanış olursa, bu da siyasi sistemə dəstək kimi qiymətləndirilə bilər. Bütün bu misallar siyasi sistemə göstərilən dəstəyin müxtəlifliyi,

çoxluğu və mürəkkəbliyinə misaldır.

Siyasi sistemdə liderlər giriş-çıxış təhlili nöqteyi-nəzərindən mühüm rol oynaya bilərlər. liderlər siyasi, iqtisadi, təhsil, dini, mədəni və s. sahələrdə fərqlənə bilərlər. Onlar aktyor, jurnalist, ideya lideri və s. ola bilərlər. Bu liderlər siyasi sistemdə müxtəlif girişlərin yaranmasında və eləcə də müxtəlif çıxışların əldə olunmasında böyük rol oynaya bilərlər. Məsələn, əgər tanınmış idmançılar qrupu gənclərə ordu sıralarına qatılmaq çağırışı ilə müraciət edirsə, bu siyasi sistemə giriş kimi qiymətləndirilməlidir. Eyni şəkildə nəticələr də liderlər tərəfindən tələb edilə bilər. Məsələn, neft sənayesi işçiləri birliyinin liderləri tətil edərək əmək haqqının qaldırılmasını tələb edirsə, demək, onlar siyasi sistemdən çıxış tələb etmiş olurlar.

Beləliklə, giriş-çıxış yanaşmasının araşdırılmasından aşağıdakı nəticələrə gəlmək mümkündür:

1) Giriş-çıxış fəlsəfəsi siyasi sistemi hərəkətə gətirən bir qüvvədir. Əgər siyasi sistemdəki girişlər məlumdursa, bunun əsasında siyasi sistemi də səciyyələndirmək mümkündür;

2) Bu mənada giriş-çıxış təhlili ənənəvi səbəb və nəticə təhlilini xatırlada bilər. Ənənəvi səbəb və nəticə təhlili də siyasi sistemin və ya dövlətin siyasətini və rəhbərliyinin fəaliyyətini səbəb-nəticə nöqteyi-nəzərindən aydınlaşdırmağa çalışır. Ənənəvi nəzəriyyəçi hansı səbəblərin hansı nəticələrə gətirib çıxaracağını müəyyənləşdirməyə çalışır. Aristotel cəmiyyətdəki bərabərsizliyin inqilabların əsas səbəbi olduğunu göstərir. Platon isə qeyd edirdi ki, xalqla hesablaşmamaq və eyni zamanda ona həddən artıq azadlıq bəxş etmək xaos və anarxiyaya gətirib çıxarır. Sokrat yazırdı ki,



bilikli olmaq comərd olmaq deməkdir. Monteskyu hakimiyyət bölgüsünün insan azadlığının zəmanəti olmasını sübut etməyə çalışırdı.

Bütün bu misallardan göründüyü kimi, böyük mütəfəkkirlər səbəblə nəticə arasındakı münasibəti müəyyənləşdirməyə çalışmışlar.

3) Nəhayət, qeyd etmək lazımdır ki, səbəb və nəticə arasında olduğu kimi girişlə çıxış arasındakı münasibət də həmişə məntiqəuyğun olmur. Belə ki, istənilən bir siyasi sistemdə giriş heç də həmişə müvafiq çıxışla sona çatmır. Məsələn, neftçilər əmək haqqının qaldırılmasından ötrü tətil elan edə bilərlər. Bunu çıxış adlandıraq. Lakin onların gözlədiyi çıxış alınmaya da bilər. Bu o vaxt baş verə bilər ki, hökumət onların tələblərini ədalətsiz hesab etsin. Beləliklə, tətil baş tutmaya da bilər. Başqa sözlə desək, verilən giriş lazım olan çıxışla nəticələnməyə də bilər. Lakin əlbəttə, həmişə belə olmur.

Beləliklə, giriş-çıxış təhlili də universal olmayaraq, müəyyən istisnalara malikdir.

## 5. Siyasi sosiologiyanın digər elmlərlə qarşılıqlı münasibətləri

### 5.1. Siyasi sosiologiya və siyasi elm

Əgər siyasi elm diqqəti əsasən siyasi sferada cəmləşdirirsə, siyasi sosiologiya siyasi prosesləri tam başa düşmək üçün siyasəti bütövlükdə sosial strukturla əlaqələndirməyə çalışır[1].

[1] Lewis A. Coser, ed., Political Sociology. New York: Harper and Row, Publishers, 1967, p.3.

Ənənəvi siyasi elm məhdud mövqedən çıxış edərək siyasi aktorların davranışını müəyyənləşdirən çoxaspektli siyasi prosesləri tam izah edə bilmir. Siyasi sosiologiya siyasi proses və siyasi fəaliyyətə daha geniş baxış nümayiş etdirməyə çalışır və bu nöqteyi-nəzərdən o, siyasi elmdən fərqlənir.

S.M.Lipsetin sözləri ilə desək, siyasi elm siyasi institutların pozitiv və aşkar (manifest) funksiyaları ilə məşğuldur[1]. Siyasi sosiologiya digər tərəfdən "radikal" bir fənn olaraq diqqəti sosial konflikt və sosial dəyişikliklərdə cəmləşdirərək siyasətin gizli (latent) funksiyalarını, qeyri-formal aspektlərini və disfunksional aspektlərini öyrənir. Başqa sözlə, "əgər siyasi elm fikri aysberqin görünən hissəsinə yönəldirsə, siyasi sosiologiya diqqəti onun görünməyən hissəsində cəmləşdirir" (L. Kozer)[2]. Əlbəttə ki, aysberqin suyun altında qalan hissəsi xeyli çoxdur.

Siyasi sosioloqlar siyasi prosesi formal siyasi institutların funksiyası kimi göstərməkdənsə üstünlüyü qeyri-siyasi, qeyri-rəsmi, qeyri-formal iqtisadi dominantların demokratik prosesə açıq şəkildə təsirini göstərməyə verirlər. Onlar göstərirlər ki, siyasət hər hansı bir nəticə əldə olunanda effektiv olur.

Siyasi elm kimi siyasi sosiologiya da cəmiyyətdə hakimiyyətin paylanması və həyata keçirilməsini tədqiq edir. Lakin siyasi elmdən fərqli olaraq siyasi sosiologiya hakimiyyətin paylanması və həyata keçirilməsinin institusional

[1] "Political Sociology" in Robert M. King et al., ed., Sociology today, New York: Basic Books, 1959, p.83

[2] Lewis A. Coser, ed., Political Sociology. New York: Harper and Row, Publishers, 1967, p.5.



təminatı ilə məşğul olmur, onları olduqları kimi qəbul edir.

Beləliklə, əgər siyasət elmi dövlətdən başlayaraq onun cəmiyyətə təsirini öyrənirsə, siyasi sosiologiya, əksinə, cəmiyyətdən başlayaraq onun dövlətə (başqa sözlə, hakimiyyətin paylanması və həyata keçirilməsi üçün formal institutlara) təsirini öyrənir. İki elm arasındakı belə bir bölgü bu günlə müqayisədə XIX əsrdə daha aydın nəzərə çarpırdı.

## 5.2. Siyasi sosiologiya və sosiologiya

Siyasi sosiologiya siyasi elmlə sosiologiyanın bir-birinə yaxınlaşması nəticəsində fənlərarası yeni bir elm kimi meydana gəlmişdir. Fikrimizi daha aydın şəkildə ifadə etsək, siyasi sosiologiya nə siyasi elmsiz, nə də ki sosiologiyasız mövcud ola bilməz.

Siyasi sosiologiya sosiologiyanın xüsusi bir bölməsidir. Siyasi sosiologiya sahəsində tədqiqatlar sosiologiyaya arxalanaraq aparılır. Sosiologiya siyasi sosiologiyanın birtərəfli və spesifik tədqiqat və ümumiləşdirmələrindən faydalanır və əksinə.

## 5.3. Siyasi sosiologiya və iqtisadiyyat

Siyasi sosiologiya iqtisadiyyatla müəyyən mənada bağlı olan bir elmdir. Siyasi sosiologiyadakı və iqtisadiyyatdakı nəzəriyyələr, ideya və prinsiplər bir-birilə əlaqədardır. Belə ki, siyasi sosioloq sinifləri, sosial qrupları, onların məqsəd və istəklərini, institut və assosiasiyaları, dini və iqtisadiyyatı öyrənir. Əhalinin rifahını öyrənən iqtisadçı da öz işində bunlardan istifadə edir, bunları nəzərə alır. Əgər siyasi sosioloq hakimiyyətin yaranması və istifadəsini öyrənirsə, iqtisadçı öz növbəsində iqtisadiyyatı öyrənərkən siyasətin

ona təsirini də tədqiq edir.

Siyasi sosioloq iqtisadi prinsipləri, motivləri, institutları, prosesləri və s. nəzərə almadan keçinə bilməz. Məsələn, pulun seçkilərdə oynadığı rolu nəzərə almadan siyasi sosioloq seçkiləri düzgün öyrənə bilməz. Əksinə, iqtisadçı siyasi sosioloq tərəfindən öyrənilən prinsiplər, motivlər, institutlar, proseslər və s. nəzərə almadan istehsal məhsulunun paylanması, əhalinin alıcılıq qabiliyyətini və s. düzgün tədqiq edə bilməz. Bu misal iki elmin bir-birinə yaxınlığını yaxşı nümayiş etdirir.

Hər iki elm, demək olar ki, eyni metod və texnikalardan istifadə edir. Eyni zamanda iqtisadiyyat statistik və ya riyazi metodlar və texnikadan daha çox istifadə edir. Bunun nəticəsidir ki, iqtisadiyyatın ekonometriya və ya riyazi iqtisadiyyat və s. kimi sahələri inkişaf etmişdir.

### 5.4. Siyasi sosiologiya və fəlsəfə

Elmlərin əksəriyyəti fəlsəfədən doğmuşdur. Siyasi sosiologiya da belə elmlərdəndir.

Siyasi sosiologiya çox xüsusiləşdirilmiş bir sahə olduğundan geniş əhatəli fəlsəfə üçün əhəmiyyət kəsb edir. Eyni zamanda siyasi sosiologiya fəlsəfi baxışdan, metodlardan və s. istifadə edir.

### 5.5. Siyasi sosiologiya və psixologiya

Hər iki elm yenidir və oxşar metod və texnikalardan istifadə edirlər. Lakin psixologiya daha çox laboratoriyada aparılan eksperimental metodlardan istifadə edir. Məsələn, hər hansı bir dini problemə dair ictimai rəyi öyrənərkən psixoloq sosial psixilogiyanı başa düşməlidir. Əgər psixologiya



siyasi sosiologiyadan bəhrələnmirsə onda onun mövqeyi yəqin ki, zəifləmiş olur. Hər hansı bir sosial qrupun dini baxışlarını, münasibət və hərəkətlərini öyrənərkən psixoloq siyasi sosioloqun axtarış və nəticələrini hökmən nəzərə almalıdır.

### 5.6. Siyasi sosiologiya və statistika

Bu iki elm arasında müəyyən yaxınlıq vardır. Hər iki elm tədqiqat prosesində əhəmiyyətli dərəcədə məlumat və faktlardan istifadə edir. Məsələn, səsvermə zamanı seçicilərin davranışı, liderlik məsələləri, müxtəlif növ statistik analizlər və proqnozlar, modernləşmə və inkişaf problemləri və s. siyasi sosiologiya və statistika üçün ümumi dərəcədə maraq doğurur. Tutaq ki, siyasi sosioloq hakimiyyət fenomenini dövlət, hökumət, cəmiyyət, sosial idarəetmə kontekstlərində öyrənmək istəyir. Tədqiqat məqsədləri üçün digər vasitələrdən başqa çoxlu statistik faktlardan da istifadə etmək olar. Statistikanın bir elm kimi yaranması alman filosofu Q.V.Leybnitsin adı ilə bağlıdır.

Statistika siyasi sosiologiyadan daha qədim elmdir.

Hər iki elm bir-birini zənginləşdirir. Belə ki, siyasi sosiologiyanın hakimiyyət, siniflər, təzyiq qrupları, liderlik, seçkilər, sosial-siyasi inkişaf və s. haqqındakı ümumiləşdirmələri statistika üçün çox gərəkli ola bilər. Eləcə də statistika da riyaziyyat və ya məntiq elmləri kimi siyasi sosiologiya üçün metodoloji və prosedur əhəmiyyət kəsb edir.

### 5.7. Siyasi sosiologiya və tarix

Siyasi və sosial sistemlərin, dinin və dini institutların, müxtəlif mədəniyyətlərin, liderliyin və s. yaranması, inkişafı və süqutu həm siyasi sosiologiya, həm də tarix üçün ümumi

maraq kəsb edir.

Tarix daha qədim elmdir. Onun banisi qədim yunan filosofu və tarixçisi Herodot sayılır. Tarix siyasi sosiologiyaya nisbətən daha geniş və əhatəli elmdir. Bütün elmlər - riyaziyyat, iqtisadiyyat, siyasi elm və eləcə də siyasi sosiologiya tarix tərəfindən öyrənilir (belə ki, bu elmlərin yaranma və inkişafı tarixi vardır). Bu iki elmin metod və texnikaları da bir-birinə çox yaxındır. Lakin müəyyən fərqlər də mövcuddur. Belə ki, siyasi sosiologiya iştiraklı müşahidə və çöl tədqiqat metodlarından çox istifadə edir. Tarix isə sənədlərlə (daha çox arxiv sənədləri ilə) işləməyə daha çox yer ayırır.



# FƏSIL 2. MÜASIR SIYASI SOSIOLOGIYANIN NƏZƏRI ƏSASLARI

Müasir siyasi sosiologiyanın nəzəri əsasını bir sıra fundamental nəzəriyyələr təşkil edir. Hakimiyyət, elitalar, liderlik, nüfuz, sinif, status, legitimlik, bürokratiya və s. haqqındakı nəzəriyyələr buna misal ola bilər. Bu nəzəriyyələri K.Marks, V.Pareto, T.Veblen, R.Mills, H.Lassuel, S.Lipset, D.Bell, M.Veber və b. yaratmış və inkişaf etdirmişlər. Gəlin müxtəlif mütəfəkkirlər tərəfindən irəli sürülmüş bir sıra nəzəriyyələr haqqında mülahizələrə diqqət yetirək.

## 1. Hakimiyyət

Əvvəlcə, "hakimiyyət" nəzəriyyəsini götürək. Siyasi sosiologiyanın mərkəzində hakimiyyət problemi durur. Bir çox mütəfəkkirlər buna dair öz nəzəriyyələrini, fikirlərini irəli sürüb inkişaf etdirmişlər. Məsələn, K.Marks hakimiyyətin müxtəlif növlərindən söhbət açır. Lakin onun üçün ən əsas hakimiyyət növü iqtisadi hakimiyyətdir. Çünki əmtəənin istehsalı, bölüşdürülməsi və istehlakı ilə bağlı olan hakimiyyət həlledici hakimiyyətdir və hakimiyyətin digər növlərinin də təbiətini və mahiyyətini müəyyən edir. M.Veberin də öz hakimiyyət nəzəriyyəsi mövcuddur. Ona görə, hakimiyyət - fərdin cəmiyyətin strukturunda rolunu ifa etməsi üçün formal və ya qeyri-formal bacarığı və eləcə də fərdin öz iradəsini digərlərinə qəbul etdirə bilməsidir. Lakin, fikrimizcə, bütün hakimiyyət nəzəriyyələri içərisində K.Marks hakimiyyət haqqında daha mükəmməl nəzəriyyə irəli sürə bilmişdir.

Bertran Rassel özünün "Hakimiyyət: sosial təhlil" adlı əsərində hakimiyyətin çox sadə, lakin müfəssəl tərifini

verərək göstərir ki, hakimiyyət - nəticə əldə etmək bacarığıdır. Bu anlamda hakimiyyətə, demək olar ki, hər bir fərd malikdir. Belə ki, əgər Azərbaycan Respublikasında hal-hazırda 9 milyon fərd varsa, bu ölkədə 9 milyon hakimiyyət vahidinin olması deməkdir. Vahidlərin ölçüsü fərqli də ola bilər, yəni hər hansı bir vaxtda müxtəlif fərdlər müxtəlif kəmiyyət və keyfiyyətdə hakimiyyətə malikdirlər. Hakimiyyətin müxtəlif vahidlərinin kombinasiyası hərdən müxtəlif də ola bilir. Bu sosial kontekstdə hakimiyyət, tədqiqat məqsədi üçün seçdiyimiz müəyyən bir əsas və ya meyarlardan - dövrdən (məs., köhnə və ya yeni hakimiyyət), ərazidən (məs., mərkəzi və ya regional hakimiyyət), kəmiyyətdən (məs., böyük və ya kiçik), keyfiyyətdən (məs., orijinal və ya yamsılama), sahədən (məs., intellektual, siyasi, iqtisadi, dini və s.), insani və ya qeyri-insani (məs., insanların, ideyaların, texnikanın və s. hakimiyyəti), eləcə də partiyaların, qrupların və ya siniflərin hakimityyətindən (məs., parlamentin, hakim partiyanın və s. hakimiyyəti) asılı olaraq müxtəlif dərəcələrə və ya siniflərə bölünə və ya təsnifləşdirilə bilər.

Yuxarıda göstərdiyimizdən aydın olur ki, hakimiyyət müxtəlif şəraitdə müxtəlif məqsədlərə münasibətdə müxtəlif formaları, kəmiyyəti, keyfiyyəti və s. nəzərdə tutur. Başqa sözlə desək, istənilən vaxtda, istənilən cəmiyyət və ya dövlətdə hakimiyyət müxtəlif fərdlərə, təsisatlara, ideyalara, fəlsəfəyə, prosedur qaydalara və s. məxsus olur. Müxtəlif fərdlərə, təsisatlara və ya situasiyalara məxsus olan müxtəlif hakimiyyət vahidləri, demək olar ki, istənilən vaxtda müəyyən məqsədlər üçün tələb olunan tam hakimiyyət cəmini təşkil edir.

Hakimiyyət də hər hansı bir əmtəə kimi, arta, azala,



bölünə, ötürülə, dəyişilə və inkişaf edə bilər. Hakimiyyət müxtəlif kontekstlərdə müxtəlif şəkildə meydana çıxa bilər: o, həm pozitiv, həm də neqativ ola bilər, ondan həddindən artıq çox, cüzi və lazımi qədər istifadə etmək olar. Mexaniki tarazlaşdırma və ya sadə hesab müxtəlif şəraitlərdə hakimiyyətdən istifadəni heç də həmişə düzgün izah etməyə bilər: əgər hesabda "2+2=4"-dürsə, hakimiyyt məsləsində müxtəlif cavablar alına bilər.

Hakimiyyət müxtəlif fərdlərə, ideyalara, təsisatlara və situasiyalara məxsus olduğundan, demək olar ki, hakimiyyət və siyasət digər sahələrdəki hakimiyyətlə yaradılır və nəzarət olunur.

Məlumdur ki, hakimiyyətə yiyələnmə, onu zəbt etmə və ondan istifadə qeyri-siyasi sahələrdəki siyasətlə nəzarət altında saxlanılır. Buna misal kimi pulun, yaxudda ki, var-dövlətin hakimiyyətini göstərə bilərik. Bir çox situasiyalarda namizədlərin pul vasitəsilə necə seçilməsi və ya hakim mövqelərə yiyələnməsi bizə məlumdur. İqtisadi cəhətdən təminatlı sinfin və ya insanlar qrupunun ölkənin siyasətində müvafiq hakimiyyət və ya nüfuza malik olmaq meylliliyini biz də bilirik. Həmin sözlər daha yüksək təhsilə və peşəkarlığa malik sinif və ya insanlar qrupu üçün də səciyyəvidir. Daha sonra göstərmək olar ki, təhsilli adamlar siyasətdə və hökumətdə təhsili olunmayanlara nisbətən daha çox imkanlara malikdirlər. Dinin siyasətə təsiri haqqında isə danışmağa belə ehtiyac yoxdur. Dünya dinlərinin əksəriyyəti siyasətə və hökumətə çox dərin və geniş təsir etmişlər. Avropada dini siyasətlə siyasi hakimiyyət arasında mübarizə 500 il (900-cu ildən 1400-cü ilədək) davam etmişdir.

Qeyd etmək lazımdır ki, qeyri-siyasi hakimiyyətin

siyasi hakimiyyətə təsiri birtərəfli deyildir. Başqa sözlə, qeyri-siyasi hakimiyyətin siyasi hakimiyyətə təsiri və ya siyasi hakimiyyətin qeyri-siyasi hakimiyyət və ya mənbələrdən irəli gəlməsi heç də zəruri deyildir. Başqa variant da doğrudur: siyasi hakimiyyət iqtisadi hakimiyyətə təsir göstərir. Eyni şəkildə o, təhsilə və dini hakimiyyətə də təsir göstərir.

Eyni zamanda siyasi və qeyri-siyasi hakimiyyət arasındakı bu cür qarşılıqlı təsirdə biz siyasi hakimiyyətin qeyri-siyasi hakimiyyət üzərində sürəkli və ayrılmaz üstünlüyünü tanımalıyıq. Hər cür hakimiyyət - istər siyasi, istərsə də qeyri-siyasi, insanın davranışına təsir və nəzarət edir. Lakin bütün hakimiyyət növlərindən siyasi hakimiyyət daha əsaslıdır və insanın davranışına daha çox nüfuz edir.

İndi isə biz hakimiyyətdən istifadə və ya onu tətbiq edən insan qrupları haqda danışacağıq. Hakimiyyətdən istifadə edən, ona malik olan, onu həyata keçirənlərlə yanaşı hakimiyyətdən təsirlənən, ondan mənfəət götürən və ya əziyyət çəkən insanlar da mövcuddur. Onlardan birincisini siyasətçilər, ikincisini isə xalq adlandırmaq olar. Bu münasibətləri ifadə edən digər terminlər arasında hökumət, idarə edənlər və idarə olunanları göstərmək olar. Aydın məsələdir ki, bu münasibətlər daim dəyişəndir.

Siyasətdə də digər sahələrdə olduğu kimi, hakimiyyət müxtəlif prosedurlarda, təşkilatlarda və ya assosiasiyalarda cəmləşir. Bunlar müxtəlif təşkilatlar, assosiasiyalar, metodlar, ənənələr, adətlər, anlaşmalar, vərdişlər, normalar, praktikalar və s. kimi tanına bilər.



## 2. Elitalar

Nəzərdən keçirəcəyimiz digər nəzəriyyələr isə “elitalar” və ya “liderlik” nəzəriyyələridir. Elita hər bir cəmiyyətin və ya onun bir hissəsinin seçmə və ya ən yaxşı şəxslərindən ibarətdir. Ola bilsin ki, elitaya aid müəyyən şəxslər bunun üçün səciyyəvi olan nümunəyə uyğun gəlməsinlər. Yəni, məsələn, onlar elitar ailələrdə böyüsələr də tələb olunan səviyyədə kəmiyyət və ya keyfiyyətdən məhrum ola bilərlər. Belədə onların yalnız adı elitadır. Əslində isə onlar elita sayılmırlar. Liderlik (“lider” sözü mənaca “rəhbər, başçı” deməkdir) qrup daxilindəki şəxslərarası münasibətlərdə hakimiyyət və ya tabeçilik, təsir və ardınca getmə münasibətlərini bildirir. Bu nəzəriyyə elita nəzəriyyəsi ilə sıx əlaqədardır. Belə ki, liderlər də elitalar kimi hər bir cəmiyyətin və ya onun bir hissəsinin aparıcı üzvləridirlər.

Lakin liderlik elitadan iki səbəbə görə fərqlənir:

(1) Liderlər liderlik funksiyalarını yerinə yetirmək üçün lider təşəbbüslü və fəal olmalı, ekstremal vəziyyətdən çıxmaq, camaatı öz ardınca apara bilmək, natiqlik qabiliyyətinə, geniş təfəkkürə və s. keyfiyyətlərə malik olmalıdırlar. Liderlər də elitalar kimi pis və ya nümunəyə uyğun olmaya bilərlər. Lakin burada fərq ondan ibarətdir ki, pis liderlər müəyyən sahələrdən ya yeni liderlər tərəfindən, ya da ki, şəraitin təzyiqi altında sıxışdırıla bilərlər. Bütün bunları elita haqqında demək olmaz. Belə ki, elita üzvünün hər hansı bir hadisədə aktiv iştirakı heç də vacib deyil. Elitaya aid şəxslər cəmiyyətin ən yüksək pilləsində dura və ya onun ən hörmətli adamları ola bilərlər. Lakin liderlərlə müqayisədə elitalar keyfiyyət nöqteyi-nəzərindən dinamik, yaxud aktivlikdən daha çox statik və ya passiv olurlar.

(2) Liderlik haqqında danışarkən onun qeyri-siyasi sahələrə də aid edilə bilməsinə baxmayaraq, çox vaxt bu termin siyasi mənada işlənilir. Lakin elita anlayışı praktiki olaraq bütövlükdə cəmiyyətin özünə və ya onun ayrı-ayrı seqmentlərinə şamil edilə bilər. Məsələn, siyasət, iqtisadiyyat, elm, təhsil, mədəniuuət, din, incəsənət, musiqi və s. sahələrdə elitalar haqqmda danışmaq mümkündür. Bunu elə liderlər haqqında da demək olar. Lakin müəyyən sahələrdə liderlik anlayışından daha münasib termin kimi elita işlənilir. Deməli, elita və lider terminləri bir-birinə bağlı terminlərdir. Lakin onlar xüsusi hallarda və həyatın müxtəlif sahələrində tətbiq olunurlar.

## 2.1. K.Marksın elitalara baxışı

Elitalar haqqında bir çox mütəfəkkirlər fikir söyləmişlər. Onlar arasında K.Marks (1818-1883) istisna deyil. Yuxarıda qeyd etdiyimiz kimi, o cəmiyyətdə iqtisadi amillərin üstünlüyünə daha çox diqqət yetirirdi. Marksa görə, hər bir cəmiyyətin tarixi onun hakim sinif və ya elitalarının tarixidir. Çünki onlar istehsal vasitələrinə, əmtəənin paylanılmasına və istehlaka nəzarəti həyata keçirirlər. Lakin Marks bunu da istisna etmir ki, hər hansı nazir və ya rəisin işi iqtisadi göstəricilərlə xarakteizə olunmaya da bilər. Bu halda onlar istehsal vasitələrinə, bölgüyə və istehlaka nəzarət edən adamlar tərəfindən nəzarət olunurlar. Alimə görə, hökumət burjua komitəsi tərəfindən idarə olunur ki, o da öz növbəsində bütünlüklə iqtisadi sinifdən asılı vəziyyətdədir. Marks hesab edirdi ki, cəmiyyətdə qeyri-iqtisadi elitalar elitaların ən möhtəşəmidir və bu bütün cəmiyyətlərə aiddir. Daha sonra, bütün cəmiyyətlərdə iki sinif mövcuddur:



istismarçılar və istismar olunanlar. Birinci sinif iqtisadi cəhətdən güclü sinif olaraq istehsal vasitələri, əmtəənin bölüşdürülməsi və istehlak üzərində nəzarəti həyata keçirir. Lakin istismar artdıqca və vaxt keçdikcə iki sinif arasındakı münasibətlər kəskinləşir və nəticədə bu, istismarçıların devrilməsi və onların yerinin istismar olunan sinif tərəfindən tutulması ilə nəticələnir. Marksa görə, belə hal bütün sinifli cəmiyyətlər üçün səciyyəvidir.

Texnika və texnologiyanın inkişafı da istismarçılarla istismar olunanlar arasında hakimiyyət münasibətlərinin dəyişilməsinə gətirib çıxarır. Marks bunu bəşər tarixi və xüsusən Avropa dövlətlərinin tarixi timsalında izləyir (burada o, İngiltərəyə xüsusi diqqət yetirir). Alimin fikrincə, bu proses tarixi zərurət və qarşısıalınmaz iqtisadi qanunlar üzündən baş verir. Yəni, o tarixi və iqtisadi determinizm tərəfdarı kimi çıxış edir.

Marksın elitalara baxışı müəyyən çatışmazlıqlardan azad deyildir:

(1) Marks öz mövqeyini "dialektik prinsiplə" əsaslandırır. Bu prinsipə görə, hər hansı bir sosial situasiya tezis (verilən hadisə), antitezis (verilən hadisəyə müxalifət) və sintezdən (tezis və antitezisin ən yaxşı xüsusiyyətlərinin birləşməsindən) ibarətdir. Lakin onun əsaslandığı dialektik prinsip (Marksın iqtisadi elita nəzəriyyəsi buna əsaslanır) sinifsiz cəmiyyət qurulduğu halda öz əhəmiyyətini itirmiş olur. Onun fikrincə, kapitalizm süquta yetdukdən və proletariatın hakimiyyəti bərqərar olduqdan sonra sinfi mübarizə sona yetir və tədricən istismardan azad sinifsiz cəmiyyət yaranır ki, burada nə xüsusi mülkiyyət, nə dövlət, nə də ki hakimiyyət mövcud olacaqdır. Lakin tarixin sonrakı

inkişafı Marksın bu fikirlərinin utopiyadan başqa bir şey olmadığını göstərdi. Yəni Marks elitalar haqqında fəlsəfi və məntiqi səhvə yol vermiş olur və burada dialektik prinsip özünü heç də doğrultmur.

(2) İstismar olunan sinif haqqında onun məhdud və səhv fikirləri. Ona görə, istismar edən elitalar mütləq istismar olunan məzlum xalq tərəfindən devriləcək. Belə halda o, (a) iqtisadi və tarixi faktorların rolunu xeyli şişirdir və (b) istismar olunan sinifdən yaranacaq elitaların rolunu kifayət qədər qiymətləndirməmiş olur. Marks həmçinin göstərir ki, bu sinif istismarçı elitanı devirdikdən sonra tarixi və iqtisadi məcburiyyət qarşısında qalaraq öz sinfi şüurunu inkişaf etdirməli olacaq və əvvəlki elitanın devrilməsi işini başa çatdıracaqdır. Lakin burada yaranmış boşluğu V.Lenin doldurmağa çalışır. O, göstərir ki, sinif öz-özlüyündə çox böyük və qeyri-mütəşəkkildir və bunun üçün də istismarçı elitaya qarşı mübarizə aparmaq iqtidarında deyildir. Buna görə də istismarçı elitalardan heç də pis hazırlıqlı olmayan başqa tipli elitaya ehtiyac vardır. Buradan da Lenin özünün partiya elitası haqqındakı fikrini inkişaf etdirir. O, göstərir ki, partiya kimi güclü və etibarlı instrumentə malik olmadan (bura təşkilatçılar, fəhlələr və peşəkar inqilabçılar daxildirlər) bu mübarizədən qalib çıxmaq olmaz. Lenin öz təlimini təkcə nəzəriyyədə inkişaf etdirmədi, onu praktikada da həyata keçirdi. Rusiyanın misalında o partiyanın "istismarçı elitalara qarşı mübarizə apararaq qalib gəlmək" iqtidarında olduğunu göstərdi.



## 2.2. V.Paretonun ümumi sosioloji konsepsiyası haqqında. Paretonun elita nəzəriyyəsi

Vilfredo Pareto (1848-1923) görkəmli italyan iqtisadçısı və sosioloqudur. Özünün sosioloji konsepsiyasını Pareto "Ümumi sosiologiya traktatı" adlı əsərində izah etmişdir. Pareto öz fikirlərini izah edərkən pozitivist metodologiyasına əsaslanmışdır.

Paretoya görə, insanın davranışı xarakter etibari ilə irrasional və qeyri-məntiqidir. Anadangəlmə psixi keyfiyyətlər fərdi müəyyən bir şəkildə hərəkət etməyə vadar edir. Lakin bu vaxt o davranışının həqiqi səbəblərini yalançı arqumentlərin vasitəsilə ört-basdır edir. Bu arqumentlər istisnasız olaraq bütün ictimai nəzəriyyələrin mahiyyətini təşkil edir. Paretoya görə, istənilən nəzəri mühakimə, istənilən ideologiya fəaliyyətə bəraət qazandırmaq üçündür. Burada məqsəd sonuncuya xaricən məntiqi xarakter verərək onun həqiqi səbəblərini gizlətməkdən ibarətdir. Yalançı məzmuna malik ideoloji sistemləri Pareto "derivasiya" (bu söz "törəmə" mənasını verir), yəni hisslərdən törəyən adlandırır, onların insan psixologiyasının irrasional qatlarında kök saldığını göstərirdi. Paretoya görə, onlar daxili bioloji impulslar olaraq insanın sosial davranışını determinə edirlər.

Öz növbəsində bir sıra yarımqruplara bölünən altı əsas "qalıq" sinfini müəyyənləşdirərək, Pareto insan davranışının müxtəlifliyini izah etməyə çalışırdı. "Qalıqlar" sinfinə Pareto aşağıdakıları aid edirdi:

1) bütün sosial dəyişikliklərin kökündə duran kombinasiyalar (birləşdirmə, uyğunlaşdırma) instinkti;
2) bir dəfə formalaşmış əlaqələrin saxlanılması və qorunması meylini ifadə edən aqreqatların sabitliyi, də-

yişməzliyi;

3) insanın öz hisslərini ümumi fəaliyyət və əməllərdə göstərməyə çalışması;
4) sosiallıq hissi;
5) mülkiyyətçilik hissi;
6) cinsi instinkt.

"Qalıqlar" əsasında baş verən "qeyri-məntiqi" hərəkətləri Pareto ictimai həyatın əsas hüceyrəsi sayır və bunun öz növbəsində dövri dəyişikliklərin gedişatını və keçmişə qayıdışı müəyyən etdiyini hesab edirdi.

Paretonun sosial fəaliyyət konsepsiyasının əsasında müəyyən bir insan konsepsiyası dururdu. O, insanın irrasional təbiətə malik olduğunu qeyd edərək göstərirdi ki, insanınkı spesifik olaraq dərrakədə deyil, dərrakəni tamahkar məqsədlər üçün istifadə etməkdədir. Hisslər və ağılın qarşılıqlı münasibəti problemində Pareto hisslərə daha çox üstünlük verir, onları tarixin həqiqi hərəkətverici qüvvələri sayırdı. O, tarixi qanunauyğunluqların ayrı-ayrı fərdlərin irrasional psixi həyatının irrasional qanunauyğunluqlarına gətirib çıxardığını hesab edir, ideologiyanı isə "hisslərin dili" adlandırırdı. Pareto insan psixikasını, onun xüsusiyyətlərini sosial-iqtisadi kontekstdən kənarda izah edirdi. Onun fikrincə, emosiyalar sosial sistemin dinamizminin əsasını təşkil edir.

Derivasiyaları (ideologiyaları) həqiqətə qarşı qoyaraq, Pareto həmçinin göstərirdi ki, onların məntiqi yararsızlığı heç də onların sosial əhəmiyyətini azaltmır. Beləliklə, Pareto ideologiyanın cəmiyyətdə aktiv rolunu, səfərbəredici gücünü xüsusi olaraq göstərir, kütləvi şüurun manipulyasiya mexanizmlərini açıb göstərirdi.

İnsan psixikasının dərk oluna bilməyən elementlərinin rolunu qeyd edərək o, Freydin əsərlərilə tanış olmamasına baxmayaraq, təhtəlşüur psixologiyasının bəzi ideyalarını formalaşdırmışdı.



Paretoya görə, bütün cəmiyyətlərin əsas xüsusiyyəti onların idarəetməyə qabil elitaya və qeyri-elitaya bölünməsindədir. Elitaların "dövriyyəsi"ni, yəni onların sabitləşməsini və sonrakı tənəzzülünü o, bütün tarixi hadisələrin kökündə duran ictimai inkişafın hərəkətverici qüvvəsi sayırdı.

Bu konsepsiyaya görə, anadangəlmə "qalıqlara" malik olanlar, yəni kütlələri hiylə və aldatma ("tülkülər") və ya güc tətbiq etmə ("şirlər") yolu ilə manipulyasiya etməyi bacaran fərdlər iki müxtəlif idarəetmə tipi təşkil edirlər. Bunlar da öz növbəsində bir-birini uyğun "qalıqların" tükənməsi nəticəsində əvəz edərək, müvafiq elitanın sonradan onun məhvinə gətirən tənəzzülünə aparır. Əgər hakim elita aşağı siniflərdən lazımi keyfiyyətlərə malik yeni üzvləri kooptasiya etməklə buna maneçilik törətmirsə onda sosial inqilab baş verir ki, bunun da, Paretoya görə, əsl mənası hakim təbəqənin - elitanın şəxsi tərkibinin yeniləşdirilməsidir. Təsərrüfat fəaliyyəti sahəsində "şirlər"ə və "tülkülər"ə "alverçilər " və "rantye" (borc götürənlər) tipləri uyğun gəlir ki, bunların da prototipi kimi biznesmenlər və onların əksi - qiymətli kağızların faiz talonu ilə dolanan cəsarətsiz əmanətçilər çıxış edirlər. Cəmiyyətdə "rantye"nin üstünlük təşkil etməsi cəmiyyətin sonradan çürüməyə başlayacaq sabitliyindən xəbər verir.

Elitaların dövriyyəsi nəzəriyyəsi Pareto yaradıcılığında xüsusi yer tutur. Elitaların dövriyyəsi dedikdə o, elitaların bir sinifdən digərinə və ya bir səviyyədən digər səviyyəyə sürətlə hərəkət etmə qabiliyyətini nəzərdə tutur. Pareto haqlı

olaraq göstərir ki, istənilən cəmiyyətdə elitalar öz siniflərini və ya mövqelərini dəyişməyə çalışır və elitalarla qeyri-elitalar arasında daim qarşılıqlı hərəkət və ya dəyişmə gedir. Elitalar sinif daxilində və siniflər arasında dəyişirlər. Bəzi fərdlər qeyri-elitar qruplardan elitar qruplara daxil ola bilərlər. Eləcə də elitanın bəzi üzvləri cəmiyyətin qeyri-elitar üzvlərinə çevrilə bilər. Müxtəlif amillərdən asılı olaraq (məs., repressiya, inqilab və s.) müxtəlif elitar qrupların üzvləri say, keyfiyyət və əhəmiyyətlərinə görə azala bilərlər. Bu baş verərkən elitalar artıq elita vəziyyətini itirir və tədricən qeyri-elitaya çevrilirlər. Digər tərəfdənsə elitar qrupların bəzi üzvləri yüksək nailiyyətlər əldə etdikdə və ya xüsusi hakimiyyətə malik olduqda onlar xüsusi elitar qrup təşkil etməyə başlayırlar. Pareto göstərir ki, elitaların rütbələrinin bu şəkildə böyüməsi və ya kiçilməsi bütün cəmiyyətlər üçün səciyyəvidir. Pareto Qədim Roma tarixi və İtaliyanın müasir dövründən elitaların dövriyyəsinə dair çoxlu misallar gətirir. O göstərir ki, tam azad cəmiyyətdə elitaların sabit və sərbəst dövriyyəsi olmalıdır. Lakin bu, ideal cəmiyyt üçün belə ola bilər. Elitaların dövriyyəsi tək-tək hallarda maneəsiz olur.

Pareto həm də göstərirdi ki, müharibələr və ya inqilablar vaxtı baş verən böyük sosial sarsıntılar, dəyişikliklər zamanı köhnə elitanın yenisi ilə geniş miqyasda əvəzlənməsi prosesi baş verir.

Paretoya görə, bu və ya digər elitanın hakimiyyətdə qalıb qalmamasından, onun müəyyən hissəsinin və ya bütünlükdə özünün dəyişib dəyişməməsindən asılı olmayaraq, onun cəmiyyətdə əsas mövqeləri tutması və cəmiyyətin inkişaf və tərəqqisini təmin etməsi fakt olaraq qalır. Bu düşüncələr Paretonu sosial dəyişikliyin dövri nəzəriyyəsinə gətirib çıxarır.



### 2.3. Torsteyn Veblen: asudə sinif nəzəriyyəsi

Torsteyn Veblen (1857-1929) Çikago universitetinin iqtisadiyyat üzrə professoru idi. Lakin xarakteri xeyli tünd olduğundan onun karyerası burada çətinliklə baş tutmuşdu. Onun bütün əsərləri arasında "Asudə sinif nəzəriyyəsi" görkəmli və klassik bir əsər kimi tanınmışdır.

Veblenin elitalar nəzəriyyəsinin inkişafına təsiri böyük və əhəmiyyətli olmuşdur. O öz əsərində birbaşa elita anlayışını işlətməsə də "asudə sinif" termini elə bu mənanı verərək operativ termin kimi istifadə edilmişdir.

Veblenə görə, asudə sinif istənilən cəmiyyətdə aparıcı və ya elitar sinfi təşkil edir. Onun fikrincə, hər bir cəmiyyət iki sinfə bölünür: asudə sinif və sənaye sinfi. Asudə sinfi o, yırtıcı, soyğunçu və ya tüfeyli kimi səciyyələndirir. İkinci sinfi isə Veblen sənaye sinfi adlandırsa da bunun altında hər hansı müasir sənaye sinfi və ya Marksın anladığı fəhlə sinfini deyil, sadəcə bütün gününü işləməkdə keçirən bir sinfi nəzərdə tutur.

Asudə sinif aparıcı sinif və ya elitar sinifdir və o, sənaye sinfinin yaratdığı var-dövlətdən və xidmətdən istifadə edir və ümumilikdə isə cəmiyyətin istiqamət və tərəqqisini təmin edir. Sənaye sinfinin başı öz işinə o qədər qarışıb ki, onun inkişaf və tərəqqini təmin edən ideoloji, nəzəri, siyasi və digər tipli problemlərə diqqət yetirməyə belə vaxtı qalmır. Lakin hətta sənaye sinfi öz boş vaxtını ideoloji, nəzəri, siyasi və s. kimi prinsipial problemlərə sərf etməyə imkan tapsaydı belə, asudə sinif buna heç cür yol verməzdi. Asudə sinif cəmiyyətin strukturunu və funksiyasını elə təşkil edir və müəyyənləşdirir ki, siyasət və digər mühüm problemləri dərk etmək üçün lazım olan təhsil, hazırlıq və təcrübə yenə də

onun əlində qalmış olur. Bu yolla hakimiyyət pillələrindəki vəzifələri də o özü tutur.

Veblen göstərir ki, asudə sinif öz daxilində sanki gizli bir işlə məşğul olur. Belə ki, o, üzvlərinin cəmiyyətin strateji və həyati əhəmiyyətli aşağıdakı dörd əsas qruplarında yerləşdirilməsinə diqqət yetirir:

1. ruhanilər;
2. ordu və ya hərbi mütəxəssislər;
3. siyasət, hökumət, idarəetmə və ya bürokratiya, xidmət sahəsində çalışanlar;
4. idmançılar və b.

Veblen razılaşırdı ki, bu dörd kateqoriya arasında idman ən az əhəmiyyət kəsb edir. Lakin idman asudə sinif üçün həm də vacibdir. Belə ki, idmanla məşğul olaraq öz əzələlərini, reflekslərini, komandada işləmək bacarığını, mənəviyyatını, döyüşkənlik təcrübəsini və s. inkişaf etdirir. Bu, asudə sinif üçün gələcək toqquşmalar, yırtıcı və istismar fəaliyyəti və karyerası üçün çox mühümdür.

Veblen göstərirdi ki, asudə sinfin nümayəndələri özlərini hakimiyyət mövqelərinə müxtəlif metodlarla, məsələn, rekrut, varislik və ya başqa yollarla uyğunlaşdırırlar. Onlar bu mövqelərə müvəqqəti deyil, uzunmüddətli bir şey kimi baxırlar. Buna isə müvafiq münasibətlərin, təsisatların, ənənələrin, presedent və praktikanın yaradılması və eləcə də lazımi siyasətin aparılması, qanunların qüvvəyə minməsi və həmçinin müəyyən müqavilələrin bağlanması ilə nail olurlar.

Veblen qeyd edirdi ki, elitar sinfin bütün keyfiyyətlərinin kökü ən qədim dövrlərə gedib çıxır. O, təəssüf hissilə xatırladır ki, yalnız ibtidai cəmiyyətlərdə asudə və qeyri-asudə sinfə bölünmə o qədər aydın deyildi (misal olaraq o,



Hindistanın Nilgiri təpələrində yaşayan Todos icmasını və Britaniya istilasına qədərki Andaman adalarındakı tayfaları göstərir). Bütün digər cəmiyyətlərdə isə bu bölgü mövcuddur. Dəyişən isə yalnız metodlar və ya texnikadır.

Qədim cəmiyyətlərdə baş verənlər mərhələ-mərhələ sonrakı cəmiyyətlərdə də olmuşdur. Qədimdə qadından fərqli olaraq kişi yırtıcı sinif idi. Fərqli fiziki qüvvəsi və ayıqlığına görə kişilər təcavüzkar və ya yırtıcı fəaliyyətə daha çox uyğun gəlirdilər (vəhşi heyvan ovu və s.). Qadınlar isə evdə qalaraq daha passiv əl işləri və ya mexaniki işlərlə, məsələn, xörək bişirmək, ev təsərrüfatını aparmaq, uşaqları tərbiyə etmək və s. ilə məşğul olurdular. Qadın əməyi əhəmiyyətinə görə ikinci dərəcəli və kişiyə tabe bir hal kimi götürülürdü. Lakin Veblen belə qərara gəlir ki, bu vəziyyət nəinki qədim, habelə müasir cəmiyyətlər üçün də səciyyəvidir. Belə ki, asudə sinif müasir cəmiyyətdə mühüm yer tutur və sənaye sinfinə də əhəmiyyətsiz və şərəfsiz işlər görmək üçün şərait yaradır.

Özünün "Asudə sinif nəzəriyyəsi" kitabının "Arxaik xüsusiyyətlərin konservasiyası" adlı fəslində Veblen yazır ki, qədim dövr adamının psixologiyası müasir cəmiyyətdə yenidən bərpa olunmuşdur. "Şücaətin yaşaması" adlı digər fəsildə isə o, müasir cəmiyyətdəki asudə sinfi qədim dövrdəki kişilərin vəziyyəti ilə müqayisə edərək göstərir ki, indi də qüvvə, qəddarlıq, fəndgirlik və digər keyfiyyətlərə malik olduğuna görə asudə sinif digər sinfi özünün yaxşı yaşaması və qüvvətlənməsi üçün lazım olan bütün şeyləri yerinə yetirməyə məcbur edir.

Veblen kişi ilə qadının qarşılıqlı münasibətlərini daha da geniş təsvir edərək göstərir ki, sənaye sinfinin üzvi kimi

qadının müasir cəmiyyətdə rolu qədim zamanlarda olduğu kimidir. Belə ki müasir cəmiyyətdə asudə sinif qadından özünü ev və ev işləri ilə, uşağın tərbiyəsi və kilsəyə getməklə, ibadətlə məhdudlaşdırmağını gözləyir. O, qadının istismardan azad olması uğrunda mübarizəyə - emansipasiyaya o qədər də inanmırdı.

Veblen xüsusi olaraq asudə sinfin öz şan-şöhrətini və cəmiyyətin elitar, lider sinfinə məxsusluğunu nümayiş etdirmək üçün göstərdiyi səyləri geniş təsvir edir. Bu, özünü müxtəlif əşya və hallarda büruzə verir: paltar, tərbiyə, təhsil, incəsənət, ədəbiyyat və mədəniyyət, ziyafətlər, oyunlar və i.a. Veblenə görə, onlar ali sinfə mənsubluğunu göstərmək üçün külli miqdarda xərc çəkirlər. Belə ki, bu xərclər ev tikilməsinə və onun bəzənməsinə, bahalı paltarların alınmasına və ya tikilməsinə və eləcə də elitar təhsil ocaqlarında təhsil almağa sərf olunur. Onlar, məsələn, ona görə bahalı paltar alırlar ki, ucuz paltonu kasıb adam geyinir və əgər ucuz palto geyilərsə onlar da kasıb görünə bilərlər. Rahatlıq onlar üçün o qədər də böyük əhəmiyyət kəsb etmir. Daha çox diqqəti isə geydikləri paltarı nümayiş etdirməyə verirlər. Misal olaraq, o, hündürdabanlı fransız qadın ayaqqabılarını göstərir: rahat olmasa da yaraşığına görə onlar yüksək qiymətləndirilirlər. Başqa misalda o göstərir ki, Qərbi Avropa ölkələrində evlərin qabağında çox təmtəraqlı yaşıllıqların salınmasına böyük miqdarda pul xərclənir ki, bu da ev sahiblərinin yüksək nüfuz sahibi olduqlarını nümayiş etdirməyə xidmət edir.

Beləliklə, biz Veblenin asudə sinif və ya elitalar haqqındakı fikirlərini nəzərdən keçirdik. İndisə onun fikirləriylə razılaşmadığımız bəzi yerləri göstərək:



1) Veblen fikirlərini ifadə edərkən müəyyən mənada ifrata varır. Belə ki, onun üçün istənilən cəmiyyət qeyd etdiyi iki sinfə bölünür. Lakin bu heç də verilən cəmiyyəti səciyyələndirmək üçün kifayət etmir.

2) Asudə sinif tərəfindən müxtəlif malların istehlakının və xidmətin mənasızlığını göstərməyə çalışaraq o, insan psixikasının xüsusiyyətini unudur. Çünki ev tikərkən, paltar geyinərkən, yemək yeyərkən, müxtəlif ev heyvanları saxlayarkən, universitetə və ya musiqi məktəbinə gedərkən insanlar təkcə öz fiziki ehtiyaclarının qayğısına qalmırlar. Onlar həmçinin öz psixoloji ehtiyaclarını ödəyərək, sahibi olduqları əşyaları başqalarına göstərməyə can atırlar. Bu isə insan psixologiyasıdır. Daha sonra göstərməliyik ki, özünü nümayiş etdirməyə (ekzibisionizm) və ya zövqünü təmin etməyə can atma təkcə asudə sinfə aid deyil. Bu həmçinin sənaye sinfinə də aiddir. Yəni psixoloji cəhətdən bu hislər və ya xüsusiyyətlər bütün insanlara məxsusdur.

3) Asudə sinfi tüfeyli, sənaye sinfini isə ağır işlə məşğul olan kimi qələmə verməkdə Veblen heç də haqlı deyildir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bəşər tarixində ən dəyərli və qiymətli sənət əsərlərinin və s. mümkünlüyü və həyata keçirilməsi asudə sinif tərəfindən reallaşdırılmışdır. Müxtəlif fəlsəfi təlimlər, elmlər, texnologiyalar, evlər, şəhərlər, bağlar, qalereyalar, musiqi məktəbləri, universitetlər, fabriklər və s. və i.a onların səyinin nəticəsidir.

Beləliklə, əgər Veblen göstərsəydi ki, hər kəs asudə sinfə mənsub olmaq imkanına malikdir və bununla da heç kimi mühakimə etməyə dəyməz, bu daha elmi və müdrik olardı.

Müasir elm və texnika, iqtisadi istehsal sistemlərinin

inkişafı nümayiş etdirir ki, hər kəs ağır və üzücü əməkdən azad olmağa və eyni zamanda istədiyi şəkildə yaşayışını təmin etmək üçün asudə vaxtını artırmağa qadirdir. Hazırda dünyanın inkişaf etmiş ölkələrində 8-saatlıq iş günü əvəzinə 5-3-saatlıq iş günündən söhbət gedir. Unutmamalıyıq ki, XVIII-XIX əsrlərdə iş günü 16 və ya daha çox saat idi.

Beləliklə, bu gün asudəlik kiminsə imtiyazı olmayaraq, hər bir adam üçün ən mümkün bir vəziyyətdir. Veblenin bölgüsü bu gün üçün o qədər də aktual deyildir.

Nəhayət, qeyd etməliyik ki, asudə sinfin təhlilində düzgün və faydalı fikirləri qəbul etməklə yanaşı, onun çatışmazlıqlarına da göz yummaq olmaz.

### 2.4. Çarlz Rayt Mills: hakim elita nəzəriyyəsi

Çarlz Rayt Mills (1916-1962) Kolumbiya universitetinin professoru olmuşdur. O, öz tədqiqat işlərində elita probleminin müxtəlif aspektlərindən bəhs etmişdir. Onun əsərləri arasında bu nöqteyi-nəzərdən ən əhəmiyyətlisi kimi "Hakim elita"nı göstərmək olar. Bu əsər Amerika reallığını əks etdirsə də bir tədqiqat əsəri kimi, ümumiyyətlə, böyük əhəmiyyt kəsb edir.

Millsə görə, Amerikanın hakim elitası aşağıdakılardan ibarətdir:

1) hərbçilər və ya ordunun aparıcı üzvləri;
2) biznes, maliyyə və bank sahələrində yüksək mövqe tutanlar və nəhayət,
3) bürokratiya və inzibatçılar.

Millsin fikrincə, elitanın bu aparıcı üç sinfi arasında yüksək səviyyədə qarşılıqlı anlaşma və ellik zəmanət mövcuddur. Bu cür münasibət də elə elitanın bu günə kimi



mövcudluğunun əsas səbəbi olmuşdur. Mills belə bir fakta müraciət edir ki, silah istehsalı ilə məşğul olan biznesmen hərbi elita ilə yüksək səviyyəli münasibətlərindən böyük miqdarda fayda götürür.

Mills yazır ki, təqaüdə çıxmış zabitlər və onlar arasında əsasən strateji vəzifə tutanlar biznes və maliyyə dünyasında çox gəlirli mövqeyə malikdirlər. Bu o deməkdir ki, hərbi elita ilə biznes və maliyyə elitası arasında qarşılıqlı anlaşma, müqavilə və sıx ünsiyyət mövcuddur. Bürokratik və inzibati elita da bu iki elitar sinif ilə sıx əlaqə saxlayaraq onlara münasibətdə yardımçı və dayaq rolunu oynayır.

Mills qeyd edir ki, Amerika onun əhalisinin bütün təbəqələrini əhatə edən həqiqi elitaya malik deyildir. Buradakı elitalar ənənəvi şəkildə hərbçilər, biznes və maliyyə dünyası və eləcə də bürokratiyanı təmsil edən aparıcı şəxslərdən ibarətdir. Amerika cəmiyyətində elitalar ayrı-ayrı şəxslərin nail olduqları müvəffəqiyyətlər hesabına mövcuddur. Lakin bu fikir bir qədər şişirdilmiş kimi görünür. Çünki əslində müasir elita ya ənənə, ya ailə mənsubiyyəti, ya varislik, ya da ki hər hansı bir vəzifəyə təyin olunma prinsipi əsasında mövcuddur. O bir neçə misal gətirərək göstərir ki, hərbi elitanın üzvləri bura kim tərəfindənsə təyinatla, orduya əsgər çağırılması ilə və ya hərbi iyerarxiyanın qeyri-xidməti pillələrində irəliləmələrinə görə daxil olurlar. Biznes, maliyyə, bank və müxtəlif kompaniya və korporasiyalar dünyasındakı elita üzvləri burada ona görədirlər ki, onlar ya bu elita daxilində doğulmuşlar, ya da ki, öz atalarının ad-sanlarını miras almışlar. Məsələnin daha da aydın olması üçün biznes, maliyyə, bank və s. sahələrdə həlledici qərarlara görə məsuliyyət daşıyan texnokratları və menecerləri göstərə

bilərik. Lakin bu ənənəvi (sonradan qazanma yox) elitalara şamil edilə bilər. Məsələn, ABŞ-ın Harvard, Çikaqo, Kolumbiya, Stenford və d. adlı-sanlı universitetlərinin biznes məktəblərini bitirmiş və biznes idarəetməsi sahəsində dərəcəyə malik ağ dərili protestant ailəsindən olan gənc oğlan və ya qızlar öz sahələrində yüksək mövqe tutur, biznes-maliyyə sahəsində hakim elita olurlar. Bürokratlara və ya inzibatçılara gəldikdə, Mİlls göstərir ki, ABŞ-da onların təsiri tarixi və siyasi faktorlar ucbatından xeyli məhdud və zəif olmuşdur. Amerikada Avropada olduğu kimi yaxşı inkişaf etmiş və müntəzəm bürokratiya yoxdur. Bürokratiyanın zəif qalmasının səbəblərindən elitanın özünün zəifliyini və onun digər iki növünün - hərbi və biznes-maliyyə elitalarının qeyri-müəyyən rollara və işə malik olmalarını göstərmək lazımdır.

Göstərilən ənənənin və inkişafın nəticəsi olaraq, Amerika elitası, yəni hakim elita nəinki qeyri-reprezentativdir, o, həm də özünün formalaşmasında və fəaliyyətində məsuliyyətsizdir. Mills göstərir ki, bu üç elita tipi üçün birləşmək və ölkəni istənilən səmtdə aparmaq adi bir haldır.

"Hakim elita" əsərində Mills "Ən yüksək mənəviyyatsızlıq" adlı fəsli Amerikanın hakim elitasının qeyri-reprezentativliyi və qeyri-qanuniliyinin təsvirinə həsr etmişdir. O, təkrar olaraq qeyd edir ki, elitalar hakimiyyətə xüsusi keyfiyyətlərinə görə deyil, digər səbəblərə - mənşəyinə, varisliyə, təyinata və s. görə malikdirlər. Kitabının sonunda o bir daha qeyd edir ki, amerikalılar klassik mənada qəbul ediləcək və doğrudan da fəxr olunmalı elitaya və ya liderlərə malik deyillər.

Mills öz analizi əsnasında bunun bir neçə səbəbini göstərir:



1. Amerikada tarixən Avropa ölkələrində olduğu kimi aristokratlar və ya zadəganlar sinfi olmamışdır. 1777-ci il Amerika inqilabı və müstəqillik uğrunda müharibə nəticəsində bir çox aristokrat ailələr ya İngiltərəyə köçmüş, ya da ki, burada qalaraq daha eqalitar və ya demokratik münasibətlər, əhval-ruhiyyə və həyat tərzini qəbul etmişlər. Nəticə etibarı ilə, müəyyən vaxt ərzində Amerikada aristokrat və zadəganlardan iz-toz belə qalmamışdır. Amerikalılar bərabərhüquqlu millət kimi formalaşıblar.

2. Zəif inkişaf etmiş bürokratiyanın olmasının səbəbi haqqında müəyyən dərəcədə söhbət açmışıq. Ənənəvi olaraq Amerika bürokratiyası və xüsusən də onun yuxarı pilləsi hakimiyyətə gələn yeni prezidentlə gəlmiş və hakimiyyətdən uzaqlaşan prezidentlə də tutduğu vəzifələrdən uzaqlaşmışdır. Bu - *spoylz* sistemi (seçkilərdə qalib gələn partiyanın tərəfdarları arasında dövlət vəzifələrinin bölüşdürülməsi) adını almışdır. Bu sistem öz başlanğıcını 1820-ci illərdən, prezident Endryu Ceksonun vaxtından götürür. Mills göstərir ki, zəif bürokratiya hakimiyyətdə hərbiçilərin və bankirlərin, biznesmenlərin köməyi sayəsində qalır və onlardan kömək alır.

3. Mills elitaya məxsus digər tipləri - intellektualları, yazıçıları, kino ulduzlarını, moda qanunvericilərini, modelləri və b. göstərir və qeyd edir ki, onlar cəmiyyətdə qeyri-sabit, marginal və ya qeyri-effektiv rol oynayırlar. Millsə görə, onlar Amerikanın hakimiyyət sistemində elə bir əhəmiyyətli rol oynamırlar. Bu adamlara sitayiş olunsa da, onlar geniş reklam olunsalar da nəticə etibarı ilə Amerika cəmiyyətində aparıcı rol oynaya bilmirlər. Bu məhşur şəxslərin təsvirinə isə Mills bütöv bir fəsil həsr edərək onların cəmiyyətdə nisbətən az olan təsir və rolunu sübut etmişdir.

## 2.4. Harold Lassuelin psixoloji yanaşması

Professor Harold Lassuel (1902-1978) elita probleminə psixoloji mövqedən yanaşma nümayiş etdirmişdir. Onun fikrincə, hakimiyyət probleminə psixoloji yanaşma və müəyyən bir cəmiyyətdə elitalar tərəfindən hakimiyyətdən istifadə onların müxtəlif tiplərinin formalaşması və fəaliyyəti haqqında qiymətli biliklər verə bilər. Lassuel özünün "Hakimiyyət: kim nə, nə vaxt və harada əldə edir?" adlı görkəmli əsərində elitaların müqayisəsi də daxil olmaqla bir sıra maraqlı fikirlər irəli sürmüşdür. Onun yanaşmasında cəmiyyətdə hakimiyyət mənbələrini tutmuş və ya ələ keçirmiş, yaxud nəzarətdə saxlayan müxtəlif fərdlərə münasibət bildirilir və buna görə də bu insanların elita olmaları göstərilir. Lassuel aşağıda verilən cədvəldəki müxtəlif tip özül dəyərlərdən yaranan müxtəlif növ elitalardan bəhs edir.[1]

**Elitanın quruluşuna görə idarəetmə formaları**

**Cədvəl 1.**

| Özül dəyərlər | Elita | İdarəetmə | İdarə edənlər |
|---|---|---|---|
| Hakimiyyət | Məmurlar | Bürokratiya | Bürokratlar |
| Hörmət | Zadəganlar | Aristokratiya | Aristokratlar |
| Düzgünlük | Ədalətli | Etokratiya | Etokratlar |
| Bağlılıq | Tanınmış | Demosokratiya | Demosokratlar |
| Rifah | Cəsur | Virokratiya (cəsurların hakimiyyəti) | Virokratlar |
| Var-dövlət | Varlı | Plutokratiya | Plutokratlar |
| Bacarıq | Bacarıq | Texnokratiya | Texnokratlar |
| Maariflənmə | Rəmzlər | İdeokratiya | İdeokratlar |

[1]H. Lasswell, A. Kaplan. Power and Society: a Framework for Political Inquiry. p.78



Lassuelin tədqiqat nəticəsində gəldiyi əsas qənaətlərdən biri ondan ibarətdir ki, elitalar içərisindən çaxdıqları insan qruplarına həmişə həssas və məsul olurlar. Bu aydın və mühümdür, çünki onlar öz təyinatlarına görə törədikləri əsasa hörmət etməlidirlər və onlar effektiv fəaliyyət göstərmək və ya hakimiyyətdən yararlanmaq üçün aramsız olaraq bu əsas qarşısında məsuliyyət daşımalı və hesabat verməlidirlər.

## 3. Sinfi münaqişə və konsensus

Sinfi münaqişə ideyası prinsipcə K.Marksın cəmiyyətin "maddi bazası"na yönəltdiyi diqqətdən irəli gəlir. Bizim üçün burada əsas fikir aşağıdakılardan ibarətdir: hər bir cəmiyyətin iqtisadi təşkili fərdlərin maraq və fəaliyyətini təmin edir; maraq müxtəlifliyi və mümkün münaqişə əsasında qruplar bir-birilə müxalifətdə birləşə bilərlər. Marksın tarixi materializm nəzəriyyəsinə görə, cəmiyyətin intellektual və siyasi həyatını son nəticədə istehsalın təşkili müəyyənləşdirir. Lakin sosiologiya belə bir müvqedən çaxış edir: kollektiv fəaliyyət heç də iqtisadi maraqların labüd nəticəsi deyildir; eyni iqtisadi mövqeni tutan fərdlər arasında qarşılıqlı əlaqə mədəni, sosio-psixoloji və situativ şərtlərlə müəyyənləşir. Bu şərtlər fərdlərin iqtisadi mövqeyi və kollektiv fəaliyyətinə müdaxilə edərək iqtisadi marağı formaca dəyişdirir.

XIX əsrdən bəri sosioloqlar kollektiv fəaliyyətin təhlilini ya iqtisadi marqlar, ya da ki, mədəni və institusional konsensus mövqelərindən vermişlər. Sosial davranışa həsr olunmuş əksər tədqiqatlarda sinfi hərəkat və b. bu kimi problemlərdən bəhs olunur.

## 4. Bürokratiya və oliqarxiya

Əgər sinfi münaqişə və konsensusla bağlı qayğı XIX əsr reallığından yaranmışdısa, bürokratiya və oliqarxiyaya maraq sırf XX əsr fenomenidir. Bunun səbəbləri aydındır: əgər "konsensus" problemi Sənaye İnqilabının (1760-1830) dağıdıcı nəticələrindən və mütləqiyyətdən demokratik rejimə keçiddən meydana gəlmişdisə, "sinfi münaqişə" problemi sənaye cəmiyyətindəki dəyişikliklərin dinamikasını əks etdirirdi.

Bu şəraitdə bürokratiya ona qarşı mübarizə aparılmalı bir bəla kimi ortaya çıxmışdı. Mühafizəkarlar belə bir mövqedən çıxış edirdilər: dövlət cəmiyyətin üzvi şəkildə inkişafına mane olur, liberallar və radikallar isə insan haqları və azadlıqları ilə özbaşına rəftar edirdilər. Eyni zamanda, tədqiq edilməsinə baxmayaraq oliqarxiya problem kimi qəbul edilmirdi. Silki dövlətin romantik obrazı ilə öyünən mühafizəkarlara görə, bütün hökumətlər özündə azlığın idarəçiliyini ehtiva edirdi. Onlar üçün ideal hökumət silkləri təmsil edən aristokratiya idi ki, bu da demokratiyadan üstün tutulurdu. Radikallar üçünsə hökümət xalq tərəfindən qarşısı alınmalı olan hakimiyyətin özbaşına qəsb edilməsi idi. Qəsb olunan hakimiyyət ilə xalqın hakimiyyəti arasındakı bu münaqişədə "oliqarxiya" hökumət üçün ciddi bir problem kimi çıxış edirdi.

Siyasi sosiologiyaya dair digər nəzəriyyələri isə sonrakı fəsillərdə daha ətraflı nəzərdən keçirəcəyik.



# FƏSIL 3. SIYASI VƏ QEYRI-SIYASI SISTEMLƏR

## 1. Sistem anlayışı

Sistem haqqında danışarkən aşağıdakılar nəzərdə tutulur:

1. Hər hansı bir kollektiv varlıq, təşkilat və ya birlik;
2. Hər hansı bir sistemin kökündə duran, onu məlumatlandıran, izah edən və hərəkətə gətirən prinsiplər;
3. Sistemi təşkil edən bir sıra institutlar və ya assosiasiyalar;
4. Sistemi fəaliyyətdə səciyyələndirən müəyyən quruluş, prosedurlar, proses və ya funksiyalar;
5. Sistemi hərəkətə gətirən müəyyən operatorlar və ya elementlər.
6. Sistemin yaradılması, inkişafı, funksiyası və ya işləməsi üçün lazım olan vaxt elementi. Bu element müəyyən zaman çərçivəsində mövcud olan tarixi, ənənələri, adətləri və s. nəzərdə tutur.

Yuxarıda adları çəkilən geniş sistemlər şəbəkəsi müxtəlif sistemlərin (məs., siyasi, iqtisadi, sənaye, sosial, təhsil, mədəni, dini və d. sistemlərin) fərqli cəhətlərini səciyyələndirir.

## 2. Siyasi sistem anlayışı

Siyasi sistemin əsas xüsusiyyətlərini aşağıdakılar təşkil edir:

1) Siyasi sistem bir sıra amillər və ya prinsiplərlə səciyyələnən mürəkkəb bir sistemdir. Müxtəlif tipli və ya məzmunlu siyasi sistemlər mövcuddur: Qərb, Şərq, Şimal və

Cənub sistemləri; demokratik, diktator və ya kommunist sistemləri; imperiya, monarxiya və ya konstitusiyalı monarxiya sistemləri; konfederativ və ya federativ və s. Bu müxtəlif hakimiyyət sistemlərini səciyyələndirən prinsiplər bir-birindən xeyli fərqlənir;

2) Müxtəlif siyasi sistemləri təşkil edən yuxarıda təsvir edilən müxtəlif institut və ya assosiasiyalar da öz növbəsində ayrı-ayrı institut və ya assosiasiyalardan ibarətdir: (məs., ordu, polis, parlament və s.). İnstitut və ya assosiasiyalar inzibati şəbəkə və ya agentliklərə, məsələn, bürokratiyaya, məhkəməyə və s. malik ola bilərlər. Siyasi sistemin başqa əhəmiyyətli sahələri, məs., siyasi partiyalar, lobbi və ya təsir qrupları haqqında da danışmaq olar. Burada qeyd etmək yerinə düşər ki, siyasi sistemə sosial, təhsil, mədəni, dini, iqtisadi, sənaye və s. sistemlər təsir göstərir və eyni zamanda onlar özləri də siyasi sistemin təsirinə məruz qalırlar;

3) Sistemi fəaliyyətdə səciyyələndirən müxtəlif prosedur və proseslər;

4) Siaysi sistemi idarə edən və siyasi sistemin sağlamlığından və nasazlığından təsirlənən insanlar. Müxtəlif siyasi sistemlərdə onlar müxtəlif adlarla çıxış edirlər: imperator, monarx, kral, prezident, baş nazir, oliqarx, despot, diktator və s. Onlar eyni zamanda qanunverici, deputat, hakim, hərbiçi, polis və s. kimi tanına bilərlər;

5) Siyasi sistemi səciyyələndirən vaxt elementi. Müxtəlif vaxtlarda fəaliyyət göstərmiş müxtəlif siyasi sistemlər mövcud olmuşdur. Məs., Britaniya parlamentinin tarixi 700 il bundan əvvələ gedib çıxır. Amerika siyasi sistemi 200 ildən artıqdır mövcuddur. İsrail, Pakistan



qanunvericilik orqanlarının yaşı 60 ildən yuxarıdır. Müstəqil Azərbaycan Respublikasının siyasi sistemi iyirmi illik tarixə malikdir.

### 3. Siyasi sistemlə qeyri-siyasi sistemin qarşılıqlı münasibəti

Siyasi sistemlə sosial sistemin qarşılıqlı münasibətləri aşağıdakıları əhatə edir:

a) ailə sistemi;
b) sinfi sistem;
c) kasta sistemi;
d) dini sistem;
e) təhsil sistemi;
f) iqtisadi və ya sənaye sistemi.

Bu münasibətlər çoxtərəfli və rəngarəngdir.

Hər hansı bir cəmiyyət və ya dövlət bütünlükdə çoxlu qruplar, sinif və ya birliklərdən ibarətdir. Bunların hər bir üzvü digərinin üzərində müəyyən hakimiyyətə malikdir. Məsələn, qayda-qanunu pozduğuna görə hər hansı bir tələbə universitetdən qovula bilər; müəyyən bir icmanın dini rəhbəri hər hansı bir oğlan və qızın evlənməsinə onların icmaya qarşı müəyyən hərəkətlərinə görə icazə verməyə bilər. Beləliklə, müxtəlif qeyri-siyasi birliklər öz təqsirkar üzvlərinə qarşı müxtəlif sanksiyalar - narazılıq bildirmək, cəza vermək, maneə olmaq və s. tətbiq edə bilərlər. Lakin təqsirkar üzvlərə qarşı nə qədər ciddi və ya sərt cəza tədbirinin işlədilməsinə baxmayaraq, onlara heç bir vaxt ölüm hökmü kəsilə bilməz. Deməli, qeyri-siyasi sistemlər öz üzvləri üzərində icbari hakimiyyətə malikdirlər. Onlar öz üzvlərinin həyatı və ölümü üzərində mütləq icbari

hakimiyyətə malik deyillər. Bu cür hakimiyyətə siyasi sistem malikdir. Hər hansı bir ciddi cinayətdə (məsələn, terrorizmdə) günahlandırılan müəyyən şəxs lazım gəldikdə siyasi sistem tərəfindən ölümə məhkum edilə bilər. Siyasi sistem və ya dövlət təqsirkar olan və ya cinayət törətmiş şəxsləri cəzalandırmaqdan ötrü çox baha başa gələn və səylə yaradılmış ordu, polis, məhkəmə, həbsxana və s. kimi institutlara malikdir.

### 4. Sosial sistem (ailə sistemi) və siyasi sistem

Min illər boyu ailə sosial və siyasi həyatın əsas və universal vahidlərindən biri kimi çıxış etmişdir. Müxtəlif tip ailələr mövcud olmuşdur: geniş (qədim) və ya nuklear (müasir) ailələr. Ailə həmişə sosial və siyasi sistemin əsas qurucusu kimi çıxış etmişdir. Bütün dövrlərdə ailə müəyyən funksiyalar yerinə yetirmişdir: bioloji, iqtisadi, təhsil, dini və siyasi. Bu funksiyalar dövlətin funksiyasına da çox yaxındır. Belə demək olar ki, ailə dövlət makrokosmunun mikrokosmudur.

İndisə ailənin müxtəlif funksiyalarını nəzərdən keçirərək: ailənin siyasi sistemə və əksinə, siyasi sistemin ailəyə təsirini araşdıraq.

Bioloji funksiya. Hər bir ailə cəmiyyətin üzvlərinin sayının artmasına və bununla da sosial və siyasi həyatın davam etdirilməsinə yardım göstərmiş olur.

İqtisadi funksiya. Müxtəlif dövrlərdə ailə iqtisadi vahid və ya istehsal, bölgü və istehlak vasitəsi kimi fəaliyyət göstərmişdir. Ənənəvi və ya aqrar ailələr iqtisadi vahid kimi çıxış etmişlər. İnkişaf etməkdə olan ölkələrdə ailə indi də bu funksiyanın daşıyıcısı kimi çıxış edir.



Tərbiyəvi funksiya. Valideynlər uşaqlarına tərbiyə verməklə və müəyyən bacarıqları öyrətməklə onlara sosial cəhətdən əhəmiyyətli dəyərlər aşılamağa, adətlər başa salmağa, peşə verməyə və s. çalışırlar. Yəni uşaqlar əvvəlcə ata-ana və digər böyüklərin nəzarəti altında olur, müxtəlif cür tərbiyə, məlumatlar alır və təsirə məruz qalırlar. Bu, tərbiyə xüsusi bir fəaliyyət sahəsinə çevrilənə qədər belə olmuşdur. Müasir dövrdə isə ailənin tərbiyəvi funksiyası xeyli dərəcədə təhsil sistemi, kütləvi informasiya və kommunikasiya vasitələri tərəfindən alınmışdır.* Müasir ailədə çox vaxt valideynlər uşaqları evdə tək qoyur və onlar televizorla təklikdə qalırlar. Televiziyadan, internetdən və s. kiçik uşaqlar lazımlı şeylərlə yanaşı faydasız olan çox şey öyrənirlər. Bütün bunlar da öz növbəsində hazırda tərbiyənin əhəmiyyətli dərəcədə ailənin nəzarəti altından çıxdığından xəbər verir.

Dini funksiya. Ənənəvi olaraq ailə geniş mənada dini inamın yaranması və onun üstünlük təşkil etməsi, dini dünyagörüş və ya uşaqların tərbiyəsi üçün həmişə məsuliyyət daşımışdır.

Siyasi funksiya. Məlumdur ki, ailə həmişə hər hansı bir siyasi birliyin, cəmiyyət və ya dövlətin əsas vahidi olmuşdur. Aristotel başda olmaqla bir çox filosoflar ailəni siyasi sistemin əsas elementi hesab etmişlər. Onlar ailədə atanın rolu ilə dövlətdə hökmdarın rolu arasında paralel

* Bu gün azyaşlı uşaq artıq bütün vaxtını evdə keçirmir: o, əvvəlcə, körpələr evi, uşaq bağçasına qədəm qoyur, bir az sonra isə ibtidai və orta məktəbə gedir. O, istəsə axırıncı sinfə qədər oxuya, yaxud təhsilini texniki-peşə məktəbində davam etdirə bilər. Məktəbi yaxşı bitirənlər kollec və ya universitetlərə daxil olurlar. Beləliklə, uşaq 16-17 yaşına qədər ailə ilə yanaşı kənar tərbiyə və təhsil də alır.

aparmış, ailəyə kiçik siyasi sistem kimi yanaşmışlar. Müasir dövrdə sistem analizin nümayəndələrindən olan Devid İston, Qabriel Almond, Binqam Pauel ailəni siyasi sistemdə həll-edici rol oynayan çox mühüm bir subsistem kimi götürürlər.

Müxtəlif dövrlərdə müxtəlif ölkələri müxtəlif ailələr idarə etmişlər. Hətta bu günün özündə Böyük Britaniyada, Hollandiyada, İsveçdə, Yaponiyada, Nepalda və digər ölkələrdə vəziyyət belə qalmaqdadır. Bu da həqiqətdir ki, hər hansı bir ölkənin siyasi tarixini öyrənməyə çalışan tarixçilər həmin ölkələrdəki idarə edən (və ya etmiş) ailələrin də siyasi tarixini öyrənməli olurlar. Bu səbəbdən onların genealogiya cədvəlinə, ailə şaxələrinin və d. tipli diaqramların yaradılmasına niyə diqqət yetirmələri heç də təəccüblü görünmür.

Ailənin təsir dairəsi təkcə krallar və ya imperatorların, sultanların mövcud olduğu siyasi sistemlərlə məhdudlaşmır. Ailələr demokratik və ya qeyri-avtokratik sistemlərdə də siyasi sistemə güclü təsir göstərə bilərlər. Məsələn, Hindistanın masir siyasi tarixində 30 il ərzində Nerular ailəsinin təsiri çox güclü olmuşdur. Bu ailədən Cavahərləl Neru və İndira Qandi, sonrasa onun oğlu Raciv Qandi baş nazir vəzifəsində çalışmışlar. Nerular ailəsindən təkcə baş nazirlər deyil, həmçinin digər nüfuzlu siyasi liderlər də çıxmışlar.

ABŞ-da Kennedilər ailəsi siyasi sistemə əhəmiyyətli təsirə malik olmuşdur (məs., Con, Robert və Edvard Kennedi qardaşları). İngiltərə siyasi sisteminə isə Çörçillər ailəsi çox ciddi təsir göstərmişdir. 500-ə yaxın amerikalı ailəsi buradakı kapitalist strukturuna nəzarət edir. Fordlar və Rokfellerlər ailələrinin Amerika siyasi sisteminə təsiri buna misal ola bilər.

Ailə siyasi sistemə təsir göstərdiyi kimi, siyasi sistem



də ailəyə təsir göstərir. Bunu müxtəlif işgüzar sahələr üzərinə qoyulan kvotalar, icazələr, lisenziyalar və d. məhdudiyyətlər və ya nəzarətlərdə görmək olar.

Ailə təkcə siyasi sistemdə birbaşa rola malik deyildir. O, həmçinin siyasi sistemə güclü təsir göstərən qeyri- siyasi sistemdə də əhəmiyyətli rol oynayır.

## 5. Sosial sistem (sinfi sistem) və siyasi sistem

### 5.1. Sinif sisteminin səciyyəsi

Geniş mənada sinif aşağıdakı kefiyyətlərlə səciyyələnir:

1. Say;
2. Sənət, peşə, mülkiyyət, fəaliyyət və s.;
3. Gəlir, var-dövlət, əmlak və s.;
4. Həyat tərzi, yaşayış, qidalanma, əyləncə, ziyafət, zövq və s.;
5. Dil, dialekt, nitq, ləhcə və s.;
6. Status və sinfi rəmzlər: geyim, dəb, nəqliyyat və rabitə vasitələri, evlər, yaşayış yerinin harada yerləşməsi; müvafiq məişət texnikasına (məs., televiziyaya, soyuducuya, kompyuterə və s.) malik olması və s.

### 5.2. Sinfin təbiəti və rolu

İstənilən cəmiyyət və ya əhali bir neçə qrupa bölünür. Bu qruplar böyük və ya kiçik, eləcə də müxtəlif tipli ola bilərlər. Qrupların tipologiyası və ya təsnifatı müxtəlif prinsiplər, əlamətlər və ya fikirlər əsasında aparıla bilər. Bir sıra alimlər "sinifsiz" cəmiyyətin qurulmasına inanırlar. Lakin təcrübə göstərir ki, insanlar həmişə müxtəlif qruplara bölünürlər və əgər müəyyən qrupları ləğv etsək, onların

yerində yenisi yaranacaqdır. Belə ki, sinfi sistemə son qoymaq olar. Lakin bu vaxt həmin sinfi sistemin yerini tutacaq yeni qruplar sistemi yaranacaqdır. Belə ki, Aristotelə görə, insan - sosial heyvandır. O, cəmiyyətdə qruplar halında yaşayır. Bu qruplara tayfalar, klanlar, siniflər, kastalar və s. aiddir. Qrupsuz və ya sinifsiz cəmiyyətin özü elə ziddiyyətlidir. Deməli, qrupsuz və ya sinifsiz cəmiyyət mümkün deyildir.

İstənilən cəmiyyət müəyyən qruplara bölündüyündən və eyni zamanda bölünənlər də daha kiçik qruplara bölündüyündən belə bir sual meydana çıxa bilər: bu qrup və ya siniflər necə formalaşır və ya yaranır? Müxtəlif siniflər aşağıdakı prinsiplər əsasında yaranır və mövcud olur:

1. İrqi və ya etnik amillər;
2. İqtisadi amillər (gəlir, var-dövlət, mülkiyyət);
3. Sosial, fəlsəfi, mədəni, tərbiyəvi və linqvistik amillər.

### 5.3. İrqi və ya etnik amillər

Hələ çox-çox əvvəllərdən insanlar irqi və milli-etnik amillərə görə bölünmüşlər. Məsələn, Hindistanda əhali arianlara və dravidianlara bölünürdü. Hazırda isə bir çox dövlətlərdə əhali irqi xüsusiyyətlər və əsasən də dərisinin rənginə görə qruplara bölünür. Məsələn, Amerika cəmiyyəti irqi nöqteyi-nəzərdən aşağıdakılara bölünür:

- ağlar,
- qırmızı dərili hindular,
- zəncilər və ya qaralar,
- puerto-rikolılar,
- qarışıq əhali,



- şərqlilər (sarılar, xüsusən çinlilər və yaponlar),
- qəhvəyi dərililər (hindlilər, pakistanlılar, banqladeşlilər və s.).

Lakin bu ölkədəki ağların özləri də irqi, etnik, milli və d. xüsusiyyətlərinə görə bölünürlər. Ağların özlərini mənsub olduqları ölkəyə görə aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

1. Birinci üstünlük verilən sinif - Britaniya, Almaniya, Fransa, Hollandiya və mədəni cəhətdən digər oxşar Orta Avropa ölkələrindən olan ağlar;

2. İkinci üstünlük verilən sinif - Rusiyadan və d. Slavyan ölkələrindən olan ağlar;

3. Üçüncü üstünlük verilən sinif - İspaniya, Portuqaliya, İtaliya və d. Cənubi Avropa ölkələrindən olan ağlar.

Bu cür təsnifatın siyasi nəticələri çox böyük əhəmiyyət kəsb edə bilər. Məsələn, məlumdur ki, Amerikada ağlar qeyri-formal olaraq birinci dərəcəli vətəndaşlar kimi qəbul olunurlar. Bu, Britaniyada da belədir. Bu və ya digər ölkələrdən olan qəhvəyi və ya qara dərililər ikinci dərəcəli vətəndaşlar kimi qəbul olunurlar.

### 5.4. İqtisadi amillər (gəlir, var-dövlət, mülkiyyət)

İqtisadi amillərin müxtəlif insan siniflərini müəyyənləşdirməkdə rolu inkaredilməzdir. Əhalini onların aylıq gəlirlərinə, var-dövlətinin və mülkiyyətinin miqdarına görə bölmək olar. Tarix boyu insanlar malik olduqları torpağın həcminə, evlərin sayma, qaş-daşın miqdarına, pulun və ya kreditin sayına görə təsnif olunmuşlar.

Burada Marksdan danışmaq daha yerinə düşərdi. O, sinifləri iqtisadi cəhətdən səciyyələndirir və göstərir ki, bəşər

tarixi sinfi mübarizədən başqa bir şey olmamışdır və həmişə də varlılarla kasıblar, fəhlələrlə kapitalistlər və b. arasında mübarizə olmuşdur. Bu iqtisadi təsnifat o qədər mühümdür ki, bütün başqa bölgülər, məsələn, təhsilə, mədəniyyətə, ədəbiyyata, fəlsəfəyə, elmə, musiqiyə və s. görə təsnifat arxa plana keçir. Hətta hər hansı bir xalqın malik olduğu fəlsəfə və ya musiqi də buradakı mövcud iqtisadi siniflərlə müəyyənləşir. Bura mədəniyyəti, ədəbiyyatı və s. aid etmək olar.

### 5.5. Sosial, fəlsəfi, mədəni, təhsil və linqvistik amillər

Yuxarıda adları çəkilən amillər də müxtəlif sinifləri müəyyən edir. Belə ki, sənət, peşə, xidmət və ya gördükləri işə görə insanlar təsnif edilə bilər. Məsələn, biz müxtəlif növ həkimlər, bankirlər, mühəndislər, hüquqşünaslar, müəllimlər, ruhanilər və d. haqqında danışa bilərik. İnsanlar müxtəlif siniflərə həm də malik olduqları və olmadıqları təhsil dərəcəsinə görə bölünə bilərlər:

1. savadsızlar, 4. magistr dərəcəsi olanlar,
2. yarı-savadlılar, 5. fəlsəfə doktoru dərəcəsi olanlar,
3. savadlılar, 6. müxtəlif peşə dərəcəsi olanlar və s.
4. bakalavr dərəcəsi olanlar,

Danışdıqları dil əsasında insanları müxtəlif siniflərə bölmək olar. Maraqlıdır ki, adamlar müxtəlif dillərdə və dialektlərdə danışdıqlarına və eləcə də müxtəlif tələffüzə, şivəyə və s. görə də siniflərə bölünə bilərlər.

Adamları həmçinin yaşadığı yerə, istifadə etdiyi qidaya, verdiyi ziyafətlərə görə də təsnifləşdirmək olar. Məs., Türkiyə əhalisini yaşadığı yerə görə bir neçə sinfə bölmək olar: təmtəraqlı evlərdə yaşayanlar, gecəqondularda məskunlaşanlar və s.



### 5.6. Kasta sistemi və siyasi sistem

Kasta eyni xüsusiyyətə və növə malik və aşağıdakı amillərlə müəyyən olunan insanlar qrupuna deyilir:

1. irqi və ya etnik amillər,
2. cografi və ya regional amillər,
3. peşə və ya sənət amilləri,
4. linqvistik amillər,
5. mədəni amillər,
6. tarixi amillər.

Əvvəlcə kastalara bölünmə fərdlərin bacarığına və burada da onların məşğul olduqları peşəyə və ixtisasa görə aparılırdı. Tarixən kastalar heç də anadan olma prinsipi əsasında yaranmamışlar. Bu hal müəyyən vaxt keçdikdən sonra bu şəkildə formalaşmışdır. Belə ki, hindlilərin əcdadları brahmanın oğlunu adət üzrə brahman kimi, kşatriyanın oğlunu da kşatriya kimi qəbul edirdilər. Bu gün Hindistanda fərdin doğulması ilə onun hər hansı kastaya mənsub olması arasında elə bir asılılıq yoxdur. Yəni brahmanın oğlu heç də həmişə olduğu kimi oxumuş adam olmaya bilər və ya kşatriyanın oğlu heç də vacib deyil ki, mütləq yaxşı döyüşçü olsun.

Coğrafi və regional amillər Hindistanda kastaların inkişafına və fəaliyyətinə əhəmiyyətli təsir göstərmişdir. Ölkənin müxtəlif hissələrində müxtəlif kastalar müxtəlif şəkildə tanınmışlar. Onlar coğrafi və regional təsirə məruz qalırlar.

Sənət amilləri də müxtəlif kasta xarakterlərinin yaranması və inkişafına kömək etmişdir. Belə ki, müxtəlif sənət amilləri əsasında müxtəlif kastalar ad-san qazanmışlar. Bunlar arasında dülgərlər, dəmirçilər, çəkməçilər, dərzilər,

yuyucular adı altında tanınan kastaları göstərə bilərik.

Linqvistik amillər də müxtəlif qrupların kasta keyfiyyətlərinin möhkəmlənməsində əhəmiyyətli rol oynamışdır. Məsələn, çəkməçilər müxtəlif ştatlarda - Maçiqar (Qənnada, Karnataka), Çəmbər (Marati və Maharaştra ştatlarında), Moçi (Qucaratda) və Çamar (Biharda) adları altında tanınmışlar.

Mədəni amillər də Hindistanın müxtəlif hissələrində kasta keyfiyyətlərinin formalaşmasına uzun müddət təsir göstərmişdir. Məsələn, ərzağın istifadəsinə dair adətlər müəyyən kasta və ya sinifləri müxtəlif qruplara bölməyə imkan vermişdir. Belə ki, Hindistanın qərb hissələrində yerli əhali arasında Monqlar və Dorlar toxunulmazlar kastası daxilində fərqli bir subkastanı təşkil edirlər. Toxunulmazların müxtəlif subkastaları arasında qidaya yararsız ətdən və ya tullantı qidadan istifadə edənlər ən aşağı təbəqə, bu cür qidadan istifadə etməyənlər daha yüksək təbəqəyə mənsub kimi və vegeterian qidadan istifadə edənlərsə ən yüksək keyfiyyətli qidaya mənsub təbəqə kimi qəbul edilirlər.

Hindistanın siyasi həyatında kastanın təsirinin həm təriflənməsi, həm də pislənməsinə baxmayaraq, onun əhəmiyyətli rolu indiyədək inkaredilməzdir. Müxtəlif kastaların və ya subkastaların rolu və ya təsiri açıq-aşkar özünü seçkilər və ya nazir portfellərinin bölündüyü vaxt büruzə verir.

Hindistanda bələdiyyə, rayon, ştat və dövlət səviyyəsində çoxlu sayda sosioloji sorğular aparılmışdır. Bu tədqiqatlar belə bir qənaətə gəlməyə əsas verir: namizədlər o vaxt irəli sürülür, seçkiqabağı səslər o vaxt toplanılır, seçkilərdə o vaxt qələbə çalınır və vəzifələr o vaxt bölüşdürülür ki, müxtəlif kastalar arasında tarazlıq olsun.



Bəli, bəzi istisnalar da baş verə bilər. Lakin bu Hindistan siyasi həyatında bir xətt, ənənədir. Kasta və ya subkastanın təsiri özünü hətta ştat səviyyəsində hakimiyyət dairələrində işə götürülmədə, hər hansı bir korporasiyada yüksək maaşlı işə düzəlmədə büruzə verə bilər.

### 5.7. Dini sistem və siyasi sistem

Dini sistem və ya din siyasi sistemlə sıx əlaqədədir. Bu kontekstdə dinin təbiəti və ya növlərinə biz toxunmayacağıq. Dinin onlarla tərifi var. Geniş mənada din aşağıdakı elementlər və ya əlamətlərlə xarakterizə olunur:

1. fəlsəfə;
2. simvolizm;
3. rituallar, mərasimlər, bayramlar;
4. institutlar şəbəkəsi və ya struktur və təşkilat;
5. praktika və ya dini fəaliyyət;
6. pərəstişkarlar və tərəfdaşlar.

Hər bir dində müəyyən dərəcədə fəlsəfə, rəmzilik, müxtəlif rituallar, mərasimlər, bayramlar və s. mövcuddur ki, bunlar da doğum, ölüm, evlənmək, ilin fəsilləri, məhsul yığımı və s. ilə bağlıdır. Hər bir din təsisata və təşkilata malikdir. Hər bir dində müəyyən dərəcədə praktiki fəaliyyət mövcuddur. Məs., namaz islamda müəyyən praktiki fəaliyyətdir. Bazar günləri kilsəyə getmək xristianlarda müəyyən praktikaya çevrilmişdir. Oda sitayiş zərdüştlükdə müəyyən praktikadır. Hər dinin öz ardıcılları, pərəstişkarları var. Bu nöqteyi-nəzərdən buddizm dünyada ən çox ardıcılları və ya pərəstişkarları olan dindir. Sonrasa xristianlıq və islam gəlir.

## 5.8. Təhsil sistemi və siyasi sistem

Təhsilə onun müxtəlif aspekt və tərəflərini əks etdirən onlarla tərif vermək olar. Təhsil dedikdə əsasən məlumatın, təcrübənin və inamların mənimsənilməsi nəzərdə tutulur.

Müasir dövrdə təhsil xeyli təsisatlanmış və mürəkkəbləşmişdir. Belə ki, ibtidai, orta, ali məktəblər və s. mövcuddur. Lakin təhsil təkcə bununla məhdudlaşmır. Bura əhalinin gənc, orta yaşlı və yaşlı təbəqələri də daxildir. Məsələn, məktəb müəllimləri ixtisasartırma kurslarına gedərək orada tələbə kimi oxuyurlar. Bura müxtəlif peşə adamlarını da aid etmək olar.

Təhsil insanın bütün həyatı boyu davam edən prosesdir.

Cəmiyyətin müxtəlif yaş qrupları təhsil prosesinə qoşulmuşdur. Bu mənada təhsil ümumxalq işidir. Bunun da izahı var. Hələ qədim zamanlardan təhsil çox az adamların imtiyazı idi. Bu hamı üçün nəzərdə tutulmamışdı. Belə ki, təhsilli azlıq təhsil görməyən çoxluqdan həmişə fərqlənirdi. Bu həm də ona görə belə idi ki, onlar hələ indi də çətin görünən yunan, latın, ərəb və b. əsas dilləri bilirdilər. Eyni zamanda elə qruplar da var idi ki, onların ali təhsil alması və ya elmi yaradıcılığa qoşulması yolverilməz sayılırdı (məs., ABŞ-dakı zəncilər kimi). Bu gün bu cür ehkamlar artıq öz əhəmiyyətini itirmişdir. Hamı anlayır ki, təhsil lazımlıdır və burada məhdudiyyət qoyulmamalıdır. Belə ki, əksər dövlətlərin konstitusiyalarında hamıya pulsuz və hətta icbari təhsil almaq təminatı verilir.

Təhsil sistemi ilə sinfi sistem bir-birinə müxtəlif şəkildə təsir göstərir.

Təhsil sistemində külli miqdarda müəllim və



şagird/tələbə çıxış edir. Onlar kiminsə oğlu, qızı, atası, anası, bacısı və digər qohumlarıdır. Onlar təhsil sistemində tək deyillər.

Təhsil sistemində fəaliyyət göstərən müəllim və tələbələr müxtəlif ideyalar, ideallar, fəlsəfə, ideologiya və s. yaradıcıları və yayıcısıdırlar ki, əhalinin də qalan hissəsi bunlara əməl edir. Bu mənada təhsil sistemi hakimiyyətə və ya siyasi sistemə müəyyən təsirə malikdir.

Təhsil sistemi cəmiyyəti və ya siyasi sistemi hərəkətə gətirən müxtəlif tipli işçilərlə təmin edərək onları yaradır və yayır. Təhsil sistemi cəmiyyət üçün lazım olan mütəfəkkirlər, liderlər, həkimlər, müəllimlər, mühəndislər və b. yetişdirir. Bu mənada təhsil sistemi dövlət əhəmiyyətli "fikir fabriki" kimi fəaliyyət göstərir. Təhsil sisteminin davamlı fəaliyyəti cəmiyyətin davamlı fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Siyasi sistem də öz növbəsində təhsil sisteminin inkişafına qayğı ilə yanaşmalıdır.

Təhsil sisteminin işçiləri kimi müəllimlər və tələbələr möhtəşəm hakimiyyətə və siyasi sistemə təsir gücünə malikdirlər. Müasir cəmiyyətdə müəllim və tələbələr say etibarı ilə əhəmiyyətli sinfi təşkil edirlər. Onlar siyasi partiyalara üzv ola və ya olmaya bilərlər. Lakin onlar həyati və çox vaxt inkaredilməz təzyiq qrupları təşkil edirlər. Onlardan bir çoxu müxtəlif assosiasiyalar, ittifaqlar və ya təşkilatlarda birləşirlər. Onlar təhsil sisteminin fəaliyyətində inhisar nəzarətinə malikdirlər. Əgər onlar siyasi sistemlə yola getmirlərsə, bu ciddi problemlər yarada bilər. Müəllimlər məktəbə və ya kollecə getməkdən boyun qaçırarlarsa, böyük tələbə ordusu bu minvalla çox şey itirmiş olar ki, bu da cəmiyyətdə ümumi sabitlik üçün bir təhlükə yaradar.

Valideynlər və dövlət bu vəziyyətin uzun müddət davam etməsi ilə barışa bilməzlər. Daha sonra tələbələr haqsız və ya o qədər də ağıllı olmayan tələblərlə küçələrə çıxaraq dərsləri boykot edə bilərlər. Bir çox hallarda səbəblər o qədər də əsaslı görünməyə bilər. Lakin bunun nəticəsində yaranan gərginlik suyasi sistem və ya cəmiyyət üçün böyük əhəmiyyət kəsb edə bilər.

Hərdən tələbələr bir çox ciddi məsələlərə də qarışmalı olurlar. Məsələn, 1960-cı illərdə amerikalı tələbələr ABŞ-ın Vyetnamda apardığı müharibənin qanuniliyi və məqsədəuyğunluğu, habelə tələbə şəhərciklərində çıxışlar, ölkəni tərk etmək və başqa ölkədə qalıb yaşamaq və s. barəsində bir çox suallar ortaya qoymağa başladılar. Daha sonra 1967-ci ildə Fransada tələbələr küçələrə çıxaraq təhsil sistemində köklü dəyişikliklərin aparılmasını tələb edirdilər. Bu və digər hadisələr göstərir ki, tələbə hərəkatı inqilaba da gətirib çıxara bilər. Siyasi sistem və ya dövlət təhsil sisteminə öz təsirini maliyyə, inzibatçılıq və ya fövqəladə hakimiyyət vasitəsilə göstərir.

### 5.9. İqtisadi sistem və siyasi sistem

İqtisadi sistem istehsal, bölgü və istehlakı əhatə edir ki, bura ölkə iqtisadiyyatının müxtəlif sahələri arasındakı, məs., kənd təsərrüfatı, sənaye, xidmət və s. münasibətlər aiddir. Dünya ölkələrinin misalında biz iqtisadiyyatın müxtəlif sahələrində artmaqda olan təşkilatlanmanın, birləşmənin və s. şahidiyik.

İqtisadi və siyasi sistemlər qarşılıqlı təsirə malikdir. Çox vaxt siyasətçilər və ya nazirlər və ya əksinə sənayeçilər, tacirlər və b. güclü təsirə malik olurlar.



## FƏSIL 4. SOSIAL STATUS VƏ SOSIAL MƏSAFƏ

Sosail status dedikdə hər hansı bir fərdin cəmiyyətdəki statusu nəzərdə tutulur. Sosail status sosial və ya nisbi anlayış olaraq cəmiyyətdən kənarda heç bir məna daşımır.

Tarixi baxımdan sosail status anlayışı cəmiyyətin özü qədər qədimdir.

Sosail status cəmiyyətdə üfüqi və şaquli xətlərin kəsişmə nöqtəsinə aiddir. Belə ki, əgər "A" adlandırdığımız bir şəxs hər hansı bir cəmiyyətdə mühəndisdirsə, onun verilən vaxt ərzində statusu bir sıra üfüqi və şaquli məsələlərlə müəyyənləşir. Üfüqi dedikdə onun peşəsinin digər peşələrlə, məs., həkimlik, müəllimlik, bank işi, idarəçilik, xidmət və s. ilə müqayisəsi nəzərdə tutulur. Şaquli dedikdə isə onun vəzifəsinin həmin peşə iyerarxiyasında tutduğu yer nəzərdə tutulur.

Bildiyimiz kimi, status həm də qazanılmamış/anadangəlmə və qazanılmış olur.

İndi isə belə bir məsələni araşdıraq ki, nə üçün status vacibdir və niyə status hər bir cəmiyyət üçün səciyyəvidir. Əgər hər kəsin cəmiyyətdə rolunu nəzərdən keçirsək, cavab kifayət qədər asan olar. Belə ki, istənilən kəs yaşamaq və özünü təsdiq/müəyyən etməyə çalışır (məs., cəmiyyət tərəfindən qiymətləndirilmək, tanınmaq və s.). Bu qiymətlər şəxsə xüsusi təsisatlar, birliklər və ya dövlət tərəfindən verilir. Hər bir adam öz statusunun yaranması və artmasına çalışır. Əks təqdirdə həmin adamın sağlam düşüncəli olduğu şübhəli görünər. İnsana onun haqqında neqativ fikir və ya bu cür tanınmaq o qədər təsir etmir, nəinki ona qarşı diqqətsizlik

və ya onun fikrinin, yaxud onun özünün saya alınmaması. Buradan da adam yoldaşlarından hansınınsa onu təkcə tənqid və ya təhqir etdiyinə görə yox, onların onu tək qoymasından və ya tamamilə tanımamasından əziyyət çəkə bilər.

Status hər bir kəs üçün olduqca vacibdir. Status insanın həyatının mənasını, istiqamətini və ya məqsədini müəyyənləşdirir.

Hər bir insanın sosial statusa malik olmağa ehtiyacı vardır və o, bunu əldə edə bilər.

## 1. Status rəmzləri

Statusun özünümaliyyələşdirmə və ya şöhrət vasitəsi olması təbiidir. Statusun nümayiş etdirilməsi müxtəlif rəmzlər və vasitələrlə həyata keçirilə bilər. Ümumiyyətlə, status insanın etdiyi, göstərdiyi və ya malik olduğu şeylərlə qiymətləndirilir.

Gündəlik həyatda biz status nümayişinə və ya rəmzlərinə dair çoxlu misallarla rastlaşırıq. Statusu nümayiş vasitələrindən biri də dil və ya nitqdir. Tarixin müxtəlif dövrlərində müxtəlif dillər yüksək və ya aşağı statusun rəmzi kimi çıxış etmişdir. Belə ki, Avropada yunan və latın dilləri uzun müddət nüfuzlu dillər olmuşlar. Roman dillərisə Avropanın müxtəlif yerlərində sadə xalqın danışıq dili olmuşdur. Şekspir sadə xalq dilini ədəbiyyata gətirmiş ilk Avropa şairlərindəndir. Bu gün isə keçmiş müstəmləkə dövlətlərində ingilis, fransız, alman, portuqal və s. dillər daha yüksək statuslu dillər sayılırlar.

Təkcə dil yox, eyni zamanda tələffüz də üstünlüyə malik ola bilər. Belə ki, ingilisdilli ölkələrdə Oksford ləhcəsi daha çox üstünlüyə malikdir. Amerika tələffüzü də sonradan bu üstünlüyü qazanmışdır. İngiltərədə kokni adlanan ləhcə aşağı sinfin dili kimi qəbul olunmuşdur.

Status rəmzlərinə həmçinin evlər, torpaq, bank balansı, digər mülkiyyət növləri, nəqliyyat və kommunikasiya vasitələri və s. aiddir.

Status rəmzlərinə çox az liderlərin qazandığı ad da aid edilə bilər: məsələn, M.K.Qandiyə verilən Mahatma ləqəbi, Mustafa Kamala verilən Atatürk ləqəbi və s.

Lakin statusa malik olmaq istəyi təkcə bu dünya ilə bağlı deyil. Belə ki, bəziləri şəhid, qəhrəman və s. kimi ölməyi üstün tuturlar və beləliklə də tarixə düşməyə çalışırlar.

## 2. Sosail məsafə

Bu məsələ bütün cəmiyyətlərdə mövcuddur. Əgər hamı bir-birinə mehriban olsaydı və ya ünsiyyət saxlasaydı, bu çox qəribə görünərdi. Hər bir insanın başqalarına qarışmasını müşkül edən bir sıra məhdudiyyətlər mövcuddur ki, bunlara da aşağıdakıları aid etmək olar: coğrafi, psixoloji, sosial, peşə və s. Bu və digər səbəblər üzündən biz özümüzə məhdud dairədə dost və ya yoldaş seçməli oluruq. Eyni zamanda tanış olmadığımız və ya əlaqə yarada bilmədiyimiz adamlarla yad, soyuqqanlı, təcridedici və ya qeyri-asılı rəftar yaratmalı oluruq.

Sosial məsafə (distansiya) bir nəfərlə digəri arasında mövcud və ya yaranacaq məsafəyə deyilir. Məsafənin mənası çoxdur. Elementar mənada bu fiziki məsafəni bildirə bilər. Müxtəlif insanlar arasında müxtəlif fiziki məsafə mövcud ola bilər: iki qardaş birgə bazarlıq edə bilər. Lakin zavod direktorunun adi bir fəhlə ilə bir yerdə nahar etməsinə çox az rast gəlmək olar.

Məsafə tanışlıq və ya başa düşməni bildirə bilər. Bu mənada adamların bir-birini tanıması və başa düşməsindən asılı olaraq məsafə böyük və ya kiçik ola bilər.

Məsafə razılığı, nəyisə qəbul etməni və nəyəsə tərəfdar çıxmağı bilidirə bilər. Məs., bir deputat başqasına nisbətən ictimaiyyət tərəfindən daha çox qəbul edilə bilər (məs., sevilə, istənilə bilər). Bu halda belə demək düzgün olardı ki, seçicilər ikinci deputatdan birinciyə nisbətən daha geniş məsafə saxlayırlar. Tərəfini tutmağa qaldıqda isə seçicilərin birinci deputatı ikinciyə nisbətən daha çox dəstəklədiyini göstərə bilərik.

Sosial məsafə ictimai həyatın müxtəlif sfera və səviyyələrində mövcuddur. Sosial məsafə üfüqi və şaquli ola bilər. Belə ki, hərbçilərlə polis nəfərləri arasında məsafədə mövuddur. Polis işçiləri kömrük işçilərindən müəyyən məsafədə dayanır. Bu müxtəlif sahə adamları həyatın müxtəlif sahələrinə üfüqi şəkildə mənsubdurlar. Bundan fərqli olaraq şaquli məsafə istənilən şöbə və ya iyerarxiyada müxtəlif səviyyələr arasındakı məsafəyə deyilir. Məs., orduda, polisdə generalla polkovnik, polkovniklə mayor və d. arasındakı şaquli məsafə mövcuddur.

Belə bir sual ortalığa çıxa bilər: sosial məsafə nə üçün mövcuddur və bu nəyə lazımdır? Bunun əsas səbəbi müxtəlif fərdlərin müxtəlif rolları fərqli saxlamaq istəməsindədir. İstənilən qrup, icma və ya cəmiyyət üçün müxtəlif işlərlə məşğul olan fərdlərin olması vacibdir. Cəmiyyətdə müxtəlif iş və ya xidmətlərin həyata keçirilməsi tələb olunur (məs., ordunun, polisin və s. olması). Hamı bir işi görsəydi, cəmiyyət inkişaf etməzdi.

İstənilən cəmiyyətdə müxtəlif adamlar tərəfindən ifa



olunan müxtəlif rollar mövcud olduğundan məlumdur ki, bu rollar bir-birindən müəyyən məsafədə durur və bu da sosial məsafə ilə həyata keçirilir. Üfüqi və şaquli şəkildə işlədilən sosial məsafə bizə imkan verir ki, öz rollarımızı qarışdırmayaq və eyni zamanda onlardan necə gəldi istifadə etməyək. Sosial məsafə bizə müxtəlif rolları düzgün, mənalı və effektli ifa etməyə imkan verir. Hər bir rolun öz daxili tələbatları və nizam-intizamı vardır ki, bunu da ifaçı yerinə yetirməlidir.

Sosial məsafə həm də funksional zərurət kimi mövcuddur. Məsələn, alimlə sürücü, idmançı ilə dayə arasında məsafə mövcuddur. Əgər belə bir məsafə mövcud olmasaydı, onda sosial struktur və rolların ifası üçün olduqca böyük təhlükə yaranardı. Belə ki, sosial rolların qarışdığı cəmiyyətdə mütləq sosial xaos mövcud olardı.

Sosial məsafə xoşagəlməz hal da ola bilər. Bu o vaxt baş verir ki, rolu ifa edənlər bacarıqsız olsunlar və məsafədən "müdafiə mexanizmi kimi" istifadə etsinlər. Məsələn, hansısa nazirin kürəkəni müəyyən bir idarəyə rəhbər işçi təyin oluna bilər. Lakin bu sahədə məlumatsız adam olduğundan o, bütün vasitələrdən istifadə etməyə çalışacaq ki, ətrafdakılar onun bacarıqsız olduğunu başa düşməsinlər. Bunun üçün o, diqqəti yayındıran müxtəlif vasitələrdən istifadə edərək, məsələn, tabeçiliyində olan adamların işində səhvlər tapmaqla daha ciddi və tələbkar görünməyə çalışa bilər və ya öz katibəsini hansısa bir yazını səhvlərlə yazdığına görə pərt edə bilər. Bu cür adamlar məsafənin yaradılmasında olduqca maraqlıdırlar. Çünki anlaşıqlı və sadə olmaq onun bir şeyə yaramadığını açıb göstərə bilər. Belə hallarda işlənən sosial məsafə birinin fərsizliyini və ya müvəffəqiyyətsizliyini ört-basdır etmək üçün işə yarayır.

# FƏSIL 5. SIYASILƏŞMƏ, SIYASI IŞTIRAK, SIYASI ÜNSIYYƏT, SIYASI SƏFƏRBƏRLIK VƏ SIYASI MƏDƏNIYYƏT

## 1. Siyasiləşmənin mahiyyəti və təbiəti

Siyasiləşmə, siyasi iştirak və siyasi ünsiyyət yaxın anlayışlar olub, təbiətən bir-birinə bağlıdırlar. Siyasiləşmə geniş mənada insanların siyasi perspektivlərə və siyasi aksiyalara istiqamətlənməsini bildirir. O, insanların siyasi aktor kimi fəaliyyətini nəzərdə tutur. Ümumiyyətlə, siyasətdən azad cəmiyyət tapmaq qeyri-mümkündür. Siyasətçilər ictimai mənafelər naminə siyasətlə məşğul olan şəxslər kimi bütün cəmiyyətdə mövcuddurlar. İnsanların siyasiləşməsinə ehtiyac yalnız o cəmiyyətlərdə yaranır ki, orada siyasət başlıca rol oynamır. Müxtəlif cəmiyyətlərdə iqtisadi, dini, etnik, mədəni və s. kimi müxtəlif qeyri-siyasi amillər insanların düşüncəsinə və fəaliyyətinə hakim kəsilə bilər. Bu hallarda insanları siyasiləşdirmək üçün siyasətçilər tərəfindən səylər göstərilə bilər.

Siyasiləşmə şəxsin siyasi sistemdə bir vətəndaş və ya aktor kimi rolunu ifa etməsi üçün müvafiq təhsil, məlumat və ya hazırlıq almasını nəzərdə tutur. Siyasiləşmiş şəxs hər hansı bir partiyanın fəal üzvü və ya yaxşı bir məmur ola bilər. Bu şəxs heç siyasətlə maraqlanmadığı vaxt öz dünyagörüşündə və davranışında tipik olacaqdır. Geniş mənada bunu siyasiləşmə adlandırmaq olar. Siyasiləşmə şəxsin həm özünün, həm də siyasi sistemin marağına uyğun hazırlanmasını nəzərdə tutur. Belə bir şəxs təkcə yaxşı aktor deyil, həm də ağıllı, cəmiyyət üçün faydalı bir şəxsdir.

İndi isə siyasiləşmənin səciyyəvi cəhətlərini aydınlaşdıraq. Hər hansı bir şəxs və ya vətəndaş siyasiləşərkən nə baş verir? Qısaca demək olar ki, onun dünyagörüşü, mövqeyi, məlumatlılığı, biliyi, resursları, görkəmi, bacarığı, ləyaqəti fəqrli dəyişikliklərə uğrayır. O siyasiləşdiyi vaxt cəmiyyətə, dövlətə, siyasətə və hökumətə fərqli baxış nümayiş etdirir. Onun siyasətdə iştirak üçün məlumatlılığı, arzuları və ya cəhdləri artdıqca, o, ətrafında baş verənlər haqqında geniş, ətraflı məlumat və bilik əldə etməyə başlayır. O, kimin prezident, nazir, icra başçısı, deputat və bələdiyyə üzvü olması ilə maraqlanmağa başlayır. O, məlumatı müxtəlif kanallar və ya mənbələrdən, şəxsi görüşlərdən, dövri mətbuatdan, radio və televiziyadan, internetdən və d. kütləvi informasiya vasitələrindən ala bilər. Siyasiləşmiş şəxs çoxlu və müxtəlif resurslar, qabiliyyətlər, bacarıqlar və s. əldə etməyə çalışır. Öz təcrübəsindən və siyasi problemlərlə qarşılaşmasından o dərk etməyə başlayır ki, siyasiləşmiş şəxs kimi hərəkət etmək müəyyən tip və miqdar resurslar, qabiliyyət və bacarıqlar tələb edir. Məsələn, o, özü üçün müəyyənləşdirə bilər ki, seçkilərdə qalib gəlmək üçün bir qədər başqa tip qohumlara, dostlara və əlaqələrə malik olmaq lazımdır.

## 2. Uşağın siyasi sosiallaşması

Uşağın siyasi sosiallaşması siyasi sosiallaşmanın elə prosesini nəzərdə tutur ki, burada uşaq sosial-siyasi sistemin tam püxtələşmiş üzvünə çevrilir. İnsanın cəmiyyətin bir üzvü kimi hazırlığı, ixtisası və xüsusi keyfiyyətləri onun həyatının müxtəlif mərhələlərində mənsub olduğu müxtəlif yaş qrupları mövqeyindən tədqiq edilə bilər. Bu müxtəlif mərhələlər uşaqlıq, ilk gənclik, gənclik, orta yaş və qocalıq dövrlərini

əhatə edir. İnsan sosial-siyasi sistemin üzvü kimi aşağıdakılara malikdir:

- yaxşı inkişaf etmiş bədən;
- yaxşı inkişaf etmiş ağıl;
- ad;
- dil;
- din;
- sinif;
- təhsil, təlim, iş təcrübəsi;
- peşə, məşğuliyyət və s.;
- ictimai-siyasi partiyada, təzyiq və ya maraq qruplarında üzvlük;
- sosial-siyasi sistemdə həqiqi mövqe, rol, təsir və s.

Uşaq doğularkən əlbəttə ki, potensial insan doğulur. Lakin potensial insan hələ əsil insan deyil. Valideynlər özlərini xoşbəxt hiss edirlər. Hökumət də buna sevinməyə bilməz. Uşaq doğularkən o, müvafiq idarələrdə müvafiq qeydiyyatlardan keçməlidir. Uşağın doğum faktını iqtisadi və siyasi planlaşdırıcılar, ordu mütəxəssisləri, əməyin təşkilatçıları, sosial sığorta və müxtəlif növ xidmətlər və s. nəzərə almaya bilməzlər. Bu elementar, potensial və gözlənilən mənada uşaq sosial-siyasi sistemin üzvüdür. Lakin heç də demək olmaz ki, o, yaşlı bir şəxs kimi artıq sistemin tam vəzifəli üzvüdür.

Sosial-siyasi sistemin tam hüquqlu üzvü olmaq üçün uşaq müxtəlif təsirlərə məruz qalmalı və ya müxtəlif qabiliyyətlər, bacarıqlar və s. əldə etməlidir. İlk əvvəl isə o sağlam orqanizmə malik olmalıdır.

Daha sonra vacibdir ki, uşaq yaxşı inkişaf etmiş ağıla malik olsun. Uşağın psixi və emosional yüksəlişi, onun fiziki



inkişafı ilə bərabər uzun müddət ərzində baş verir. Uşağın fiziki və əqli inkişafı, demək olar ki, siyasi sosiallaşma prosesinin bir hissəsidir.

Körpə doğularkən onun nə adı, nə dili, nə sinfi, nə də ki, başqa status göstəriciləri olmur. Bütün bunlar həyatının sonrakı mərhələlərində ona verilir və ya onun tərəfindən əldə edilir. Bu adlar şəxsə siyasətdə ən azı ilkin hörmət, üstünlük və ya əlaqələr verir. Dil, din və sinif amilləri ona eyni dərəcədə rahatlıq verə bilər. Tarixə müraciət etmiş olsaq görərik ki, müxtəlif dövrlərdə müxtəlif dillər mühüm və ya nüfüzlu olmuşlar. Məs., XX əsrdə fransız və ingilis dilləri nüfuzlu dillər olmuşlar.

Sosial-siyasi sistemdə dini amil vaxtaşırı mühüm rol oynamışdır. Din qədim institut olaraq dünyanın müxtəlif hissələrində, bir çox cəmiyyətlərin həyatında üstünlük təşkil etmişdir. Hər hansı bir cəmiyyətdə çoxluq təşkil edən dinə əzəli mənsub insanlar sosial-siyasi sistemin üzvü kimi müəyyən üstünlüklərə malik ola bilərlər. Məs., Azərbaycanda, İranda, Türkiyədə islam başlıca dindir. Bu əsas dinə mənsub insanlar öz ölkələrinin sosial-siyasi sisteminə təsirə malikdirlər. Azlıq təşkil edən dinlərə və məzhəblərə mənsub insanlar ən azı psixoloji cəhətdən müəyyən əlverişsiz vəziyyətdə qalmış olurlar. Buradan da körpənin dini mənsubiyyəti siyasi sosiallaşma prosesinin əhəmiyyətli tərkib hissəsi kimi qəbul edilməlidir.

Uşağın hər hansı bir icma və ya sinifdə üzvlüyü onun rolu və fəaliyyətinə böyük təsir göstərə bilər. Əgər uşaq yuxarı sinfə və ya elitaya aiddirsə, onda o müəyyən üstünlüklərə malik olur. Oliqarxik siyasi sistemlərdə o sonradan birbaşa liderlik və ya formal liderlik rolları oynaya bilər,

hərbi, siyasi və inzibati mövqelər tuta bilər. Qeyri-oliqarxik siyasi sistemlərdə o, siyasətdə formal mövqe tutmaya bilər, lakin o, siyasi sistemin müxtəlif tərəflərinə dolayısı ilə təsir göstərə bilər. Bəzi hallarda onun hakimiyyəti o qədər həlledici ola bilər ki, siyasi sistemin həlledici fiquruna çevrilə bilər. Əgər o, orta sinfə mənsubdursa, o, siyasi sistemdə sabit, etibarlı və ciddi rol oynaya bilər. Əgər o, aşağı sinfə mənsubdursa və ya şəhərin kasıblar yaşayan məhəlləsində doğulubsa, onda o, siyasi sistemdə nailiyyət qazanmaq və müəyyən rol oynamaq uğrunda mübarizə aparmalıdır.

Sosial-siyasi sistemin gələcək iştirakçısı kimi körpənin həyatında təhsil, təlim və iş təcrübəsinin rolu çox böyük ola bilər. Digərləri ilə yanaşı, təhsil, ümumiyyətlə, aparıcı sosial və siyasi qüvvəyə və təsirə malikdir. Müasir cəmiyyətlərdə təhsil və hazırlıq istənilən vətəndaş qulluğu sahəsində əsas meyar kimi qəbul edilmişdir. Başlıca məsələ ondan ibarətdir ki, insan uşaq ikən aldığı təhsildən, keçdiyi hazırlıqdan və gələcəkdə çalışacağı işdən fayda gördükdə onun sosial-siyasi sistemdə rolu xeyli əhəmiyyət kəsb etmiş olur. İnsanın peşəsi və məşğuliyyəti onun uşaqlıq illərində topladığı bilik və bacarıqlara əsaslanır və sonradan onun müxtəlif siyasi partiyalarda, təzyiq qruplarında və ya birliklərdə üzvlüyü siyasi sistemdə roluna əhəmiyyətli dərəcədə təsir etmək imkanına malik olur.

### 3. Siyasi iştirak

Siyasi iştirak dedikdə müxtəlif insanların ölkənin siyasi həyatında iştirakı nəzərdə tutulur. Siyasi iştirak həm siyasiləşmiş, həm də siyasiləşməmiş insanların siyasətdə iştirakını nəzərdə tutur. Siyasətə nə qədər adam qoşulmuşsa,



elə o qədər də məqsəd vardır. Müxtəlif adamların siyasi iştiraka qoşulduğu yollar, metodlar və ya vasitələr də müxtəlif ola bilər. Praktikada bu, insanın siyasətdə ölkənin prezidenti, naziri, professoru, tələbəsi, mühəndisi, həkimi, iş adamı və s. qismində iştirakı deməkdir.

Siyasi iştirakın özünü büruzə verən şərait və kanallar, əgər prezidentin fərmanlarını, parlamentin sessiyalarını, universitetin demokratik orqanını, seçkilərlə bağlı görüşləri, təbliğat kitabçasını, tələbə nümayişlərini və s. nəzərə alsaq, müxtəlif və ya çoxsaylı ola bilər.

Siyasi iştirak xüsusi prinsip, fəlsəfə, iqtisadi nəzəriyyə, qanun, inzibati ölçünü dəstəkləmək və ya ona müxalif olma ilə müşayiət olunduğundan qütbləşməyə doğru meyillidir.

Siyasi iştiraka cəlb olunmuş insanların hakimiyyətə tərəf və ya müxalif olması aşağıdakı formalar ala bilər:

1. təbliğat və əks-təbliğat kampaniyası;
2. hədə-qorxu;
3. bir-birini ittiham etmə və günahlandırma;
4. fitnə-fəsadlar törədilməsi;
5. üsyan, kütləvi narazılıqlar;
6. vətəndaş müharibəsi, "soyuq" müharibə, "isti" müharibə və s.

Siyasi iştiraka cəlb olunmuş insanlar müxtəlif metodlara və vasitələrə müraciət edirlər ki, onlar da aşağıdakı şəkildə təsnifləşdirilə bilər:

1. siyasi partiya və təzyiq qruplarının fəallaşması;
2. şəxsi görüşlər, danışıqlar, müzakirələr, məsləhətləşmələr və s.
3. mətbuat konfransları;

4. aşağıdakı vasitələrlə fəaliyyət:
   a)qəzetlər;
   b)radio;
   c)televiziya;
   ç)telefon;
   d)internet;
   e)xüsusi debatlar, seminarlar, simpoziumlar, layihələr və s.
5. müxtəlif növ etirazlar və tətillər:
   a) oturaq tətillər;
   b) uzun sürən tətillər və s.
6. kütləvi yürüş, mitinq, nümayiş və s.

### 4. Siyasi ünsiyyət

Siyasi ünsiyyət, ümumiyyətlə, dörd amilin qarşılıqlı münasibətini nəzərdə tutur. Bura daxildir:

1. siyasətin ideya hissəsi;
2. siyasətin biznes hissəsi;
3. siyasətin nizamlama hissəsi;
4. siyasətin həyata keçirilmə və ya nailiyyət hissəsi.

Məsələn, baş nazir iqtisadi inkişaf proqramı barəsində nitq söyləyərkən, unsiyyətin birinci amili, ölkədə sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması məsələləri barəsində danışarkən ikinci amil, proqramın çətinliklərinə toxunursa, üçüncü amil və nəhayət, xalqa müraciət edərək birləşməyə və çətinliklərə birgə tab gətirməyə, bunun üçün də hökuməti, məs., ərzaq qiymətlərinin artması probleminin həllində çətinliklərə üstün gəlməyə çağırırsa, ünsiyyətin dördüncü amili haqqında danışmış olur.

Siyasi ünsiyyət, bir tərəfdən vətəndaşların özləri və



siyasi liderlər arasında, digər tərəfdənsə siyasi liderlərlə vətəndaşlar arasında ünsiyyəti nəzərdə tutur. Siyasətə təsir göstərən bütün ünsiyyət prosesi, demək olar ki, bu iki qrupu - ünsiyyətdə olanları və ünsiyyəti aparanları, yəni vətəndaşlarla siyasi liderləri əhatə edir. Praktikada ünsiyyətin bu iki tipi yanaşı mövcuddur və bir-birini tamamlayır.

Aydındır ki, siyasi ünsiyyət sözün geniş mənasında siyasət vasitəsilə həyata keçirilir. Ünsiyyətin təbiəti, gücü və effektivliyi müxtəlif kontekstlərdə ünsiyyət məqsədi üçün istifadə olunan hakimiyyətdən asılı olur. Bu kontekstdə başa düşülən siyasi ünsiyyət demək olar ki, *siyasi iştirakın qüclü* aspekti və ya instrumentidir. Siyasi iştirakın təbiəti, keyfiyyəti və müvəffəqiyyəti digər amillərlə yanaşı, ünsiyyətin təbiətini, keyfiyyətini və müvəffəqiyyətliliyini səciyyələndirən aşağıdakı amillərdən də asılıdır:

1. ideyalar və ya ideologiyalar;
2. xüsusi siyasi proqramlar və ya məsələlər;
3. nizama salma prosesi və nəzərdə tutulan dəyişikliklərə diqqət;
4. fəaliyyətin və ya nailiyyətlərin son məhsulu.

Siyasi ünsiyyət siyasi iştirak kontekstində siyasi partiyalar və ya təzyiq qruplarının müxtəlif ölçülərinə, metodlarına və ya fəaliyyətinə diqqət yetirməli və aşağıdakıları nəzərə almalıdır:

- şəxsi görüşlər;
- məsləhətlər;
- qəzet, radio və televiziya vasitəsi ilə iş;
- müxtəlif növ etirazlar, tətillər və s.;

### 5. Siyasi səfərbərlik və siyasi mədəniyyət

İstənilən siyasi sistemdə siyasi iştirak çox mühümdür. Sistemin xarakteri və fəaliyyəti sistemin üzvlərinin onda iştirakı və ona təsir göstərməsi yollarını axtarmaqla razılaşdırılmalıdır. Müxtəlif üzvlərin siyasiləşməsi və siyasi iştiraka nail olmaq üçün siyasi ünsiyyətin aparılması həmişə iki amilin - siyasi səfərbərliyin və siyasi mədəniyyətin təsirinə məruz qalır.

### Siyasi səfərbərlik

Səfərbərlik iki məna daşıyır. Onlardan birincisi hərbi, digəri isə siyasi sistemin təhlili mənasında səfərbərlikdir. Hərbi və ya müharibə kontekstində səfərbərlik bütün enerji və ya səylərin müharibə kimi fövqəladə və ya fəlakət vəziyyətində toplanması və ya dəyişməsi deməkdir. Bu vaxt müharibənin məqsəd və vəzifələri hakim mövqe tutur və bütün başqa məqsəd və vəzifələr hakim müharibə mövzusuna tabe etdirilir.

Hərbi və ya müharibə səfərbərliyinin əsas xüsusiyyəti ondan ibarətdir ki, bu cür səfərbərlik yalnız xüsusi vaxtlarda arzuolunan və ya mümkündür. Əgər müharibə dövrü uzanarsa, onda səfərbərlik vəziyyəti pozulur. Onlar ya qayğılı və ümüdsüz olur, ya da ki, səfərbərliyi itirir və passivləşirlər. Məhz buna görə də səfərbərlik qısa vaxt ərzində baş verməlidir. Səfərbərliyi həyata keçirən və planlaşdıran siyasətçilər ümumən başa düşürlər ki, səfərbərlik qısamüddətli fenomendir və bu məqsədə qısa müddətdə çatmaq lazımdır və çünki əgər fürsət əldən buraxılarsa, insanları səfərbərliyə almaq xeyli çətinləşər. Səfərbərliyin digər vacib xüsusiyyəti tərxis olunmadır. Böhran vəziyyəti və ya müharibə başa çatdıqda əsas məqsəd ətrafında toplanmış və itiqamətləndirilmiş ordu və mülki əhali sərbəst buraxılmalıdır.



Sistem analizi kontekstində səfərbərlik bir qədər fərqli məna daşıyır. Burada səfərbərlik siyasi sistemin müxtəlif enerji və qabiliyyətlərinin fəallaşması və istiqamətləndirilməsi mənasını daşıyır. Lakin fəallaşma və istiqamətləndirilmə hər hansı bir fövqəladə hal və ya müharibə üçün deyil. Səfərbərlik siyasi sistemin normal və müvəffəqiyyətli fəaliyyəti üçün tələb olunur və nəzərdə tutulur. Siyasi sistemin fəaliyyəti millətin həyatında baş verən gərginlikləri, əngəlləri, uğursuzluqları, fəlakətləri, böhranları və ya müharibələri nəzərə ala bilər. Beləliklə, bunlar baş verəndə siyasi sistemin səfərbərliyi fövqəladə hallara qarşı istifadə olunur. Bu hallar baş vermədikdə isə səfərbərlik siyasi sistemin müvəffəqiyyətli fəaliyyəti üçün istifadə oluna bilər. Burada siyasi sistemin müvəffəqiyyətli fəaliyyəti siyasi sistem kontekstində müxtəlif subsistemlər və proseslərin düzgün fəliyyəti deməkdir. İnsanların maraq və tələbatları yaxşıca toplanılmalı, öyrənilməli və siyasətçilərə və inzibatşılara çatdırılmalıdır.

Ünsiyyət subsitemi kimi, müxtəlif subsistemlər də yaxşı işləməlidirlər. Sənayenin müxtəlif sahələri bir subsistem kimi ünsiyyət və siyasi partiyalar subsistemləri ilə əl-ələ verib birgə addımlamalı və bu vaxt qanunverici subsistemlə hərbi subsistem arasında uyğunluq olmalıdır. Siyasi kontekstdə subsistemlər arasında əməkdaşlıq və uyğunluq dedikdə bu nəzərdə tutulmalıdır.

Səfərbərlik vəziyyətində olan siyasi sistemdə müxtəlif subsistemlər operativ müstəqilliyə və muxtariyyətə malik olurlar. Almond və Pauel özlərinin "Müqayisəli siyasət" adlı əsərində müxtəlif siyasi sistemləri səfərbər (mobil) və

səfərbərlikdən öncəki (pre-mobil) sistemlərə bölürlər. Onların hər biri sonradan demokratik və avtoritar sistemlər kimi təsnifləşdirilə bilər. Məs., onlar Qana dövlətini səfərbərlikdən öncəki avtoritar, Nigeriyanı 1966-cı ilədək səfərbərlikdən öncəki demokratik, Britaniyanı isə mobil müasir demokratik sistem kimi xarakterizə edirlər. Bu sistemlərdən subsistem muxtariyyəti və iştirak mədəniyyəti xüsusi cəhətlərə malikdirlər. Fransadakı dördüncü respublikanı məhdud subsistem muxtariyyəti kimi misal gətirirlər. Meksika zəif subsistem muxtariyyatı olan səfərbər olunmuş müasir siyasi sistem kimi misal gətirilir. Onlar avtoritar tipli səfərbər müasir siyasi sistemlərə dair də misallar gətirirlər. Almond və Pauel avtoritar subsistemlərin səfərbər olunmuş modern tiplərinin əsas xüsusiyyətlərini müzakirə edirlər. Onlara görə, subsistemə nəzarət və iştirak mədəniyyəti avtoritar sistemlərin əsas atributlarındandır. Keçmiş Sovet Ittifaqı avtoritar sistemlərə aid olan radikal totalitar sistem tipi kimi misal gətirilir. Nasist Almaniyası avtoritar sistemlərə aid konservativ totalitar, İspaniya avtoritar sistemlərə aid konservativ, Braziliya isə avtoritar sistemlərə aid modernləşən avtoritar sistem kimi göstərilir. Müxtəlif siyasi sistemlər bax bu cür səfərbərliyin olub olmamasından asılı olaraq təsnifləşdirilir və təsvir olunur. Səfərbər olunmuş bu kateqoriyadan olan səfərbər dövlətlər arasında müxtəlif siyasi sistemlər və səfərbərlikdən öncəki (pre-mobil) dövlətlər arasında da müxtəlif siyasi sistemlər mövcuddur.

Səfərbərlik müxtəlif qüvvələr və amillərin həm hərbi təşkili, həm də siyasi sistem kontekstində tam toplanılması və fəaliyyətidir. Siyasi sistem kontekstində bu, məlum sistemdə müxtəlif funksiyaların və subsistemlərin düzgün fəaliyyəti və əlaqələndirilməsini nəzərdə tutur. Gördüyümüz kimi, siyasi sistemin fəaliyyəti fövqəladə və müharibə kontekstində abnormal və supernormal fəaliyyəti nəzərdə tutur. Bu, ordu və siyasi sistem kontekstlərində mövcud olan ən yaxşı oxşarlıqdır. Hərbi sistemdən fərqli olaraq, siyasi sistem səfərbərlikdən gündəlik, adi fəaliyyət üçün istifadə edir.

Demək olar ki, istənilən sistem özünün müxtəlif hissələrində müxtəlif vaxtda səfərbər oluna bilər. Səfərbərlikdən qabaq və səfərbərlikdən sonra anlayışları sistemlərin təhlili kontekstində müəyyənləşə bilər.

### Siyasi mədəniyyət

Hər hansı bir siyasi sistemin keyfiyyətlərini və hissələrini müzakirə edərkən, biz onun input-outputlarını (qoyuluş və nəticələrini), maraqların cəmlənməsini və ifadəsini, təsvirini, rollarını və s. müzakirə etmiş oluruq. Siyasi mədəniyyət siyasi sistemin strukturunun və fəaliyyətinin, müvəffəqiyyətinin və ya müvəffəqiyyətsizliyinin qiymətləndirilməsi üçün böyük strateji əhəmiyyətə malikdir.

Siyasi mədəniyyət əhalinin və ya onun bir hissəsinin malik olduğu münasibətləri, inamları və ya dəyərləri, ənənələri və s. bildirir. Əgər liderlər və ya əhalinin müəyyən bir hissəsi millətin qüdrətini artırmaq üçün qətiyyətə malikdirlərsə, onda verilən şəraitdə bu qətiyyət liderlərin və ya əhalinin bir hissəsinin siyasi mədəniyyətinin aspekti adlandırıla bilər. Misal olaraq Almaniyanı götürək. Birinci və ikinci Dünya müharibələrindən sonra Almaniya rəhbərliyi özünün itirilmiş gücünü bərpa etmək üçün görünməmiş səylər göstərdi. Bu, müəyyən mənada liderlik problemidir.

Liderliyə belə tərif vermək olardı: liderlik siyasi mədəniyyətin bir aspekti olaraq bizə siyasi mədəniyyətin bərpasında siyasi sistemin köməyinin nə dərəcədə effektiv olmasını göstərir. Bu kontekstdə liderliyin aspektinin müəyyənləşdirilməsindən əlavə biz birinci Dünya müharibəsi vaxtı əhalinin siyasi mədəniyyətinin digər aspektlərini götürə bilərik. Alman əhalisi iki mühüm keyfiyyətinə - nizam-intizama və möhkəm işləmək qabiliyyətinə malik olmasına görə bərpa və artım məqsədlərinə ideal olaraq uyğun gəlirdi. İnamla deyə bilərik ki, almanlar ingilis və ya fransızlardan daha çox dərəcədə bu keyfiyyətlərə malikdirlər. Başqa sözlə, bu iki keyfiyyət birinci Dünya müharibəsindən sonra alman siyasi mədəniyyətinin daha bir mühüm aspektinə çevrilmişdir. Bura birisini də artıraq. Hitler alman xalqına dəfələrlə təkrar edirdi ki, alman əhalisinin yaranmasında görkəmli rol oynamış nordik irq digər irq və ya xalqlara, Britaniya və Fransadakılara da münasibətdə üstün yer tutur. Alman irqinin üstünlüyü fikrindən alman xalqının hökmən idarə etməsi, başqa ərazi və xalqları işğal etməyə və özünə tabe etdirməyə borclu olması, başqa xalqların üstün alman irqi tərəfindən işğal və idarə olunması kimi səhv nəticə çıxarılırdı. Əlbəttə ki, biz həmin ideyaların burada ardıcıl təhlilini vermək fikrində deyilik. Əsas fikrimiz ondan ibarətdir ki, almanların üstünlüyü ideyası və ya mifi birinci Dünya müharibəsindən sonra alman siyasi mədəniyyətinin əlavə əlamətinə və ya aspektinə çevridi.

Beləliklə, alman siyasi mədəniyyətinin dörd aspekti haqqında danışmaq mümkündür:

1. liderlik;
2. nizam-intizam;



3. gərgin əmək;
4. bərpa və artım məqsədlərini həyata keçirməkdə alman siyasi sisteminin müvəffəqiyyəti üçün cavabdeh olan sosial üstünlüyün təsdiqlənməsi.

Deyə bilərik ki, Almaniyanın siyasi sistemi bərpa və artım məqsədlərini həyata keçirməkdə ikinci Dünya müharibəsindən sonra da eyni müvəffəqiyyətə nail oldu. Biz paralel olaraq oxşar xalqı şərqdə də göstərə bilərik. İqtisadiyyatda dirçəliş və gücün bərpa olunması ikinci Dünya müharibəsində məğlubiyyətdən sonra Yaponiya siyasi sistemi tərəfindən də əldə olundu. Belə demək düzgün olardı: yapon siyasi sisteminin bərpası və artımı yapon siyasi mədəniyyətinin spesifik cəhətləri və ya aspektləri nəticəsində əldə olundu.

Siyasi mədəniyyətin təbiətini aydınlaşdırmaq üçün digər bir misal demokratik siyasi sistemlərlə qeyri-demokratik və ya diktator siyasi sitemlərin müqayisəli səciyyəsidir. Demokratik siyasi sistemlər müharibə aparmağa o qədər də meyilli olmurlar. Qeyri-demokratik və ya diktator siyasi sistemlər müharibə aparmağa daha çox meyilli olurlar. Qeyri-demokratik sistemlər heç olmasa, müharibənin ilkin mərhələsində təəccübləndirmək və ya sürətli hərəkət etmək imkanına malik olurlar. Misal üşün Britaniyanı birinci və ikinci Dünya müharibələri vaxtı götürə bilərik. Bu iki kontekstdə Britaniya müharibəyə hazırlıqlı deyildi və ya ona hazırlaşmaqda xeyli ləngimişdi. Digər tərəfdən, birinci Dünya müharibəsi zamanı çox az demokratik və ikinci Dünya müharibəsi vaxtı diktatura rejiminə malik olan Almaniya totalitar siyasi quruluşu və sürətli hərbi-iqtisadi inkişafı ilə fərqlənirdi. Müasir tarix göstərir ki, britaniyalar heç vaxt heç kimlə müharibəyə hazırlıq aparmamışlar. Lakin müharibə

başlandıqda onlar buna tədricən, addımbaaddım hazırlaşıb tab gətirənədək müharibə apara bilmişlər. Britaniya siyasi mədəniyyəti həmçinin özünün fərasətliliyi, möhkəmliyi, cəsarətliliyi, soyuqqanlılığı və d. keyfiyyətləri ilə seçilir.

Müharibə vaxtı siyasi mədəniyyətin ortalığa çıxan digər cəhəti Britaniya siyasi liderliyinin geniş əhali kütləsi tərəfindən dəstəklənməsi, onun dəyişilməsi və varisliyi faktı idi ki, bu da yalnız demokratik sistemdə mümkündür. Bu keyfiyyətlər Britaniya üçün müvəffəqiyyətli nəticə əldə etməyin mühüm amillərindən birinə çevrildi. Əksinə, Almaniya siyasi mədəniyyəti liderliyin bu cür davamlılığı və vasirliyinə malik deyildi.

Əvvəl qeyd etdiyimiz kimi, siyasi mədəniyyət siyasi sistemin və ya subsistemin bütün əhaliyə təsir göstərən psixo-sosioloji və dini-mənəvi meyllərini nəzərdə tutur. Bu mənada siyasi mədəniyyət əhəmiyyətli ideya olsa da, onu ölçmək çox çətindir. Siyasi sistemin əhali, dövlət xidməti və ya texnologiya kimi bir sıra digər əlamətləri o mənada ölçülə biləndir ki, onlar haqqında faktiki, statistik və ya detallaşdırılmış hesabat və təhlil mümkün olur. Lakin siyasi mədəniyyət haqqında bu cür hesablamalar psixo-sosioloji və ya dini-mənəvi meyllər mənasında mümkün deyildir.



# FƏSIL 6. SEÇKILƏRIN SOSIOLOGIYASI

## 1. Seçki hakimiyyətin ələ alınması və ya ötürülməsi yollarından biri kimi

İnsanın siyasi davranışının müxtəlif aspektləri arasında seçki xüsusi əhəmiyyətə malikdir. O, hakimiyyətin ələ alınması və ötürülməsi yolunu müəyyənləşdirir.

Əgər bəşər tarixinə müraciət etsək, görərik ki, hakimiyyət müxtəlif fərdlər tərəfindən müxtəlif cür ələ alınmış və ötürülmüşdür. Hakimiyyətin müxtəlif metodlarla ələ alınması və ötürülməsinə aşağıdakılar aiddir:

1. Varislik və ya vəliəhdlik;
2. Seçkilərdə namizədi təyin etmə və ya irəli sürmə hüququ;
3. Hakimiyyətin əksmərkəzləşdirilməsi və ya təmərküzsizləşdirilməsi;
4. Püşkatma;
5. Rəmmallıq;
6. Təsadüfi, öncədən görünməyən hadisələr;
7. Güc, hakimiyyəti qəsb etmə;
8. Seçki və s.

Göründüyü kimi, yuxarıda adları çəkilən metod və ya texnikalar bir-birinə yaxındırlar. Məs., varislik və ya vəliəhdlik yaxın anlayışlardır. Püşkatma və rəmmallıq elə metodlardırlar ki, onların köməkliyi ilə məslənin həlli yolları, fəaliyyət kursu, eləcə də hakimiyyətin həvalə olunacağı şəxslər seçilir. Məs., Qədim Yunanıstanın şəhər-dövlətlərində - polislərdə püşkatma çox geniş yayılmışdı: kahinlər allahlarla məsləhətləşirdilər və nəticədə Delfa kahini hakimiyyətin kimə həvalə olunmasında həlledici rol oynayırdı.

Təsadüf öncədən görünəsi mümkün olmayan və digər amillərin rolunu də nəzərdən qaçırmaq olmaz. Təbii fəlakətlərin (məs., daşqın, aclıq, yanğın və s.) böyük bir ərazini viran qoyması və hansısa dövlət rəhbərinin hakimiyyətinə son qoyması tamamilə mümkün sayılan bir haldır. Məs., İkinci Dünya müharibəsi zamanı danimarkalı müstəmləkəçilər İndoneziyadakı hakimiyyətlərindən əl çəkməli olmuşdular və bu ölkədəki tam hakimiyyət öz-özünə Suxartonun əlinə keçmiş və İndoneziya azadlıq əldə etmişdi.

Seçkilər - hakimiyyətin dövri olaraq sabit, permanent və konstruktiv əsasda sülh və qanuni yolla ələ alınması və ötürülməsi yoludur.

**2.Səsvermənin müxtəlif yolları**

Səsvermə səs verənlərin seçimini, kiməsə üstünlük və razılıq verməsini, fəaliyyət proqramını, qayğısını və s. Göstərən bir davranışdır. Səs verənlərin səsini müəyyənləşdirmək üçün müxtəlif yollar mövcud olmuş və indi də mövcuddur:

1. Səsvermədə iştirakdan şüurlu, təsadüfi və b. yolla yayınma;
2. Susmaq;
3. Başı ilə razılıq bildirmək;
4. Çiyinlərini çəkməklə səsvermə;
5. Öz yerinə səs vermə;
6. Başqasının yerinə səsvermə;
7. Düyməni basmaqla səsvermə;
8. Poçtla səsvermə;
9. Əllə səsvermə;
10. Gizli və ya açıq səsvermə;
11. Ayrı-ayrılıqda səsvermə;



12. Ali sısvermə və s.

**3. Seçkilərin tip və variantları**

Bura aşağıdakılar daxildir:

1. Ümumi seçkilər;
2. Əlavə seçkilər;
3. Aralıq seçkilər;
4. Plebisit;
5. Referendum;
6. Qanunvericilik təşəbbüsü hüququ;
7. Müxtəlif tipli tədqiqatlar.

Seçkilərin geniş yayılmış formalarından biri ümumi seçkilərdir. Onlar ölkədən asılı olaraq hər üç və ya beş ildən bir təkrarlanırlar.

Əlavə seçkilər seçkilərin ayrıca və ya məhdud formasıdır. Onlar köməkçi seçkilər kimi keçirilir, əsas seçkiləri dəstəkləyir və ya onlarda düzəlişlər aparırlar. Onlar, məsələn, parlamentdə istefa və ya geri çağırılma, ölüm və digər səbəblər üzündən hər hansı bir yer boş qaldıqda keçirilir.

Aralıq seçkilər ümumi seçkilərin ortasında keçirilir və hər hansı bir orqanın yenisi ilə əvəzlənməsi ilə başa çatmır. Bu seçkilər növbəti seçkilərdən əvvəl və ya sonra keçirilə bilər. Adından göründüyü kimi, aralıq seçkilər bir seçki qurtardıqdan və digər seçki keçirilənə qədər aparılır.

Seçkinin digər növləri plebisit, referendum və ya qanunvericilik təşəbbüsü hüququdur. Onlar xüsusən Kanada, ABŞ və İsveçrə kimi ölkələr üçün səciyyəvidir. Plebisit xüsusi şərait, problem və ya işə dair ictimai rəyi müəyyənləşdirməkdən ötrü dövlətin özü tərəfindən sponsorluq edilən və ya keçirilən seçki növüdür.

Referendum müəyyən bir problemə dair ictimai rəyi müəyyənləşdirməkdən ötrü dövlət tərəfindən keçirilən tədbirdir.

Təşəbbüsə (və ya qanunvericilik təşəbbüsü hüququna) xalq tərəfindən dəstək verilir. O, məhdud əhəmiyyətə malikdir. Lakin bəzən o, məsələn, xalqın hissləri və ya dəstəyində irəliləyiş kimi çox mühüm nəticə ifadə edə bilər.

Son vaxtlar əhalinin seçkilərə dair rəyini qiymətləndirmək, nəyəsə üstünlük vermәsini və başqa məsələləri öyrənmək üçün bir sıra qrup və ya agentliklər tərəfindən vaxtaşırı tədqiqatlar aparılır. Onlar tərəfindən hazırlıqlı kadrlar, yüksək səviyyəli statistik texnika, proqramlar, kompyuter və sairədən istifadə olunur. Məsələn, Amerika mütəxəssisi Gellap bu sahədə tanınmış liderdir. Yaxud başqa bir misal. Bir sıra xidmətlər hər ay, hər həftə prezidentlərin və ya baş nazirlərin populyarlıq reytinqini izləyirlər.

### 4. Müxtəlif sahələrdə seçkilər

Seçkilərin bir qayda olaraq siyasi termin kimi qəbul edilməsinə baxmayaraq, onlara qeyri-siyasi sahələrdə, məsələn, sosial, iqtisadi, sənaye, təhsil, dini, mədəni, ədəbi və s. də rast gəlinir.

Bu müxtəlif qeyri-siyasi sahələrdə çoxlu təşkilati, inzibati, əlaqələndirmə və ya digər tip orqanlar vardır ki, onlar da assosiasiya, təşkilat, konqres, dairə, klub, büro, ittifaq, federasiya və s. adı altında tanınırlar.

### 5. Seçkilərin səviyyələri

Şaquli şəkildə, demək olar ki, seçkilər bütün səviyyələrdə keçirilir. Seçkiləri ən yuxarı səviyyədən ən



aşağı səviyyəyədək fərqləndirmək olar. Seçkilərin aşağıdakı səviyyələrini fərqləndirmək mümkündür:

1. Beynəlxalq (məsələn, BMT-yə keçirilən seçkilər),
2. Dövlət (məsələn, Azərbaycan Respublikasının Milli məclisinə keçirilən seçkilər),
3. Rayon (məsələn, respublikanın rayonlarında keçirilən seçkilər),
4. Şəhər (məsələn, Bakıda və ya digər şəhərələrdə keçirilən seçkilər),
5. Kənd (məsələn, ayrı-ayrı kəndlərdə keçirilən seçkilər).

### 6. Seçkilərin mərhələləri və fazaları

Bura daxildir:

1. Seçki dairəsinin müəyyənləşdirilməsi;
2. Namizədliyin irəli sürülməsi və ya qəbul edilməsi;
3. Seçki ərəfəsində səslərin toplanılması;
4. Səsvermə;
5. Seçkilərdə qanuna zidd hərəkətlərin aşkarlanması;
6. Nəticələrin hesablanması və elan olunması;
7. Seçkilərin və səsvermənin nəticələrinin qabaqcadan bildirilməsi, proqnozlaşdırılması.

### 7. Seçki dairəsinin müəyyənləşdirilməsi

Seçki dairələri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasi tərəfindən müəyyənləşdirilir. Dairələr əhalinin sayına uyğun olaraq yaradılır.

Dairələr vaxtaşırı yenidən təşkil olunaraq dəyişirlər. Dairələrin yenidən təşkili bəzi namizədlərin seçkilərdə müvəffəqiyyət qazanması üçün böyük əhəmiyyət kəsb edə bilər. Bəzən hiyləgər siyasətçilər, rəğbət bəsləmədikləri

namizədlərin üstünlüyünü məhdudlaşdırmaqdan ötrü bəzi dairələrin sərhədlərində dəyişikliklər edirlər. Bu proses onların rəğbət bəslədikləri namizədləri dəstəkləmək üçün də aparıla bilər. Bu hal, məsələn, ABŞ-da seçkiqabağı fırıldaqlıq və ya qəsdən təhrifetmə adlanır.

## 8. Namizədliyin irəli sürülməsi

Seçkilərdə mübarizə aparmaq üçün müxtəlif şəxslər müvafiq prosedurlara uyğun olaraq öz namizədliklərini irəli sürməlidirlər. Bəzən namizədlərin vaxtında qeydiyyatı mürəkkəb və ya çox çətin bir işə çevrilə bilər. Bu, namizədlərin qətiyyətsizliyi, partiya dəstəyinə inamsızlığı, tərəfdarlarının qeyri-müəyyənliyi, partiyaların öz namizədlərini müəyyənləşdirə bilməməsi və digər səbəblərlə bağlı ola bilər.

Namizədliyi iki tipə bölmək olar:

1) Müstəqil namizədlik;
2) Partiya tərəfindən dəstəklənən namizədlik.

Birinci halda namizədi heç bir partiya dəstəkləmir. Lakin müstəqil namizəd seçkilərə müxtəlif partiyalar və təzyiq qüvvələrinin dəstəyinə də arxalanaraq gedə bilər. Ancaq, düzünü desək, belə namizəd əslində asılı namizəddir.

İkinci tip namizədlik asılı və ya partiya tərəfindən dəstəklənən namizəddir. Bu halda namizəd nəinki partiyanın, yaxud partiyaların dəstəyini qazanır, o, bunu həm də rəsmi edir. Partiyalar namizədlərə sponsorluq edir ki, bu da böyük fərqə səbəb olur. Partiyalar (eləcə də təzyiq qrupları) seçki strategiyası və taktikasını həyata keçirən öz qərargahını, seçki maşınını, fondları və işçi qrupunu namizədlərin dəstəklənməsinə yönəldir. Partiyalar verilən namizədi müdafiə etmək üçün seçicilərlə əlaqə yaratmaq, önları səs verməyə



inandırmaq, mitinqlərin və yığıncaqların keçirilməsi, vərəqələrin paylanması, dövrü mətbuatda, radio və televiziyada çıxışlar təşkil etmək və digər xidmətlərin bütün məsuliyyətini öz üzərlərinə götürürlər.

Bəzi hallarda partiya hər hansı bir namizədlə əlaqəni kəsməkdən ötrü də onun namizədliyi ilə məşğul ola bilər. Bu halda partiya maşını və işçiləri həmin namizədi çaşdırmaqdan ötrü gizlicə onun ziddinə işləyə bilərlər. Hətta kampaniya başlayanadək namizədin hər hansı bir çətin və ya nümunəvi dairədən namizədliyinin irəli sürülməsinə, onun seçicilərinin sayının müxtəlif hiylələrlə azaldılmasına səy göstərilə bilər. Onlar namizədi ona sadiq seçicilərindən və digər işlərindən ayrı sala bilər və o, seçkilərdə kifayət qədər səs yığmaya bilər. Nəticədə namizəd məqlubiyyət uğraya bilər.

## 9. Seçkiqabağı səslərin toplanılması

Bu, seçkilərdə çüx mühüm bir prosesdir. Səslərin toplanılması namizədlər üçün lazımi qədər səslərin toplanılması deməkdir. Başqa sözlə, bu, bir-biri ilə rəqabət aparan namizədlər üçün səslərin sayının azalmasını bildirə bilər. Səslərin toplanılması prosesi sadə və ya birbaşa, mürəkkəb və ya vasitəli, qısa və ya uzun müddətli ola bilər. Səslərin toplanılmasının intensivliyi və ya effektivliyi, sahələr və xərclər kontekstindən asılı olaraq, fərqlənə bilər. Bu prosesə cəlb olunan vasitələr də fərqlənə bilər. Səslərin toplanılması işi ya namizədin özü, ya da ki, yaxınları və ya müvəkkilləri tərəfindən həyata keçirilə bilər. Bu prosesdə müxtəlif metodlar tətbiq oluna bilər. Məs, hər hansı bir evə baş çəkmək, əhali ilə telefon danışıqları, məktub və teleqram kampaniyası, kitabçalardan, reklam çarxlarından və vərəqə-

lərdən, divar qəzetlərindən, afişa və plakatlardan, döş nişanlarından, emblemlərdən, KİV-dən, iclaslardan və s. istifadə. Səslərin toplanılması yaxşı təşkilatları, loyal tərəfdarları, nüfuzu, dostluq əlaqələri, işçiləri, maliyyə imkanları, təsisatları, tanınmış adamları olan namizədlər üçün daha çox imkanlar yaradır.

**10. Səsvermə**

Bu, seçkilərdə sonuncu mərhələsi toplanmış səslərin hesablanması və nəticələrin elan olunmasından ibarət olan prosesin axırıncıdan əvvəlki mərhələsidir. Səsverməni kontekstinə görə fərqləndirmək olar. Əgər namizədlərin sayı və ya iddia olunan yerlərin sayı azdırsa, onda səsvermədə fəallıq da aşağı olacaqdır. Əksinə, əgər namizədlərin və ya iddia olunan yerlərin sayı çoxdursa, onda səsvermədə fəallıq da yüksək olacaqdır. Ümumi seçkilər vaxtı bu sahədə məmurlar tərəfindən müntəzəm tədbirlər həyata keçirilir. Ümumi seçkilər üçün Konstitusiyada nəzərdə tutulmuş daimi seçki komissiyası fəaliyyət göstərir. Səsvermə ciddi hadisələrlə müşahidə oluna bilər. Bir çox hallarda bu məqsədlə təhlükəsizlik tədbirləri görülə bilər. Namizədlərin özləri və ya onların müvəkkilləri, nümayəndələri pozuntuların olmamasına əminlik üçün seçkidə iştirak edə bilərlər.

Səsvermənin mənəvi cəhəti namizədin daha çox səs yığmalı olmasından ibarətdir. Elektoratı səfərbər etmək və onu seçki bülletenlərini qutulara salmaqdan ötrü gətirmək üçün bütün mümkün vasitələrdən istifadə oluna bilər. Bunu müxtəlif cür həyata keçirmək mümkündür. Məs., seçicilərin siyahısına uyğun olaraq kimin səs verib verməməsini yoxlamaq; bəzi seçiciləri evdən, məktəb, universitet, fabrik,



ferma və digər yerlərdən səsvermə qutularına gətirmək və s.

**11. Serçkilərdə qeyri-qanuni hərəkətlər**

Bunlar seçkilərlə bağlı müxtəlif qanunların, kodekslərin, qayda və prosedurların pozulduğu vaxt baş verə bilər. Məs., seçicilərin siyahısında məlum yerdə çoxdan bəri yaşamayanların adının olması, yaxud yeni seçicilərin adının siyahıda olmaması, siyahıda bəzi qeyri-dəqiqiliklərin olması. Serçkilərdə qeyri-qanuni hərəkətlər seçkilərin başa çatması ilə bitməyərək, sonra da davam edir.

**12. Nəticələrin hesablanması və elan olunması**

Bu seçkilərin son mərhələsidir. Nəticələrin hesablanması müxtəlif cür həyata keçirilir. Seçicilərin sayı az olduqda səslər əl hesabı ilə də aparıla bilər. Lakin say çox olarsa, onda başqa üsullar tətbiq olunur. Məs., bir çox ölkələrdə seçicilərin sayı kompyuter və ya səsvermə maşınlarının köməkliyi ilə aparılır. Səsvermənin nəticələrinin teleks, radio, televiziya və internet vasitəsilə elan olunması onların nəticələrinin bildirilməsinin standart vasitəsi kimi çıxış edir.

**13. Qabaqcadan xəbər vermə**

Bu, demək olar ki, ən ziddiyyətli və mübahisəli məsələlərdəndir.

Müxtəlif namizədlərin, onların tərəfdarlarının və b. öz münasibətlərini, bəyanatlarını, büdcələrini, səylərini və hərəkətlərini müəyyənləşdirə bilmələri üçün nəticələrin əvvəlcədən (mümkün qədər dəqiq) bilinməsi lazım gəlir. Məs., qalib gələcəyinə əmin olan və bu əsasda nazir təyin olunacagını bilən namizəd danışığında məxfiliyi gözləməyə

və ya güclü sözlərdən istifadə etməyə (məs., tənqiddən) üstünlük verə bilər; qələbəsinə o qədər də inanmayan başqa bir namizəd isə danışığında fəlsəfi üslubdan istifadə edə bilər.

Kiçik miqyaslı seçkilərdə seçkilərin nəticələrini qabaqcadan xəbər vermə irimiqyaslı seçkilərdə olduğundan daha asandır.

Seçkilərdə digər tərəfdə seçicilər durur ki, onlar seçkilərin nəticələrinin qabaqcadan xəbər verilməsində müxtəlif səhvlərə yol verilməsinə səbəb olurlar. Filosofların belə bir fikri ilə razılaşmamaq olmur: insanların fikirlərini heç vaxt öncədən bilmək olmur. Əgər bunu seçkilərə tətbiq etsək, onda görərik ki, seçicilərin fikrini qabaqcadan bilmək o qədər də asan iş deyildir. Hansısa seçicilərin kimə səs verəcəyini qabaqcadan təxmini bildirmək mümkün olsa da, irəli sürülən proqnozun dəqiq olmasına heç kim zəmanət verə bilməz. Üstəlik qabaqcadan xəbər verilən proqnozun seçicilər tərəfindən tamamilə pozulduğunun şahidi olmaq mümkündür. Bu qəsdən və ya bilmədən baş verə bilər. Məs., seçicilər əvvəlcədən kiməsə səs verəcəklərini bildirə bilərlər. Onlar seçkinin gedişatı haqqında səhv məlumatları seçə bilərlər ki, bunlar da müxtəlif səbəblərdən yarana bilər (məs., onların hansısa partiyanı bəyənib bəyənməməsi məsələsi). Digər səbəb həqiqəti deməkdən yayınmaq ola bilər. Nəhayətdə seçicinin özü kimə səs verəcəyini hamıdan yaxşı bilir. Seçkilərə qədər və ya onlardan sonra seçici müxtəlif vədlər. hədiyyələr və s. ala bilər (məs., pul, hədiyyələr və s.). Səsvermə prosesində isə onun müxtəlif partiya nümayəndələri tərəfindən aldadıla bilməsi mümkündür. Beləliklə də, rəğbət bəslədiyi namizədin əvəzinə seçici tamamilə başqa bir



namizədə və ya partiyaya səs verə bilər. Bunun kimə fayda verdiyini isə seçici hamıdan yaxşı bilir.

Bütün bu çətinliklər üzündən seçkilərin nəticələrinin qabaqcadan xəbər verilməsi risqli bir işi xatırladır. Bəzi seçkilər ümidlərin boşa çıxmasına səbəb olur. Belə ki, namizədlərin sayının artması səhvlərin də artmasına səbəb olur. Bunun üçün də seçkilərdə proqnoz verərkən çox diqqətli olmalı, insan təbiətinin gizli tərəflərini nəzərə almaq vacibdir.

# FƏSIL 7. SOSIAL DƏYIŞIKLIK VƏ ONUN TƏMSILÇILƏRI

Sosial dəyişiklik dedikdə cəmiyyətin hər hansı bir tərəfi və ya cəhətinin istənilən modifikasiyası, şəklini dəyişməsi nəzərdə tutulur. İstənilən artım, azalma, dağılma, inkişaf, tərəqqi, tənəzzül, inqilab və ya təkamül sosial dəyişiklik adlana bilər. Sosial dəyişiklik cəmiyyətin istənilən sahəsində - ideyalarda, ideologiyalarda, siyasətdə, prinsiplərdə, fəlsəfi və ya siyasi nəzəriyyələrdə, qanunlarda, ənənələrdə, adətlərdə, müqavilələrdə, təsisatlarda, birliklərdə, rəhbərlikdə, liderlikdə, dəyərlərdə, fəaliyyətdə, nailiyyətlərdə və sairə baş verə bilər.

Zaman nöqteyi-nəzərindən sosial dəyişiklik qısa və ya uzunmüddətli, köhnə və ya yeni, daimi və ya müvəqqəti və s.; əhəmiyyətinə görə kiçikmiqyaslı və ya böyükmiqyaslı, səthi və ya dərin; sürətinə görə ləng və ya iti, təkamül və ya inqilabi; istiqamətinə, dəyərinə görə mütərəqqi və ya mürtəce, mühafizəkar və ya modern ola bilər. Müxtəlif sferaları əhatə etməsinə və fəaliyyət səviyyəsinə görə sosial dəyişiklik ideoloji, siyasi, konstitusional, iqtisadi, sənaye, təhsil, dini, mədəni və s. ola bilər. Sosial dəyişiklik müxtəlif səviyyələrdə gedə bilər. Məsələn, inzibati bölgü nöqteyi-nəzərindən sosial dəyişiklik kənd, rayon, şəhər, dövlət, BMT səviyyələrində baş verə bilər.

Süräkliliyinə görə sosial dəyişiklik fasiləsiz və ya növbələnən, dayandırılmış və ya davam etdirilən ola bilər. Hiss olunmasına və ya ölçüyə gəlməsinə görə sosial dəyişiklik hiss olunan və ya hiss olunmayan, ölçüyə gələn və ya ölçüyə gəlməyən ola bilər.



Sosioloqlar və ya siyasi sosioloqlar, ümuiyyətlə, müxtəlif tip sosial dəyişikliklərə müraciət edirlər. Sosial dəyişiklik xətti, dairəvi, dövri, mərhələli və sinxron ola bilər. Xətti dəyişiklik düz xətt üzrə, dairəvi dairə üzrə baş verir və başladığı nöqtəyə qayıtmanı nəzərdə tutur. Dövri dəyişiklik dövri şəkildə baş verir. Mərhələli dəyişiklik mərhələrlə dəyişikliyi, yəni aşağı mərhələdən yuxarı mərhələyə və ya əksinə dəyişikliyi nəzərdə tutur. Sinxron dəyişiklik cəmiyyətin müxtəlif hissələri və ya institutlarında dəyişikliyin eyni vaxtda baş verməsini nəzərdə tutur.

## 1. Sosial dəyişiklik nəzəriyyələri

### Dəyişikliyin "tənəzzül nəzəriyyələri"

Elə sosial dəyişiklik nəzəriyyələri vardır ki, onların tənəzzül ideyalarına əsaslandığını demək olar. Bu cür nəzəriyyələrin Şumer və İran eposlarından, Hindistan fəlsəfəsindən bəhrələndiyini demək olar.

Fransız sosioloqu Oqüst Kont üçmərhələli dəyişikliklərdən bəhs edərək onları teoloji, metafizik və pozitiv mərhələlərə ayırırdı. İngilis sosioloqu Herbert Spenser orqanizmin mərhələlərinə uyğun olaraq cəmiyyətin müxtəlif mərhələlərindən danışır. Onun fikrincə, cəmiyyətin bir orqanizm kimi inkişafında artan və tənəzzülə uğrayan üç mərhələsindən danışmaq mümkündür: bəsit, hərbi və sənaye. Tanınmış rus sosioloqu Nikolay Mixaylovskinin fikrincə, insan cəmiyyəti öz inkişafında üç mərhələdən keçməlidir: obyektiv antroposentrik, ekssentrik və subyektiv antroposentrik mərhələlər.

### 1.2. Dəyişikliyin tsiklik nəzəriyyələri

J.B.Böri özünün “Tərəqqi ideyası” kitabında tsiklik dəyişiklikdən bəhs edir. Onun fikrincə, bir sıra yunan filosofları, məsələn stoiklər və Roma filosofları, xüsusən, Mark Avreliy sosial dəyişikliyin siklik təbiətinə inanırdılar.

A.Şpenqler kimi sosioloqlar sivilizasiya və cəmiyyətlərin doğuş, yetkinlik və ölüm kimi oxşar mərhələlərdən keçməsi fikrini müdafiə edirdilər. O, öz nəticələrini Misir, Yunan və Roma kimi müxtəlif sivilizasiyaların tədqiqi üzərində qururdu.

İtalyan mütəfəkkiri V.Pareto müxtəlif tip dəyişikliklərdən bəhs edir, onların təbiətcə tsiklik olduğunu göstəririd. Paretoya görə, istənilən cəmiyyətdə iki insan sinfi - rantyelər (sahibinin fəaliyyəti tələb olunmadan kapital, əmlak və ya torpaqdan alınan gəlir hesabına yaşayanlar) və möhtəkirlər (alverçilər) tsiklin fəaliyyətini səciyyələndirirlər.

Bəzi sosioloqların fikrincə, sosial dəyişiklik təkcə tsiklik deyil, həm də sinxron siklik dəyişiklikdir ki, bu da cəmiyyətin müxtəlif orqanlarında, məsələn, ailədə, kilsədə, hökumətdə eyni vaxtda baş verən dəyişikliyi nəzərdə tutur. P.Sorokin sivilizasiyaların və cəmiyyətlərin üç tip tsiklik dəyişikliyə məruz qalmaları haqqında fikir söyləyir. Bunlar ideasion (ideyaların formalaşdırılması və qavranılması qabiliyyəti), idealistik və hissi mərhələlərdir. O, bu təhlili dünyadakı müxtəlif mədəniyyətlərə tətbiq edir.

Tarixçi A.Toynbi sivilizasiyaları onların tsiklik şəkildə baş verən tərəqqisi və enişi, yüksəlişi və tənəzzülü nöqteyi-nəzərindən təhlil edir, bəşər tarixini dövri şəkildə baş verən tsiklik dəyişikliklər şəklində təsəvvür edirdi.



### 1.3.Deterministik dəyişiklik nəzəriyyələri

Britaniya sosioloqu L.Hobhaus, alman sosioloqu M.Veber və başqaları sosial dəyişiklikləri deterministik mövqedən izah etməyə çalışırdılar. Məs., Veber hesab edirdi ki, dini determinizm müəyyən mənada cəmiyyətin həyat və taleyinə təsir göstərir. O, induizmin və buddizmin hind xalqının həyatına deterministik təsirini izləyir. Məsələn, Bhaqavadqitada belə bir fikir yürüdülür ki, Allah yer üzərinə yaxşını qorumaq, cəmiyyət qürub etməyə başladıqda isə pisi cəzalandırmaq üçün insan surətində göndərilmişdir.

Sosial dəyişikliyin ən ziddiyyətli fəlsəfəsi K.Marksa aiddir. Onun fəlsəfəsi XX əsrdə ən mötəbər fəlsəfə idi. O, iqtisadi determinizm mövqeyindən çıxış edərək bütün bəşər tarixini həmin mövqedən izah edir, onun mərhələlərinin əvvəlcədən bəlli olduğunu bilidirirdi. Marksa görə, hər hansı bir xalqın fəlsəfəsi, siyasəti, mədəniyyəti, ədəbiyyatı və sosial həyatı istehsal sistemi, paylaşdırma və istehlakla müəyyənləşir. Bu fikirlər “Kapital”ın qayəsini təşkil edir.

## 2. Ənənəvi cəmiyyət, modernləşmə və sosial dəyişiklik

Ənənəvi və müasir cəmiyyətlərin təbiəti və problemləri, modernləşmə prosesi və sosial dəyişiklik əsasən ənənəvi cəmiyyətlə müasir cəmiyyətin müqayisəsi və sosial dəyişikliyin təbiəti üzərində ardıcıl dayanmaqla müzakirə oluna bilər. Aşağıdakı cədvəldə hər iki cəmiyyət arasındakı fərqlər ardıcıl olaraq göstərilir:

Cədvəl

| Ənənəvi cəmiyyət | Müasir cəmiyyət |
|---|---|
| 1. Zaman nəzərindən ümumən köhnə və erkən | 1. Zaman nəzərindən ümumən yeni və gec |
| 2. Kollektivçilik | 2. Fərdiyyətçilik |
| 3. Adamlar, təsisatlar, prosedurlar müqəddəsdirlər | 3. Adamlar, təsisatlar, prosedurlar daha az müqəddəs, daha çox isə faydalıdırlar |
| 4. Əsasən istinad ənənəyədir | 4. Əsas istinad effektivliyə və funksionallığadır |
| 5. Elm və texnologiyaya az müraciət olunur | 5. Elm və texnologiyaya çox müraciət olunur |
| 6. Kənd təsərrüfatı sənayeyə nisbətən daha çox yer tutur | 6. Sənaye kənd təsərrüfatına nisbətən daha çox yer tutur |
| 7. Kənd həyatı üstünlük təşkil edir | 7. Şəhər həyatı üstünlük təşkil edir |
| 8. Münasibətlər daha intim, yaxın xarakter daşıyır | 8. Münasibətlər vasitəli xarakter daşıyır |
| 9. Nisbətən güclü və uzunmüddətli münasibətlər | 9. Nisbətən zəif və müvəqqəti münasibətlər |
| 10. Əzəli statusa istinad | 10. Qazanılmış statusa istinad |
| 11. Səfərbərliyin, sürətin, həyat ritminin, yaradıcılığın və yeniliyin zəif tempdə olması | 11. Səfərbərliyin, sürətin, həyat ritminin, yaradıcılığın və yeniliyin yüksək tempi |
| 12.Konformizmin və yamsılamanın üstünlük təşkil etməsi | 12. Konformizmin və yamsılamanın zəif olması |
| 13. Dəyişikliklərə az meyillilik | 13. Dəyişikliklərə daha çox meyillilik |

## 2.1. Modernləşmə və inkişaf

"Modernləşmə" və "inkişaf" anlayışlarından bir sıra elmlərdə - iqtisadiyyatda, siyasi elmdə, sosiologiyada, psixologiyada və digərlərində istifadə olunur. Bu anlayışlar əsasən



ikinci Dünya müharibəsindən sonra geniş yayılmağa başlamışdır. Zamanca modernləşmə müəyyən mənada inkişaf anlayışından daha əvvəl gəlir. XIX əsrin ikinci yarısında Yaponiyanın modrernləşməsi buna misal ola bilər. Yeri gəlmişkən deyə bilərik ki, modernləşmənin bu xüsusi halına vesternizasiya və ya qərbləşmə kimi də baxıla bilər. 1918 və 1938-ci illər arasında Türkiyə modernləşmə modelindən danışmaq olar. Avropada yerləşsə də, bundan əvvəl Türkiyə Avropanın xəstə adamı kimi tanınır və geri qalan islam ölkəsi olaraq qeyd olunurdu. Türkiyənin modernləşməsi Kamal paşanın güclü iradəsi ilə aparıldı. Burada qeyd etməliyik ki, Türkiyədə modernləşmə hərtərəfli proses olaraq həyatın bütün tərəflərini əhatə etmişdir: ölkədə ordu yenidən quruldu, təhsil islahatı aparıldı, siyasət sekulyarlaşdı və hətta Türkiyənin həyatının müəyyən xarici aspektləri belə dəyişdi. Məs., türklərin istifadə etdiyi ərəb əlifbasını latın əlifbası, "fəs" papağını avropa şlyapası, çadranı avropasayağı qadın geyimi əvəz etdi.

İnkişaf prosesi və ya fenomeni ikinci Dünya müharibəsindən sonra daha çox işlənməyə başlandı. Bu vaxt müxtəlif imperiyalar dağıldı, yerində isə yeni dövlətlər yarandı. Bu proseslər inkişaf propbleminin gündəmə gəlməsini şərtləndirdi. Yeni yaranmış bu dövlətlərdə cəmiyyətin heç bir sahəsi - elm, texnologiya, kommunikasiya, təhsil və həyat standartları inkişaf etməmişdi. İnkişaf anlayışı daha çox elə bu ölkələrin liderləri və xalqları tərəfindən işlədilməyə başlandı.

İnkişaf etmiş ölkələr bir sıra yeni dövlətlərə maliyyə, kredit, texniki, strateji malların ixracı və s. ilə yardım göstərməyə başladılar. Yardım əsasən iki yolla göstərilirdi: 1) müəyyən bir ölkəyə donor ölkə tərəfindən ikitərəfli

əməkdaşlıq çərçivəsində birbaşa göstərilən yardım və ya 2) müəyyən beynəlxalq institutlar və ya agentliklər vasitəsilə (məs., BMT) göstərilən yardım.

İnkişafın özünün də müxtəlif mərhələləri haqqında danışmaq olar - inkişaf etməmiş, az inkişaf etmiş, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr. Əvvəllər işlədilən az inkişaf etmiş termini bu sıraya aid ölkələrə xoş gəlmədiyindən sonradan "inkişaf etməkdə olan" anlayışından istifadə olunmağa başlandı.

Hal-hazırda dünya iki hissəyə - inkişaf etmiş və inkişafda olan ölkələrə bölünsə də, üçüncü dünya ölkələri anlayışına da rast gəlinir. Lakin sonuncular da elə inkişaf etməkdə olan ölkələrin sırasındadırlar. Bu ölkələrdə aşağı həyat səviyyəsi hökm sürür.

İnkişaf fenomeni dünya mütəxəssislərinin diqqətini çəkmiş və onlar ehtiyatların inkişafına rəğmən əhali artımına dair bir çox müxtəlif proqnozlar vermişlər. Hal-hazırda qərb fikir dünyasında iki aparıcı məktəb mövcuddur. Onlardan birincisi Roma klubudur ki, bu quruma dünyanın müxtəlif ölkələrindən müxtəlif sahələri (sənayeçiləri, fabrikantları, alimləri, tibb mütəxəssislərini və b.) təmsil edən yüzdən artıq aparıcı mütəxəssis daxildir. Onlar dünya resurslarını öyrənərək bəşəriyyətin gələcəyi haqqında proqnozlar verməyə çalışırlar. Təəssüf ki, bu proqnozlar ürəkaçan deyildir. Onların fikrincə, insanlar dünya resusrslarını çox sürətlə işlədirlər və əhalinin fantastik templə artması bəşəriyyəti aclıq təhlükəsi qarşısında qoya bilər. Buradan onlar dünya resurslarından daha ehtiyatlı istifadə və əhali artımına nəzarət etmək qənaətinə gəlirlər.

İkinci məktəb isə Vaşınqton şəhərində yerləşən



Hadson İnstitutudur. O da tədqiqatlar aparmaq və dünya resursları və əhali artımı haqqında proqnozlar verməklə məşğuldur. Hadson İnstitutunun əsas fikri ondan ibarətdir ki, dünyada nə ehtiyatlar tükənmişdir, nə də ki, dünya əhalisi ehtiyatlara nisbətən xeyli çoxdur; əhali artdıqca mövcud olanlardan fərqli müxtəlif ərzaq və energi mənbələri axtarılıb tapılmalıdır. Bu dəyişiklikləri və şəraitləri müzakirə edərkən inkişaf termininindən istifadə vacibdir. Bu səpkidə "modernləşmə" anlayışından istifadə oluna bilsə də, "inkişaf" anlayışı daha yerinə düşür.

Beləliklə, iki anlayış arasında kəskin fərq olmasa da, onlar hər halda bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Biz sosial dəyişikliyin təbiətini və ona dair müxtəlif nəzəriyyələri, ənənəvi cəmiyyətin modernləşməsini və modernləşmənin inkişafa münasibətdə mənasını nəzərdən keçirdik. Dünyanın müxtəlif yerlərində və xüsusən inkişaf etməkdə olan ölkələrdə sosial dəyişiklik prosesində bu işə cəlb olunmuş vasitəçilərin təbiəti və rolunu təhlil etmək lazım gəlir. Şübhəsiz ki, sosial dəyişikliyin aparılmasında dövlət ən güclü vasitəçidir. Dövlətlə əməkdaşlıq və ya mübarizədə fəaliyyət göstərən İkinci vasitəçi siyasi partiyalardır. Siyasi partiyalarla əməkdaşlıqda və bəzən münaqişədə fəaliyyət göstərən üçüncü vasitəçi müxtəlif təzyiq qruplarıdır. Onlar sosial dəyişikliyi aparan qüvvələrdən biri olsalar da, seçicilər uğrunda mübarizə aparmırlar.

### 2.2. Dövlət inkişaf etməkdə olan ölkələrdə sosial dəyişikliyin əsas agenti kimi

Müxtəlif dövrlərdə dövlət bir çox ölkələrdə sosial dəyişikliyin ən güclü vasiyəçilərindən biri olmuşdur.

Dövlətləri olmayan xalqlar dövlətin onları xarici müdaxilədən və daxili qarşıdurmalardan qorumağının vacibliyini tezliklə anladılar. İnsanlar müdafiə və təhlükəsizlik problemlərindən azad olduqdan sonra öz enerjilərini iqtisadi, sosial, mədəni və digər işlərə sərf etməyə imkan tapdılar. Bu, istənilən sosial dəyişiklikdən öncə dövlətin ən mühüm funksiyalarından biridir. O da doğrudur ki, dövlət bəzən sosial dəyişikliyi ləngidir və ya ona mane olur, yaxud da həvəsləndirir və ya sürətləndirir. Dövlət özünün müdafiə və təhlükəsizlik, qayda-qanunun bərpası kimi ilkin və birbaşa funksiyalarından başqa müxtəlif tip sosial dəyişikliklərə də töhfə vermişdir. Dövlətlər müxtəlif ölkələrdə xüsusi konstitusiyaların və ya siyasi addımların atılmasına və ya həvəsləndirilməsinə rəvac vermişlər. Siyasi sahədə siyasi partiyaların, lobbiçilərin və ya təzyiq qruplarının, iqtisadi sferada özəl və ictimai sektorun, xırda, orta və iri sahibkarlığın və s. fəaliyyətinə məhz dövlət tərəfindən icazə verilmiş və ya onların bu fəaliyyəti həvəsləndirilmişdir. XIX əsrdə bəzi dövlətlər sənaye inqilabını sürətləndirməyə elə də həvəs göstərməsələr də, bu gün vəziyyət başqa cürdür. Əməyin mühafizəsi və qadın bərabərliyi istiqamətində addımlar XIX əsrdə bir çox dövlətlərdə o qədər də həvəslə qarşılanmırdı. Bu gün isə bu məsələlər həm mühüm, həm də dəbdə olan problemlərdəndir. İnkişaf etməkdə olan ölkələrdə sosial dəyişiklik aparmaqda dövlətin üzərinə çox böyük məsuliyyət düşür. Bu cəmiyyətlərdəki dövlətlərdən müvəffəqiyyətli xarici siyasət aparılmasında, sabit və ədalətli, effektiv idarəetmədə, həyat şəraitinin təmin edilməsində tam məsuliyyət tələb olunur. Bu cəmiyyətlərdə dövlətlər bu məqsədlər üçün müxtəlif proqramlar işlənilməsi ilə məşğul



olduğundan dövlətin həyatın qeyri-siyasi sahələrinə təsiri xeyli artmışdır. Bu gün bu tip cəmiyyətlərin həyatı bütünlükdə əhəmiyyətli dərəcədə siyasiləşmişdir. İstənilən məsələyə dövlət təsir göstərir və ya bu onunla bağlı olur. Dövlət insanların həyatında daha çox yer tutur.

## 2.3. İnkişaf etməkdə olan ölkələrdə siyasi partiyalar sosial dəyişikliyin əsas agenti kimi

İnkişaf etməkdə olan ölkələrin əksəriyyətində siyasi partiyalar sosial dəyişikliyin əsas vasitəçisi kimi çıxış edirlər. Bu siyasi partiyalar keçmiş metroployilara qarşı azadlıq uğrunda mübarizə aparmış hərəkatları ilə tanınmışlar. Bunlara misal olaraq Hindistan Milli Konqresini, Çin Kommunist Partiyasını və b. göstərmək olar. Onlar müxtəlif dövrlərdə yaradılmış və müstəmləkəçiliyə qarşı mübarizə aparmışlar. Onlardan bəziləri birinci Dünya müharibəsindən əvvəl, bir çoxları müharibələrarası dövrdə və xüsusın ikinci Dünya müharibəsindən sonra fəal olmuşlar.

Bu partiyalar iki mühüm xüsusiyyətə malik idilər. Birincisi, onların xalqı müstəqillik üçün müstəmləkəçilərə qarşı ayağa qaldırması, onu maarifləndirməsi və təşkil etməsi idi. Faktiki olaraq müstəmləkə dövründə bu partiyaların sosial dəyişiklik kontekstində rolu protestlər təşkil etmək, təşviqat aparmaq və mövcud üsul-idarəyə müxalif olmaqdan ibarət idi. İkincisi, onlar özlərini, əgər belə demək mümkündürsə, "çətir" təşkilatlar, yəni geniş əhatəyə malik, koalisiya və ya konqlomerat tipli təşkilatlar kimi təsdiq etmişlər. Qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələrdə siyasi partiyaların sosial dəyişikliklərdə oynadığı rolla Qərb ölkələrində siyasi partiyaların rolu fəqlidir.

Qərbdə partiyalar kifayət qədər uzun bir müddətdə formalaşmış, inkişaf etmiş və müxtəlif partiyalar arasında müəyyən müvazinət mövcuddur. Bunlara misal olaraq, Britaniyadakı mühafizəkar, liberal və leyboristlər partiyalarını, Almaniyadakı Xristian-Demokratik və Sosial-Demokratik partiyalarını, ABŞ-da *Demokratlar* və *Respublikaçılar* partiyalarını və Fransa, İtaliya, Hollandiya, Belçika və digər ölkələrdəki oxşar partiyaları göstərə bilərik. Bu tip partiyalara inkişaf etməkdə olan ölkələrdə rast gəlinmir. İnkişaf etməkdə olan ölkələrdə partiyalar ümumən mübarizə və "çətir" təşkilatlardırlar. "Çətir" təşkilatlar bəzən zaman keçdikcə daha məhdud və ya spesifik təşkilatlara və ya partiyalara bölünürlər. Bu "çətir" təşkilatlar hökuməti formalaşdırmaq və onu idarə etmək üçün əsas vasitəçi kimi fəaliyyət göstərirlər. Burada daha bir amili də qeyd etməliyik: bu, qeyri-siyasi sektorun siyasiləşməsi məsələsidir. Bu, onların sosial dəyişikliyin vasitəçisi kimi roluna təsir göstərir. İnkişaf etməkdə olan ölkələrdə siyasi inkişaf və sosial dəyişiklik problemi xeyli siyasiləşmişdir. İqtisadiyyat, sənaye, təhsil, din, mədəniyyət, ədəbiyyat kimi qeyri-siyasi sahələr kəskin şəkildə siyasətdən asılıdır və ya onun təsirini hiss edirlər. Bu proses genişləndikcə siyasi partiyalar sosial dəyişikliyin instrumenti kimi həlledici əhəmiyyət kəsb etməyə başlayırlar. Partiyalar dövlət mexanizminin fəaliyyəti, hökumətin fəaliyyəti, iqtisadiyyatın inkişafı və s. üçün açar vasitəyə çevrilirlər. Partiyalar təkcə ölkədaxili deyil, həm də xarici məslələrdə, məs., mühüm dövlətlərlə münasibətlərin müəyyənləşdirilməsində və ya dəyişdirilməsində, xüsusi tip xarici yardımın, texnologiyanın və digər növ yardımın alınmasında müstəsna rol oynaya bilərlər.



### 3. Təzyiq qrupları: metod və texnikalar

Müxtəlif təzyiq qrupları müxtəlif növ metod və texnikalardan istifadə edirlər. Bu metodların hansından istifadə onların konkret şəraitdən asılı olaraq qarşılarına qoyduqları vəzifələrdən asılıdır. Bir sıra təzyiq qrupları tərəfindən istifadə olunan metodlardan biri müəyyən partiyanı və ya onun namizədini seçkilər vaxtı və ya seçkilərarası dövrdə dəstəkləməkdir. Digər geniş yayılmış metod mitinqlərin, konfransların, qurultayların, yürüşlərin keçirilməsidir ki, bu vaxt məlum qrupun üzvləri müxtəlif siyasi partiyalar və mövqecə yaxın digər təzytiq qrupları ilə yaxşı əlaqələr və işçi münasibətlər qura bilirlər.

Təzyiq qruplarının istifadə etdikləri texnikalara gəldikdə isə deməliyik ki, onlar divar qəzetlərindən, qəzetlərdə hər hansı bir yerin satın alınmasından, plakatlardan və sairədən öz problemlərini ictimaiyyətə çatdırmaq və həll etmək, ictimai rəy yaratmaq və onu səfərbərliyə almaq üçün istifadə edirlər.

# FƏSIL 8. SIYASI SOSIOLOGIYADA METOD VƏ METODIKALAR

Hər bir elmin öz tədqiqat metodları və texnikaları vardır. Onlardan bəziləri digər elmlərdən alına, bəziləri digər elmlərdəkilər ilə eynilik təşkil edə, digərləri isə bu elm üçün spesifik ola bilər.

Siyasi sosiologiya siyasi elm və sosiologiyanın əksər metod və metodikalarından bəhrələnir.

Beləliklə, siyasi sosiologiyada istifadə olunan aşağıdakı bəzi metod və metodikalara müraciət edək:

**1. Bölmə və təsnifləşdirmə metodu**

Bu metod bir çox elmlərdə tətbiq olunur. Belə ki, hər bir elm toplanılan məlumatlar əsasında öz nəticələrini və ümumiləşdirmələrini qurmalıdır. Məlumatları ayrıca bir hadisə, misal, situasiya və s. təşkil edə bilər. Bu metoddan siyasi sosiologiyada məlumatın toplanılması və emalı üçün geniş istifadə olunur.

**2. Elmi induksiya metodu**

Bu metodun fərqli cəhəti ondadır ki, elmi nəticə bir və ya daha çox hadisə əsasında əldə edilir. Bunun üçün Nyutonun almanın yerə düşməsi kimi hadisə əsasında qravitasiya qanununu kəşf etməsi misalını göstərə bilərik.

**3. Analogiya metodu**

Digər elmlərdə olduğu kimi bu metoddan da siyasi sosiologiyada geniş istifadə olunur. Bu metodun xüsusiyyəti yalnız iki hadisə və ya situasiyanın öyrənilməsindədir. Lakin



bu vaxt alınan nəticə və ümumiləşdirmələrin həqiqiliyi və faydalılığı xeyli dərəcədə məhduddur. Bu metod bütövlükdə siyasi sosiologiya üçün mühüm əhəmiyyət kəsb edir. İki siyasi sistemin, iki liderlik tipinin, iki seçki sisteminin, iki planlaşdırma modelinin və s. öyrənilməsi buna misal ola bilər.

**4. Statistik metodlar**

Siyasi sosiologiyada bu metoddan geniş istifadə olunur. Məsələn, demoqrafiq proseslərin öyrənilməsi, seçkilərin nəticələrinin əvvəlcədən xəbər verilməsi və s. kimi hallarda statistik metodlardan istifadə oluna bilər.

**5. Müşahidə metodu**

Müşahidə məlum situasiya və ya fenomenin gücləndirilmiş tərzdə və hərtərəfli izlənilməsi deməkdir. Müşahidə qısa və ya uzun müddət ərzində, bir adam və ya bir qrup adam tərəfindən aparıla bilər. Siyasi sosiologiyada bu metod seçkilərin, liderlik xüsusiyyətlərinin və s. öyrənilməsində tətbiq edilə bilər.

**6. Eksperiment metodu**

Eksperiment müşahidənin nəzarət olunan formasıdır. Eksperiment əvvəlcədən düşünülmüş və nəzarət olunan situasiya və ya hadisəni nəzərdə tutur. Təbiət elmlərində eksperimentdən geniş istifadə olunduğu halda sosial elmlərdə, eləcə də siyasi sosiologiyada onun tətbiq sahəsi olduqca məhduddur. Belə ki, bəzi hallarda eksperimentdən istifadə etmək arzuolunan olsa da, onu tətbiq etmək çox çətin olur (məsələn, maliyyə cəhətdən baha başa gəldiyindən).

## 7. Sorğu (müsahibə) metodu

Bu metoddan digər sosial elmlərdə olduğu kimi siyasi sosiologiyada da geniş istifadə olunur. Bura ictimai rəy sorğusu, əhalinin siyahıyaalınması və s. aiddir. Bu metodun mahiyyəti respondentlərdən məlumatların, faktların, dəlillərin, mülahizələrin və s. toplanılmasındadır.

## 8. Hadisənin tarixinin öyrənilməsi metodu

Bu metodun hər hansı bir fərdin, şəraitin və ya hadisənin tarixini öyrənilməsində rolu əvəzolunmazdır. Bu metod hadisənin baş verməsini və onun əvvəldən axıradək inkişafını tədqiq edir. Hadisənin tarixi metodu əsasında çox əhəmiyyətli ümumiləşdirmələr əldə etmək mümkündür. Bu metodun çatışmayan cəhəti onun yalnız bir hadisə ilə bağlılığındadır.

## 9. Tarixi metod

Bu, müxtəlif elmlər tərəfindən qəbul edilmiş ən qədim və birtipli metodlardandır. Tarixi metod problemin, şəraitin və ya hadisənin tarixi nöqteyi-nəzərdən öyrənilməsini nəzərdə tutur. Misala müraciət edək. Tutaq ki, bizi hər hansı bir partiyanın müəyyən bir məkanda müəyyən bir vaxt ərzində nüfuzu maraqlandırır. Əgər bu məkan şəhərdirsə, onda bizi burada əvvəllər keçirilmiş seçkilərdə həmin partiyanın nümayəndələrinin qazandığı səslər maraqlandırmalıdır. Bunun üçün ən yaxşı metod məsələyə tarixi yanaşma ola bilər. Digər bir misal: bizi inkişaf etməkdə olan ölkələrin birində modernləşmə prolemi maraqlandırır. Bunun üçün ən yaxşı yol həmin ölkənin tarixini, ənənələrini, siyasi və iqtisadi rolunu nəzərdən keçirməkdir. Tarixi metod siyası



sosioloqa keçmişdə baş vermiş faktlar əsasında bu gün və gələcək üçün müəyyən nəticələr çıxarmağa imkan verir.

## 10. Müqayisəli metod

Bu, tarixi metodun bir növüdür. Onun vasitəsilə hər hansı bir hadisə və ya şəraitdə ümumi və xüsusi əlamətlər müəyyənləşdirilir. Bu metod vasitəsilə iki hadisə və ya şəraitin inkişafının müxtəlif tarixi mərhələlərini müqayisə etmək, onlarda baş verən dəyişiklikləri aydınlaşdırmaq mümkündür.

# BÖLMƏ 2. K.MARKS, M.VEBER VƏ T.PARSONSUN SOSIAL-SIYASI BAXIŞLARI

Bu bölmədə siyasi sosiologiya sahəsində ən əsas ideyaları irəli sürmüş üç alimin – K. Marks, M. Veber və T. Parsonsun baxışları ətraflı nəzərdən keçiriləcəkdir.

Elmin bütün sahələri xüsusi təfəkkür və istedada malik bir neçə şəxs tərəfindən, məsələn, fəlsəfə Platon və Aristotel, tarix Herodot və Plutarx, astronomiya Kopernik və Qaliley, fizika Nyuton və Eynşteyn, iqtisadiyyat Smit və Rikardo tərəfindən güclü təsirə məruz qalmışdır.

K. Marksı sinfi mübarizə, siyasi ideologiyanın iqtisadi kökləri haqqında dərin fikirləri və bir çox digər sanballı ideyalarına görə siyasi sosiologiyanın atası saymaq düzgün olardı.

M. Veber bürokratiya, sosial status və s. kimi bir sıra mühüm kateqoriyalar üzərində işləyərək Marksın toxunduğu problemlərə bir tərəfdən aydınlıq gətirmiş, digər tərəfdən isə onları genişləndirmişdir.

T. Parsons isə müasir sosial elmlər sahəsində alimlər arasında ən tanınmışıdır. Onun cəmiyyətin subsistemlərdən təşkil olunmuş sosial sistem olması haqqında ideyası cəmiyyətşünaslıq və siyasi tədqiqatlarla məşğul olan əksər müasir alimlər tərəfindən qəbul edilmişdir. Lakin Parsons müasir cəmiyyətlərdə fərd və qruplar arasında aydın nəzərə çarpan hakimiyyət, var-dövlət və digər göstəricilər arsındakı fərqlərə az əhəmiyyət verdiyindən onun nəzərriyəsi siyasi sosiologiyaya Marks və Veberin nəzərriəyləri qədər təsir göstərə bilməmişdir.



# FƏSIL 9. K.MARKSIN SOSIAL-SIYASI BAXIŞLARI

## Karl Marks (1818-1883)

Marks həm filosof, iqtisadçı, tarixçi, inqilabçı, həm də sosioloq kimi tanınmışdır.

Marksın insanların malik olduqları sərvət və imtiyazların səviyyəsinə görə müxtəlif siniflərə bölünməsi və bunun mühüm mübarizə mənbəyinə çevrilməsi haqqındakı fikirləri ilə tanışıq. Marksın ideyaları - marksizm bəzi siaysi partiyalar və hətta xalqlar tərəfindən proqram kimi qəbul edilərək ciddi məna kəsb etmişdir.

Bəs görəsən Marksın siyasətçiyə və politoloqa münasibəti necədir? Bütün alimlər kimi Marks üçün də siyasətçi ilə elm adamı (bir tərəfdən praktiki, digər tərəfdən isə elmi fəaliyyətlə məşğul olan insan) arasında müəyyən gərginlik mövcuddur. Belə ki, əgər Veber iki bir-birinə nəzərə çarpacaq dərəcədə əks mövqelərdə duran rollar arasındakı problemi onları bir-birindən ayırmaqda görürsə, Marks, əksinə, hər iki rolu birləşdirməyə üstünlük verir. Marks bir tarixçi və sosioloq kimi inanırdı ki, tarixi diqqətlə öyrənərək tarixi dəyişikliklər və inkişafı təmin edən əsas prinsipləri kəşf etmək mümkündür. O, bu prinsiplərin öz əksini onun Engelslə birlikdə yaratdıqları tarixi materalizm nəzərriyəsində tapdığını göstərirdi.

Marksın dəyişikliklər nəzəriyyəsi XIX əsr kapitalizm cəmiyyətinin tarixi inkişafının qanunauyğunluqlarını dərk etmək arzusundan irəli gəlirdi. İnqilabın bir müdfaiəçisi kimi o dəyişikliklər haqqında bilikləri fəhlə sinfi arasında yaymaqla onu maarifləndirməli olmasına və bununla da dəyişiklikləri sürətləndirməsinə son dərəcə inanırdı. O,

özünün elmi fəaliyyətini inqilabi fəaliyyəti ilə, nəzəriyyəni praktika ilə birləşdirməyə çalışırdı.

Əgər Marksın tələbatlar və onları hərəkətə gətirən qüvvələr arasında sintezə nail ola bildiyini başa düşəriksə, onda onun fikirlərinin bir çox paradoksal elementləri bizə məlum olar. Belə ki, bəzi alimlərin fikrincə, Marksın determinizmi, yəni onun tarixi dəyişikliyin zəruriliyi fikri ilə fəhlə sinfinin adından inqilabı müdafiə etməsi ziddiyət təşkil edir. Onlar belə hesab edirlər ki,[1] əgər dəyişikliklər və eləcə də fəhlə sinfinin hakimiyyətə gəlməsi ideyası labüddürsə, onda azad iradə - volyunatrist inqilabçı mövcud ola bilməz. Marks isə əksinə, bu iki şeyi birləşdirir.

Marksı ömrü boyu düşündürən ən vacib mövzulardan biri də özgələşmə olmuşdur. Onun fikrincə, insanlar yadlaşıblar, yəni sosial bir varlıq kimi bir-birini nəzərə çarpdırmaq üçün özlərinin nadir yaradıcılıq imkanlarından uzaq düşüblər. Özgələşmənin əsas səbəbi, onun fikrincə, cəmiyyətdəki mövcud institutlar, xüsusən sosial siniflər və əmək bölgüsüdür. Özgələşmənin əsas göstəricisi insanın sosial institutların möhkəmliyinə, yəni bu institutların onların həyatlarını nəzarətdə saxlamasına inamıdır.

Marksın özünün mövqeyində də xüsusi bir dönüş var. Onun fikrincə, əslində sosial institutlar dəyişməz deyillər. Onlar daim insan tərəfindən yaradılır: bu həmişə belə olmuşdur və belə də olacaqdır. Marks daha sonra bir qədər də irəli gedərək qeyd edir ki, bütün tarix və xüsusən də sosial institutlar tək bir məqsədə - insanlar arasında özgələşməni məhdudlaşdırmağa doğru hərəkət edirlər və bununla da

[1] Bax: Lewis Fewer, ed. Marx & Engels. Basic Writings on Politics & Philolosophy. Garden city, N.Y. Doubleday & Co., 1959, p. XI.



onlara nümayiş etdirmək istəyirlər ki, insanlar özləri öz sosial dünyalarının yaradıcısı və sahibirdirlər.

## Marksın sosial qayda haqqında düşüncələri

Cəmiyyətin təbiəti və ya sosial qayda haqqında sosioloqlar müxtəlif fikirlər söyləyirlər. Burada biz Marks, Veber və Parsonsun üç mühüm konseptə - sosial stratifikasiya, sosial təşkil və sosial sistemə baxışlarını təhlil edəcəyik.

Sosial stratifikasiya – cəmiyyətdə sosial iyerarxiyanın təbiətini və tərkibini bildirir. Xüsusən də Marksda o, sosial sinif konsepsiaysına tətbiq olunur.

Sosial təşkil – bir qədər ümumi termin olsa da, sosioloqlar hal-hazırda onu sosial aləmdə mövcud olan müxtəlif tip qruplara və ya kollektivlərə aid edirlər.

Sosial sistem - ümumilikdə sosial aləmin məntiqi və mahiyyət strukturudur ki, onun da əsas elementini insanlar və onların qarşılıqlı münasibətləri təşkil edir.

İndi isə Marksın sosial aləm haqqında baxışlarının təhlilinə keçək.

## Sosial statifikasiya

Marksa görə, insanın ilkin rolu onun istehsalçı olmasıdır: yaşamaq üçün o, ərzaq əldə etməli və təbiət qüvvələrindən özünü qorumağı bacarmalıdır. İstehsal prosesində onun işlətdiyi alətlər, daxilində fəaliyyət göstərdiyi sosial formalar (məs., fabrik, zavod və ya plantasiya) hər bir cəmiyyətdə müəyyən stratifikasiya sistemi yaradır.[1] Stratifikasiya

[1] Bax: Lewis Fewer. ed/ Marx& Engels: Basic Writings on Politics & Philosophy (Garden City, N.Y.: Doubleday & Co.,, 1959), p.XI.

sisteminin özünü təşkil edən qrup və ya təbəqələr sosial sinfə aiddirlər. Yetkin kapitalist cəmiyyətində iki əsas sinif mövcuddur: əhalinin cüzi bir hissəsini təşkil edən kapitalistlər və çoxluq – proletariat. Bu siniflər istehsal prosesinin məhsulu olsalar da, iki mühüm fakta görə bir-birindən fərqlənirlər: 1) kapitlaistlər istehsal vasitələri, yəni texnoloji və elmi aparat üzərində mülkiyyətə malik olduqları halda, proletariat yalnız öz əmək qüvvəsinə güvənə bilər; 2) mülkiyyətə sahib olmaq mülkiyyət sahiblərinə bu prosesin məhsulunun – gəlirin və izafi dəyərin vahid xeyir götürəni olmalarına imkan yaradır.

Marksın sosial sinif konsepsiyasında bəzi birmənalı olamayan cəhətləri də qeyd etmək lazımdır. F. Engelslə birgə 1848-ci ildə çap etdirdiyi "Kommunist Partiyasının Manifesti" adlı əsərində Marks kapitalistlər və ya sənaye burjuaziyası və *proleteriat, yaxud fəhlə sinfindən əlavə "aşaığı və* orta sinif, xırda manufakturaçılar, dükan sahibləri, sənətkarlar, kəndlilər..." və b. haqqında danışır. "Fransada sinfi mübarizə" əsərində isə o, maliyyə aristokratiyası, maliyyə burjuaziyası, xırda burjuaziya və kəndlilər haqqında yazır. Marksın bu əlavə siniflər haqqında yazdığı digər misalları da gətirmək olar. Buradan sual meydana çıxır: Marks sosial sinif haqqında yazarkən əslində nəyi nəzərdə tuturdu?

Marks özünün sosial sinif nəzəriyyəsini kapitalizmin iqtisadi təhlilinə tətbiq edir. Məsələn, "Kommunist Partiyasının Manifesti"ndə Marks və Engels bir tərəfdən sənaye burjuaziyası və ya kapitalistlər, digər tərəfdən isə proleteriatın timsalında iki əsas düşərgəni təsvir edirlər. Onlar göstərirlər ki, gec və ya tez bütün digər siniflər bu iki qrupdan birinin tərkibinə qatılacaqdır. Nəhayət, sosial sinfin



və kapitalizmin əsaslarının müəyyənləşdirilməsi Marks üçün eyni vaxt çərçivəsində kapitalizmin və kapitalist sinfinin süqutunu qabaqcadan söyləmək üçün bir vasitəyə çevrilir.

**Sosial təşkil**

Marksa görə, sosial təşkil sosial qaydanın mühüm elementidir. İstehsal prosesinin iki nəticəsindən biri insanların çalışdığı sosial müəssisə, digəri isə stratifikasiyasıdır. Məs., "Kapital"da istehsal üsulunun inkişafında üç mərhələdən - sənətkarlıq, manufaktura və fabrik istehsalından söhbət gedir. Onlardan sonuncusu XIX əsr kapitalist dövlətləri üçün səciyyəvidir.

Ümumən, sosial təşkil Marksı az maraqlandıran problemlərdəndir. Sənaye təşkilinin inzibati iyerarxiyası cəmiyyətin stratifikasiya iyerarxiyasına identik sosial qrupları – kapitalistləri və proleteriatı yaradır. Sosial stratifikasiyasının sosial təşkil ilə bu cür qarışdırılması qarşısıalınmaz analtik problemlərə gətirib çıxarır (məs., tez-tez mücərrəd sosial siniflə mülkiyyətçilərin qarışdırılmasına). Görünür Marks kapitalist və proleteriat sinifləri haqqında yazarkən onların nəyi təmsil etmələrini qarışdırır, onlara real qrupların varlığı kimi yanaşırdı ki, bunun əsasında da təhlil aparmaq və ya gələcəyi göstərmək faydalı idi.[1] Daha sonra Marks kapitalizim cəmiyyətinin daha bir sinfi – torpağa sahib olan aristokratiyadan bəhs edir. Buradan belə çıxır ki, kapitalizmdə üç əsas sinif – istehsalın texniki və elmi aparatına malik olan kapitalistlər, torpaq üzərində xüsusi mülkiyyətə malik torpaq sahibələri olan aristokratiya və, nəhayət,

[1] Stanislaw Ossowski, Class, Structures in the Social Consciousness. New York: Free Press, 1963.

mülkiyyətə deyil, yalnız öz əmək qüvvəsinə arxalanan proleteriat. Bunlar, yeri gəlmişkən, Marksın "Kapital"əsərinin III cildində müəyyənləşdirilən üç əsas sinifdir.

### Sosial sistem

Marks sosial sistemin iki cür obrazını yaratmışdır: mücərrəd və konkret. Mücərrəd konsepsiya onun iqtisadi determinizm nəzəriyyəsi adı altında tanınır və sosial sistemin iki əsas hissədən – bazis və üstqurumdan ibarət olmasını göstərir. Bazis sosial sistemin ilkin və ən mühüm səciyyəsini təşkil edir. Bura istehsal prosesi, istehsalın sosial forması və istehsal üzərində qurulan stratifikasiya sistemi, başqa sözlə, iqtisadi institutlar və münasibətlər şəbəkəsi daxildir. Sistemin törəmə və ikinci dərəcəli komponenti – üstqurum dini, siaysəti, fəlsəfəni və hüququ əhatə edir. Bazis üstquruma olduqca güclü təsir göstərir. Marks göstərir ki, cəmiyyətin iqtisadi sferasındakı istənilən dəyişiklik vaxt etibarilə digər sferalalrdakı dəyişikliklərdən əvvəl baş verir və son nəticədə onları formalaşdırır.

Marksın sosial sistem haqqında ikinci təsəvvürü cəmiyyətdəki iqtisadi prosesdən törəyən iki əsas sinfin – kapitalistlərlə proleteriatın daim konfliktdə olması fikrindədir. Onlar arasındakı gərginlik mövcud əmək bölgüsündən, xüsusən istehsal vasitələri üzərində xüsusi mülkiyyətdən irəli gəlir və bütünlükdə sosial sistemə təsir edir. Marksa görə, bu iki sinif bərabər resurslara malik deyil: istehsal vasitələri üzərində mülkiyyətçilər bütün resurslara sahib olduqları halda əksinə, istehsal vasitələrindən istifadə etməyə cəlb olunmuş insanlar onlardan tam məhrumdurlar. Sənaye sahibləri fəhlələr arasında ziddiyyətlər törətmək üçün həmin



resurslardan da istifadə edirlər.

Lakin Marksın hər iki fikri tənqidə məruz qalmışdır. Birinci fikrin tənqidi aydın şəkildə alman sosial-demokratı Eduard Bernşteyn tərəfindən verilmişdir. O göstərirdi ki, insanın olduqca geniş motivləri təkcə iqtisadiyyatla məhdudlaşa bilməz. Marks heç vaxt bu motivlərin onun sosial sistem haqqında obrazı ilə bağlı ola bilməsini iddia etməmişdir.

İkinci məsələ belə bir fikirlə başlayır: sosial sistemin göstərilən birinci obrazı Marksı texnoloji deterministə çevirir.

Sonralar o, "Kapital"da maşının istehsala tətbiqinin həmin prosesə dərin təsirini qeyd edirdi. Sənətkarlıq gildiyaları və manufakturalar fabrik istehsal sisteminin geniş həcmdə maşınlaşması ilə məhdudlaşırdılar. Maşınlaşdırma ümumən kənd təsərrüfatından tutmuş nəqliyyata qədər bütün istehsal prosesini inqilabiləşdirmişdir. Nəhayət, maşın(laşdırma) fəhlələrin özgələşməsi üçün ilkin məsuliyyət daşıyan istehsal instrumentinə çevrilmişdir. Marks texnologiyanın cəmiyyətin inkişafının mühüm komponenti olduğu fikrini qəbul etməyərək, əsas məsələnin istehsal qüvvələri vasitələri üzərində nəzarətin olması ideyasını müdafiə edirdi.

Bunlardan ən ümumisi sosial dəyişiklərin gedişatında Marksın əsas diqqəti iqtisadi qüvvələrə yönəltməsidir. Alfred G. Meyerin göstərdiyi kimi, sosial sistem dəyişikliyə uğradığı vaxt onun müxtəlif tərkib hissələri bir-birindən bu və ya digər formada asılı vəziyyətə düşür; sistemin bir hissəsində baş verən dəyişikliklər onun digər hissələrində də dəyişikliklərə gətirib çıxarır. Məs., iqtisadi institutlar şəbəkəsində dəyişikliklər siyasi institutlarda dəyişikliklərə gətirib çıxara bilər və siyasi institutlar da öz növbəsində iqtisadi dəyişikliklərlə müşayiət oluna bilər.

## Marksın siyasi qayda haqqında fikirləri

Müasir siyasi sosiologiyada tədqiqatçılar diqqəti ilk növbədə sosial qayda ilə (ilk növbədə iqtisadi, dini və digər münasibətlər sistemindən ibarət olan) siyasi qayda arasındakı münasibətlərə (əsasən dövlət və onunla bağlı institutlardan ibarət olan) yönəldirlər. Burada Marksın siyasi qayda haqqında baxışları nəzərdən keçiriləcəkdir. Bunun üçün dörd elementə diqqət yetirilməsi vacibdir: 1) siyasi idarəedicilər və ya siyasətçilər; 2) dövlət aparatı; 3)partiyalar kimi yardımçı təşkilatlar və nəhayət, 4) siyasi sistem.

### Siyasi idarəçilər

Marksa görə, siyasətçilər siyasi qaydanın mühüm elementini təşkil edirlər. Bəs onlar cəmiyyəti müəyyən bir sosial sinfin maraqlarına nə dərəcədə uyğun idarə edirlər? Ən mücərrəd mənada kapitalizmdəki siyasətçilər kapitalistlərin mənafeyinə uyğun idarə edirlər. Lakin konkret tarixi hallarda mənzərə o qədər də sadə görünmür. Bəzən siyasətçilər sanki hansısa bir sinfin maraqlarından daha çox öz maraqlarına uyğun idarə edirlər. Bunun parlaq misalını Marksın Lui Bonapart haqqındakı mülahizələrində tapmaq olar[1]. Başqa sözlə, Bonapart Fransada idarəetmə maşınını özünə müvəffəqiyyətlə tabe edə bildi və bunun üçün hansısa bir sinfin maraqlarını təmsil etməzdən əvvəl təxirəsalınmaz məqsədlərdən istifadə etdi; o, bir sosial sinfi digərinə qarşı qoyaraq bundan məharətlə bəhrələndi.

Hətta siyasətçilər hansısa bir siniflə öz əlaqələrini tamamilə kəssələr belə mülkiyyət sahibi olan siniflərin –

[1] Marx, "The Civil war in France", in the Marx-*Engels* Read, Turker, p.53



kapitalistlərin, maliyyə və torpaq aristokratiyasının maraqlarının genişləndirilməsində son təsirə malik olacaqlar.

Burada nəzəriyyə ilə siyasi reallıq arasındakı uyğunluq Marksın sosial siniflərin analizi ilə müqayisədə daha çox nəzərə çarpır. Beləliklə, siyasətçilərin yuxarı təbəqəsi mülkiyyətə nəzarət edən sosial siniflərin maraqlarına xidmət edir.

### Dövlət maşını

Marksm fikrincə, kapitalist cəmiyyətlərinin dövlət maşını "onlara tabe olan ordu, polis, bürokratiya, din xadimləri və məhkəmədən", habelə parlamentdən ibarətdir.[1] Bu maşın kapitalistlərin mənafeyinə uyğun siyasət aparır. Bununla əlaqədar o, "Kapital"da göstərir ki, məs., Britaniya parlamenti fəhlələrin iş gününü uzatmaqla kapitalistlərin gəlirlərini artırmağa xidmət edən bir çox qanunlar qəbul etmişdir.

Lakin bu qaydanın özündə də müəyyən sapmalar vardır. Marks xüsusi olaraq Fransada Milli Assambleya daxilində bir-biri ilə hökümətə nəzarət etmək uğrunda yarışan və öz aralarında kiçik birliyə malik olan bir sıra siyasi fraksiya və partiyaları müşahidə etmişdir. Marks siyasi qruplar arasında harmoniyanın olmamasını mövcud sosial sinif fərəqləri ilə izah edir və bir-birinə müxalifətdə duran siaysi proqramların müxtəlif mülkiyyət formaları əsasında yaranmasını iddia edirdi.[2]

Daha sonra o, öz nəzəriyyəsində maddi şəraitlə siyasi baxışlar arasındakı əlaqənin ən aydın əksini verir[3] və göstərir

[1] Ibid., p.552
[2] Bax: Маркс К. Капитал, т. I, гл. 10.М., 1978.
[3] Marx, "The XVIII Brumaire of Louis Bonaparte", p; 459-460.

ki, əgər dövlət maşını kapitalistlərin mənafeyini hələ aydın şəkildə ifadə etmirsə, bu orada vahid sosial sinfin olmamasından xəbər verir.

K.Marks Amerikanın sosial və siyasi həyatında xüsusi rol oynayan və hətta dövlətlə assosiasiya olunan yardımçı təşkilatların (məs., siyasi partiya təşkilatlarının, maraq qruplarının və s.) öyrənilməsinə Aleksis de Tokvil qədər diqqət yetirməmişdir. Onun diqqət yetirdiyi yeganə belə qurum təşkilati səviyyəsi son dərəcə qeyri-simmetrik olan Paris Kommunası olmuşdur.

**Siyasi sistem**

Marksa görə, siyasi sistem iki elementdən – siyasi idarəçilərdən və dövlət maşınından ibarətdir. O, bu iki element – dövlətlə vətəndaş cəmiyyəti ilə bazis və üstqurum arasında paralel aparır. Dövlət siyasi qaydada yerləşən insanlardan ibarətdirsə, vətəndaş cəmiyyəti istehsal prosesində yerləşən insanları əhatə edir. İnsanın dövlətdə vətəndaşlığı onun öz həqiqi taleyinin və hakimiyyətin özgələşməsinin bariz nümunəsidir.

Bütün həyatı boyu Marks kapitalizmin siaysi qaydaları haqqında onun iqtisadi institutlarından xeyli az yazmalı olmuşdur. Bu çatışmazlıqlar Veberin siyasi institutlar haqqında dəqiq müzakirələri fonunda xeyli aydın görünür.

**Marks: insan niyə tabe olur?**

Siyasi sosiologiyanın əsas məsələlərindən biri də insanın cəmiyyətdə tabe olmasının təbiəti və əsaslarıdır. Nəzəriyyəçilərədən asılı olaraq problemə yanaşma da müxtəlifdir. Bu halda hakimiyyət məsələsinə və hökmranlığa



münasibət öz əksini tapır. Marksın yanaşması müasir siyasi sosiologiyada mühüm yer tutur.

Nə üçün kapitalizm cəmiyyətində fəhlələr kapitalistlərə tabe olur? Marks bunu belə izah edir: cəmiyyətin kapitalistlərə və proletariata bölünməsi antaqonistik xarakter daşıyır – hər bir sinif o birisi ilə konfliktdədir. Bundan başqa, kapitalistlər sinfi öz məqsədlərini həyata keçirmək, yəni kapital toplamasını davam etdirmək istəyir. Bu məqsədə çatmaq üçün o, proletariatı öz fabrik və ya zavodunda işləməyin zəruriliyinə inandırmalıdır; qısası o, proletariatı işləməyi məcbur etmək üçün öz əmrlərinə tabe olmağa inandırmalıdır.

Fəhlə sinfinin kapitalistlərə tabe olması güc nümayişinin nəticəsidir. Texniki istehsal vasitələri üzərində istənilən mülkiyyətdən məhrum olan proleteriatın kapitalistlər üçün işləməkdən başqa çarəsi yoxdur. Onların gündəlik qazancı bu instrumentlərdən istifadə etmələrindən asılıdır. Beləliklə, onlar kapitalistlərin əmrinə yalnız zərurət üzündən tabe olurlar. Kapitalistlər sinfinin nöqteyi-nəzərindən proletariatın tabe olması şərtlərindən ən əsası kapitalistlərin istehsal vasitələri üzərində mülkiyyətidir. Kapitalistlər iqtisadi institutlar yaratmaqla fəhlə sinfi üzərində öz nəzarətini bütün digər müəssisə və institutlarda da həyata keçirirlər. Bu cür düşüncələr üçün əsas o qədər də böyük deyildir. Bəs nə üçün iqtisadi institutlardakı hakimiyyət bütün digər institutlardakı hakimiyyətlərlə ümumiləşdirilməlidir?

Bu suala bir cox cavab vardır. Onlardan həqiqətə ən yaxını budur: kapitalistlər varlı olduqlarına görə dövlət qulluğunda olan adamları “satın ala bilirlər”. Dövlət qulluğunda olan insanlar uzərində nəzarətin gücləndirilməsi məsələsi diqqəti cəlb edir. Buradan da kapitalistlər fəhlə sinfi üzərində

hökmranlığını iqtisadi institutlardan kənarda da fiziki qüvvə vasitələri üzərində birbaşa olmayan nəzarətlə qoruyub saxlaya bilirlər.

Bu dəlilə Marks belə cavab verirdi: bu müəyyən dərəcədə düzgün olsa da, kapitalistlərin qeyri-iqtisadi hakimiyyətini aydinlaşdırmır. Iqtisadi sərvətin kapitalistlərin siyasi və ya digər hakimiyyət formalarına zəmanət verməsi iddiası kapitalistlərin iqtisadi sferadan kənarda hakimiyyəti (məhz onların dəyərlər sisteminin hegemonluğu) üçün real əsas yaradır. Onların bu cəhətdən nəzarəti istənilən dövrdə istənilən dominant sinif üçün eynidir.[1] Məsələn, "bir adam, bir səs" və "hamıya bərabər hüquq" kimi tələblər cəmiyyətin siyasi sistemində proletariatın tabeçiliyini qorumaq üçün kapitalistlərin inanc sisteminin əsas elementlerini təmsil edir. "Vaxt puldur" kimi əski deyimlərlə onlar fəhlə sinfinin numayəndələrini inandırırlar ki, kapitalizmin institutlarına tabeçilik nümayiş etdirməklə onlar özlərinin maraqlarına xidmət etmiş olurlar. Beləliklə, kapitalistlərin fəhlə sinfinin tabeçiliyənə nail olmaq istəmələrinin ikinci yolu onların kommunikasiya vasitələri üzərində nəzarətidir.

Marks tərəfindən bu məsələlərin dərin analizi müəyyən mürəkkəbliklərlə müşahidə olunur. Əvvəla, o kapitalistlərin inanclarının hegemonluğunun necə əldə edildiyini göstərməkdə çətinlik çəkir. Burada, məsələn, inancları yayan ailə və ya məktəb kimi xüsusi agentlər mövcuddurmu? Bu məsələyə ən fundamental yanaşma Cozef Şumpeterə məxsusdur. O, qarşıya belə bir sual qoyur: necə olur ki, bəzi insanlar istehsal vasitələri üzərində mülkiyyətə birinci olaraq

[13] Marx, "The German Ideology", in *The* Marx-Engels Reader, Tucker, p. 136.



yiyələnirlər? Marks bu problemi ilkin yığım fikrini irəli sürməklə həll edir və bunun istehsalçının istehsal vasitələrindən ayrılması tarixi prosesindən başqa bir şey olmamasını göstərir.[1] Səyyahların və gildiya ustalarının şagirdlərinin quldurluğu, sələmçiliyi və məhrumiyyəti sənaye sahiblərinin öz kapital resurslarını artırmasına imkan yaradan vasitələrdəndir. Lakin hələ də ilkin kapital yığımı ideyası və buna nail olmanın xüsusi yolları bəzi şəxslərin necə kapitalistə çevrilməsi yollarının aydınlaşdırılmasını tələb edir.

Beləliklə, proletariatın tabeçiliyi kapitalistlərin istehsal və kommunikasiya vasitələri üzərində nəzarətə malik olmalarından irəli gəlir. Deməli, kapitalistlərin hakimiyyəti onların bu resurslar üzərində əhəmiyyətli dərəcədə mülkiyyəti ilə şərtlənir.

## Marks dəyişiklik haqqında

Bir çox alimlərin fikrincə, Marksın kapitalizmi və eləcə də digər cəmiyyətləri bütünlükdə tənqidi onun dəyişiklik konsepsiyası ilə bağlıdır. Lakin sözün geniş mənasında bu onun ideyalarının son dərəcə sadələşdirilməsi olardı. Marksa görə, kapitalizmin əsas prinsipləri sabitlik və dəyişikliyə, qayda və qaydasızlığa imkan yaradan elementləri əhatə edir; vaxt keçdikcə dəyişiklik sabitlik üzərində üstünlüyə malik olur və vaxilə kapitalizmin inkişafını təmin etmiş mexamizmlər artıq onun özünün transformasiyası üçün işləməyə başlayır. Bu prinsiplər arasında izafi dəyər və ya kapitalistlərin gəlir əldə etməsinə səbəb olan mexanizmlər; əhalinin əksər hissəsinin, yəni fəhlə sinfinin istehsal

[1] Marx, Capital, İ, 715

vasitələri üzərində mülkiyyətdən məhrum olması və nəhayət ən geniş mənada insanın kapitalist cəmiyyətində özgələşməsi durur.

### Dəyişikliyin əhatəliliyi və dərinliyi

Marksı daha çox keyfiyyət dəyişikliyi maraqlandırırdı. Kapitalizmin əsas ziddiyyətlərindən irəli gələn gərginlik uzun müddət ərzində toplanaraq kapitalistlər və proletariat arasında güclü kontrast yaradır; dəyişikliklər proletariatın qələbəsi və yeni iqtisadi və sosial prinsiplərə (məs., mülkiyyət üzərində ictimai mülkiyyətə) əsaslanan yeni bir cəmiyyətin bərqərar olması ilə başa çatır. Marksın dəyişiklik haqqında düşüncələri bir çox digər nəzəriyyəçilərin mövqeyindən fundamental şəkildə fərqlənir.

Marksı bir dövlət daxilində gedən dəyişikliklərlə müqayisədə dünyada gedən dəyişikliklər daha çox maraqlandırırdı. Onun fikrincə, kapitalizm özünün daxili dinamikası, artımına və fasiləsiz olaraq gəlir axtarışına görə proletar inqilabı ilə birlikdə ümumdünya fenomeninə çevrilməlidir. Bunun həyata keçməsi artıq göz qabağındadır. Belə ki, "Fransada sinfi mübarizə" əsərində o belə bir arqument irəli sürür: Fransadakı 1848-ci il fevral inqilabı bu ölkədə məhz iqtisadi artımın bütün ölkənin inkişafına imkan verməməsii səbəbindən məğlubiyyətə uğramışdır.

Bu dəyişiklik ölçüsünün üçüncü tərəfini siyasi dəyişikliklə sosial dəyişiklik arasındakı ziddiyyət təşkil edir. Bu fərq, Marksa görə, çox böyük idi və dövlətlə cəmiyyət arasındakı fərqdən irəli gəlirdi. Öz ümumi yanaşmasına uyğun olaraq o, yalnız dövlət hakimiyyəti sahəsində baş verən dəyişikliyin (yəni məmurların və hətta bütün rejimin



dəyişilməsinin) cəmiyyətdə tam dəyişikliyə nail olmaq üçün sadəcə ilkin addım olmasına inanırdı. Dövlət hakimiyyəti proletariatın əlinə keçməlıdır və beləliklə də bu inqilab elə əvvəlcədən "siyasi" xarakter daşımalıdır. Dövlət hakimiyyəti tam qorunduqdan sonra bütün kapitalist cəmiyyətinin söykəndiyi iqtisadi və sosial bina, yəni xüsusi mülkiyyət və sosial siniflər, onlarla yanaşı dövlət hakimiyyətinin özü də aradan qaldırılmalıdır.

Nəhayət, dəyişikliklə bağlı Marksın baxışlarında ilk nəzərə çarpan daha bir aspekt də dəyişikliklə assosiasiya olunan zorakılıqdır. Marksın 1871-ci il Paris Kommunasını bəyənməsi və onu məhz keyfiyyət dəyişikliyi kimi görməsi kapitalist cəmiyyətinin dağılmasının labüdliyi fikrini yaradırdı.

Fəhlə sinfinin siyasi üstünlüyü fundamental, sosial dəyişikliklər üçün yalnız ilkin şərt kimi çıxış edir. Lakin belə görünür ki, İngiltərədə bu fundamental dəyişiklik zorakılıq olmadan baş versəydi, Marks, yəqin ki, onu təsdiqləyərdi.

### Dəyişikliyin məntiqi

Dialektika və dialektik dəyişikliklər nəzəriyyəsi Marks tərəfindən irəli sürülən ən vacib nəzəriyyələrdən biridir. O, bu nəzəriyyəni dahi alman filosofu Q.V.F. Hegel-dən götürmüşdür. Marksın Hegelin dialektik baxışının təsiri altında nə qədər qalması (əgər onun Hegelin idealizmini materializmə çevirməsini bir tərəfə qoysaq) marksist və qeyri-marksist alimlər arasında müzakirə predmeti olaraq qalır.

İlk əvvəl belə hesab oluna bilər ki, dialektika üç əsas elementdən - tezis, antitezis və sintezdən ibarətdir. Belə bir sxem düzgün olsa da, dialektikanın dinamik keyfiyyətinə

uyğun gəlmir. Terminləri müəyyənləşdirsək, onda sintezin – kapitalist cəmiyyəti, tezisin – kapitalistlər sinfi, antitezisin isə proletariat sinfi olduğunu görərik. Kapitalistlərlə proletariat arasındakı münasibətlər antaqonist xarakter daşıyır. Hər iki sinif bir-biril ilə əlaqədə mövcuddur: proletariatsız kapitalistlər sinfi, kapitalistlərsiz isə proletar sinfi ola bilməz. Buradakı məntiqdən irəli gələn dəyişiklik nəzəriyyəsi ondan ibarətdir ki, kapitalist cəmiyyəti onun bir cəmiyyət kimi dəstəklənməsinə və qalmasına kömək edən mənbəni - kapitalist sinfini və proletariatı yaradır.

Kapitalizmdə kapitalistlər öz kapitalını artırmaq üçün fəhlələri işə götürürlər. Kapitalist-fəhlə münasibətlərinin təbiətini onlardan birincisinin xeyir götürməsi, digərinin isə zərər çəkməsi təşkil edir. Hər iki qrup bir-birinə xidmətin davam etdirilməsini tələb edir: kapitalistlər – kapital yığımı ilə, fəhlələrsə – aşağı səviyyədə yaşamaqla. Heç bir qrup o birisindən ayrılıqda mövcud ola bilməz.

Kapitalist üçün vəziyyət fəhləni öz tabeliyində saxlaya bilənə qədər yaxşıdır. Fəhləni kapitalisti tərk etməkdən iki şey saxlayır: 1) kapitalizmin iqtisadi fakt olması, yəni fəhlənin özünün istehsal vasitələrinə malik olmayaraq azad işçi kimi çıxış etməsi və 2) kapitalizmin ideoloji bir fakt olması, yəni fəhlənin kapitalist üçün işləməsinin fəhlənin öz maraqlarına xidmət etməsinə inanması.

Lakin kapitalistə xeyir gətirən və fəhlə üçün ağır olan şərait son nəticədə elə vəziyyətə gəlir ki, rəmzi olaraq kapitalist zərər çəkir, fəhlə isə xeyir götürür. Beləliklə, kapitalistin nöqteyi-nəzərindən ona gəlir gətirən mexanizm onun zəif cəhətinə çevriləcək və fəhlələrin üsyanı ilə nəticələnəcəkdir. Bu müddəa "Kapital"da bir neçə yerdə qeyd olunur.



Qısa desək, kapitalizmin inkişafına və kapitalist sinfinin sərvət toplamasına xidmət etmiş qanunların özü də kapitalizmə və onunla birgə kapitalist sinfinə son qoyacaq şərtə çevrilir.

Kapitalistlərlə proletariat arasında gərginlik proletariatın rəhbərliyi altında yeni cəmiyyət formasının yaranması ilə həll oluna bilər. Bu prinsipial siyasət bütün sosial siniflərin ləğvinə olan çağırışdır. Bu yeni, kommunist cəmiyyəti bütün əvvəlki inkişafın hərəkətvericisi qüvvəsi sayılan sinfi mübarizə aradan götürdüyündən, Marksa görə, sonuncu, sintez mərhələsini təmsil edir.

Hegelin sxeminə uyğun olaraq, Marks da belə hesab edirdi ki, dialektika kapitalizmin süqutu ilə sona çatır. Lakin məntiqi sistem kimi dialektik prinsip birbaşa olmasa da tezis-antitezis-sintez ardıcıllığının təkrarını tələb edir. Buradan da belə bir sual ortaya çıxır: nə üçün kommunizmə keçid sonuncu sintezi təmsil etməlidir? Faktiki olaraq, dialektikanın məntiqində heç bir əsaslı səbəb yoxdur ki, kommunist cəmiyyətinin sonuncu sintez olması ideyasını dəstəkləyək. Görünür ki, bu qərara gəlmək üçün Marks öz etik standartlarını zorla dialektikanın daxilində yerləşdirməyə məcbur olmuşdur. O, proletariatı "universal sinif" kimi təsvir etməyə çalışaraq onu bütün əvvəlki siniflərdən fərqləndirməyə çalışır, onun hakimiyyətinin bütün tarixi radikal şəkildə dəyişəcəyinə inanırdı.

**İnqilabi dəyişiklikdən əvvəl gələnlər**

İllər keçdikcə alimlər Marksın xüsusi şəraitin fəhlə sinfi arasında inqilabi hərəkatın formalaşmasına gətirib çıxarması fikrinə daha çox diqqət yetirməyə başladılar.

Burada maraq kəsb edən kapitalizmin inkişafı nəticəsində kapitalistlərlə fəhlələr arasında fərqin getdikcə artması idi. Kapitalistlərə gəldikdə onlar dövlət hakimiyyətinə nəzarəti həyata keçirsələr də, kapitalizmin ilkin sinfi strukturunu təmsil etdiklərindən proletariat tərəfindən hakimiyyətdən devrilməyə məhkumdurlar.

**İqtisadi cəhətdən əvvəl gələnlər**

Marks belə hesab edirdi ki, kapitalistlərin gəlir götürmək istəkləri sonda həddindən artıq əmtəə bolluğuna gətirib çıxaracaqdır, elə bir bolluq ki, bu, dünya bazarının onu həzm etmə imkanlarını da ötüb keçəcəkdir. İnqilabın iqtisadi əsasını da elə bu səbəblər təşkil edir.

Marks üçün inqilabın ikinci iqtisadi əsası kapitalın təmərküzləşməsidir. Sənayeçilərin cüzi bir hissəsi sərvətin həddindən artıq çox hissəsinə malik olurlar ki, bu da kapitalizmdə sərvətin azlıq tərəfindən nəzarət olunmasının genişləndirilməsi meylini əks etdirir. "İndi artıq mülkiyyətdən məhrum edilən fəhlə deyil, çoxlu sayda fəhləni istismar edən kapitalistdir. Bu mülkiyyətdən məhrum etməyə kapitalist istehsalının adi qanunlarının fəaliyyəti nəticəsində kapitalın təmərküzləşməsi vasitəsi ilə nail olunur."[1]

Təmərküzləşmənin nəticələrindən biri hakimiyyət mənbəyinin və hakimiyyət faktının fəhlə sinfi üçün daha aydın görünməsini təmin etməkdən ibarətdir.

Mərkəzləşdirmənin digər bir nəticəsi də inqilabın ən kəskin şərtlərindən biri olan proletarlaşmadır. Əvvələn, istehsal vasitələrindən məhrum olmuş bir çox kapitalistlər yaşamaqdan ötrü fəhlə sinfinin sıralarına qatılmaq məcburiyyətindədirlər. Onların mobilliyi də azalan xətt üzrədir.

[1] Marx, Capital, I, 750.



İnqilabın sonuncu və başlıca iqtisadi səbəbi barəsində də ən müxtəlif yanaşmalar və şərhlər mövcuddur. Marksın fikrincə, orta fəhlənin maliyyə vəziyyəti iqtisadi böhranın getdikcə artması və texnologiyanın tətbiqi nəticəsində pisləşəcəkdir. Xüsusən fəhlə kütləsinin artması sənaye ehtiyat ordusunun yaranmasına səbəb olacaqdır ki, bu da fəhlələrin əmək haqqının azalmasma və onların ümumi vəziyyətinin ağırlaşmasına gətirib çıxaracaqdır. Bu barədə alimlər arasında mübahisələr səngimək bilmir: Marks öz əsərlərində fəhlə sinfinin əmək haqqının ümumi səviyyəsinin azalmasını nəzərdə tuturdu, yaxud o, bütünlükdə cəmiyyətdə əmək haqqının ümumi səviyyəsində mütləq artım olacağı halda proletariatın nisbi əmək haqqı səviyyəsində azalma olacağını göstərmək istəyirdi? Mübahisə akademik xarakter daşıyır. Əgər Marks fəhlə sinfinin əksəriyyətinin vəziyyətinin mütləq mənada getdikcə pisləşəcəyini göstərmək istəyirdisə, onda o, açıq şəkildə səhvə yol verirdi və bu onun qabaqcadan xəbər verdiyi inqilabın baş verməməsinə gətirib çıxara bilərdi.

**Sosial səbəblər**. Marksın fikrinin əsas mövzusunu şəhərlə kənd arasındakı şərtsiz ziddiyyət təşkil edir. İnqilabın həyata keçirilməsində şəhərləşmənin əhəmiyyətinə toxunarkən onun bu mövzuya müraciət etməsi tam aydınlaşır. Belə ki, şəhərdə bir yerə toplaşmış fəhlələr inqilab üçün kənddəki kəndli və fermerlərdən daha çox potensial imkana malikdirlər. Bunun iki səbəbi vardır: şəhərlərdə fəhlənin zavod və fabriklərdə işlə təmin olunması və inqilabi hərəkatda iştirak üçün fəhlənin müəyyən potensial təşkil etməsi.

İnqilabın ikinci səbəbi urbanizasiyadan, daha doğrusu

kommunikasiyadan irəli gəlir. Fəhlələr arasında ünsiyyət inqilabi hərəkatı formalaşdırmaq üçün olduqca vacibdir. Bu əsasən onlara öz vəziyyətlərini daha yaxşı başa düşmək və ümümi inancları inkişaf etdirmək üçün vacibdir. Fəhlə sinfi arasında kommunikasiyanın mühümlüyü ondadır ki, bu kapitalistlərin cəmiyyətdə ünsüyyət vasitələri üzərində nəzarətinə və eləcə də kapitalist dəyərlər sisteminin ümumi hegemonluğuna müqavimət göstərməyə köməklik edir.

Fəhlə sinfi arasında inqilabi hərəkatın inkişafı üçün tələb olunan sonuncu ilkin şərt siyasiləşmədir. Siyasiləşmənin iki mənbəyi vardır. Onlardan birincisi tred-yunionizmdir ki, bu da demək olar ki, fəhlələrlə kapitalistlər arasındakı müxalif münasibətlərdən irəli gələrək təbii şəkildə baş verir. İkincisi isə Marks və onun kimi inqilabçıların səyləri nəticəsində fəhlə sinfinə münasibətdə siyasəti istiqamətləndirmək üçün onun daxilinə kənardan gətirilir. Marks və Engels bu axırıncı prosesi "Kommunist Partiyasının Manifest"ində geyd etmişlər.

**Sinfi şüur.** Marksın inqilabi və ya daha geniş mənada dəyişiklik sxemində ən əsas komponent sinfi şüurdur. Fəhlə sinfi kapitalistləri devirmək üçün özünü bir sinif kimi dərk etməlidir.

Sinfi şüur fenomenini nə təşkil edir? Marks buna özünün "Alman ideologiyası"nda belə cavab verir: "Ayrı-ayrı fərdlər digər sinfə qarşı ümumi mübarizə aparmalı olduqlarına görə sinif yaradırlar; başqa cür isə onlar bir-biri ilə rəqib olaraq düşmən vəziyyətindədirlər."[1] Sinfi şüur iki elementdən ibarətdir: bir qrup insan arasında digər bir insan

[1] Marx, "The German Ideology", in The Marx-Engels Reader, Tucker, p.409.



qrupu ilə düşmən olmaları haqqında qəbul edilmiş bir fikir və bu qrupa qarşı birgə mübarizə aparmaq üçün ümumi istək. Sinfi mübarizə proletariatın bir qrup olaraq kapitalistlərin onları əzməsini və onların kapitalistlərə qarşı kollektiv mübarizə aparmaq lazım gəldiyini dərk etməsi deməkdir.

Marksa görə, sinfi şüurun formalaşmasında siyasi təşkilat mühüm rol oynayır. Bəs onda proleteriatın bu siyasi təşkilatı hansı formada olmalıdır? Bir çoxları belə hesab edirlər ki, həmkarlar ittifaqları hərəkatı fəhlələrin həqiqi sinfi şüurunu təmsil etmir. Onların fikrincə, həmkarlar ittifaqları ümumən kapitalizmin standartlarını və etikasını qəbul edir və deməli, kapitalistləri devirməyə və vətəndaşların əksəriyyətinin xeyrinə yeni cəmiyyət qurmağa hazır deyillər. Bununla razılaşaraq, Marksın bir çox tərəfdarları, başda Lenin olmaqla, belə hesab edirlər ki, həmkarlar ittifaqları kapitalizmlə mübarizə aparmalıdırlar.

### Utopik baxış: kommunist cəmiyyəti

Marks öz yaradıcılığında başlıca diqqəti daha çox yeni, kommunist cəmiyyətinin fəaliyyətinə deyil, kapitlaist cəmiyyətinin gətirdiyi bəlaların başa düşülməsinə və izahına vermişdir. Nəticədə onun kommunizmə dair ideyaları bütün detalları ilə inkişaf etdirilə bilməmişdir.

Kommunizmdə ediləcək ən böyük dəyişiklik istehsal vasitələri üzərində (torpaq da daxil olmaqla) azlığın xüsusi mülkiyyətinin ləğv edilib onlar üzərində ictimai mülkiyyətin bərqərar edilməsidir. Marks və Engelsə görə, kommunizmdə hər kəs işləməyə və istehsal prosesinə öz töhfəsini verməyə borcludur. Eyni zamanda fabriklərdə uşaq əməyi qadağan olunmalı və onlara pulsuz təhsil verilməlidir.

Bu və ya digər dəyişikliklər dövlət aparatının əlində cəmləşmiş, proleteriat tərəfindən inqilab nəticəsində dövlət maşınına tabe etdirilmişdir. Kommunizmə keçid üçün kapitalizmdə dövlət maşınında vəzifə tutan şəxslər xüsusi siyasət aparmalı, "proletariatın inqilabi diktaturası" qurulmalıdır.

Proletar diktaturası haqqında danışarkən Marks nəyi nəzərdə tuturdu? Bu sualda son cavabı Marksın tarixi analizində və xüsusən onun 1871-ci il Paris Kommunasını tədqiqində axtarmaq düzgün olardı. Marks belə hesab edirdi ki, Paris Kommunası yeni, dünya kommunist cəmiyyətinin canlı nümunəsidir.

Marksa görə, dövlətdə vəzifə tutanların yeni sinif təşkil etməməsinə tam əmin olmaq üçün onlar Kommunada digərləri ilə bərabər maaş almalı və məmur olaraq tutduqları vəzifədə "seçkili və məsuliyyətli" olmalıdırlar. Bu cür mövqe belə bir faktı sübut edir ki, Marksın yeni kommunist dövləti haqqında baxışalrı antiavtoritar və antibürokratik xarakter daşıyırdı. Doğrudan da, görünür ki, Marks dövlətin bürokratik maşınının dağılması və ya müəyyən qədər zəiflədilməsi problemini kifayət qədər ciddi qiymətləndirmir.

## Marksist baxışın genişləndirilməsi: marksistlər

Görəsən sosial *siniflər* və *sinfi şüurun təbiəti dedikdə* Marks nəyi nəzərdə tuturdu? Əslində o, nəzəriyyə ilə praktika arasında əlaqəni necə görürdü? Marksın əsərlərində XV əsrdəki kapitalist və qeyri-kapitlaist cəmiyyətinin fəaliyyətinə necə münasibət bəslənilirdi? Bu suallara dair marksist alimlərin əsas ideyalarını nəzərdən keçirək.



### Fridrix Engels

Məlum olduğu kimi, Engels varlı alman biznesmeninin oğlu idi və o, Marksla Parisdə 1844-cü ildə dostlaşmışdı. Tezliklə onlar dünyada tayı-bərabəri olamyan ömürlük intellektual tərəfdaşa çevrilmişlər. Əvvəlcə qeyd etdiyimiz kimi, Engels öz işində həmişə kiçik partnyor kimi çıxış etmişdir. O, Marksın ölümündən sonra da elmə öz fərqli töhfəsini verə bilmişdir.

Engelsin əsas əsərləri arasında onun "Anti-Dürinq", "Utopik və elmi sosializm" və "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi"ni göstərmək olar. Özünün "Anti-Dürinq" əsərində Engels o vaxt Berlin universitetində privat-dosent* vəzifəsində çalışan və 1875-ci ildə sosializmin yeni nəzəriyyəyəsini təqdim etmiş Dr. Yevgeni Dürinqə qarşı polemik hücuma keçir. Bu kitab Marksın köməyi olmadan yazılmışdı və tədqiqatçıların fikrincə, məzmunu, yəqin ki, Marks tərəfindən o qədər də bəyənilməzdi. Burada Engels marksist yanaşmanın əsasını təşkil edən fəlsəfənin intellektual köklərini dialektik materalizm, onunla şərtlənən elmi sistemi isə tarixi materalzim adlandırır. Bunlarla kifayətlənməyərək, o, A. Sen-Simonun (fəhlə sinfi və sənaye haqqında ideyaları ilə), Ş. Furyenin (cəmiyyətin təhlilinə dialektik metod tətbiqi ilə) və ingilis Robert Ouenin (XIX əsrdə ABŞ-da bir sıra utopik icmalar yaratması ilə) Marksa təsirindən danışır. Engelsə görə, dialektik materalizm fəlsəfəsi bütün təbiətin sabit hərəkət və dəyişikliyə uğraması düşüncəsinə əsaslanır. Təbiətin yaratdığı bu formalar təbii müqavimət proseslərini tam üstələyərək yenidən müqavimət

* Ali məktəb sistemində ştatdan kənar dosent.

və transformasiya proseslərinə uğrayır. O, dialektikanı yunan folisofu Heraklitdən Furyeyə qədər izləyərək belə bir fikrə gəlir ki, o, alman filosofu Q.V.F. Hegelin (1770-1831) əsərlərində daha kamil ifadə olunmuşdur.

Lakin onu da qeyd edək ki, Hegel dialektikanm ideyaların dəyişilməsinə əsaslanmasını zənn etməklə ciddi səhvə yol verirdi. Bu cür səhv nəzəriyyəyə müxalif kimi meydana çıxır. Burada göstərilir ki, təbiət öz-özlüyündə realdır və bütün heyvan, bitki və səma cisimnlərini və insanları əhatə edir.

Beləliklə, Engels göstərir ki, müasir elm nöqteyi-nəzərindən dialektikanın daxili müxanizmləri bu maddi obyektlərə və varlıqlara əsaslanmalıdır.

Daha sonra, Engels dialektik materalizmin doğruluğunun sübutunu o dövrün ən yeni elmi kəşfi sayılan Darvinin təkamül nəzəriyyəsində ifadə olunduğunu qeyd edir.

Engels eyni zamanda göstərir ki, özünün və Marksın icad etdikləri elm – tarixi materalizm həqiqi sosialist elmidir. Onun obyekti fəhlə sinfi və onun tərəqqisidir. Tarixi materalizmə görə, bəşəriyyətin labüd tərəqqisinin bünövrəsi cəmiyyətdə istehsal sahəsində qoyulmalıdır və "bütün sosial dəyişikliklərin və siyasi inqilabların son səbəbi insanların beynində və ya onların daimi həqiqət və ədaləti daha yaxşı qavramasında deyil, istehsal vasitələri və mübadiləsində axtarılmalıdır"[1]. Bu elm o mənada tarixidir ki, sivilazisiyanın hər bir əsas dövründə istehsal və mübadilə ilə məşğuldur.

Engelsin marksist nəzəriyyəsinə digər əsas töhfəsi ailənin və dövlətin təkamülünün (bu Marksın haqqında ən az

[1] Engels, 'Socialism: Utopian and Scientific,' p.121, in Tucker, The Marx-Engels Reader.



yazdığı mövzudur) təhlilidir.

Lyuis Morqan kimi alimlərin etnoqrafik tədqiqatlarını təhlil edərək, Engels ailənin inkişafını ibtidai icma dövründən kapitalizmdəki xüsusi vəziyyətinədək izləməyə çalışır. Engelsin əsas məqsədi onu nümayiş etdirməkdən ibarətdir ki, ailə özlüyündə istismar tipini təmsil edir və bu istismarın təbiəti cəmiyyətdə mülkiyyətin və istehsalın təbiətini əks etdirir. O göstərir ki, tarixdən əvvəlki dövrlərdə ailə qrup əsasında qurulurdu ki, burada da kişilər bütün qadınlarla evlənirdilər. Əslində bu ailə də kommunizmin primitiv formasını təmsil edirdi.

Sonralar (o bu dövrü barbarlıq dövrü adlandırır) ailə cütlük formasını alır ki, burada tək kişi ilə tək qadın ailə vahidinin əsasını təşkil etməyə başlayır. Nəhayət, müasir ailə forması - monoqamiya yaranır ki, burada da tək kişi və tək qadın ailə şəklində həyat sürmək üçün müqavilə ilə bir-biri ilə birləşirlər.

Ərin ailədə yüksək nüfuz sahibi olması və kişinin nəsli davam etdirmə və miras xəttini formalaşdırma kimi üstünlüklərə malik olduğu patriarxal ailənin yaranması, Engelsə görə, cəmiyyətdə xüsusi mülkiyyətin kişilərin əlində cəmlənməsi ilə bağlıdır. Burada məqsəd ailə hüdudlarında cəmiyyətdəki antaqonizm və ya konfliktə uyğun analogiya yaratmaqdan ibarətdir: kişi evliliyin bütün üstünlüklərindən bəhrələnərək hakim qüvvəni, qadın isə kişiyə xüsusi bağlılığı ilə seçilərək, öz-özlüyündə hər hansı hüquq və ya nüfuza malik olmayaraq, məhkum sinfi təmsil edir. Bu vəziyyət müasir burjua cəmiyyətinin inkişafı ilə daha sıx bağlıdır. Burada nikah var-dövlətin və mülkiyyətin daha da artmasına yönəlmişdir. Kişilərin azadlığı artdıqca qadınlarınkı

məhdudlaşır. Məsələn, kişilər daha yüksək maaşlı işlərə cəlb olunmaq imkanına malik olduqları halda, qadınların bir hissəsi yoxsulluq ucbatından məcburi olaraq fahişəyə çevrilirlər.

Nəhayət, Engels qadın və kişi üçün azadlığın toxumlarını müasir kapitalizm şəraitində yeni ailə formasının yaranmasında görür. Fəhlə sinfi daxilində nikahlar daha çox azad, valideynlərin seçimi olmadan, məhəbbət əsasında baş verir. Engels iki partnyorun bir-birini sevgi əsasında azad seçə bilməsini bərabərlik kimi başa düşür. Məhz bu nikah forması yeni cəmiyyətin başlanmasından və bununla da istismarçı burjua nikahının sonundan xəbər verir. "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" adlı əsərində Engels dövlətin tarixi təkamülünü yenidən Ç. Darvinin əsərlərinə müraciət etdiyi təkamül nəzəriyyəsinə əsaslanaraq, izləməyə çalışır.

Engels göstərir ki, dövlət həmişə mövcud olmamışdır. O, hakim sinfin hökmranlığını qorumaq üçün tarixin tələb etdiyi anda yaranmışdır. Bu, bütövlükdə Hegelin təsvir etdiyi kimi birdən-birə meydana gələn və öz üzərinə cəmiyyətdə yeni qayda və harmoniya səviyyəsinin təmin edilməsini götürən yeni institut deyildir. Əlbəttə, dövlət siniflər arasında konfliktin çox davamlı olduğu və bu antaqonizmləri itaətdə saxlamaq lazım gəldiyi vaxt yaranır. Meydana gəldikdən sonra, dövlət nəhayətdə hakim sosial sinfin cəmiyyətin digər sinifləri üzərində öz qaydalarını möhkəmləndirmə vasitəsinə çevrilir. Bundan əlavə, Engels Marksın mövqeyi ilə tam üst-üstə düşən bir fikir ifadə edərək göstərir ki, tarixin müəyyən dövründə, məsələn, II Fransa imperiyası zamanı, siniflər faktiki olaraq bir-birini tarazlaşdırdıqları vaxt dövlət bir



sinifdən digərinə qarşı istifadə edərək müstəqil qüvvə kimi çıxış edə bilər.

Engelsin marksist fəlsəfəsinin təbiəti və tarixə materialist baxışa, ailənin və dövlətin təbiətinə dair əsərləri Marksın irsini onun ölümündən sonra təbliğ etməyə və təhriflərdən qorumağa xidmət etmişdir.

Sonrakı marksistlər Marksın təhlillərini onun özünün o qədər də aydın izah etmədiyi sahələrdə, məsələn, ailə və dövlət haqqında müzakirələr kimi, aydınlaşdırmış və genişləndirmiş, beləliklə də XX əsrdə ailənin təbiətini başa düşmək üçün ailəyə dair bu mülahizələri faydalı hesab etmişlər.

Lakin görünür ki, Engelsin özü də dialektik materializmi təbiətin bütün sahələrinə tətbiq edərək, Marksın fikirlərini tam açılmamış qoyur və belə bir təəssürat yaradır ki, o, Marksın əsas diqqət yetirdiyi istehsal, xüsusən də sosial institutların təkmilləşdirilməsində əməyin və fəhlənin rolu, eləcə də tarixi ideologiya və şüurun tarixi mühümlüyü kimi bəzi fikirlərinin üstündən ötüb keçməyə çalışır.

## V. İ. Lenin

Engels öz əsərləri ilə dialektik materializm və tarixi materializmin ilk genişləndirilmiş ifadəsinə töhfə verdiyi halda, Lenin Marksın mirasına həm inqilabi praktika, həm də nəzəriyyə nöqteyi-nəzərindən mühüm əlavələr etmişdir. Lenin və eləcə də Lev Trotski öz tərəfdarlarını inqilabi nəzəriyyə ilə təmin edə bildilər. Rusiyadakı avtokratik rejimi kəndli inqilabının gücü ilə aradan götürərək, onlar kapitalizm mərhələsindən sıçrayıb keçmiş ölkədə inqilabı necə etmək lazım olduğunu açıq şəkildə göstərdilər. Çarizm dövründə Rusiya nisbətən azsaylı fəhlə ordusu ilə əsasən aqrar ölkəsi

idi; ölkədə hakim sinif kapitalistlər deyil, zadəganlar idi ki, onların da hakimiyyəti torpaq üzərində mülkiyyətə arxalanırdı. Beləliklə, sosialist inqilabı bu geridə qalmış ölkənin həyatında gündəlik məsələ kimi qarşıya çıxdıqdan sonra bütün diqqət təbii olaraq Rusiyaya yönəldi. Lenin və Trotski, bir qədər sonra isə Stalin və Trotski arasında məhz Rusiyadakı spesifik amillər və şərait üzündən əsaslı mövqe ayrılığı yarandı və bu nəticə etibarı ilə sonuncunun 1941-ci ildə Meksikada qətlinə gətirib çıxardı.

Əgər Leninin marksist mirasa töhfəsi onun Rusiyadakı praktik siyasi müvəffəqiyyətidirsə, elə onun əsas nəzəri töhfəsini də burada axtarmaq lazımdır. 1903-cü ildə o özünün məşhur "Nə etməli?" kitabçasını çap etdirdi. Bu əsər onun Rusiyadakı sosial-demokratlar arasındakı rəqiblərinə - xüsusən Plexanova, eləcə də anarxistləri müdafiə edənlərə (XIX əsrin ikinci yarısında Rusiyada xalqçılar ("narodniklər") arasında çox geniş yayılmış siyasi hərəkatın üzvlərinə) cavab olmalı idi. Öz pamfletində Lenin sosialist inqilabının bir neçə - siyasi və iqtisadi sahələrdə həyata keçirilməsinin vacibliyini göstərir. Onun fikrincə, həmkarlar ittifaqının səyləri nəticəsində fəhlələrin azadlığa çıxmasını zənn etmək sadəlövhlük olardı. Ekonomizm adlandırdığı bu cür səyləri o, təklikdə qeyri-qənaətbəxş hesab edirdi. Ümumən həmkarlar ittifaqlarına qarşı çıxış edən Lenin sosialistlərin müxtəlif düşərgələrində (məs., Almaniyada Eduard Bernşteyn tərəfindən) göstərilən reformist cəhdləri kəskin tənqid edirdi. Lenin belə düşünürdü ki, inqilaba ciddi hazırlıq tələb olunur. Bunun üçün inqilabçılar fəhlə sinfinin rəyini yaradıb formalaşdırmalı, onların Marks və Engelsin təlimində öz əksini tapmış tam tarixi hərəkatın həqiqi şüur



sahibləri səviyyəsinə yüksəlməsinə kömək etməlidirlər. Beləliklə, o inanırdı ki, inqilabçılar nəzəri yeniliklər əldə etmək üçün işləməli və eyni zamanda özlərini hökumətə qarşı təşviqata və inqilabı həyata keçirmək üçün partiyanı hazırlamağa həsr etməlidirlər.

Bir çox müasirlərindən fərqli olaraq, Lenin hesab edirdi ki, inqilabi partiya özlərini tamamilə inqilab işinə həsr etmiş inqilabçı kadrlardan ibarət olmalıdır. Leninin öz həyatı buna bir misal idi: o, bütün gücünü, hətta xaricdə sürgündə olduğu illərdə belə Rusiyadakı inqilaba həsr etmişdi. Məhz bu cür peşəkar inqilabçılar inqilab edə bilərdilər. Onlar Marks və Engelsin təlimini dərindən öyrənməklə, diqqətlərini qarşılaşdıqları faktiki şəraitin təbiətinə yönəltməklə və inqilabi hərəkatı təşkil edəcək kütlələr arasında mövcud tarixi şəraiti müvafiq surətdə başa düşməyi tərbiyə etməklə özlərini hazırlamalıdırlar. Daha sonra Lenin təkid edirdi ki, bu cür inqilabçılar həm həmkarlarının ruh yüksəkliyini qaldırmaq cəhdində, həm də qarşı-qarşıya durduqları hakim rejimi devirmək kimi çətin cəhddə hökmən yorulmaz təşviqat kampaniyasına qoşulmalıdırlar. Rusiyada bolşeviklərin müvəffəqiyyəti digər ölkələrdə də bir çox potensial inqilabçıları öz inqilabi mübarizə formalarını axtarıb tapmaq üçün Leninin "Nə etməli?" əsərinə müraciət etməyə məcbur etdi.

Georq Lukaç böyük heyranlıqla Lenini inqilabi partiyanın müvəffəqiyyəti üçün vacib olan nəzəriyyələri ixtira edən və diqqətlə hazırlayan yarı nəzəriyyəçi, hansı taktikalardan nə vaxt və nə cür effektiv istifadə olunmasına dair geniş düşüncəyə malik yarı siyasətçi bir şəxs kimi təsvir edir. Lenin fəhlə və burjua sinifləri içərisində bütün

cəmiyyətdəki sinfi münaqişələr onlar arasındakı qarşılıqlı əlaqəni nəzərə almadan özlərini marksist adlandıranları ittiham edirdi. O, inanırdı ki, müasir dünyada sinfi mübarizənin təbiəti hər yerdə eyni deyildir. Beləliklə, o göstərir ki, əsl marksist baş verən hadisələrdən yaxşı baş çıxarmalı, özündə həyatın mürəkkəbliklərini ehtiva edən dünənin nəzəriyyəsindən yapışmamalıdır. Lenin bu cür nəzəriyyəçilərə tarixi materializmin köməyinə arxalanmağı məsləhət bilirdi. Bu, Marksın mirasına daha bir mühüm töhfə idi və Luis Altüsser, Niko Pulantsas və başqa alimlərə güclü təsir göstərmişdi.

Leninin 1917-ci ilin avqustunda tamamlanmış, lakin Oktyabr inqilabından sonra çap olunmuş "Dövlət və inqilab" adlı əsəri marksist nəzəriyyə və praktikasına böyük bir töhfə kimi qiymətləndirilə bilər. Burada o, Marks və Engels tərəfindən çox cüzi toxunulan sosialist və ya fəhlə dövlətinin təbiətini ətraflı təhlil edir. Burada Lenin proletariatın inqilabi diktaturasının cizgilərini görməyə, dövlətin, Engelsin sözləri ilə desək, necə "solmasını" müəyyənləşdirməyə çalışır. Lenin göstərir ki, Rusiyada Kerenskini hakimiyyətə gətirən, lakin parlamenti toxunulmaz saxlayan Fevral inqilabı həqiqi sosialist inqilabına doğru ilkin addım idi. Həqiqətən də o belə hesab edirdi ki, Fevral inqilabı nəticəsində çar devrildiyindən və parlamentə cəmiyyət üzərində nəzarət hüququ verildiyindən o, burjua xarakteri daşıyırdı. Beləliklə, bu rejimin proletariat, Rusiyanın fəhlə sinfi adından devrilməsi labüd idi. O, daha sonra göstərir ki, bu, kəndli və fəhlələrdən birgə səylər tələb edirdi; kəndlilər sayca fəhlələri bir neçə yerdə, məsələn, Petroqradda üstələyirdi.

Lenin göstərirdi ki, nifrətedici Kerenski rejimini devirdikdən sonra bolşeviklər Rusiyada münasib fəhlə



dövləti quruculuğuna başlamalıdırlar. Lakin əslində bu dövlətin inqilabi proletar diktaturası olması fikrinin özü nə deməkdir? Dövlətin idarə edənlərin idarə olunanlar üzərində zorakılıq aləti olması və inqilab nəticəsində onun yox olması haqqında oxşar fikirlərə Marks və Engelsin əsərlərində də rast gəlinir. Bu məsələlərdə Lenin Marksın nəzəriyyəsinə sadiq qalaraq Marksın fikirlərində yer alan ikimənalıqla mübarizə aparmaqla yanaşı, Rusiyada fəhlələrin dövlətinə bələdçilik etmək üçün yeni prinsiplər inkişaf etdirməli idi. O göstərirdi ki, fəhlə dövləti hakimiyyəti fəhlə sinfi adından ələ almalı və bu hakimiyyətin özü fəhlələrin nümayəndələri tərəfindən tutulmalıdır. Lakin belə bir dövlətdən burjuaziyanın və çar rejiminin qalığı olan əvvəlki hakim sinfə qarşı silah kimi istifadə edilməlidir. Burada Lenin Marks və Engelsin fikirlərindən də irəli gedir. O, təkid edir ki, fəhlə dövləti fəhlələrin və bununla da bütün cəmiyyətin azad edilməsi üçün bir silaha çevrilməlidir. Rusiya cəmiyyətinin 1917-ci ilin ortalarına qədərki vəziyyəti haqqında daha sonra o, belə qənaətə gəlir ki, fəhlə dövlətində hakimiyyət fəhlə sinfinin nümayəndəlirinin əlində, başqa sözlə, hərbi hərəkatda cəmləşməlidir. O, keçmiş cəmiyyətin qalıqlarının hələ də açıq ifadə olunan sosial və iqtisadi ədalətsizlik nümayiş etdirdiklərini və buradan da ölkə üçün bu cür demokratiyanın uyğun olmadığını göstərirdi.

Lenin sosialist dövləti haqqında təsəvvürləri 1871-ci il Paris Kommunası və onun haqqında xüsusən Marksın analizindən istifadə edərək inkişaf etdirməyə çalışır. O, burada özünün belə bir fikrinə dayaq tapırdı ki, Rusiya dövləti burjua demokratiyasında təsəvvür olunduğu kimi bütünlükdə vətəndaşların deyil, fəhlələrin adından idarə

olunmalıdır. Oktyabr bolşevik inqilabı nəticəsində hökuməti qurarkən Lenin Kerenski hökumətini devirməyə kömək etmiş fəhlə şuraları - sovetlər əsasında yeni sosialist rejimini təşkil etdi. Sovetlər Kommunist Partiyasının aparatı ilə birgə inkişaf edərək Leninin "Dövlət və inqilab" əsərində təhlil etdiyi real fəhlə dövlətinə çevrildi.

Lenin imperializmin təhlili ilə marksist düşüncəsinə bəzi tədqiqatçıların göstərdiyi kimi, özünün ən qiymətli töhfəsini vermiş oldu. O göstərirdi ki, imperializm kapitalizmin ən yüksək pilləsidir. Yetkin kapitalizm haqqında öz yazılarında, xüsusən "Kapital"da Marks görünür ki, XIX əsrin ortalarından sonra baş verən tarixi hadisələri izləyə bilməmişdi. Lakin elə onun öz dövründə kapitalizm yeni görkəm almağa başlamışdı. İngiltərə və Fransa kimi ölkələr dünya və xüsusən də Asiya və Afrika üzərində öz ağalıqlarını genişləndirməyə çalışırdılar. Öz əmtəələri üçün daha geniş bazar axtarmaqla yanaşı, daha çox xammal ehtiyatları və istehsalı üçün ucuz işçi qüvvəsi axtarışında olan bu inkişaf etmiş kapitalist dövlətləri digər ölkələrin əhalisini öz daimi tabeçiliyində saxlamaq istəyirdilər. Bu, nəticə etibarilə varlı kapitalist ölkələri ilə yoxsul, müstəmləkə və ya fəth olunmuş dövlətlər arasında dünyada getdikcə artan və bu gün də qalmaqda olan parçalanmaya gətirib çıxarmış oldu.

Lenin bu inkişafı özünün "İmperializm kapitalizmin ən yüksək mərhələsidir" adlı əsərində aydınlaşdırmağa və izah etməyə çalışmışdır. XIX əsrin sonu - XX əsrin əvvəllərində baş verən tarixi inkişafı Lenin dərindən təhlil edərək göstərməyə çalışır ki, müasir imperializm kapitalist ölkələrində maliyyə kapitalının yüksək səviyyəyə qalxması



ilə yanaşı bir ovuc inhisarçının yaranmasına səbəb olmuşdur. Kapitalizmin hərəkətverici qüvvəsi sayılan, daim daha çox gəlir axtarışında olan ABŞ, Fransa, Almaniya və bir sıra digər kapitalist ölkələrinin sənayeçiləri öz kapitallarını daha az inkişaf tapmış ərazilərdə yatırmağa və bununla da bu ölkələr üzərində öz hökmranlıqlarını qoruyub saxlamağa can atırdılar.

Nəticə etibarı ilə Lenin belə bir fikrə gəlir ki, XX əsrin əvvəlində dünya bir tərəfdən müstəmləkəçi və ya kapitalist, digər tərəfdənsə məzlum millətlərə bölünmüşdür. Bu bölgü bir tərəfdən kapitalist sinfinin özünün təşəbbüsü, digər tərəfdənsə işğal olunmuş ərazilərdə kapitalizmin inhisarını qanuniləşdirməyə çalışan dövlət məmurlarının birgə səyləri nəticəsində baş verdi. Lenin inhisarçı kapitalizmi kapitalist inkişafının yeni mərhələsi kimi vurğulamaqla Marksın mirasına yeni məna vermiş oldu. Daha sonra bu təhlil burjua ölkələri ilə asılı ölkələr arasında dərinləşən qütbləşməni təsvir etməsi ilə yeni idi. Leninin fikrincə, bu bölünmə, Marks tərəfindən də qabaqcadan göstərildiyi kimi, dünya proletariat inqilabına əsas yaradacaq dərəcədə qüvvəli idi.

### Antonio Qramşi (1891-1937)

Lenin kimi italyan radikalı Antonio Qramşi də gənclik vaxtlarından sosialist hərəkatına cəlb olunmuşdu. Lakin Lenindən fərqli olaraq ona heç vaxt fəhlə sinfi adından rejimi devirmək müyəssər olmamışdır. Əslində 1920-ci illərdə bir çox solçu radikallar kimi Qramşi də Sovet rejiminə öz heyranlığını gizlədə bilmirdi. Qramşı İtaliyanın solçu qruplarında uzun müddət aktiv siyasi və intellektual

fəaliyyətdən sonra 1926-cı ildə İtaliya Kommunist Partiyasının üzvü oldu. Bir il sonra dəfələrlə təxirə salınan həbsdən sonra Benito Mussolininin polisi onu zindana salmağa müvəffəq oldu. Qramşi işgəncələrə məruz qalaraq uzun sürən xəstəlik içində ömrünün son onilliyini orada keçirməyə məcbur olmuşdur. İtaliyada proletar inqilabının mümkünlüyünü nəzərdən keçirməyə cəhd göstərdiyi bu dövr onun həyatında intellektual cəhətdən çox məhsuldar olmuşdur. O, sonrakı marksist nəzəriyyəsinə dərin təsir göstərmiş ideyalar inkişaf etdirə bilmişdir. Qramşinin əsas ideyalarından biri Kommunist Partiyasının mövcud hakimiyyəti sıxışdırıb çıxartmağa dair roluna aid idi. Nikkolo Makiavellinin XVI əsrdə Venesiyada Mediçilərin sarayında məsləhətçi işlədiyi vaxt yaratdığı məşhur "Hökmdar" əsərindki ideyalardan çıxış edərək, Qramşi göstərirdi ki, müasir dünyada hökmdar əslində tək şəxs deyil, daha çox korporativ qrup, kollektiv iradə, bir az da dəqiqləşdirmə aparsaq, İtalyan Kommunist Partiyası kimi partiya tərəfindən təmsil olunur. Bu mənada kommunistlər Makiavellinin əsərlərindən çox şeyləri öyrənməlidirlər. Hökmdar kimi partiya da hakimiyyəti ələ keçirməyin və onu mühafizə etməyin vaxtını yaxşı bilməlidir. Hökmdar kimi partiya da özü və fəhlə sinfi üçün hakimiyyəti əldə etməsində inadlı olmalıdır. Daha vacibi isə odur ki, hökmdar kimi partiya da "kentavr – yarıheyvan, yarıinsan" kimi çıxış etməlidir. Bu o deməkdir ki, partiya dünyanın təbii dialektikasına hörmət nümayiş etdirməli, lazım gəldikdə qüvvə tətbiq etməyi və ictimaiyyət arasında geniş yayılmış inam və simpatiyalardan bəhrələnməyi bacarmalıdır. O, heç bir şeyə malik olmayan insanların kollektiv iradəsi ilə insanların iradəsinin sadə



ifadəçisi arasında xətti həssas şəkildə aparmağa çalışmalıdır. Qramşinin partiyanın roluna dair verdiyi təhlillər onun kommunist partiyaları kimi inqilabi partiyaların strateji problemlərini dərinliklə və tam başa düşməsini göstərirdi. Bu oxşar həssaslıq onun formalaşmış rejimləri saxlayan şəraitə, hegemonluq vəziyyətinin təhlilinə dərindən müdaxilə etmək gücünə inanmasına kömək edir. Fəhlə partiyalarının fəhlə sinfi adından xüsusən İtaliyada hakimiyyəti qoruya bilməyindən narahatlığını ifadə edərək, Qramşi belə bir fikir irəli sürür ki, heç bir partiya hegemonluğu öz əlinə ala bilmədən hakimiyyətə gələ bilməz. Onun fikrincə, bu, ictimaiyyət tərəfindən yeni rejimin onların arzularının həqiqi ifadəçisi kimi qəbul edilməsi demək idi. Dövlətin qüvvəsi təkcə onun gücünə deyil, həmçinin öz təbəələri ilə bu və ya digər dərəcədə azad şəkildə gəldiyi razılığa - konsensusa əsaslanmalıdır.

Beləliklə, bir sinfin hegemonluğu ictimaiyyət arasında kifayət qədər mürəkkəb və çox yayılmış hisslərə əsaslanır. Qramşı yazırdı: "Vətəndaş cəmiyyətinin üstqurumu müasir savaşın səngərlər sistemini xatırladır. Müharibə vaxtı bəzən olur ki, ağır artilleriya hücum edərək düşmənin bütün müdafiə sistemini dağıdır, lakin əslində isə o yalnız kənar perimetrləri dağıtmışdır; irəliləyiş və hücum vaxtı hücum edənlər hələ də effektiv olan müdafiə xətti ilə qarşılaşmalı olurlar"[1].

Qramşinin təhlilləri, əlbəttə, rejimlərin onlara radikal nüfuz etməyə qarşı tarixi dayanıqlığını başa düşmək üçün

[1] Antonio Gramsci, "The Modern Prince," in Selections from the *Prison Notebooks*, Antonio Gramsci, ed. and trans. Quintin Hoare and Geoffrey Nowell Smith (New York: International Publishers, 1971), 235.

Marksın ideyalarını dəqiqləşdirməyə çox kömək etmişdir.

**Georq Lukaç (1885-1971)**

XX əsrin əvvəllərində Marks və Engelsin ideyalarının mənasını genişləndirməyə imkan vermiş şəxslərdən biri də kommunist partiyasının aktiv üzvi Georq Lukaç olmuşdur. O, 1910-cu illərin axırlarında Macarıstan kommunist partiyasının üzvülüyünə qəbul edilmiş və 1920-ci illərin sonlarına qədər onun aktiv üzvü olaraq qalmışdır. Bundan sonra o, partiya üzvü olmaqda davam etsə də, partiyadaxili müzakirələr və fəaliyyətin iştirakçısı olaraq qalmış, digər fəaliyyət növləri ilə də məşğul olmuşdur.

Lukaç müxtəlif filosofların əsərlərini dərindən öyrənmiş, alim kimi digər iki kommunist yoldaşları - Lenin və Qramşidən daha geniş hazırlıq və təlim keçmişdi. Demək olar ki, Lukaçın ən böyük nailiyyəti Marksın siniflər və sinfi mübarizə haqqında şərhinə Hegelin dialektikasını yenidən tətbiq etməsi olmuşdur. Bundan əlavə, o, öz əsərlərində aşağıdakı məsələlərə digər şərhçilərdən daha böyük fəlsəfi həssaslıq göstərmişdir. Onun fikrincə, Hegel özünün dialektika nəzəriyyəsində dünyanın əsl təbiətini çox düzgün başa düşmüş və formulə etmişdir. Lakin Lukaç iddia edirdi ki, Hegel dialektikanın müstəsna olaraq ruhi və ya idealist forma almasına və dünyadakı gərginliyin nəticə etibarilə Mütləq Ruhun öz-özünü tanıması ilə həll edilməsinə inanmaqla səhvə yol verirdi. Faktiki olaraq, istehsal fəaliyyətinin və əməyin böyük əhəmiyyətini etiraf etməklə Marks dialektik prinsipin həqiqi əsasını kəşf etmişdir. Qismən Engelsin tarixi materializm prinsipləri haqqında düşüncələrindən çıxış edərək, Lukaç təkid edirdi ki, tarixin həqiqi subyekti və obyekti, Hegelin hesab etdiyi kimi, Mütləq Ruh deyil, proletariat və ya fəhlə sinfinin özüdür. O göstərir ki, fəhlə sinfi bir subyekt və ya varlıq olaraq tarix boyu böyüyüb inkişaf edərək müasir dövrdə özünün özgələşməsinə son qoya biləcək səviyyəyə çatmışdır. Bəs o özünün tam tanınmasına necə nail olmalı, sinfi şüurunu necə əldə etməlidir? Lukaça görə, o, buna yalnız Marks və Engelsin təliminin əsasları, fəhlə sinfinin məqsədlərini dərin və incə ifadə edən ideyalar, yəni öz sinfi şüuru vasitəsilə çata bilər. Onun fikrincə, proletariatın sinfi şüurluluğuna nail olmaq çətindir çünki bu eyni zamanda bütün köhnə qanunların və təsisatların ləğvini və bütövlükdə əsarətdən və bərabərsizlikdən azad dünyanı idarə etmək üçün tamamilə yeni təsisatların yaradılmasını tələb edir. Əlli il sonra, onun Marks və Engelsin əsərlərinə verdiyi şərhlər geniş yayıldıqdan və dünya marksistləri arasında dərin təsirə malik olduqdan sonra Lukaç özünün ilkin fikrini inkar edərək Hegeli "hegelsizləşdirdiyini" bildirirdi. Lukaçın marksizmin təhlilinə digər böyük töhfəsi maddiləşmənin təhlilidir. Lukaça görə, maddiləşmə insanlar dünyada dərk etdikləri obyektlərin (hətta əgər bu obyektləri onlar özləri və ya onların əcdadları öz istehsal fəaliyyəti nəticəsində yaratsalar belə) onlardan kənarda sərbəst mövcud olmasına və onlara yad olmasına inanmağa başladığı vaxt baş verir. Məsələn, Lukaça görə, maddiləşmə insanlar əmtəənin təbiətin sarsılmaz hissəsi olmasına, kapitalist bazarının "təbii" qanunlarla idarə olunmasına inandığı vaxt özünü göstərir. Kapitalizm üçün bu cür obyektlər və onların prinsipləri təbiidir və onlar bəşəriyyətin əvvəlki nəsilləri tərəfindən yaradılmışdır.

Lukaç iddia edir ki, ilk baxışdan müstəqil görünən varlıqların yaranması Marksa qədər qənaətbəxş həllini

tapmamış bir tapmacadır. XVIII əsrin dahi filosofu İmmanuil Kant "şey-məndə" (bizə görünən ilə) "şey özündə" arasında fərqin mövcud olmasını iddia etməklə tapmaca icad etmişdir. Lukaç göstərir ki, sonradan Hegel bu fərqin uyğunsuzluğunu göstərsə də, problemi həll etmək əvəzinə onu Mütləq Ruh anlayışı ilə daha da qəlizləşdirmişdir.

Yalnız Marks "şey-məndə" ilə "şey özündə" arasındakı qeyri-qənaətbəxş dilemmanı bəşəriyyətin özgələşməsinin şərti və ya insanın öz hakimiyyətinin maddiləşməsi prosesi (insanları obyektlərin iki dünyası - onların görünüşü ilə mahiyyəti arasında fərqi dərk etməyə gətirib çıxarmış) olmasını göstərməklə düzgün həll edə bilmişdir. Lukaç Marksı dəstəkləyərək göstərir ki, bütün obyektlər insan yaradıcılığının məhsuludur və yalnız bəşəriyyət bu əsas həqiqəti proletariatın sinfi şüuru şəklində reallaşdırdıqdan sonra bəşəriyyətin özgələşməsinin bütün elementləri həyatın bir faktı kimi yox olacaqdır.

### Frankfurt məktəbi

Müasir marksistlər arasında Frankfurt məktəbinin təsir gücü ilə rəqabət apara biləcək çox az bir qrup alimlər vardır. 1934-cü ildə Almaniyada Teodor Adorno və Maks Horkhaymer tərəfindən yaradılmış, bir az sonra isə Hitlerin hakimiyyəti dövründə müvəqqəti olaraq ABŞ-a köçmüş Frankfurt məktəbinin başçıları Marksı inqilabçıdan daha çox filosof kimi qəbul edirdilər. Onlar Marksı daha yaxşı anlamaq üçün onun yaradıcılığının gənclik dövrünə üz tuturdular. Bununla yanaşı, onlar Ziqmund Freyddən sublimasiya və repressiya, Maks Veberdən isə rasionallıq və legitimlik kimi ideyaları qəbul etməklə marksist təfəkkürə yeni elementlər



əlavə etdilər. Marksın əsərlərini daha çox fəlsəfi mövqedən şərh etməyə çalışaraq, eyni zamanda fəhlə sinfinin bu günki tələblərindən xeyli uzaqlaşaraq, onlar intellektual cəhətdən çox möhkəm fikirlər toplusu formalaşdıra bildilər. Frankfurt məktəbinin, xüsusən Herbert Markuze və Yürgen Habermasın əsərlərinin əsas yeniliyindən biri Maks Veber tərəfindən irəli sürülmüş ideyaların Marksın kapitalizmi tənqidi qiymətləndirməsi ilə birləşdirməsindədir. Proletarita və ya istehsal fəaliyyəti kimi əməyə bir o qədər də əhəmiyyət verməyərək, Marksın klassik formulasında olduğu kimi, Markuze özünün "Birölçülü insan" əsəri ilə ABŞ-da böyük nailiyyət qazanır və məşhurlaşır. O göstərir ki, müasir sivilizasiya qədim yunanlardan sonra meydana gəlmiş idrakla müasir cəmiyyətdə özünü göstərən idrak arasında kıskin fərq nümayiş etdirir. Qədim yunanların idrakı həqiqətin axtarışı ilə dərindən assosiasiya olunurdu və idraka təbiətin ayrılmaz hissəsi kimi baxılırdı. Yunan filosofları idrakla təbiət arasında yaxın əlaqə mövcud olduğunu, birinin digərinin hissəsi olduğunu, idrakın dərindən refleksiyası vasitəsilə təbiət üçün əhəmiyyətli və ötəri olan prinsipləri kəşf etmək üçün idrakın fəaliyyətini təmsil etdiyini güman edirdilər. Markuzenin fikrincə, müasir kapitalist sivilizasiyası insanın təbiətdən, ağlın ağıldan özgələşməsini yaratmış və o, bunu bəşəriyyət üçün fundamental və əhəmiyyətli olan keyfiyyətləri (insanın dünya, özünün sensual təbiəti, Eros və ya məhəbbət haqqında dərindən düşünməsini) sıxışdırmaqla yerinə yetirmişdir. Bu cür perspektivi güman edərək, Lukaç kimi Markuze də faktiki olaraq düşüncəyə dair əhəmiyyətli marksist təhrifi ört-basdır etmək məqsədi ilə marksist tənqidi fikrinin təbiətinə dair dialektikanı yenidən təqdim edir. Markuzenin müasir kapi-

talist sivilizasiyasına, bu sivilizasiyanın ən yüksək pilləsi olan Amerikaya ittiham aktı onun müəyyən dərəcədə Veberin müasir dünyada rasionallığın təbiətinə dair bir sıra qeydlərindən ruhlandığını göstərir. Veber texnikaya, səmərəliliyiə və hesablamaya əsaslanan və onun fikrincə, müasir kapitalizmin əsas xüsusiyyətlərini xarakterizə edən texniki rasionallıqla hərəkətin istiqamətləndiyi məqsəd və dəyərlər ilə məşğul real mövcud olan rasionallıq arasındakı fərqə daha çox diqqət yetirir. Onun fikrincə, müasir kapitalizm üçün səciyyəvi və problemli olan odur ki, cəmiyyətin bütün sahələrində hər bir fəaliyyətdə xüsusi məqsədə nail olmaq üçün cəlb olunmuş dəyərin keyfiyyət dəyərləndirilməsinin qayğısı üstünlük təşkil edir. Markuze Veberi bu cür əsaslı qavramaya görə müdafiə etsə də, onu texniki və substantiv rasionallığın bir-birindən ayrılmasını tənqidi şəkildə izah edə bilməməkdə ittiham edir.

Markuzeyə görə, müasir kapitalist sivilizasiyası ağlın iki formasında radikal parçalanma nümayiş etdirir: texniki ağıl daha da təkmilləşir, substantiv ağıl isə ağlın yunan konsepsiyasını bildirməyə başlayır. Yenidən Hegel və Lukaçı xatırlayaraq Markuze göstərir ki, insan tərəfindən yaradılan obyektlər ondan kənarda və yüksəkdə durduğu halda onun özünün dərindən refleksiya və təsəvvür etmək qabiliyyəti sıxışdırılır. Həqiqətdə artıq insan insanı təmsil etmir; o, öz humanistliyini itirmişdir; onun özünün mənlik hissi yaratdığı obyektlərdən və fikirlərdən görünür. Buradan da insan özü haqqında sadəcə texniki instrument – müasir sivilizasiya şəraitində öz "Mənini" itirmiş kimi düşünməyə başlayır. Onun təxəyyüllü anlayışla əşya arasında birbaşa əlaqə formasını alır. Bunu bilmək maraqlıdır ki, müasir



kapitalizmin ittihamının bu formasının böyük bir hissəsi Antonio Qramşinin aydın və son dərəcə diqqətli əvvəlki təhlilində öz ifadəsini tapmışdır.

Özünün ən məşhur təhlilində Frankfurt məktəbinin hal-hazırda aparıcı siması Yürgen Habermas müasir kapitalizmin təbiətini başa düşmək üçün Maks Veberə əsaslanır. Habermas Veberin qanuniliyin və qanuniləşdirmənin təbiəti ilə bağlı qayğısına istinad edərək, göstəririr ki, müasir cəmiyyətdəki ziddiyyətlər və xüsusən də sosial rifah və kütləvi demokratiya tərəfindən ikiqat və paradoksal səylərdən doğmuş ziddiyyətlər kapitalist dövlətlərinin qərarlarının düzgünlüyündə böhran vəziyyəti yaratmışdır. Habermasın fikrincə, həm Veber, həm də onun legitimliyin qanuniliyi haqqında fikirlərini bölüşdürən digər alimlər, müasir cəmiyyətdə qanuni qərar qəbul etməyin təbiətinin özlüyündə qərarların düzgünlüyünü sübut etmək üçün kifayət olmasına inanmaqla aldadılmışlar. Habermasa görə, bu, əslində düzgün deyil: legitimliyin yerləşdiyi daha dərin, yaxud fərqli səviyyə vardır ki, bundan biri də həqiqilikdir. Orada insanların ictimai həyatda nəyin qiymətləndirilməsi haqqında bir-biri ilə bölüşdürdüyü mülahizələr normativ başa düşməyə əsaslanır. Ancaq bu başa düşmə səviyyəsi həm müasir cəmiyyətin özündə, həm də bu cəmiyyət haqqında nəzəriyyələrdə bir qədər qaranlıq qalır. Onun fikrincə, yalnız müasir kapitalizmin əsaslarını problemli sayan tənqidi nəzəriyyə dünyadakı əşyaların həqiqiliyini anlaya bilər; bu səydə Habermas müasir kapitalizmdə diskursiv dil və kommunikasiya üçün detallaşdırılmış təhlil vasitəsilə təhrifləri və ziddiyyətləri ifşa etmək istəyərək "universal praqmatiklər" proqramı təklif edir.

**Niko Pulantsas (1936-1980)**

Niko Pulantsas müasir marksistlər arasında ən görkəmli siyasi sosioloq, nəzəriyyəçidir. Pulantsas marksizmin çərçivəsini XX əsr kapitalizmi və dövlətini başa düşmək üçün genişləndirmək istəyirdi. O, sinfi mübarizənin tarixi inkişafında dövlətin necə müstəqil aktora çevrildiyini anlamaq istəyirdi; onun ideyaları marksistlər arasında "dövlətin nisbi muxtariyyatı haqqında" hazırki diskussiyalarda təskinliklə qarşılanır. Pulantsas kapitalizm və müasir siyasət haqqında bir sıra unikal fikirlər irəli sürmüşdür. Ola bilsin ki, onun baxışlarının ən özünəməxsus elementi müəllimi, tanınmış fransız marksist filosofu Luis Altüsserdən götürülmüşdür. Altüsser kimi, Pulantsas da cəmiyyətlər haqqında strukturlar ifadəsi ilə düşünür. Strukturlar daha çox və ya daha az elementlərin ardıcıl ansamblını təmsil edir və sosial nizam-intizamın inteqrasiyasına xidmət edir. Onlar mücərrəd, bir qədər paralel qüvvələrdirlər (məsələn, bir qədər əvvəl istifadə etdiyimiz üstqurum və ya vətəndaş cəmiyyəti anlayışları kimi). Bunlar adi deyil, mücərrəd anlayışlardır və dünyadakı prosesləri formalaşdırmağa xidmət edirlər. Altüsserin ardınca Pulantsas təkid edir ki, müasir kapitalizm şəraitində fəaliyyətdə olan bir sıra strukturlar mövcuddur. Bunlar aşağıdakılardır: ideoloji və ya ideyalar sferası; siyasi yaxud siyasət və dövlət sahəsi; iqtisadi və ya istehsal sahəsi; hüquqi və ya qanun sahəsi.

Pulantsas ideoloji sahəyə müasir kapitalizmdə liberal siyasi ideologiyanın nümunəsi olaraq insan hüquqlarının mühümlülüyü və ya çoxlu maraqların təmsil olunması iddialarını daxil edir. Bundan başqa, Altüsser kimi Pulantsas da bu strukturlardan hər birinin müstəqil fəaliyyət göstərə bilməsi



və istənilən konkret tarixi cəmiyyətdə, məsələn, XX əsr ABŞ-da sosial qaydanın fəaliyyəti nəticəsində bir strukturun başqaları üzərində dominionluq edə bilməsi fikrini müdafiə edirdi. O göstərirdi ki, əgər bir mərhələdə ideoloji struktur yerdə qalan üç struktur üzərində üstünlük təşkil edə bilirsə, onda digərində siyasi struktur və xüsusən də dövlətin özü üstünlüyə nail ola bilər. Təbii ki, bu iddianın mənası Pulantsasın iqtisadi determinizmə əsaslanan Marksın adi, bayağı şəkildə oxunmasını rədd etməsi idi. İqtisadi elementin kapitalizmin funksiyasını son mərhələdə müəyyənləşdirməsi fikri Pulantsas tərəfindən çox sərbəst və liberal şəkildə götürülür.

Pulantsasa özünəməxsus baxışın ikinci və əlaqəli elementi onun dövlətin kapitalist cəmiyyətinin yaşaması və artması üçün bir struktur kimi müstəqil surətdə şərait yarada bilməsi haqqındakı iddiasından ibarətdir. Burada onun mübahisəsi ikili xarakter daşıyır. O göstərir ki, hakim və məhkum siniflər arasında pat vəziyyəti yarandığı halda dövlət istənilən sinfi mübarizəyə müdaxilə edə bilər. Həqiqətən də, dövlət hakim kapitalist sinfi ilə yanaşı məhkum sinfin maraqlarına da yardım göstərmək məqsədi ilə açıq-aşkar hərəkət edə bilər. O göstərir ki, dövlətin siniflər arasında açıq rəqabətə və münaqişəyə icazə verməsi cəmiyyətin iqtisadi, hüquqi və ideoloji sahələrində kapitalizmin tam hegemonluğunun bərqərar edilməsinə xidmət edə bilər. Lakin dövlətin cəmiyyətdə müstəqil aktor kimi xidmət etməsi üçün başqa bir yol da vardır. O, bunu sinfi mübarizənin getdiyi şəraitdə özü bir tərəf olaraq edə bilər. Pulantsas bu iddia ilə onu nəzərdə tutur ki, dövlət hakim kapitalist və eləcə də məhkum sinfin nümayəndələri də daxil olmaqla siniflərin müxtəlif hissələrindən ibarət ola bilər. Bundan başqa, Pulantsas göstərir ki, bəzən

kapitalizmin taleyi kapitalist sinfinin deyil, digər sinfin hegemonluğu ilə müəyyənləşir, o sinfin ki, kapitalist cəmiyyətini məlum tarixi zaman kəsiyində vahid şəkildə birləşdirə bilir. Pulantsas məhz elə bu mənada fəhlə sinfinə xeyir gətirən müasir rifah dövlətini izah etmək istəyir. Lakin fəhlə sinfinin qələbəsi zahiridir. Rifah dövlətinin sosial müdafiə, dövlət tibbi yardım proqramı və s. şəklində təklif etdiyi yardımlar, Pulantsasın fikrincə, müasir kapitalizmin digər fundamental komponentlərinin sadəcə hücumdan yaxa qurtara biləcəyini sübut edir.

Cəmiyyət və dövlətin obrazı Pulantsasda Marksın təqdimindən daha mürəkkəbdir. Əgər, Marksa görə, dövlət idarə edən sinfin icraedici orqanıdırsa, Pulantsas üçün o, kapitalizm cəmiyyətinin müxtəlif sinifləri arasında münaqişələr və ziddiyyətlərin toqquşduğu döyüş yeridir. Marksın dövlətə dair fikrinin təftişini yaxşı aparmasına baxmayaraq, Pulantsasın dövlətə struktur kimi yanaşması və onun kapitalizmin iqtisadi fəaliyyətində nisbi muxtariyyat təşkil etməsinə dair arqumentləri digər müasir marksistlərlə, məsələn, Ralf Milibandla əhəmiyyətli mübahisələrlə nəticələndi. Miliband göstərir ki, XX əsrdə də kapitalist cəmiyyətlərində dövlət kapitalizmin yaşaya bilməsi üçün həlledici vasitə olaraq qalır. Bu necə baş verir? Kapitalist sinfinin nümayəndələri məhkəmə, polis, qanunvericilik və xüsusən hökumətin icraedici qanadı kimi dövlət institutlarında əsas siyasətçiləri təşkil edirlər. Miliband bu tezisə dair çox inandırıcı sübut təqdim edir. Lakin Pulantsas Milibandın Marks haqqında fikirlərinin (yəni onun "hakim sinfin idarəçiliyi" anlayışını aydın şəkildə dəstəkləməsinin) xeyli sadə olduğunu göstərir. Müasir kapitalizmin inkişafına



xalq deyil, bir struktur kimi dövlət şərait yaradır və kömək edir. Pulantsasa görə, dövləti, hətta bütövlükdə kapitalizmi fərdi vasitəçilərədək məhdudlaşdırmaq Marksın fundamental ideyalarını mənasızlaşdırmaq, onun kapitalizm haqqında şəxssiz, işləyən bir sistem olması haqqında fikirlərini unutmaq deməkdir.

Pulantsasla Miliband arasında müasir kapitalizm şəraitində dövlətin təbiəti və işinə dair intellektual mübahisə 1970-ci illərdə daha da qızışdı. Bu həmçinin bizim Marks barəsində qeyd etdiyimiz, onun ideyalarında nəzərə çarpan bir sıra ikimənalılığı əks etdirirdi. Bu fikirlərdən biri insanların rolu ilə əlaqədardır. Onlar kapitalist sisteminin fəaliyyəti üçün sadəcə vasitəçi, yoxsa müstəqil qüvvədirlər? Onlar real mövcuddurlar? Pulantsas onlar üçün reallığı bütünlükdə inkar etdiyi halda, Miliband əksinə, onları real olaraq qəbul edərək kapitalizmin uzunmüddətli maraqlarına xidmət etməsini zənn edir. Lakin Milibandın baxışlarında bizi belə bir şey düşündürür: əgər dövlət digər siniflərin nümayəndələri tərəfindən zəbt olunsaydı, o, yəqin ki, kapitalizmin maraqlarının əksinə hərəkət etmiş olardı, hətta kapitalizmi islah edə bilərdi. Bu, Pulantsasın arqumentlərində bizi düşündürən məqamların hamısı deyildir.

Digər ikifikirlilik dövlətin özünün roluna aiddir. Bir tərəfdən Pulantsas dövlətin sinfi mübarizənin təkamülü nəticəsində qeyri-kapitalist sinfinin rəhbərliyi altında muxtariyyətə çatmasını qeyd edirsə, digər tərəfdən gələcək haqqında onun ümidləri Marksdan fərqli olaraq o qədər də aydın təsəvvür yaratmır. Başqa sözlə, Pulantasa görə, dövlətin muxtariyyatı Marksda olduğu kimi uydurmadır; hər iki nəzəriyyəçi üçün kapitalist sinfinin, eləcə də kapitalizmin hegemonluğu

dövlətin fəaliyyəti sayəsində toxunulmaz qalır Marks kimi o da təkid edir ki, dövlət strukturları məlum tarixi şəraitdə bir neçə məhkum sinfə himayəçilik göstərirdilərsə (məsələn, Fransada Lui Bonapartın rejimində kəndlilərə münasibətdə olduğu kimi), sonda bu cür hərəkətlər kapitalizmin inkişafına köməklik edirdi.



# FƏSİL 10. M.VEBERIN SOSIAL-SIYASI BAXIŞLARI

## Maks Veber (1864-1920)

Maks Veber bir insan kimi mürəkkəb, alim kimi isə çox ciddi idi. Qeyri-adi dərəcədə dərin intellektə malik olan Veber hüquqşünas olmağa hazırlaşsa da, sonradan bir çox sahələrə geniş maraq göstərmişdir. O, tarix elminə böyük rəğbət bəsləmiş, sosiologiya, habelə din, iqtisadiyyat, hüquq, şəhər məskunlaşması və siyasi elm sahələrində də qiymətli tədqiqatlar aparmışdır. O, həmçinin Almaniyanın siyasi baxımdan (xüsusən 1918 ildə Veymar respublikası konstitusiyasının layihəsinin hazırlanmasında yaxından iştirak edərək) idarə olunması haqqında da dəyərli mülahizələr söyləmişdir.

Maraq dairəsi geniş olduğundan Veber həm bir alim kimi fəaliyyət göstərmək, həm də siyasətlə məşğul olmaq istəyirdi. Tədricən o, özü üçün sosial elmlər sahəsində çalışan bir çox alimlər üçün artıq bu gün modelə çevrilmiş bir strategiya formalaşdırdı. O göstərirdi ki, alim bir intellektual olaraq öz həyatını digər insanlarınkından fərqləndirilməlidir. İki məşğuliyyət hər hansı bir adamın effektivliyini təhlükəyə məruz qoymadan qarışdırıla bilməz; bir alim kimi vətəndaşlara dair ədalətli və ya düzgün mühakimə yürütməmək mümkündür. Eləcə də alim bir müəllim keyfiyyətində tədris vaxtı polemikalara o qədər də girişməməlidir, xüsusən də əgər bu cür strategiya savad verməkdən daha çox populyarlıq məqsədi daşıyırsa. O belə yazır: "Müəllimin vəzifəsi tələbələrə öz biliyi və elmi təcrübəsi ilə xidmət etmək və onlarda özünün şəxsi siyasi baxışları haqqında (dərin) iz buraxmamaqdır... Öz tarixçilərimizin əsərlərinə istinadən mən sübut etməyə hazıram ki, elm adamı özünün şəxsi

dəyərlər mühakiməsini təqdim etdikdə faktların tam başa düşülməsinə son qoyulur".[1] Ciddi alim olmaq və eləcə də elm intellektual müzakirələr çərçivəsindən polemikaların aradan qaldırılmasını tələb edir. Beləliklə, siyasi arena özünün xüsusi qaydalarına malik olduğunu göstərir. Mahiyyətcə, siyasət məhdud maddi və rəmzi (yaxud ideal) ehtiyatlar üzərində davam edən münaqişəni ehtiva edir. Bu arenaya qədəm qoymaq istəyən hər bir kəs mübarizə aparmağa, güzəştə getməyə hazır olmaqla yanaşı, son nəticədə qaliblərin və ya məğlubların sırasında olmağı da bacarmalıdır.

Aydındır ki, Veberin siyasətə, elmi fəaliyyətə dair baxışları Marksın yanaşmasından xeyli fərqlənir; Marks zahirən müstəqil olan bu məşğuliyyətlər arasında birliyə nail olmaq istəyirdi. Lakin Veberin yanaşması, Marksda olduğu kimi, onun Qərb cəmiyyətlərini başa düşməsi kontekstində başa düşülməlidir. Veberə görə, Qərbdə sosial və iqtisadi həyatın təbiəti peşəkarlığın və atil (tənbəl, boş-boşuna) fəaliyyətin dərəcəsini təmsil edir. İstənilən fəaliyyət növü unikal karyera yolu, eləcə də hüquq və mükəlləfiyyətlər şəbəkəsi yaradaraq peşə və ya qabiliyyət formasında təşəkkül tapıbdır. Bu mövzu öz növbəsində Qərb sivilizasiyasının inkişafında daha geniş və dərin meyllərin bir hissəsidir; bu mövzu həyatın rasionallaşdırılması mövzusudur. Bu, Veber üçün həyatın xüsusi məqsədlərə çatmaq üçün texniki cəhətdən daha effektiv vasitələrin qiymətləndirilməsinə tabe olaması deməkdir.

Bu nümunələr Qərbin dominant və fövqəladə cəhətlərindən olan rasional bürokratiyada öz təcəssümünü

[1] Weber, "Science as a vocation," in *From Max Weber*: Essays in Sociology, ed. Hans Gerth and C. Wright Mills (New York: Oxford University Press, 1958), p. 146.



tapmışdır. Veber təkid edir ki, bu cür inzibatçılıq forması həm üstünlüyə, həm də çatışmazlıqlara malikdir. Qərb sivilazasiyası bütün əvvəlki sivilasiyalar üzərində əsas texniki irəliləyişi təmsil edir. Bu həmçinin insanın özgələşməsini tələb edir. O, müasir həyatın idarə olunduğu yolu nümayiş etdirir; burada şəxsi mülkiyyətə malik olmayan fərd öz həyatına da nəzarət edə bilmir.

Daha sonra, bürokratiya bir institut kimi o qədər geniş yayılır ki, insanların fəaliyyət seçimi və azadlığı getdikcə məhdudlaşır. Cəmiyyətdə insanların seçə biləcəkləri məhdud sayda dəyərlər vardır. Bu dəyərlər özlərini bir tərəfdən fərqli sosial qruplar və status qrupları üçün özül, digər tərəfdənsə siyasi arenada rəqabət və münaqişənin mənbələrini təqdim etməklə göstərirlər.

Onu da qeyd edək ki, Veberin insana baxışı xeyli pessimistdir. Marks kimi o da insanın özgələşməsinə inansa da, bunu istehsal vasitələrinə deyil, inzibati münasibətlərə şamil edirdi. Marksdan fərqli olaraq, Veber insanın onu özgələşdirən instrumentlərdən azad ola biləcəyinə az inanırdı. Onun fikrincə, bürokratiyanın insanların həyatına qarışmasını məhdudlaşdırmaq heç cür mümkün deyildir.

### Veber sosial qayda haqqında

Marksda olduğu kimi, Veberin də sosial qayda haqqında fikirlərini üç konsept çərçivəsində nəzərdən keçirəcəyik: sosial stratifikasiya, sosial təşkil və sosial sistem. İki dahi alim arasındakı müqayisəni davam etdirmək üçün Veberin yalnız Qərbin müasir sənaye cəmiyyətləri – Almaniya, Fransa, Böyük Britaniya və ABŞ haqqında yazdıqları ilə kifayətlənəcəyik.

## Sosial stratifikasiya

Stratifikasiya sisteminin iki əsas ölçüsü vardır. Bunlardan birincisi sinifdir ki, o da özünü açıq-aydın üç istiqamətdə büruzə verir: mülkiyyətin fərqli bölünməsinə əsaslanan mülkiyyətçi siniflər; bazarda əmtəə və xidmətlərin fərqli bölüşdürülməsinə əsaslanan ticarət sinifləri; nəhayət, iki digər formanın birləşməsini təmsil edən sosial siniflər. Mülkiyyətə və ya əmək bazarına əsaslanan siniflərə gəlincə deməliyik ki, pozitiv və ya neqativ imtiyazlara malik olanlar arasında əlavə fərqlər mövcuddur. Məsələn, ticarət sinifləri arasında pozitiv imtiyazlara malik olanlar ümumilikdə sahibkarlardır, xüsusən isə bankirlər və maliyyəçilərdir; neqativ imtiyazlara malik olanlar isə peşə məharətinin səviyyəsinə görə fərqlənən, məsələn, orta ixtisas səviyyəsinə malik fəhlələrdir Nəhayət, Veberin dörd əsas sosial sinfi Marksın konsepsiyasına uyğun gəlir: bütövlükdə fəhlə sinfi, xırda burjua, mülkiyyətdən məhrum ziyalı və mülkiyyət və təhsildən bəhrələnən siniflər. Stratifikasiya sisteminin digər prinsipal oxu hər bir qrupun cəmiyyətdəki statusu və ya nüfuzunun səviyyəsi ilə ölçülə bilən fərqlərə əsaslanır. Status sosial sinfin ölçüsü kimi cəmiyyətdə iyerarxik təmsil olunur: bəzi qruplar status pilləkanında digərlərindən daha yüksəkdə dururlar. Sinfin ölçüsü kimi status da cəmiyyətdə iyerarxik şəkildə çıxış edir: bəzi qruplar status pilləsində digərlərindən yuxarıda durur. Status qrupları fərqli həyat tərzinə, yəni maddi üstünlüklərə - mülkiyyətə, tez realizə olunan (likvid) kapitala, geyim vərdişlərinə, dini etiqad və ya şərəf qaydaları kimi rəmzi resurslar üzərində inhisara malikdirlər. Müasir cəmiyyətdə bu qrupların xüsusi hazırlıq tələb edən müxtəlif sahələrdə, məsələn, hüquq sahəsində meydana gəlməsi üçün



meyllər getdikcə artır.

Veber üçün sinif və status kateqoriyaları istənilən cəmiyyətin stratifikasiya sisteminin tamamlayıcı aspektidir. Bu mənada o yazır: "demək olar ki, ... siniflər əmtəənin istehsalı və əldə edilməsinə görə təbəqələşiblər; lakin status qrupları isə xüsusi həyat tərzindən irəli gələn əmtəənin istehlak prinsiplərinə görə bir-birindən fərqlənirlər".[1] Müvafiq olaraq, iki ölçü bir-biri ilə əlaqələndirilə bilər – bazarda və ya əmlakın bölüşdürülməsində xüsusi imtiyazlar ümumi həyat üçün müəyyən əsas yaradır. Daha sonra, cəmiyyətlər onlarda hansı sinfin və ya status qruplarının üstünlük təşkil etməsindən asılı olaraq bir-birindən fərqlənirlər; Veberin fikrincə, ABŞ-da status qrupları Avropa ölkələrində olduğundan daha üstündürlər. Status qrupları və sosial siniflər üçün müasir cəmiyyətdə ən vacib məsələ onların öz maddi və mənəvi maraqlarını qorumaq üçün ümumi hərəkət etməyə daha çox qadir olmalarıdır. Bu bacarıq həmin qrupların fərdi və kollektiv cəhətdən əhəmiyyətli maraqlarından irəli gəlirsə, siniflər iqtisadiyyatı idarə edən şəxssiz prinsiplərə söykənirlər. Bu yolla Veber özünün və Marksın stratifikasiya sistemləri arasındakı fərqləri göstərməyə çalışır.

## Sosial təşkil

Veberə görə, Qərbdə sosial təşkil bürokratiyadır və onun əhəmiyyəti elə də yüksək qiymətləndirilməməlidir: "Təşkilin müasir formalarının bütün sahələrdə inkişafı inzibatşılığın inkişafından və aramsız yayılmasından ibarət-

[1] Max Weber, Economy and Society: An Outline of Interpretative Sociology, trans. Guenther Roth and Claus Wittich (New York: Bedminister Press, 1968), I, p.937.

dir. Bu, kilsə və dövlət, ordu, siyasi partiyalar, iqtisadi müəssisələr, maraq qrupları, ianələr, klublar və d. üçün doğrudur. Onun inkişafı ... müasir Qərb dövlətinin kökündə durur. Əgər bürokratik administrasiya bütün digər məsələlərlə yanaşı texniki nöqteyi-nəzərdən həmişə ən rasional tipdirsə, bu gün kütləvi administrasiyanın ehtiyacları onu tamamilə labüd edir. Administrasiya sahəsində seçim yalnız bürokratiya ilə diletantizm arasındadır."[1] Bürokratiyanın tərifinə öz məqsədlərinə çatmaq üçün texniki cəhətdən ən effektiv vasitələrdən istifadə edilməsi kimi bir sıra fərqli məsələlər də daxildir. Bürokratiyanın səciyyəvi cəhətlərinə aşağıdakılar daxildir: 1) onun şəxssizləşmiş xidməti xüsusi öhdəlik və hüquqlar doğurur ki, bu da həmin şəxsdən daha çox təşkilatın mülkiyyəti kimi qəbul olunur; 2) onun işi nüfuz iyerarxiyası şəklində təşkil olunmuşdur; 3) hər bir vəzifənin öz tabeçilik sahəsi vardır; 4) hər bir vəzifə müsabiqə əsasında tutulur; 5) vəzifəni tutmaq üçün namizədlər texniki və şəxsiyyətindən asılı olmayan keyfiyyətlərinə görə seçilirlər; 6) vəzifəni tutanlar pulla ifadə olunan müəyyənləşdirilmiş maaşla mükafatlandırılırlar; 7) idarədə karyera mövcuddur və müəssisə iyerarxiyasında yaşa və staja görə irəliləmək üçün imkan vardır.

Bu konsepsiya mücərrəddir və müasir cəmiyyətdə bir çox təşkilat formaları üçün ümumi olan elementlər əsasında tərtib edilmişdir. Bu nöqteyi-nəzərdən həmin konsepsiya Veberin digər baxışlarına, məsələn, protestant etikasına oxşardır. Təşkilatın rasional və şəxssiz aspektlərini vurğulayan bu tip

[1] Weber, Max, Economy and Society: An Outlineof Interpretative Sociology, vol.I. ed.and translated by Guenther Roth and Claus Wittich. New York: Bedminister Press, 1968, p.223.



konsepsiya diqqəti onun digər təşkilati formalarında, məsələn, Qədim Çində administrasiyanın patrimonial, Qədim Misirdə isə bürokratik formalarında cəmləşdirir. Bundan başqa, o, müasir cəmiyyətdə bürokratik meylin yaranması üçün mümkün ilkin səbəb şərtlərini nəzərdə tutur.

## Sosial sistem

Veberin əsərlərində sosial sistemin ümumi mənzərəsi yoxdur. Onun sosioloji yanaşması fərddən başlayır və nisbətən kiçik və aydın şəkildə məhdudlaşdırılmış qrupların və xüsusən də status qruplarının bir hissəsi kimi bu fərdin fəaliyyətini başa düşmək üçün səyləri əhatə edir. Beləliklə, sosial sistem kimi böyük kollektiv orqanların hərəkət və ya məqsədlərini ittiham etməyə yönəlmiş istənilən cəhd sosioloji baxışın fundamental məqsəd və vəzifələrini əsaslı şəkildə dəyişir. Geniş miqyasda götürdükdə bu mövqe Veberin sosioloji niyyətindən, daha doğrusu keçmişi onun hadisələrindən və tarixlərindən mücərrədləşdirərək başa düşməsi səyindən irəli gəlir.

Mücərrəd mənada müasir cəmiyyət sosial qrupların fəaliyyət səhnəsi kimi təsəvvür olunur; onlardan əsasları da status qrupları və bürokratiyadır. Etnik və ya ümumi köklərə malik olub-olmamalarından asılı olmayaraq, status qrupları elə bir çərçivəni təmsil edirlər ki, orada insanlar öz ümumi maraq və inamları əsasında birləşərək razılıq şəraitində yaşayırlar. Bürokratlar isə nüfuz və hakimiyyətin fərqli münasibətlərinə əsaslanan birlik ab-havasını yaradırlar.

Əlbəttə, Veber o qədər sadəlövh deyildi ki, insanlar arasında yalnız harmonik münasibətlər mövcud olduğunu düşünsün. Əksinə, qruplar arasında münasibətlər (onların daxi-

lindəki münasibətlərin əksinə olaraq) aramsız münaqişə və mübarizəyə əsaslanır. Bir tərəfdən status qrupları bir-birilərinin maraqlarına müxalifətdə durur və məhdud ehtiyatlar üzərində inhisar yaratmaq və ya nəzarət, hökmranlıq əldə etmək üçün mübarizə aparırlar. Digər tərəfdən xüsusən müasir kapitalizm şəraitində müxtəlif institusional sferalarda bürokratlar özləri bir-biri ilə öz maraqları uğrunda rəqabətdədirlər; Veberə görə, bu yalnız dövlət bürokratiyasını nəzarətdə saxlamaq üçün mühümdür. Status qrupları, onun fikrincə, digər status qruplar üzərində öz üstünlüklərini qorumaq üçün bürokratik aparata məxsus hakimiyyətdən tez-tez istifadə edirlər.

### Veber siyasi qayda haqqında

Veberin siyasi qayda haqqında mülahizələrini nəzərdən keçirməzdən əvvəl, onun ümumi baxışlarına diqqət yetirmək yerinə düşərdi. Birincisi, siyasi, qayda ümumilikdə cəmiyyətin özü kimi, qruplar arasında daimi mübarizə ilə xarakterizə olunur. Bəzən konflikt siyasi institutlar üzərində nəzarəti ələ keçirmək istəyən status qruplarını əhatə edir. Lakin çox vaxt bu, dövlət başçısı və mülki xidmət vəzifələrini tutan siyasi agentlər və fiqurlar arasındakı münaqişəni əhatə edir. Beləliklə, Marksdan fərqli olaraq, Veber siyasi qaydaya hökmran sinfin və ya siniflərin əlində fəaliyyət aləti kimi baxmır.

İkincisi, dövlət və onun institutları bir sinfin və ya status qrupunun nəzarəti altında deyil. Müasir dövlətdə bir çox vəzifələr ona görə hüquqşünaslar tərəfindən tutulur ki, onlar siyasətin mürəkkəb hüquqi tərəflərini başa düşmək üçün zəruri təhsilə və texniki bacarığa malikdirlər. Hüquqşünaslar və digər mütəxəssislər ayrıca bir status qrupu təşkil et-



diklərindən, özləri üçün xüsusi maddi və mənəvi imtiyazlar qoruyub saxlamağa çalışırlar.

Üçüncüsü, Veberə görə, müxtəlif siyasi sahələrdə nəzarəti ələ alanlar digər sosial institutlar və qruplara həlledici təsir göstərə bilmək imkanı qazanırlar. Daha sonra onun Otto Bismark və Napoleon Bonapart kimi siyasi liderləri təhlilindən aydın olur ki, siyasi hakimiyyətə malik olanlar sosial inkişafı formalaşdırmaqda və milli dövlətin yaradılmasında müvəffəqiyyət qazana bilirlər. Yenə də qeyd edək ki, belə bir mövqe siyasi institutların maddi resursları inhisara almaq üçün sadəcə alət olmasını hesab edən Marksın mövqeyi ilə daban-dabana ziddir.

Nəhayət, Veberin özü demokratik idarəetmə forması olan plebisitə daha çox inanırdı. Bu, lidersiz demokratik hökumət, texniki ekspertlər və ya siyasi aparat vasitəsilə öz iradəsini həyata keçirən partiya liderlərinin əlində bir saxta alətdir. Bununla Veber bir tərəfdən ABŞ və Böyük Britaniyadakı demokratik idarəetmə formasına valehliyini, digər tərəfdənsə Bismarkın dövründən başlayaraq 1919-cu ilədək mövcud olmuş konstitusiyalı alman monarxiyasına nifrətini nümayiş etdirirdi.

### Siyasətçilər

Veberə görə, istedadlı və məsuliyyətli siyasətçilər effektiv demokratik idarəçilik üçün olduqca vacibdirlər. Yunanıstanın birbaşa demokratiyasından müasir dövlətin kütləvi demokratiyasınadək ən yaxşı hökumət sonradan Cozef Şumpeter tərəfindən genişləndirilmiş "demokratik elitist" adlanan azlığın hakimiyyəti altında olan hökumətdir.

Onun fikrincə, müasir cəmiyyətlərdə ən effektiv

hökumət, məsələn, Böyük Britaniyada baş nazir, onun kabineti və məsləhətçiləri tərəfindən idarə olunan hökumət, ən effektsiz isə, məsələn, Almaniyada Bismarkdan sonra olduğu kimi bacarıqlı adamlara idarə etmək üçün çox az şərait yaradan hökumət sayılır.

Bacarıqlı siyasi liderliyin seçilməsinə dair iki prinsipial fikir mövcuddur. Ümumxalq seçkilərinin mövcud olduğu ABŞ kimi ölkələrdə güclü siyasi partiyalar bacarıqlı liderləri qorumaq üçün ən uğurlu metodlardan istifadə edirlər. Siyasi liderlərin parlamentin daxilindən seçildiyi yerlərdə isə, əksinə, Veber müxtəlif strategiyaların mövcudluğunu göstərir.

### Dövlət aparatı

Müasir dövlət aparatının əsasını parlament, siyasi partiyalar, hərbi və mülki xidmət bürokratiyası təşkil edir. Veberin fikrincə, onların əhəmiyyəti hər bir dövlətdə müxtəlifdir. Məsələn, Veberin qeyd etdiyi kimi, ABŞ-da və İngiltərədə parlament və siyasi partiyalar daha mühüm əhəmiyyət kəsb etdikləri halda, Almaniyada effektiv liderliyin olmadığından mülki xidmət bürokratiyası dövlətin əsas elementini təmsil edir.

Daha sonra o, siyasi partiyaların iki əsas tipini də qeyd edir: havadarlıq və ideoloji partiyalar. Veberə görə, ABŞ-da partiyalar birbaşa seçki sisteminə və prezidentə verilmiş nüfuza əsasən havadarlıq tiplidirlər; Almaniyada isə, onun fikrincə, partiyalar daha çox ideologiyaya meyllidirlər. İdeoloji partiyalar öz hökumətlərini effektsiz vəziyyətə gətirirlər, çünki onların prinsiplər uğrunda savaşı kompromisə gəlməyi çətinləşdirir ki, bu da özünü daha çox



parlament liderlərinin seçilməsində göstərir.

Hökumətin müxtəlif qanadları arasında ən pisi, Veberin fikrincə, mülki xidmət bürokratiyasıdır. Ekspertiza və texniki biliyin müxtəlif dərəcəli bürokratların əlində cəmləşməsi onlara və onların təşkil etdikləri institutlara qeyri-adi dərəcədə hakimiyyət verir. Bu səbəbdən monarxın nüfuzu Almaniyada olduğu kimi zəiflədilə bilər və ya parlamentdə siyasətçilər xüsusən qərar qəbuletmənin dövlət xəzinəsinə aid olan siyasətinə aid sahədə qeyri-effektiv fəaliyyət göstərə bilər. Veberin fikrincə, faciə ondadır ki, bürokratlar yalnız texniki ekspertdirlər və hər hansı bir formada liderlik edə bilməzlər.

### Siyasi sistem

Marks kimi Veber üçün də siyasi sistem dövlət başçısını və dövlət maşınını əhatə edən dövlətin özüdür. Bu təsisatın əsas əlaməti onun "məlum ərazidə fiziki qüvvədən legitim istifadə etmək üzərində inhisara malik olmasıdır". Buna görə də bu institut müasir cəmiyyətlərdə mühüm yer tutur və beləliklə, bir çox qruplar üçün öz nəzarətini təmin etmək üçün mühüm əsas yaradır. Lakin əvvəlcə qeyd etdiyimiz kimi, dövlət xüsusi bir sinif və ya status qrupuna məxsus təzyiq instrumentini təmsil edə bilməz. O, daha çox daimi konfliktlər meydanıdır və müxtəlif status qruplarının nümayəndələrini əhatə edir.

Dövlətin daxilində bir neçə potensial münaqişə nöqtələri vardır. Onlardan birinə siyasi lider və ya dövlət başçısı, eləcə də parlament - mülki xidmət (bürokratiya) koalisiyası daxildir. Almaniyada Bismark liderliyinin bəzi aspektlərinə valehliyini gizlətməyən Veber belə hesab edirdi

ki, bu tip liderlik, nəticə etibarilə demokratik idarəçiliyə nail olma imkanlarını məhdudlaşdırır. İkinci mübarizə potensialı parlamentlə mülki bürokratiya arasındakı rəqabətdən ibarətdir; Veber hesab edirdi ki, bu münaqişə demokratiyaya doğru vacib istiqamət təmin olunmaqla parlamentin xeyrinə həll olunmalıdır. Veber inanırdı ki, demokratik idarəetmə təkcə texniki ekspertizanı deyil, siyasi liderliyi də tələb edir; beləliklə, onun təklif etdiyi strategiyaya əsasən bürokratiyanın hakimiyyəti azalmalı, dövlət başçısı və parlamentin hakimiyyəti isə artmalıdır. Üçüncü döyüş potensialı isə dövlət başçısını və parlamenti mülki xidmət bürokratiyasına qarşı qoyur.

Müasir dövlətdə əsas mübarizə siyasi liderlə mülki xidmət bürokratiyası arasında gedir. Bu təhlil Veberin siyasi liderlər və onların komanda üzvlərinin davamlı olaraq hökmranlıq uğrunda mübarizəyə girişmələrinə dair ümumi müşahidəsinin xüsusi tətbiqidir. Veber demokratik hökumət üçün siyasi liderlərin mühüm olduğunu hesab edir, alman hökumətini belə liderlər seçməyə tələsdirirdi. Sonda o, əsl lider kimi kimin üstünlük təşkil edəcəyi haqqında o qədər də aydın danışmır: "Müasir dövlətdə faktiki lider hökmən bürokratiyadır, çünki hakimiyyət nə parlament danışıqları, nə də ki, monarxik şüuarlarla həyata keçirilir. O, administrasiyanın öz qaydaları əsasında həyata keçir".[1]

### Veber: insan nə üçün itaət edir?

İnsanların bir qrupunun istər müasir, istərsə də qədim cəmiyyətlərdə digər qrupa nə üçün tabe olması məsələsi

[1] Weber, "Science as a Vocation," in From Max Weber:, Gerth and Mills, p.80.



Veber üçün ciddi maraq doğurmuşdur. Hakim münasibət özünün daha mücərrəd formasında sərəncamlar verən idarə edənləri və ona əməl edən tabe olanları əhatə edir. Beləliklə, sual belə qoyula bilər: nə üçün insanlar tabe olurlar? İlk əvvəl hökmranlığın istənilən mütəşəkkil formasının gündəlik fəaliyyətində - istər bu bürokratiya olsun, istərsə də feodal ağalığı - adət və ya vərdiş, tabeçiliyi qorumaq üçün ilkin prinsipdir. Bu həmçinin ən zəif prinsipdir, çünki adətən idarəedənlərlə tabe olanlar arasında münaqişə mövcuddur. Beləliklə, razılaşmanı qorumaq üçün əlavə prinsiplər mövcud olmalıdır.

Növbəti prinsip administrativ aparatla bağlıdır. Bu əmrə tabe olmayanlara qarşı vergiləri yığma, müharibə aparma və digər bu kimi vasitələrlə cəza tədbiri görmək üçün insanların idarə edənlərə tabeçiliyini həyata keçirməyə kömək edir. Veber qeyd edirdi: "mütəşəkkil hökmranlıq elə maddi nemətlər üzərində nəzarəti tələb edir ki, onlar ... hökumətin icraçı aparatı ... üzərində nəzarət üçün vacibdir."[1] Hökumətin problemləri onun özündən törəyir, çünki üstünlük uğrunda əsas mübarizə həmişə idarəedən və aparat arasında gedir. İdarə edənin hakimiyyətinin qeyri-qanuni qəsb olunması təhlükəsini azaltmaq üçün idarə edənlə aparat arasında həmçinin maraq həmrəyliyi olmalıdır; bu cür həmrəyliyi yaratmaq üçün əsas ağırlıq idarə edənin üzərinə düşür. Belə həmrəylik idarə edən tərəfindən maddi və ideal mükafatların verilməsi ilə təmin edilir: "Maddi mükafat və sosial ehtiramı itirmək qorxusu icraçı aparatla hakimiyyətə malik olanlar arasında həmrəyliyin son və həlledici

[1] İbid., p.80.

əsasıdır."[1]

Zərurət yarandıqda hətta inzibati və hərbi qüvvə də idarə edənin tabeçiliyində olanlar üzərində davamlı hökmranlığını saxlamaq üçün vacibdir. Bu xüsusən idarə edənin hakimiyyəti əldə saxlamaq hüququ üzərində böhran və təhlükə yarandığı vaxtlarda vacibdir.

Üçüncü və sonuncu prinsip idarə edənin ardıcıllarının tabeçiliyinə, yəni ardıcıllarının onun legitimliyinə inanmasına tam zəmanət təmin etməsindən ibarət olmalıdır. Bu zəmanət azaldığı adət unudulduğu və administrasiya zəiflədiyi vaxt legitimlik prinsipi idarə edəni həmişə müdafiə edir; ardıcılları inanırlar ki, xüsusi bir şəxs (və ya şəxslər) onlara əmr vermək hüququna malikdir, onlar isə ona tabe olmağa borcludurlar.

Legitimlik prinsipindən ideal tip kimi istifadə edərək Veber üç *forma arasındakı fərqi göstərməyə çalışır: 1)* ənənəvi əsaslara söykənən legitimlik, 2)xarizmaya əsaslanan legitimlik, nəhayət, 3) rasional-legal standartlara əsaslanan legitimlik.

Müasir dövlətdə hökmranlıq bütün tarix boyu olduğu kimi bu üç principin qarışığını əhatə edir. Məsələn, monarxın liderliyi xarizmatik və ənənəvi legitimliyə əsaslana bilər. ABŞ prezidentinin legitimliyi bir çox hallarda hər üç formanın birləşməsinə əsaslanır.

Hökmranlığın bu tipləri bir sıra hallara geniş tətbiq edilmişdir. Məsələn, liderlik problemini öyrənərkən inkişaf etməkdə olan ölkələrdə ənənəvi hökmranlıq anlayışından, siyasi hərəkatlarda liderliyin təbiətini tədqiq etmək üçünsə

[1] İbid., p.80.



xarizmatik hökmranlıq tipindən istifadə olunmuşdur.

Lakin hökmranlıq anlayışı nə qədər aydın olsa da, müəyyən çatışmazlıqlardan azad deyildir. Bunlardan ən əhəmiyyətlisi legitimlik ideyasıdır. Bir anlayış kimi legitimliklə bağlı problem ondan ibarətdir ki, o, yalnız ardıcılların inamlarında və rəylərində mövcuddur. Məsələn, Veber göstərir ki, xarizmatik liderlər xarizmaya malik deyillər və bu, daha çox onlara öz ardıcılları tərəfindən verilir. Nəticə etibarilə hökmranlığın təbiətini tədqiq edənlər belə bir nəticəyə gəlirlər ki, liderlərə ardıcılları onların hakimiyyətə qanuni malik olduqlarına inandıqlarına görə tabe olurlar və hakimiyyətə malik olanlar hakimiyyətdə qalmaq üçün qanuniləşmiş əsaslara istinad etməlidirlər.

### Veber dəyişiklik haqqında

Vaxtından əvvəl, 56 yaşında vəfat etdiyindən, Veber dəyişiklik haqqında vahid, müfəssəl baxış inkişaf etdirə bilməmişdir. O, əsərlərində Qərb cəmiyyətlərinin rasionallaşdırılması məsələsi ilə maraqlansa da, bu haqda Marksın inqilab və sinfi mübarizə və ya Parsonsun təkamül haqqında ideyaları kimi aydın nəzəriyyə işləyib hazırlamamışdır.

Sözün geniş mənasında dəyişiklik Qərbdə rasionallığın inkişafını bildirir və özünü bütün əksər institusional sferalarda büruzə verir. Rasionallığın mahiyyəti məqsədlərə nail olmaq üçün texniki cəhətdən ən effektiv strategiyadan istifadə olunmasındadır. Onun yaranması, formalaşması və inkişafı tədricən baş verir və bütünlükdə cəmiyyətlərin artan inkişafını və onların fərqli institusional sferalarını əhatə edir. Bu cür o özünəməxsus xüsusiyyətlərə malikdir. Bir sözlə, Veberin inkişafın rasionallığı konsepsiyasına konvergensiya yolu

ilə dəyişiklik kimi baxılmalıdır; bir-birindən asılı olmayan elementlər müxtəlif nöqtələrdə vaxtında yaranır, bir-birinə qeyri-müəyyən şəkildə sarınır və yeni sosial forma yaradırlar. Dəqiqlik üçün bu yanaşmanı Veberin müasir dövlət bürokratiyasının - rasionallığın ən görkəmli təcəscümünün yaranması haqqında analizindən istifadə etməklə aydınlaşdıraq. Veberin mühakimələri müasir dövlətin yaranması üçün tələb olunan ilkin şərtlərin tarixi təsvirini əhatə edir. Bura rasional qanun, pul iqtisadiyyatı, kommunikasiya və nəqliyyat vasitələrinin təkmilləşdirilməsi, mülki və hərbi idarəetmə vasitələrinin təmərküzləşməsi daxildir. Veber üçün bu şərtlərin heç biri həlledici deyildir; onların hər biri eyni dərəcədə vacibdir.

Lakin qeyd edək ki, Veber rasionallığın və ya onun xüsusi təcəssümü olan müasir dövlət bürokratiyasının inkişafını izləyərkən tarixi detallara son dərəcə sadiq qalır və Marks kimi mücərrəd nəzəriyyə nümunəsi inkişaf etdirməyə səy göstərmir. Veberin analizində müasir dövlət bürokratiyasının yaranması üçün vacib olan ilkin şərtlərin əksəriyyəti yalnız onun tərifinə daxil olan elementlərdən ibarətdir. Məsələn, Roma hüququ dövlət bürokratiyasının meydana gəlməsinə imkan verirdi. Lakin eyni zamanda bu bürokratiyanın səciyyəvi cəhətlərinə Roma hüququ sayəsində nail olunmuşdur. Bu analitik prosedur A fenomenini B fenomeni ilə izah etmək səyi kimi daha əsaslı praktikadan açıq şəkildə fərqlənir. Parsons Veber kimi eyni növ dəyişikliklə məşğul olaraq problemi təkamülün yüksək dərəcədə incə və mürəkkəb görünüşünü yaradaraq həll edir. Veberin baxışında son çətinlik Qərbdə rasionallığın güman edilən ilkin şərtlərinin ümumi və geniş olmasındadır ki, bu da xüsusən müasir şəraitdə dövlət bürokratiyasının yaranması üçün çox mühüm və



vacib faktorlar məsələsini əhatə edir.

Veberin demokratik dövlətlərdə bürokratiyanın roluna dair dialektik analizinə müraciət edək. Kütləvi demokratiya elə bürokratiyanın özü kimi bərabər ədalətə və qanun əsasında təmsilçiliyə əsaslandığından müasir bürokratiyanın inkişafı üçün hər cür şərait yaradır. Bürokratiyanın inkişafı xüsusi səriştəli status qrupu yaratdığından, o, demokratik hökumətin əsaslarını sarsıda bilən ədalətsizliyin baş qaldırmasına da səbəb ola bilər. Daha sonra, qulluqçular üçün xüsusi hazırlıq tələb olunduğundan, bürokratiya sosial stratifikasiya üçün yeni əsas kimi formal təhsilini artırır və bununla kütləvi demokratiyalarda əlavə bərabərsizliyə səbəb olur.

Dəyişikliyə daha bir yanaşma ətraf mühitin təzyiqi altında müəyyən institutların inkişaf etdirilməsidir. Veber qeyd edir ki, müasir dövlət bürokratiyasının inkişafı ona görə baş verdi ki, bürokratik meyl güc siyasəti ilə müəyyənləşən sabit ordunun yaranmasına olan ehtiyacdan və ictimai maliyyənin uyğun inkişafından stimullaşdı.

Veberin dəyişikliyə dair təklif etdiyi ən maraqlı ideya üç hökmranlıq tipidir. Bu ideyadan hökmranlığın digər formalarının mövcudluğunu tədqiq etmək və eləcə də bir formadan digərinə keçidi təmin edən vəziyyəti müəyyənləşdirmək üçün istifadə oluna bilər. Nüfuzun patrimonial, yəni inzibatçılardan ibarət personalı əhatə edən ənənəvi forması tez-tez liderin devrilməsinə və nəticə etibarilə hökmranlıq tipinin özündə dəyişikliyə gətirib çıxarır.

Dəyişikliyin təhlili üçün hökmranlıq anlayışı fundamental bir nəzəriyyə kimi çıxış edə bilər. Bu nəzəriyyə ona iddia edə bilər ki, hökmranlıq başa çatdıqda və liderlikdə boşluq yarandıqda bu boşluğu xarizmatik hökmranlıq doldu-

ra bilər. Lakin özünün qeyri-sabit xarakterinə uyğun olaraq xarizmatik idarə üsulu tezliklə rasional-leqal və ya ənənəvi hökmranlıqla əvəzlənir və bu dövr öz-özünü təkrarlayır. Bu halda diqqət həmçinin liderin malik olduğu maddi üstünlük və ya rəmzi imtiyazlarla inzibati heyətin və tabeçilikdə olanların liderlik etmək hüququnu birincilərə həvalə etməsi arasındakı qarşılıqlı təsirdə cəmlənməlidir. Aydındır ki, lider öz ardıcıllarının ehtiyaclarını ödəmək üçün kifayət qədər üstünlük qazanana qədər liderlik edə bilmir. Riçard Niksonun prezidentliyinin sonu belə bir hala təsadüf etmişdi: lider öz administrasiyasının nüfuzunu saxlaya bilməmiş, onun Amerika xalqı və konqresi tərəfindən bağışlanması imkanını sadəcə itirmiş və nəticə etibarilə istefa verməyə məcbur edilmişdi. Ardıcılları liderlik hüququnu liderə vermək istəmədikləri halda, əgər o, hərbiçilər və dövlətin mülki qüvvələri üzərində mütləq nəzarətə malikdirsə, onda onlar seçim hüququna malik olmadıqlarından əmrə tabe ola bilərlər.

### Marks və Veber: ümumi mövqe

Marks və Veber onlar arasındakı əhəmiyyətli fərqlərə baxmayaraq, bir sıra məsələlərdə ümumi mövqe nümayiş etdirirlər (bax: cədvəl 3-ə). Ümumiyyətlə, onların mövqelərindəki yaxınlıq fərqlərdən daha çoxdur.

Geniş mənada götürdükdə, Marks və Veber, birincisi, sosial və siyasi qaydanın bir-birini tamamlaması fikri ilə razılaşırlar: birində baş verən hadisə və fenomen digərindəki hadisə və fenomenə təsir göstərir. Bu fikir siyasi sosiologiyanın ən əhəmiyyətli şərtlərindən biridir.

Lakin əgər Marks sosial qaydaya daha çox önəm verirsə, Veber əsas diqqəti institusional sferalarda cəmləşdirir



və siyasi institutlarda baş verənləri sosial institutlarda baş verənlərə radikal təsir göstərən hal kimi göstərir. Marks və Veber həmçinin razılaşırlar ki, siyasi arenanın nəticələrinə təsir edə bilən sosial qaydanın əsas elementi stratifikasiya sistemidir.

### Marks və Veberin müqayisəsi

Cədvəl 3.

| Ölçmə | Marks | Veber |
|---|---|---|
| Startifikasiyanın əsas prinsipləri | Sosial sinif istehsal vasitələri üzərində mülkiyyətə əsaslanır | Sosial ehtiram və maddi mükafatlandırmanın fərqli səviyyələrinə əsaslanan sosial status |
| Sosial təşkilin əsas prinsipləri | Sosial siniflər | Bürokratiya |
| Sosial sistem konsepsiyası | İstehsal vasitələri və maddi mükafatlar üzərində nəzarəti ələ keçirmək üçün sosial siniflərin rəqabəti. | Maddi və rəmzi fayda uğrunda status qrupları ilə bürokratiya arasında rəqabət. |
| Siyasi sistemin əsas prinsipləri | İdarə edənlər və dövlət maşını idarə edən sinfin – burjuaziyanın maraqlarını təmsil etmək üçün fəaliyyət göstərirlər | Status qrupları dövlət maşınında nəzarət uğrunda rəqabət aparsalar da, heç bir qrup üstünlüyə malik deyildir; dövlət bürokratiyası sosial bərabərsizliyin və sosial qrupların yaranmasını həyata keçirir və bütün gücünü döv- |

| | | |
|---|---|---|
| Itaətkarlıq konsepsiyası | Burjuaziya proletariat üzərində istehsal və kommunikasiya vasitələri üzərində nəzarəti sayəsində hökmranlıq edir | lətin inkişafına yönəldir; idarə edənlərlə dövlət bürokratiyası arasında dövlətin daxilində gedən mübarizə mühüm əhəmiyyətə malikdir İdarə edənlər vətəndaşlar üzərində inzibati və müharibə vasitələri üzərində, öz işçi heyəti isə maddi və rəmzi mükafatlar üzərində nəzarət sayəsində hökmranlıq edirlər |
| Dəyişiklik konsepsiyası | Siyasi, sonra da sosial inqilabın keyfiyyət, gözlənilməyən və təxmini formaları | Keyfiyyətli, tədrici və hakimiyyətin eroziyası formasını alır |
| Məntiqi prinsiplər | Dialektik dəyişiklik | Dövri dəyişiklik |
| Keçmiş | İqtisadi: Kapitalın təmərküzləşməsi. Proletarlaşma Sosial: Əhalinin şəhərlərdə cəmləşməsi Kommunikasiya Siyasiləşmə Sinfi şüur | Bu barədə xüsusi bir fikir mövcud deyil |



Əgər Marks üçün stratifikasiya sistemi sosial sinif formasında yeganə elementdirsə, Veber üçün bu, status qrupları formasında ikisindən biridir (məsələn, iqtisadiyyatda üstünlük təşkil edən təşkilatın bürokratik forması).

Üçüncüsü, istər Marks, istərsə Veber siyasi prosesi siyasi struktura zidd hesab edirlər. Qruplar – siniflər, status qrupları və ya bürokratiya bir-biri ilə daim münaqişədədir; bəzən bu gizli fortmada olsa da, həmişə mövcuddur. Hər bir qrup hökmranlıq etməyə qadirdir və hər biri inanır ki, bu cür hökmranlığa siyasi institutların nəzarəti nəticəsində zəmanət verilə bilər. Əgər Marksa görə, bu cür nəzarət idarə edən sinfin ideoloji hegemonluğunun bir hissəsini təşkil edirsə, Veberə görə, siyasi institutlara sahib olmaq hələ nəzarəti təmin etmir çünki dövlət institutunun özündə, məsələn, idarə edənlərlə onların administrasiyasının üzvləri arasında konfliktlər mövcuddur.

Marks siyasətlə maraqlanan bir çox sosioloqların intellektual istiqamətlənməsinə daha güclü təsir göstərmişdir. Veber də, ümumiyyətlə, sosial statusun təbiəti və mənşəyinə, müasir dünyada bürokratiyanın inkişafına göstərdiyi diqqətə görə sosioloqlara təsir göstərmişdir. Marks və Veber siyasi dünyanı öz sələflərinin edə bilmədiyi şəkildə işıqlandıra bilmişlər. Onlar özlərindən sonra gələn bir çox alimlərə və elmi məktəblərə indinin özündə də təsir göstərməkdə davam edirlər.

# FƏSİL 11. TALKOTT PARSONSUN SOSİAL-SİYASİ BAXIŞLARI

Müasir sosioloqlar arasında Talkott Parsons (1902-1979) qədər böyük təsirə malik olanlar çox azdır. 1930-cu illərin əvvəlində Harvard Universitetində yenicə yaradılmış sosiologiya kafedrasında işə başlayan T.Parsons sosiologiyaya və sosial elmlərə ümumən hərtərəfli və dərin təsir göstərmişdir. O, akademik aləmdə böyük şöhrət qazanmış və əhəmiyyətli nəticələr əldə etmiş Robert Merton, Kinqsli Devis, Vilbert Mur, Robert Bella, Klifford Girts və Neyl Smelzer kimi alimlərin hazırlanmasında mühüm rol oynamışdır. Bundan başqa, o, onlarla məqalə və çoxlu kitab yazaraq, digər alimlərdən fərqli olaraq əhəmiyyətli əsərlər müəllifi kimi çıxış etmişdir. Lakin nə onun tələbələrinin sayı və ya məşhurluğu, nə də ki, əsərlərinin çoxluğu onun alim kimi reputasiyasını və müasir alimlər arasında təsirini müəyyənləşdirmir. Öz sələfləri Marks və Veber kimi, Parsons da cəmiyyət haqqında böyük bir nəzəriyyə - sosial aləmin sirlərini tədqiq etməyə və başa düşməyə kömək edən geniş, dərin bir nəzəriyyə yarada bilmişdir.

Parsonsun nəzəri baxışlarını anlamaq üçün onun özü, intellektual məqsədləri, intellektual xələflərinə münasibəti və əldə etdiyi faktiki nəticələr haqqında məlumata malik olmaq lazımdır.

Gəlin onun intellektual məqsəd və ambisiyalarından başlayaq. O, adətən həmmüəlliflikIə çap etdirdiyi əsərlərində nəinki cəmiyyətləri və sosial qrupları tədqiq edir, həmçinin mədəniyyətlərin və şəxsiyyətlərin öyrənilməsində maraqlı ideyalar ortalığa qoyur. O, insan həyatının bir sıra



tərəflərinin müfəssəl sxemini yaratmağa nail olmuş və müxtəlif sferaların bir-birindən analitik cəhətdən necə fərqləndiyini və oxşarlığını göstərə bilmişdir. O, bu ideyaları ilk dəfə olaraq "Sosial hərəkətin strukturu" adlı birinci kitabında müəyyənləşdirir. Burada o, sübut etməyə çalışır ki, insan fəaliyyətinin sosial təbiəti bu fəaliyyətin subyektiv və volyuntarist şəkildə qurulmasını və beləliklə də, bir tədqiqat sahəsi olaraq, onun bioloji və ətraf mühit şərtlərindən azad olmasını tələb edir. Sonralar "Ümumi hərəkət nəzəriyyəsinə doğru" (1951) əsərində o və bir sıra tərəfdaşı bu fikir və sxemləri daha aydın şəkildə ifadə edərək cəmiyyətlərin, mədəniyyətlərin və şəxsiyyətlərin təbiətini tədqiq etmək üçün müfəssəl və təkmil bir metod təklif etdilər. Sonrakı əsərlərində o, insan fəaliyyəti haqqında elm yaratmaq səylərini davam etdirir. Diqqətini təkcə cəmiyyətlərin təbiətində və inkişafında deyil, həmçinin mədəniyyətlərdə, şəxsiyyətlərdə və hətta bioloji şəraitlərdə cəmləşdirərək Parsons bu amillərin sosial şəraiti necə stimullaşdırmasını və şərtləndirməsini göstərməyə çalışır.

İnsanın həyatı haqqında hərtərəfli təsəvvür yaratmağa çalışaraq Parsons bir sıra məqamlara aydınlıq gətirdi və orijinal suallar qoya bildi. Məsələn, sosioloji və psixoloji yanaşmalar arasındakı analitik fərqləri müşahidə edərək, Parsons onların bir-biri ilə sıx əlaqədə olmasını müəyyənləşdirdi. Bir sıra işlərində o, işarə edirdi ki, sosioloq Emil Dürkheym və müasir psixoanalizin banisi Ziqmund Freyd ayrı-ayrılıqda haradasa eyni qavrama üçün müxtəlif adlar icad etmişlər.[1] Parsons xüsusən qeyd edirdi ki, məsələn,

[1] Bax: Parsons and Shils, *Toward a General Theory of Action*, p.22; and Parsons, *The Structure of Social Action*, I, xi.

cəmiyyətlərin insanların qeyri-sabit arzu və istəklərinin qarşısının alınmasına səy göstərmələri fikrini Dürkheym "sosial məcburetmə" və "kollektiv vicdan", Freyd isə "supereqo" terminləri ilə ifadə edirdilər. Belə paraleli aparmaq Parsonsa qaydaların xirici görünüşünü əsas tutan sosioloji yanaşma ilə bu qaydaların daxili tərəfini əsas tutan psixoloji yanaşma arasında dəqiq fərqləndirmə aparmaq imkanı verdi. Daha sonra bu ona sosiologiyanın və psixologiyanın tədqiqat predmetlərinin kəsişmə yollarından birini müəyyənləşdirməyə, öz sələflərindən xeyli qabağa getməyə imkan verdi. İnsan haqqında müfəssəl nəzəriyyə yaratmaqla Parsons özündən əvvəlki alimlərin əsərlərindəki bir sıra ideyalardan bəhrələnmişdir.

Onun əsərlərinin əksəriyyəti üçün səciyyəvi olan iki mövzu – rasionallaşma və sosial həyatın gözlənilmədən üzə çaxan təbiəti – müvafiq olaraq Veber və Dürkheymin əsərlərindən götürülmüşdür. Lakin Parsons onlara öz xüsusi izahını vermişdir. Beləliklə, keçmiş və müasir cəmiyyətlərin özləri arasındakı fərqləri izah etməyə çalışaraq, Parsons Veberin rasionallaşdırma nəzəriyyəsini daha da dəqiqləşdirir. O, həmçinin özünün cəmiyyətlərin təkamül yolu ilə inkişafı haqqında fikirlərində Veberin nəzəriyyəsindən bələdçi prinsip kimi istifadə etmiş, təkamül probleminə sosial həyatın tədrici və davamedici rasionallaşması kimi yanaşmışdır. Parsonsun bu ideyaya sıx bağlılığı aşağıdakı şəkildə ifadə olunur: "[sosial] hərəkətin istənilən konkret sistemində dəyişilməsi prosesi ... sistemdə aktorları bir-birinə bağlamaqla ... yalnız rasional normalar istiqamətində gedə bilər".[1]

[1] Parsons, The Structure of Social Action, II, 751.



İkinci mövzu - sosial həyatın təbiəti Parsonsun diqqətini elə birincisi qədər cəlb etmişdir. İnsan həyatının bir sıra müxtəlif qatları arasında əlaqələri tədqiq etmək bu mövzunun əsas qayesini təşkil edir. Onun sosial elmə çox mühüm töhfəsi sosial sistem haqqında xüsusi nəzəriyyəsidir. Klassik mexanika və eləcə də biologiyadakı sistem haqqındakı ideyalardan bəhrələnərək Parsons sosial reallığın ilk növbədə sistem kimi başa düşülməsinin vacibliyini göstərir. Bu konsepsiyada israrlı olması əgər bir tərəfdən sosial həyatın insani və şəxsi tərəflərini daha az vurğulamağa gətirib çıxarırsa (bunun üçün Parsons amansız tənqid atəşinə tutulmuşdur), digər tərəfdən bu, həyatın sirlərini anlamaq üçün geniş imkanlar yaradır. Parsonsun intellektual reputasiyası onun nəzəriyyəsinin nə dərəcədə tətbiq edilə bilməsi və gələcək nəsillərin buna dair mühakimələrindən birbaşa asılıdır.

Parsons həmçinin insanın təbiəti və onun cəmiyyətdə əlaqələri haqqında xüsusi fikir irəli sürür ki, bu da onun nəzəriyyəsi haqqında bizdə geniş təsəvvür yaradır. Parsons da Ziqmund Freyd kimi insanın təbiətinə dair çox tutqun baxışlara malik idi və insanların öz bəsit və təbii niyyətlərində sərbəst qalacaqları halda bir-birini məhv etmələrinə tam inanırdı. Parsons üçün insan J.J.Russonun nəcib qəddar insanı deyil, Tomas Hobbsun pis, rəzil və əsəbi heyvanıdır. Birgə yaşamaq üçün insanlar xarici təsirə məruz qalmalıdırlar. Parsons üçün mənəvi əhəmiyyət kəsb edən bu məcburiyyət birmənalı şəkildə sosial xarakterə malikdir. Bura yaxşılıq, ədalət və gözəllik kimi anlayışlar daxildir ki, bunlara da insan qarşılıqlı razılıq və müxtəlif sanksiyaların hesabına gəlib çıxır. Parsons Hobbsun hamının hamıya qarşı

potensial müharibə vəziyyətində olması problemini mənəvi məcburiyyəti güclə əvəz etməsi ilə həll edir. İnsana bu cür baxış nümayiş etdirərək problemi həll etməsi onun insanların azğın təbiətə malik olması və buna görə onlar üzərində nəzarətin lazım olması fikrindən xeyli az maraq doğurur. İnsanın təbiəti haqqında bu xüsusi fəlsəfi ilkin şərait insan fəaliyyətini tədqiq edənlər üçün açıq qalan yeganə alternativdir. Bəziləri, məsələn, Abraham Maslou və Jan Pejo heç də təkid etmirdilər ki, insanlar irsən rəzil və bəsit varlıqlardır, əksinə, onlar göstərirdilər ki, insanlar geniş inkişaf potensialına malikdir. Hətta sosial fəaliyyətin Karl Marks kimi tədqiqatçıları belə insan haqqında bu cür cansıxıcı perspektivi qəbul etmirdilər. Marks qeyd edirdi ki, sosial institutlar, xüsusən də kapitalist cəmiyyətinin sosial institutları insanın alicənab və mehriban təbiətini zəhərləmiş və onu özgələşdirmişlər. Parsons və Veberin müasir cəmiyyətin əsas rasionallaşma meyllərinə dair eyni mövqedən çıxış etmələrinə baxmayaraq, Veber daim bu prosesin şəxsi dəyərlər tərəfini, Parsons isə insanın azadlığının artmasını xüsusi qeyd edirdilər. Qısaca desək, Parsons ilk növbədə inanırdı ki, istənilən sosial qayda insanın dəyərini azaltmağa, məhdudlaşdırmağa deyil, onu mədəniləşdirməyə, azad etməyə xidmət edir. Məsələn, K.Rayt Millsin Amerika cəmiyyətinin siyasi təhlilinə dair yazdığı essesində Parsons "pozitiv sosial təşkilin" əhəmiyyətini qeyd edərək belə bir fikri müdafiə edirdi: "hakimiyyət sui istifadəyə və çoxlu miqdarda nəzarətə məruz qalsa da, yüksək dərəcədə təşkil olunmuş cəmiyyətin əhəmiyyətli və arzu olunan tərkib hissəsidir".[1]

[1] Talcott Parsons. Politics and Social Structure (New York: The Free Press, 1969), p.202.



**Parsons sosial qayda haqqında**

**Sosial sistem**

Parsonsun nəzəri analizinin əsas mövzusunu təşkil edən sosial sistem anlayışı o qədər genişdir ki, o, faktiki olaraq dostlardan ibarət kiçik bir qrupdan tutmuş bütöv bir cəmiyyətə kimi istənilən sosial fəaliyyət çərçivəsinə aid edilə bilər. Ona dəqiqlik gətirən bir sıra meyarlar vardır. Sadə və daha əsaslı şəkildə Parsons sosial sistemi sosial rolların mövcud olduğu və bu rolları ifa edənlər arasında qarşılıqlı hərəkətin baş verdiyi çərçivə kimi müəyyənləşdirir. Normativ davranış qaydaları qarşılıqlı əlaqəni, xüsusən hər bir rolla assosiasiya olunan sosial cəhətdən tanınmış və bölüşdürülən hüquq və öhdəlikləri istiqamətləndirir. Öz növbəsində, sosial sistemin daha geniş çərçivəsi hüquq və öhdəlikləri, icazə verilmiş və icazə verilməmiş fəaliyyət formalarını müəyyənləşdirir. Məsələn, Parsonsa görə, Amerika cəmiyyətini sosial sistem kimi xarakterizə etmək ona görə mümkündür ki, burada sosial rollar, məsələn, vətəndaş, həyat yoldaşı, fəhlə və s. mövcuddur və qarşılıqlı əlaqə müvafiq rolların ifaçıları – vətəndaş və məmurlar, ər və arvad, fəhlə və işlə təmin edən arasında baş verir. Həmçinin vətəndaşların hüquq və rol öhdəliklərini müəyyənləşdirən normativ qaydalar mövcuddur (məsələn, onların dövlət qarşısında hüquq və öhdəlikləri kimi). Bundan başqa, normativ qaydalar öz tərif və etibarlılığını geniş mədəni ənənələrdən – vətəndaşlığa dair İnsan hüquqları haqqında Bəyannamədə və Konstitusiyada ifadə olunmuş ənənələrdən almışlar.

Daha sonra, Parsons təkid edirdi ki, sosial sistemin də istənilən mexaniki, yaxud bioloji sistem kimi sərhədləri və

bu sərhədlərdən kənarda mühiti vardır. Sosial sistemin sərhədləri onunla digər sosial sistemlər arasındakı və eləcə də onun və insan fəaliyyəti sistemindəki digər sferalar arasında sərhəd kimi qəbul oluna bilər. Parsons və onun tərəfdaşlarının geniş izlədiyi oxşar daha üç sistem də vardır: rəmzlər və ideyalardan ibarət mədəni sistem; fərdi "ehtiyac" və səbəbi əhatə edən şəxsiyyət sistemi və, nəhayət, bioloji sistemlərdən ibarət davranış orqanizmi. Sosial sistem Parsonsun insan fəaliyyəti haqqında bütöv bir sxemində dörd sistemdən birini təmsil edir. Onun ətraf mühiti üç digər sistemdən – mədəni, şəxsiyyət və davranış orqanizmindən ibarətdir.

Sosial sistemin sərhədləri nüfuz edilə biləndir. Sosial sistem yaşaması üçün, ətraf mühitlə resursların və məhsulların mübadiləsi üçün "açıq" və eyni zamanda onlardan asılı olan bir sistemdir. Sosial sistem, məsələn, mədəni sistemdən dini dəyərləri mənimsəyir ki, bu da rolları ifa edən insanlar arasında qarşılıqlı əlaqələri legitimləşdirməyə xidmət edir. Sosial sistem onun qarşılıqlı sosial əlaqə çərçivəsini təşkil edən şəxsiyyət sistemindən rolları ifa edəcək və təşkilatlarda çalışacaq sonsuz sayda və müxtəliflikdə şəxslər alır.

Eyni zamanda bu mübadilədə sosial sistem dəyişdirilir və şəxsiyyət sistemini onu qurmaq üçün bir sıra müxtəlif rollar və qarşılıqlı əlaqə şəbəkələri ilə təchiz edir; körpə, uşaq, tələbə və digər rollar isə yetkin şəxsin formalaşması üçün əsas yaratmağa köməklik edir. Oxşar mübadilə sosial sistem və davranış orqanizmi, eləcə də digər sistemlər arasında baş verir. Bütün sistemlərin biri-biri ilə əlaqəsi vardır və hamısı da ətraf mühitdən bu cür mübadilə üçün asılıdır.



Parsons sosial sistemin özünün daxili fəaliyyətinin təhlilinə diqqət yetitirir. Onun fikrincə, iki növ daxili hissə mövcuddur: insan bədəninin analoqu olan struktur və daxili yanacaq mühərrikində porşenin yanmasının analoqu olan insan bədəninin analoqu kimi yerləşmiş hissələr. Parsonsa görə, istənilən sosial sistem bir neçə müxtəlif elementlərdən ibarət sosial struktura malikdir. Bütünlükdə onların sayı dörddür. İyerarxik yerləşdirmə bütün bu elementləri bir-biri ilə sərbəst şəkildə birləşdirir; birinin məzmunu digərininkinə uyğun gəlir, birində baş verən dəyişiklik digərlərində dəyişiklik yaratmaq meyli doöurur.

Dörd element üçün ən ümumi və mühüm olan dəyərlər istənilən cəmiyyətdə düzgün və qeyri-düzgün olan normativ gözləmələri müəyyənləşdirir. Onlar insanların can atdığı sosial fəaliyyətin arzu olunan keyfiyyətini təmsil edirlər və nəticə etibarilə onların məzmunu mədəni sistemin dini ehkamları ilə bağlanıla bilər.

Sosial strukturun elementlərinin iyerarxiyasında sonrakı yeri tutan normalar sosial hərəkət üçün daha səciyyəvi əsas fikirləri irəli sürür; onlar dəyərləri hərəkətə çevirən spesifik qaydalardır.

Sosial strukturun üçüncü elementi kollektivlərlə təmsil olunub, daxilində sosial sistemin dəyər və normaları dəqiq müəyyən olunmuş təşkilati çərçivəni ifadə edir.

Nəhayət, istənilən strukturun ən konkret və fundamental elementləri olan rollar mövcuddur; rollar kollektivlərin daxilində özünə yer alır və onların ifaçılarının fəaliyyəti sosial sistemin normativ gözləmələri ilə – dəyər və normalarla idarə olunur.

İstənilən sosial sistemin struktur elementlərindən

başqa müəyyən proseslər də mövcuddur ki, bunlar sistemə xidmət edir və bəzən onu dəyişir. Parsons bir sıra mühüm prosesləri müəyyənləşdirsə də, bizi onlardan yalnız ən mühümləri maraqlandıracaqdır. İstənilən sosial sistemdə dörd əsas proses yer alır ki, onlar da sistemin yaşaması üçün həlledici funksiyalar hesab oluna bilər. Onlar həmçinin nəfəs və ya həzm kimi funksiyaların azad analoqu kimi nəzərdə tutula bilər ki, onlarsız insanları bioloji növ kimi xarakterizə edən sistem mövcud ola bilməz. Onların dördü də sonradan Parsons tərəfindən sosial sistemin subsistemi kimi izah olunur. Bu proseslərdən birincisini gizli nümunə yaradılması təşkil edir. O, elə bir funksiyaya aiddir ki, onun vasitəsilə sosial təşkilin nümunələri və sosial sistem üçün səciyyəvi olan qarşılıqlı əlaqə vaxtından artıq mövcud olur. İnteqrasiya istənilən sosial sistemin ikinci əsas elementidir və onun vasitəsilə sistemdəki müxtəlif istiqamətli strukturlar o şəkildə nizamlanır və əlaqələndirilir ki, bu sistemi dağıtmağa yönəlmiş istənilən ciddi gərginliyin və ya uyğunsuzluğun qarşısı alınmış olur. Məqsədə çatmaq prosesi, yəni sistemin məqsədləri arasında prioiritetlərin formulə olunması və müəyyənləşdirilməsi istənilən sosial sistemin yaşaması üçün eyni dərəcədə vacibdir və üçüncü əsas prosesi təşkil edir. Nəhayət, sonuncu, adaptasiya prosesi sosial sistemi təşkil edən texniki resurslar və rol imkanlarının fərdlər və qruplar arasında bölüşdürülməsini müəyyənləşdirir.

### Sosial stratifikasiya

Sosial stratifikasiya Parsonsun sosial dünya haqqındakı sxemində, demək olar ki, periferik elementi təşkil edir. Parsonsa görə, ABŞ kimi yüksək dərəcədə inkişaf etmiş cəmiyyətlərdə stratifikasiya xeyli mürəkkəbləşdiyindən sabitliyin və ya dəyişikliyin əsas instrumenti kimi öz əhəmiyyətini itirir. Bu nöqteyi-nəzərdən Parsonsun baxışları Marks və ya Veberinkindən əsaslı dərəcədə fərqlənir. Yüksək dərəcədə inkişaf etmiş cəmiyyətdə stratifikasiya simvolik vasitəçi, prestij, təsir və inteqrasiya mənalarında qəbul edilir. O, fərdlər və ailələrin prestij şkalasında dərəcələrə görə bölünməsini ifadə edir: daha yüksək əhəmiyyətli rolları ifa edənlər daha yüksək dərəcəyə malik olurlar. Sosial mühümlülük iki əhəmiyyət daşıyır: 1) bəzi fərd və ya qruplar cəmiyyətin yaşaması üçün daha əhəmiyyətli rol oynayırlar və 2) buradan da bəzi fərdlər və qruplar ümumi cəmiyyət dəyərləri ilə buraya aid edilə bilən rollara malikdirlər.

Təbii olaraq bu iki mühüm forma üst-üstə düşə bilər, lakin bu,o qədər də vacib deyildir.

Stratifikasiya inteqrasiya funksiyasını iki əsas istiqamətdə yerinə yetirir. Prestij və təsirin differensial paylanması çox mühüm sosial əhəmiyyətli mövqeləri onların fəaliyyəti üçün mühüm olan resursları səfərbər etməyə imkan yaradır. İnkişaf etmiş cəmiyyətlərdə liderlik və ən çox nüfuza malik olanlar əllərinə daha çox hakimiyyət və pul toplayır və bununla da məqsədlərinə çatırlar. Parsonsa görə, bu, stratifikasıyanın əlamətidir. Bu baxımdan stratifikasiya inteqrativdir, çünki o, sosial əhəmiyyət kəsb edən nümunəni qoruyub saxlamaq subsistemi ilə məqsəd və resursların yerləşdiyi dövlət və iqtisadiyyatı birləşdirməyə çalışır.

Stratifikasiya inteqrativ olduğunu başqa cür də sübuta yetirir. O, bəzi mövqelərdə digərlərinə nisbətən qeyri-adi dərəcədə prestijin toplanılmasını təmin etsə də, bu bərabərsizliyin qanuniliyinin izahı üçün də şərait yaradır. Elə rollar var-

dır ki, onlar digərlərindən daha prestijli, nüfuzludur; buradan da hər hansı bir şəxsin kiçik və ya böyük mükafatı cəmiyyətdəki rolunun böyük və ya kiçik əhəmiyyəti ilə təsdiqlənə bilər. Bu yolla sosial stratifikasiya qaçılmaz narazılığı ifadə edərək cəmiyyəti birləşdirməyə cəhd göstərir.

## Sosial təşkil

Sosial təşkil problemi sosial stratifikasiyadan fərqli olaraq Parsons yaradıcılığında əsas yer tutur. Geniş mənada sosial rollar və kollektivlər sosial strukturun iki əsas komponentlərindəndirlər. Sosial rollar sosial təşkilin elementar hissəsini təşkil edir. Rollar sosial interaksiyanın istənilən şləbəkəsində mövcuddur. Kollektivlər digər tərəfdən sosial təşkilin yüksək qaydasını təmsil edir. Onlar spesifik sosial funksiyakar üçün sistematik təşkil olunmuş rollar qrupudurlar. Primitiv cəmiyyətlərdəki qohumluq vahidləri kollektiv tipinin xüsusi forması kimi təmsil etdiyi halda, kollektivlər öz böyük ictimai əhəmiyyyətini təkamülün sonrakı mərhələlərində kəsb etməyə başlayırlar. Bunlardan daha çox bürokratiya əhəmiyyət kəsb etməyə başlayır. Veberin fundamental yanaşmasını qəbul edərək, Parsons göstərir ki, bürokratiya cəmiyyətin inkişafının müəyyən mərhələsində təkamül üçün həyati əhəmiyyət kəsb etməyə başlayır və hakimiyyətin cəmləşdiyi, məqsədə çatma funksiyasının toplandığı sosial təşkil formasını yaradır.

Sosial təkamülün son mərhələləri üçün səciyyəvi olan iki əlavə forma – demokratik assosiasiyalar və professional təşkilatlardır. XVIII – XIX əsrlərdə Qərbi Avropa və ABŞ-da yaranmaqda olan müasir bürokratiyalara qədər demokratik assosiasiyalar ardıcıl təkamül inkişafı üçün eyni



dərəcədə həyati idi. Peşəkar assosiayalar xüsusən hüquq, tibb və akademik peşə sahələrində ixtisaslaşmış və diversifikasiya olunmuş rolların meydana gəlməsi ilə məhşurlaşdılar. Onlar da həmçinin inkişaf etmiş cəmiyyətlər üçün tipik rolların stabil və nizami qaydada təşkil oluna biləcəyi, struktur və sistemli təkamülün geniş normativ nümunələrinin qorunub saxlanıla biləcəyi sosial təşkil formasını təmsil edirlər.

## Parsons siyasi qayda haqqında

### Siyasi sistem

Siyasi sistem sosial sistemin xüsusilə məqsədə çatmaq funksiyası ilə əlaqəli olan bir hissəsidir. İstənilən bu cür sistem kimi o da, strukturun elementlərinə - dəyərlərə, normalara, kollektivlərə və rollara, eləcə də onun davamlı şəkildə müəyyənləşdirməyə və qoruyub saxlamağa çalışdığı sərhədlərə malikdir. Onun ən əsas tərkib hissələri cəmiyyətin digər subsistemləridir - mövcud nümunənin qorunub saxlanılması, icma və iqtisadiyyatdır. Özünün yaşaması üçün o, digər subsistemlərlə resursların mübadiləsindən asılıdır.

Parsons inanır ki, yüksək dərəcədə inkişaf etmiş cəmiyyətdə siyasi sistemdəki proseslər mühüm əhəmiyyət kəsb edir. Hakimiyyət bu proseslərdən ən mühümünü təmsil edir. Yeni bir ideya irəli sürərək Parsons göstərir ki, hakimiyyət də pul kimi ümumiləşdirilmiş və dövriyyə edən rəmzi vasitəçidir və o, inkişaf etmiş cəmiyyətlərə əsas funksiyalarını bəsit cəmiyyətlərə nisbətən daha effektiv həyata keçirməyə imkan yardaır. Başqa sözlə, hakimiyyət – cəmiyyətin bütün üzvləri adından hərəkət edən vasitəçidir və ona tabe olanların hərəkət etməyi öhdəliyini ehtiva edir. Nəticədə hakimiyyəti həyata keçirmək üçün cəmiyyətin

məqsədləri adından hərəkət etmək öhdəliyi cəmiyyətin ali dəyərləri tərəfindən dəstəklənir. İnkişaf etmiş cəmiyyətdə, demək olar ki, hər bir yaşlı adam hakimiyyətə malikdir. Beləliklə, prezident kimi seçici də hakimiyyətə malik olur; seçkilərdə sonuncu özünün hakimiyyətindən istifadə edərək onu prezidentlə mübadilə edir. Prezident isə öz növbəsində siyasətinin formalaşdırılmasında seçici adından çıxış edir.

Siaysi sistemin və cəmiyyətin bütövlikdə müvəffəqiyyətli və davamlı fəaliyyəti yüksək inkişaf etmiş cəmiyyətlərdə onlar arasındakı mübadilə proseslərindən asılıdır. Bunlar cəmiyyətdəki hakimiyyətin səviyyəsini müəyyənləşdirməyə kömək edir. Xüsusən hakimiyyətdən istifadə maddi ehtiyatların miqdarından, vətəndaşların gücündən və fərdlərin cəmiyyətin yüksək dəyərlərinə əməl etməsindən asılıdır. Yaxud dövlətin (hakimiyyətin) simvolik vasitəçiliyi eyni vasitəçiliyin miqdarının digər sferalarda – iqtisadiyyatda, nümunənin qorunub saxlanılması subsistemində (dəyərlərin ötürülməsi) toplanılmasından asılıdır.

Belə ki, cəmiyyətlə dövlət arasındakı qarşılıqlı mübadilə prosesində fərdlər cəmiyyətdə rol ifaçısı qismində dövlətə münasibətdə iki prinsipal mövqedən çıxış edirlər. Seçici kimi onlar dövlətə və onun əsas qulluqçularına dəstək verirlər; maraq qruplarının üzvü kimi isə onlar xüsusi qayğı üçün tələbatlar yaradırlar. Bu prosesə digər tərəfdən baxdıqda isə məmurların qarşılıqlı hərəkət etdikləri görünür. Vətəndaşların tələbatları ifadə etmələrinin əvəzi olaraq məmuralar əlaqələndirici siyasi qərarlar təqdim edirlər; buna əlavə olaraq siyasi dəstəyin əvəzində onlar cəmiyyətdə liderlik üçün məsuliyyət daşıyırlar.

Dövlət-cəmiyyət qarşılıqlı mübadilə prosesləri



istənilən yüksək dərəcədə inkişaf etmiş cəmiyyətin siyasi sistemində, xüsusən də demokratik cəmiyyətlərdə dəqiq şəkildə özünü büruzə verir. Eyni proses iqtisadiyyat, dövlət və nümunənin qorunub saxlanılması subsistemi ilə dövlət arasındakı qarşılıqlı mübadilədən aydın görünür. Sonuncu halda nümunənin qorunub saxlanılması subsistemi siyasi prosesi əsas legitimliyi qorumaqla dəstəkləyir; eyni vaxtda bütün cəmiyyət adından baş verən hadisələr barəsində dövlət öz məsuliyyətini artırır.

Parsonsun siyasi sistem haqqında konseptləri siyasi təhlil üçün son dərəcə orijinal və güclü vasitələrdir. O, Marks, Veber və bir çox digər analitiklərdən fərqli tam yeni ideyalar təqdim edir. Bu fərqlərdən yalnız bəziləri aşağıda aydınlaşdırılacaqdır. Analitiklərin əksəriyyəti hakimiyyətə məhdud istehlak əmtəəsi kimi baxmışlar. Cəmiyyətdə bir qrupun əlində olduğundan, hakimiyyət digər qrup üçün əlçatmazdır; bu, Marksın, eləcə də bir çox başqalarının gəldiyi qənaətdir. Parsons göstərir ki, hakimiyyət cəmiyyətdə positiv əmtəədir; o, cəmiyyət adından ictimai məqsədləri həyata keçirmək üçün istifadə olunur. Beləliklə, hakimiyyətdən istifadədən hər bir kəs (təkcə xüsusi qruplar yox) qazanır. Eyni zamanda pul kimi hakimiyyət də cəmiyyətdə müəyyən ədalətsizlik yarada bilər. Hakimiyət siyasi vəzifə tutan şəxslərin əlindədir. Lakin bəzi fərdlər öz mövqelərindən istifadə edə və hakimiyyətlərini saqxlamağa və genişləndirməyə cəhd göstərə bilərlər. Bu aksiya yəqin ki, uzun müddət davam edə və ictimai dəstəyin təmin olunduğu, yəni seçkilərin təmin olunduğu mexenizmlərin dayandırılmasını əhatə edə bilər. Parsonsa görə, cəmiyyətin gücsüzlüyünü göstərmədən bu davam edə bilməz. Hakimiyyət son halda

vətəndaşların loyallığından asılıdır.

Parsonsa görə, sosial sistemdə elə bir nəzarət qaydası mövcuddur ki, burada nümunənin qorunub saxlanılmasından başlayaraq hər bir subsistem özündən aşağıdakında dinamikanın fəaliyyətinə nəzarət edir. Siyasi sistemə gəldikdə isə o, icmanın özünün bir çox hissələrində siyasi sistemin fəaliyyətinə nəzarət edir. Beləliklə, belə bir nəticəyə gələ bilərik ki, Parsonsa görə, ictimai hakimiyyyət və onu həyata keçirənlər sonda vətəndaşlar qarşısında məsuliyyət daşıyırlar. Daha sonra, eyni prinsipə görə, hakimiyyət ümumən və hökümət xüsusən qanunun nəzarəti altındadırlar və bu nöqteyi-nəzərdən qanun əsas inteqrativ mexanizm kimi çıxış edir. Bu, eləcə də digər oxşar nəticələr, məsələn, ABŞ kimi cəmiyyətlərdə hakimiyyəti ələ keçirməyə cəhd göstərən prezidentin qanunu pozduğu və ictimai dəstəyi itirdiyi vaxt nə üçün öz vəzifəsini təhvil verməli olduğunu aydın şəkildə göstərir.

## Siyasi idarəçilər

Siyasi idarəçilər, Parsonsa görə, sosial sistemdə liderliyin həyata keçirildiyi rolları təmsil edirlər. İnkişaf etmiş cəmiyyətlərdə siyasətin funksional cəhətlərinin tədqiqi idarəçilərin, liderlərin xüsusi keyfiyyətlərini nəzərə çarpdırır. Liderlik dövlətdə məqsədə çatmaq funksiyasını daşıyır; subsistem olaraq, liderlik inkişaf etmiş cəmiyyətdə daha da bölünərək, hökumətin icraedici qanadı ilə ilk növbədə cəmiyyətin ümumi məqsədlərinə çatmaq üzərində cəmləşir.

## Dövlət maşını və köməkçi təşkilatlar

Siyasi qaydanın detallarının əksəriyyəti (partiyalar kimi dövlət maşını və təşkilatların təbiəti də daxil olmaqla)



Parsonsun diqqətini cəlb etmir. Onun ən mühüm müşahidəsi ondan ibarətdir ki, bu institutlar inkişaf etmiş cəmiyyətdə və ya dövlətdə özünəməxsus və vacib funksiya daşıyırlar. Burada dövlət maşını və bürokratiya adaptasiya funksiyasını yerinə yetirirlər. Parsonsun bu proseslərin və təşkilatların detalları ilə maraqlanmaması onun cəmiyyətə və siyasətə geniş marağından irəli gəlir.

## Parsons: insan nə üçün tabe olur?

Parsonsun bu suala cavabı onun hakimiyyət və nüfuz haqqında fikirlərini daha yaxşı başa düşməyə kömək edir. Nə üçün bəzi adamlar digər adamların hərəkətlərini əlaqələndirən qərarlar qəbul edirlər? Qərarlar nə dərcədə bütün cəmiyyətin adından qəbul edilir? Bu suallara cavablar tabe olmanın əsas təbiətinə Parsonsun baxışını əks etdirir.

Parsonsun tabe olmanın təbiəti haqqında fikirlərini başa düşmək üçün istənilən kollektivdə hakimiyyətə malik olan və olmayan şəxs rollarının olması faktını qəbul edək. Bu cür misal ümumən Parsonsun baxışı ilə bir araya gələ bilir, çünki o, belə hesab edir ki, hakimiyyət elə bölünməlidir ki, kolektivdə bəzi rollar tərəfindən qəbul olunan qərarlar digər mövqelər tərəfindən qəbul edilən qərarlara nisbətdə üstün olsun və ya bəzi mövqelər digərlərinə nisbətdə daha çox üstünlüyə malik olsunlar. Göründüyü kimi, bu şərh işləri xeyli sadələşdirir; Parsonsun sosial dünyaya baxışında mövqelərin və ya fərdlərin hakimiyyətdə olan və ya olmayanlara bölünməsi düzgün olmazdı. Parsons hesab edir ki, hakimiyyət inkişaf etmiş cəmiyyətlərdə bütün fərdlər arasında geniş bölünməlidir. Digər tərəfdən o, iki növ rolun (hakim və qeyri-hakim) olmasına etiraz etmir; ən yaxşı halda

hakimiyyətə malik olanlarla olmayanları yaxınlaşdıran rollar – seçilmiş məmurlar və seçilməmişlər, məs., seçicilər ola bilər.

Hakimiyyətsiz rolları tutan fərdlər hakim rollara malik olanların əmrinə bir neçə səbəbdən tabe olurlar. İlk əvvəl, onlar hakim rolları tutanların fərd kimi keyfiyyətlərinə deyil, onların ifa etdikləri rolun gücünə tabe olurlar. Müəyyən rollar sadəcə onları tutanların digər rol ifaçılarına tabe olmasını tələb edir. Məsələn, cəmiyyətdə vətəndaş rolu şəxsin məmurların tələbinə uyğun hərəkət etməsini nəzərdə tutur. Bu tələblər baxımından bəs nə üçün fərd bu rolları ifa etməyə qərar verir? Parsonsa görə, bütün bu rollar inkişaf etmiş ölkələrdə əhəmiyyətli imtiyazlara və hüquqlara malikdirlər. Məsələn, vətəndaş rolu fərdi vəzifəsinə seçilmiş məmurdan bir çox digər mənfəətlərin əvəzində mühafizə gözləməyə haqq qazandarır. Beləliklə, tabeçiliyin ilkin üstünlüyü ondadır ki, başqa fərdlərin əmrlərinə tabe olanlar bu rolları ifa etmək üçün azad seçiliblər və bu rolların onlara verdikləri imtiyazlardan özləri istifadə edirlər.

Bəzi fərdlərin digərlərinə rollarına görə tabe olması onları uzun müddət motivləşdirmək üçün əhəmiyyətli ola bilməz. Rollar həmçinin onlara malik olanların tabeliyini təmin etmək üçün müəyyən spesifik müxanizmləri hərəkətə gətirməlidirlər. Bu cür bir-birinin güzgülü əksi olan iki mexanizm mövcuddur: 1) hakimiyyəti olmayanların ona malik olanların əmrlərinə tabe olmasının vacibliyi və 2) hakimiyyətdə olanların hakimiyyəti olmayanlardan tabe olmalarını gözləmələri. Məs., vətəndaşın məmurun əmrinə tabe olmaq borcudur və məmurun da vətəndaşdan tabe olmasını gözləməsi onun hüququdur. Beləliklə, tabeçiliyin



mənbəyi ondadır ki, digərlərinin əmrinə tabe olan fərdlər bunu öz ifa etdikləri rollarına görə edirlər.

Hətta rolun tələbi belə əmrə avtomatik və qeyri-müəyyən tabeçilik tələb etmək üçün kifayət deyil. Fərdlər tutduqları rolların onları həmişə təmin etdiyini göstərə bilməsələr də, bəzən bu rolları xeyli dərəcədə məhdudlaşdırıcı görürlər. Fərdlər rollarından irəli gələn vəzifələrin ağır olduğunu gördükdə və onlar rol və vəzifələrindən uzaqlaşmalı olduqda digər mexanizmlər işə düşməli olur. Bunlar (gücün tətbiqi və ya təhlükəli tətbiqi) xüsusilə neqativ sanksiyalardır ki, hakim rolları tutanlar hakmiyyətdən məhrum rolları tutanların tabeçiliyindən istifadə edə bilirlər. Bunlar hakmiyyətdə olanların fəaliyyətini ondan məhrum olanlar üzərində həqiqətən möhkəmləndirən vasitələrdir. Məs., hökumət vətəndaş onun əmrinə tabe olmadığı halda təzyiq göstərmək üçün qorxuducu addımar ata bilər. Buradan da belə qərara gəlmək olar ki, digərlərinin əmrinə tabe olan fərdlər bunu ona görə edirlər ki, başqa cür hərəkət etmək güc tətbiqinə gətirib çıxara bilər. Belə bir fikirlə razılaşmamaq olmur ki, güc hakimiyyətsizlərin hakimiyyətə malik olanlara, vətəndaşların hökumətə tabeçiliyini qorumaq üçün vacib vasitədir. Gücün cəmiyyətdə rolunu başa düşmək üçün Parsons belə bir sual qoyur: spesifik rollara malik şəxslərə güc vasitələrindən istifadə etməyə kim hüquq verir? Məsələn, hökumətə onun əmrinə tabe olmadıqda fiziki gücdən istifadə etməyə legitim inhisarı nə verir?

Parsonsa görə, normativ elementlər müxtəlif strurkturlar vasitəsilə cəmiyyətin hər tərəfinə yayılır. Beləliklə, məs., ABŞ Konstitusiyası prezidentə, eləcə də konqresə bütün xalqın adından qərar çıxarmağa imkian

yardır; eyni zamanda o, xüsusi və mühüm instansiyada bəzi rolları ifa edənlərin, vətəndaşların digər rolları ifa edənlərə - prezident və konqresə tabe olmasını təkid edənlər üçün normaları müəyyənləşdirir və dəyərləri ifadə edir. Beləliklə, tabeçiliyin son və ən əhəmiyyətli mənbəyi odur ki, başqalarının əmrinə tabe olanlar bunu ona görə edirlər ki, bu əmrlər cəmiyyətin ən yüksək dəyərləri vasitəsilə dəstəklənir.

**Parsons dəyişiklik haqqında**

Talkott Parsons bütün yaradıcılığı boyu tənqid hədəfinə çevrilmişdir: onu mükəmməl sosial dəyişiklik nəzəriyyəsi yarada bilməməkdə günühlandırmışlar. Bu nöqteyi-nəzərdən belə bir fikir yürüdülür ki, Parsons cəmiyyətin dinamik portretini yaratmaqdansa diqqəti daha çox onun statik modelinə yönəltmişdir. Qeyd edək ki, 1960-cı illərə qədər Parsons yalnız sosial dəyişiklik haqqında fikirlərini inkişaf etdirirdi. Lakin o, gözlənilmədən mövqeyini dəyişərək diqqəti daha çox sosial sistemlər üçün xarakterik olan proseslərə yönəltməyə başladı. Parsonsun dəyişiklik nəzəriyyəsində dövlət və onun strukturlarının təhlili özünü qabarıq şəkildə büruzə vermir.

**Dəyişiklik: eninə və dərininə**

Dəyişikliyi sosial sistemlər üçün xarakterik olan xüsusi tip proses kimi məüəyyənləşdirən Parsons, diqqətini onun 3 tipinə yönəldir. Birinci növ dəyişikliyi o, sirkulyar və ya dairəvi proses kimi göstərir; burada dövlət, məs., qeyri-müəyyən və məhdud resurslar vasitəsi ilə məqsədə çatmaq funksiyasını yerinə yetirməkdə davam edir. Beləliklə, dövlət cəmiyyətdən siyasi dəstək alaraq qismən özünün hakimiyyət



ehtiyatını qoruyub saxlayır və eyni zamanda bu dəstəyi siyasi qərarlar ehtiyatı ilə gücləndirir.

İkinci növ dəyişiklik artımdır ki, dövlətə münasibətdə o, hakimiyyətin artması və azalması yollarını müəyyənləşdirir. Məs., o, siyasi liderlərin cəmiyyətə yeni qrup vətəndaşları daxil etməsi kimi addımları əhatə edə bilər. İlkin olaraq liderlərə verilən siyasi dəstək bu tip hərəkətlərə çağırmasa da, bu hərəkət cəmiyyətin öz məqsədlərini həyata keçirmək imkanlarını gücləndirə və bununla da daha güclü hakimiyyət yarada bilər.

Nəhayət, Parsons tərəfindən müəyyənləşdirilən üçüncü tip dəyişiklik fundamental strukrur dəyişiklikdir. Struktur dəyişikliyə Parsons tərəfindən təqdim edilən baxış son dərəcə genişdir. Parsons müasir dünyanın əsaslarını qədim Yunanıstan və İsraildə axtararaq antropoloqların bəsit cəmiyyətlər haqqında tədqiqatlarını geniş şəkildə əhatə edir. Burada bugünkü dünyanın qurulmasının və müasir cəmiyyətlər arasında böyük müxtəlifliyin izahına onun ibtidai strukturu və sistemli formalarının tədqiqi yolu ilə cəhd göstərilir. Bu, sosial dəyişikliyə təkamül yanaşmasıdır. Bu, həm də Ç.Darvinin bioloji formaların dəyişilməsinə dair baxışına müəyyən dərəcədə paraleldir.

Mahiyyətcə, cəmiyyətlərin təkamülü onların ətraf mühitə adaptasiya olunması qabiliyyətini inkişaf etdirməsi deməkdir. Bu mühitə mədəni sistem, şəxsiyyət sistemi, bioloji sistem və cəmiyyətin qarşılaşdığı fiziki varlıqlar daxildir. Təkamüldə tərəqqiyə nail olan cəmiyyət əhatə olunduğu mühitin onun qarşısında qoyduğu tələblərə cavab verən və malik olduğu sosial resurslardan daha effektiv istifadə edən cəmiyyətdir. Bu effektivliyin mahiyyəti daha

çox ixtisaslaşmış və fokuslaşmış strukturlarla ifadə olunur ki, bunlar da sosial sistemdə adaptasiya, məqsədə çatma, inteqrasiya və latentlik kimi əsas funksiyaları yerinə yetirirlər. Parsons doğru olaraq qeyd edir: "Əgər diferensiasiya (dəyişiklik) daha inkişaf etmiş və balanslaşdırılmış sistem əmələ gətirmişsə, hər bir yeni diferensiasiya olunmuş subsistem... əvvəlki, daha diffuz strukturdakı eyni funksiya ilə müqayisədə özünün ilkin funksiyasını həyata keçirmək üçün gücləndirilmiş, adaptasiya olunmuş bacarığa malik olmalıdır. Beləliklə, adətən fabriklərdə iqtisadi istehsal ev təsərrüfatı ilə müqayisədə daha məhsuldardır. Bu dəyişiklik həm rol, həm də kollektiv səviyyəyə tətbiq olunur, burada iştirak edən insanlar, eləcə də bütövlükdə kollektiv əvvəlkinə nisbətən daha məhsuldar sayılmalıdır... Bu dəyişikliklər o demək deyildir ki, köhnə "rezidual" vahid öz fəaliyyətinin bütün kontekstlərində "itirilmiş funksiyaya" malik olacaqdır. Ev təsərrüfatı artıq əhəmiyyətli iqtisadi istehsalçı deyildir. Lakin o, özünün digər funksiyalarını əvvəlki formalardan daha yaxşı həyata keçirə bilir. Başqa sözlə, təkamül cəmiyyətlərin artan rasionallığıdır.

Qeyd etmək lazımdır ki, heç də bütün cəmiyyətlər daha yüksək adaptasiya vəziyyətinə gəlmək üçün böyük sıçrayış edə bilmirlər. Bəziləri müvəffəqiyyətsizliyə uğrayaraq məhv olur, bəziləri isə mövcud olsalar da, daha inkişaf etmiş cəmiyyətlərdən asılı vəziyyətə düşürlər. Cəmiyyətlər inkişafa iki səbəbdən nail olurlar. Təkamül prosessində bəziləri müəyyən nailiyyətə nail olurlar: onlar öz daxillərindən təkamül üçün vacib olan həyati elementlərdən bəhrələnirlər; digərləri daxildən yeni bir element yarada bilmirlər, lakin diffuziya elementləri aldıqlarına görə inkişaf



etmiş cəmiyyətlərə əhəmiyyətli dərəcədə yaxın olurlar. Təkamül prosesində müxtəlif mədəni və sosial nümunələr həm çağdaş, həm də yazılı tarix yolu ilə ötürülür.

**Dəyişikliyin məntiqi**

Parsonsun fikrincə, cəmiyyətdə istənilən əsas strukturda dəyişiklik (onun təkamül üçün əhəmiyyətli olub- olmamasından asılı olmayaraq) üç fenomeni əhatə edir: diferensiasiya, inteqrasiya və deformasiya. Onlar tam ardıcılllıqla baş verməsələr də, mühüm struktur dəyişikliyi üçün vacibdir, onlar dəyişikliyin dialektik prinsipinin xüsusi tətbiqini təmsil edərək istər Parsonsun, istərsə də Marksın baxışlarında mühüm yer tuturlar.

"Diferensiasiya" Herbert Spenser kimi nəzəriyyəçilər tərəfindən sosial dəyişikliyə, xüsusən də təkamül dəyişikliyinə aid məsələlərdə istifadə olunan anlayışdır. Parsonsda bu elə bir prosesi ifadə edir ki, onun köməkliyi ilə sistemin və ya strukturun yeganə elementi ən azı iki yeni elementə bölünmüş olur və hər ikisi yeganə və ya fərqli funksiyaları yerinə yetirir. Daha sonra, diferensiasiya prosesi heç vaxt bir sistemdə və ya strukturun bir səviyyəsində baş vermir, o, bir çox nöqtələrdə baş verir. Qeyd edək ki, diferensiasiya prosesinin ən uğurlu təsviri Parsons tətəfindən öz tələbəsi Neyl Smelzerin sənaye inqilabı dövrü baş verən dəyişikliklərin təhlilinə istinadən təqdim olunmuşdur: "Təəssüf ki, ən yaxşı misal peşə rollarının... qohumluq strukturlarında... yerləşdirilməsinin diferensiasiyasıdır...Rol [səviyyəsində] dəyişiklik fərdin bir rolunun qohumluq kollektivində nə demək olmasının... iki müxtəlif kollektivdə iki rola, qohumluq qrupuna və təşkilata diferensiasiya etməsi

deməkdir... [Bu dəyişikliyin Böyük Brritaniyada] nəticəsi çox geniş fəhlə sinfinin işçi qüvvəsinin ... fabrik sisteminə, tam diferensiasiya olunmuş peşə rollarına birləşməsi, ailə iqtisadi istehsalında funksiyalrın əksəriyyətinin bununla əlaqədar itirilməsi oldu. Fabrikdə fərdi maaşa və qohumluğa deyil, fabrik nizam-intizamına əsaslanan iş nəticənin əsas struktur əlaməti idi".[1] Smelzer aydınlaşdırır ki, bu, fəhlələri yaxşı maaşla cəlb etməyin sadə üsulu deyildi; bu, yalnız qohumluq sisteminin strukturunun əsaslı şəkildə yenidən qurulması zəminində mümkün oldu.

Yeni nümunələrin cəmiyyətdə rahat institutlaşması üçün diferensiasiya ikinci proseslə - inteqrasiya ilə tamamlanmalıdır. İnteqrasiya elə bir prosesdir ki, onun vasitəsilə yeni nümunələr bir sosial sistem kimi öz inteqrativliyini qoruyub saxlamaqla və adaptiv imkanın daha yüksək pilləsinə qalxmağa imkan yaratmaqla yeni forma alır. Diferensiasiya kimi inteqrasiya da cəmiyyətin sistem və strukturlarının istənilən nöqtəsində baş verə bilər; təbii ki, struktur dəyişiklik baş verdikdə inteqrasiya yeni, differensiasiya olunmuş nümunələr hesabına yaranır. Hər şeydən əvvəl inteqrasiya cəmiyyəti birlik üçün yeni və daha ümumi əsasların axtarışına həvəsləndirir ki, burada da differensiasiya olunmuş nümunələr sosial münaqişə üçün tez-tez əsas yaradır. Parsonsun sosial dünyaya baxışlarında bu birlik sosial sistemin və sosial strukturun ən yüksək səviyyələrində (xüsusən dəyərlər və normalarda) yer alır. Qısaca desək, struktur dəyişiklik yeni struktur nümunələrin bölgüsü və təqdimatını aparan

[1] Parsons, Talcott. "An Outline of the Social System" in Theories of Society: Foundations of Modern Sociological Theory, vol.I, ed. Talcott Parsons et al. New York: he Free Press, 1961.



diferensiasiya prosesini və eləcə də cəmiyyətdə əvvəlcədən mövcud olan nümunələr əsasında birlik yaratmağa xidmət edən geniş və yeni dəyərlər sistemi və normalarının inteqrasiyasını əhatə edir. Demək olar ki, differensiasiya və inteqrasiya prosesləri, əgər onlar struktur dəyişikliklə nəticələnərlərsə, cəmiyyətdə mütləq gərginlik və münaqişələrlə müşayiət olunurlar. Bu cür gərginlik və münaqişələri Parsons struktur deformasiya kimi xarakterizə edir. Bu gərginlik fərdlərin arasında yaratdığı qəzəb və nazarılıqlarla hər yerdə özünü büruzə verir. Gərginlik cəmiyyətdə genişləndikcə konfliktlər kollektivlərdə xüsusi rollara malik fərdlər arasında daha kəskin formada üzə çıxa bilər. Bunun nəticəsi müxalif düşərgələrə bölünmüş cəmiyyət ola bilər ki, onun da bir tərəfində yeni sturuktur nümunələrin qurulmasına müqavimət göstərən, köhnə nümunələri və ya "fundamentalizmi" dəstəkləyən, çox vaxt bir cəmiyyətdəki artıq formalaşmış kollektivləri əhatə edən qruplar, digər tərəfdəsə yeni struktur nümunələrin yaranmasına köməklik göstərən, daha yeni və ümumi prinsiplərin "birləşməsinə" cəlb olunmuş qruplar dura bilir. Struktur yeniliklərin müvəffəqiyyətli institutlaşması çox vaxt fundamentalist qüvvələrin "birləşmə" qüvvələri ilə mübarizə apardığı vaxt tarazlıq vəziyyətində qalır. Konfliktin bu şəraitinin ən parlaq təzahürü Fransa inqilabı vaxtı baş vetrmişdi. İnqilabda bir tərəfdə fundamentalizm qüvvələrini təmsil edənlər, digər tərəfdə isə "birləşmənin" yeni struktur nümunələrini – demokratiyanı (azadlıq, bərabərlik, qardaşlıq ideyalarının tərəfdarlarının) təmsil edənlər – burjuaziya və onun ordusu dururdu. Daha sonra qeyd edək ki, münaqişədə tez-tez fundamentalizm qüvvələri üstün mövqe tuturlar, çünki onlar sosial nəzarət vasitələrindən öz rəqibləri üzərində

qələbəyə nail olmaq, mövcud hüquqlarını qorumaq üçün istifadə edirlər.

**Təkamül dəyişikliyinin ardıcıllığı və nümunəsi**

İstənilən cəmiyyət bəsit mərhələdən daha yüksək inkişaf səviyyəsinə keçərkən onda bir sıra yeniliklər baş verir. Bunlar adaptasiya üçün çox mühümdür. Köhnə ilə yeninin qarşılaşması cəmiyyətə virtual olaraq özünü adaptiv şəkildə anlamağa imkan verir. Təkamül prosesində onalrın həm xüsusi məzmunu, həm də ardıcıllığı Parsonsun sosial qaydaya baxışındakı elementlərin fundamental nümunələrini əks etdirir. Onların ardıcıl nümunəsi və buradan da təkamülün nəticə mərhələləri xronolojidən daha çox analitikdir. Belə ki, bəzi struktur elementlər cəmiyyətdə tarixi cəhətdən digərlərindən əvvəl mövcud ola bilər. Lakin cəmiyyətin institutlaşmış və nizamlı nümunəsinə çevrilmək onlardan təkamül prosesinə tam uyğunlaşmağı tələb edəcəkdir.

Gəlin ilk növbədə sosial stratifikasiya məsələsinə baxaq. Parsonsa görə, o, sosial münasibətlərin gözəgörünməz şəbəkələrinin mövcud olduğu bəsit cəmiyyətlərin əksəriyyətinə ənənəvi nümunələrdən mümkün qədər uzaqlaşmanı həyata keçirməyə imkan yardır. Bu xüsusən bəsit sinif sisteminin yaranmasını əhatə edir ki, burada da cəmiyyətin müəyyən bir seqmenti sosietal resursları səfərbər etmək və öz maraqlarını müəyyənləşdirmək imkanlarına malik qrupdan tam olaraq ayrılır. Homogen sosial şəbəkəyə və xüsusi imtiyazlara malik sinfin meydana gəlməsi digər siniflər arasında hökmən qibtə və düşmənçilik hissləri yaratmalıdır. Bu cür vəziyyətə uyğunlaşmaq üçün mükafatların diferensial bölünməsini qanuni şəkildə təmin edə bilən



elementar dəyərlər və normalar sistemi meydana gəlməlidir. Bu cür sistemin, daha dəqiq desək, mədəni sistemin məzmunu bir sıra cəmiyyətlərdə xeyli dərəcədə fərqlənir. Məsələn, Parsonsa görə, "Allah-kral" "özünün siyasi" rejimini legitimləşdirmək üçün ilk hərəkətverici qüvvə rolunda çıxış edə bilər, yaxud hökmdar onun rejimindən müəyyən dərəcədə struktur cəhətdən müstəqil olan ruhani sinfindən asılı vəziyyətə düşə bilər.

Cəmiyyətə adaptasiyanın daha yüksək pilləsinə qalxmağa imkan verən növbəti əlamət bürokratik təşkilatdır. M. Veberin göstərdiyi kimi, bürokratik təşkilatların mövcud olduqları hər yerdə cəmiyyətin işinin daha da keyfiyyətli olması üçün texniki və inzibati vasitələr irəli sürülür. Məsələn, Misir və Çin kimi bir sıra qədim cəmiyyətlərdə geniş inkişaf etmiş bürokratiya mövcud idi ki, bu da o vaxt üçün digər cəmiyyətlərdə olmayan misilsiz inkişafa imkan verirdi. Eyni tərzdə bazar iqtisadiyyatı və maliyyə institutları da müasir dövrdə cəmiyyətlərin adaptasiya olunma qabiliyyətini əhəmiyyətli dərcədə yaxşılaşdırmağa imkan verir. Hətta hakim sinif, geniş yayılmış mədəni dəyərlər sistemi və bürokratik təşkilatlar olduqda belə cəmiyyətlər ancaq gündəlik həyat tərəfindən onlar qarşısında qoyulmuş tələblərə uyğunlaşa bildiyi vaxt öz inkişaflarını davam etdirə bilirlər. Adaptasiya prosesində daha effektiv olmaq və mürəkkəb iqtisadi sistemin tələblərinə cavab vermək, əmtəənin istehsalı və istehlakı arasındakı diferensiasiyadan yaranmış problemləri həll etmək üçün bazar sistemi yaranmalıdır. Bu cür diferensiasiya olunmuş nümunələr arasında iqtisadi mübadiləni sürətləndirmək üçün mülkiyyətə sahibliyi təmsil edən və vəziyyəti tez dəyişmək qabiliyyətində olan simvolik

vasitəçi olmalıdır; bu vasitəçi bütün cəmiyyətlərdə təkamülün indiki vəziyyətində pulun müəyyən bir formasını təmsil edir.

Cəmiyyələrin təkamülündə daha iki başlıca universal əlamət mövcuddur. BunlarŞ birincisi, bazar sistemi və ya puldan daha əvvəlki zamanlara gedib çıxan universal normalardır. Onlar Qərbi Avropa cəmiyyətlərində müasir inkişafla nisbətən asanlıqla müəyyənləşə bilər. Bu cür normalar cəmiyyətə hətta pulun daxil edilməsindən də kənara çıxaraq adaptiv imkanlara doğru irəliləməyə və əgər cəmiyyət effektiv fəaliyyət göstərərsə, strukturun və proseslərin artan müxtəlifliyinə lazımi cavab vermək imkanı yaradır. İnteqrasiyanın şaxələri olan bu normalar rolların, hüquq və vəzifələrin daha aydın və dəqiq müəyyənləşdirilməsinə imkan verir və cəmiyyətlər rolların və şəxslərin bir-birindən diferensiasiya olunması istiqamətində inkişaf etdikcə onlara olan tələblər də artır. Cəmiyyətlərin təkamülündə sonuncu və tarixən ən vacib element demokratik assosiasiyalardır. Bu assosiasiyalar strukturlarına görə nə qədər müxtəlif olsalar, fərdlərin də ən zəruri tələblərinə o qədər dolğun cavab vermiş olarlar. Bu artan mürəkkəblik və müxtəliflik sosial imkanların və fərdlərin elə zəngin qarışığını yardır ki, stratifikasiyanın heç bir nümunəsi və hakimiyyət buna davam gətirə bilməz. Nəticədə inteqrasiyanın yeni nümunələrini tələb edən virtual bərabərlik cəmiyyəti və bununla yanaşı hakimiyyətin və sosial münasibətlərin yeni formalarının geniş yayılmasına imkan verən demokratik assosiasiyalar meydan gəlir.

Bütün bunlar Parsonsun cəmiyətlərdə dəyişikliklərin ən ümumi mənzərəsinə baxışını əks etdirir.



## ƏDƏBİYYAT SİYAHISI:

### Azərbaycan dilində


1. Abbasova Q.Y. Elmin və təhsilin sosiologiyası. B., 2002.
2. Cozef Ştiqlitz. Qloballaşma və onun doğurduğu narazılıqlar. B., 2004.
3. Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. B., 2001.
4. Əzimov K.A., Həsənov R.M. Sosiologiya. B., 2003.
5. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. B., 2001.
6. İmanov H.R. Fəlsəfənin əsasları. B., 2007.
7. Ümumi sosiologiya. Prof. Z.T,Qolenkovanın redaktorluğu ilə. Tərcüməçi fəl. e.d., prof. Rüstəmov İ.Ə. B., 2007.
8. Şəfiyev Ü. Konfliktologiya: siyasi-sosioloji təhlil. B., 2002.
9. Vahidov F., Ağayev T. Sosiologiya. B., 2007.


### Rus dilində


10. Амелин В.Н. Социология политики. М., 1992.
11. Анохин М.Г. Политические системы: адаптация, динамика, устойчивость. Теоретико-прикладной аспект. М., 1996.
12. Арон Р. Демократия и тоталитаризм. Пер. с фр., М., 1993.
13. Артемов Г.П. Политическая социология. СПб., 2000.
14. Ашин Г.К. Современные теории элиты. М., 1985.
15. Бурдье П. Социология политики. «Socio-Logos», М., 1993.
16. Вебер М. Избранные произведения. М., 1990.
17. Вебер М. Политические работы. М., 2003
18. Виноградов В.Д., Головин Н.А. Политическая социология. СПб., 1997.

19. Волкова И. В. Политика и личность. М., 1993.
20. Вятр Е. Социология политических отношений. Пер. с польск. М., 1979.
21. Гончаров Д.В. Теория политического участия. М., 1997.
22. Дюверже М. Политические партии. М., 2000
23. Дарендорф Р. Современный социальный конфликт. М.. 2003
24. Качанов Ю. Опыты о поле политики. М.1994.
25. Ковлер А.И. Избирательные технологии: российский и зарубежный опыт. М., 1995.
26. Кола Д. Политическая социология. М.2001.
27. Ленин В.И. Государство и революция. ПСС., Т.33.
28. Макиавелли Н. Государь. М., 1989.
29. Маркс К., Энгельс Ф. Манифест коммунистической партии. Соч., Т.4.
30. Маркс К. Капитал, т. I, гл. 10, М., 1978.
31. Морозова Е.Г. Политический рынок и политический маркетинг:концепции, мо-дели, технологии. М., 1999.
32. Острогорский М.Я. Демократия и политические партии. Т. 1-2, М., 1928,1930.
33. Пищулин Н.А., Федорова Н.Ю. Социология лидерства. М., 1997.
34. Политика и личность: опыт культурологического и социологического анализа. М., 1993.
35. Политический процесс: вопросы теории. М., 1994.
36. Политический процесс и его противоречия. М., 1997
37. Политические конфликты: от насилия к согласию. М., 1996.
38. Политическая культура: теория и национальные модели. М., 1994.
39. Политическая наука: новые направления. Пер. с англ. М., 1999.



40. Политическая социология. Ростов-на- Дону, 1997.
41. Политическая социология. Отв. ред. Иванов В.Н., Семигин Г.Ю. М., 2000,
42. Политическая социология (под ред. чл.-корр. РАН Ж.Ж. Тощенко). Учебник. «Юность», М., 2002
43. Политические институты на рубеже тысячелетий. М., 2001
44. Политический менеджмент: электоральный процесс и технологии. СПБ.1999.
45. Селезнев Л.И. Политические системы современности. СПб., 1995.
46. Социологическия словарь (перевод с англ. под ред. С.А.Ерофеева). Изд-во Казанского университета, 1997.
47. Философия власти. М., 1993.
48. Философия политики. М., 1994.
49. Хантингтон С. Третья волна. Демократизация в конце XX века. М. 2003.
50. Цыганков А.П. Современные политические режимы: структура, типология, динамика. М., 1995.
51. Шабров О.Ф. Политическое управление: проблема стабильности и развития. М., 1997.
52. Шварценберг Р.-Ж. Политическая социология. Пер с фр. Ч. 1-3. М., 1992.
53. Шестопал Е.Б. Очерки политической психологии. М.,1990.
54. Юрьев А.И. Введение в политическую психологию. СПб., 1992.

**İngilis dilində**

55. Anthony M.Orum. İntroduction to Political Sosiology: The Sosial Anatomy of the Body Poltic. 3rd ed. Prentice Hall, Englewood Clifts, New Jersey 1989.

56. Antonio Gramsci, "The Modern Prince," in Selections from the Prison Notebooks, Antonio Gramsci, ed. and trans. Quintin Hoare and Geoffrey Nowell Smith (New York: International Publishers, 1971).
57. H. Lasswell, A. Kaplan. Power and Society: a Framework for Political Inquiry.
58. Keith Faulks. Political Sociology (A Critical Introduction). NY University Press. Washington Square, NY, 1999.
59. Kate Nash. Contemporary Political Sociology: Globalization, Politics, and Power. Blackwell Publishers, Massachusetts, USA, Oxford, UK, 1999.
60. Lewis A. Coser, ed., Political Sociology. New York: Harper and Row, Publishers, 1967.
61. Lewis Fewer, ed. Marx & Engels. Basic Writings on Politics & Philolosophy. Garden city, N.Y. Doubleday & Co., 1959.
62. Marx, "The Civil war in France", in the Marx-Engels Read, Turker, 1959.
63. Marx, "The German Ideology", in The Marx-Engels Reader, Tucker, 1959.
64. Marx, "The XVIII Brumaire of Louis Bonaparte"in the Marx-Engels Read, Turker, 1959.
65. Parsons, Talcott. "An Outline of the Social System" in Theories of Society: Foundations of Modern Sociological Theory, vol.I, ed. Talcott Parsons et al. New York: he Free Press, 1961.
66. Parsons and Shils, Toward a General Theory of Action (New York: The Free Press, 1968).
67. Parsons,Talcott. Politics and Social Structure (New York: The Free Press, 1969).
68. Politics and Society (Studies in Comparative Political Sociology). New Jersey, 1970.



69. "Political Sociology" in Robert M. King et al., ed., Sociology today, New York: Basic Books, 1959.
70. Political Sociology. Selected Essays. Editied by Lewis A. Coser. Harper Torchbooks. The Academy Library. Harper and Row, Publishers. New York, Evanston, and London, 1966.
71. Political Sociology. R. T. Jungam, Oxford and IBH Publishing Co PVT. LTD, New Delhi, 1993.
72. Politics: Who gets What, When, How. New York: Meridian Books, 1958.
73. Stanislaw Ossowski, Class, Structures in the Social Consciousness. New York: Free Press, 1963.
74. Ted George Goertzel. Political Society. Rand Mc. Nally College Publishing Company, Chicago, 1976.
75. Weber, "Science as a Vocation," in From Max Weber: Essays in Sociology, ed. Hans Gerth and C. Wright Mills (New York: Oxford University Press, 1958).
76. Weber, Max, Economy and Society: *An Outline of* Interpretative Sociology, vol.I.ed. and translated by Guenther Roth and Claus Wittich. New York: Bedminister Press, 1968.

# MÜNDƏRİCAT

Bölmə 1. Siyasi sosiologiyanın əsasları ... 4
Fəsil 1. Siyasi sosiologiyanın təbiəti və əhatə dairəsi ... 4
Fəsil 2. Müasir siyasi sosiologiyanın nəzəri əsasları .. 19
Fəsil 3. Siyasi və qeyri-siyasi sistemlər ... 43
Fəsil 4. Sosial status və sosial məsafə ... 59
Fəsil 5. Siyasiləşmə, siyasi iştirak, siyasi ünsiyyət, siyasi səfərbərlik və siyasi mədəniyyət ... 64
Fəsil 6. Seçkilərin sosiologiyası. ... 79
Fəsil 7. Sosial dəyişiklik, sosial dəyişikliyin təmsilçiləri ... 90
Fəsil 8. Siyasi Sosiologiyada metod və metodikalar .. 102

Bölmə 2. K.Marks, M.Veber və T.Parsonsun sosial-siyasi baxışları ... 107
Fəsil 9. K.Marksın sosial-siyasi baxışları ... 107
Fəsil 10. M.Veberin sosial-siyasi baxışları ... 153
Fəsil 11. T.Parsonsun sosial-siyasi baxışları ... 174

Ədəbiyyat ... 201

Çapa imzalanıb 07.12.2010-cu il.
Sayı 500. Həcmi 13 ç.v.
Formatı 60x84 $^{1}/_{16}$. Əla növ kağız.

*AzTU-nun mətbəəsi. H.Cavid pr.25.*
*Tel: (+012) 439-14-52*
*E.mail: aztumetbee@yahoo.com*